Ustad Cəfər Sübhani

# İSLAMDA ƏQİDƏ ƏSASLARI

***Yüz əlli bəhs***

BAKI–2012

AZƏRBAYCAN RESPUBLİKASININ DİNİ QURUMLARLA İŞ
ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN
05 fevral 2003-cü il DK-80d saylı məktubu əsasında
çap olunmuşdur.

***Kitabın orijinal adı:*** Mənşur-e əqaid-e İmamiyyə

Tərcümə edən: Elşən Mustafaoğlu

Redaktor: Mətanət Hüseynova

**İSLAMDA ƏQİDƏ ƏSASLARI**
Bakı, "MİRASNƏŞR", 2012, 304 s.

Kitabda, adından bəlli olduğu kimi İslam dininin əqidə prinsipləri – "Təkallahlıq", "Allahın sifətləri", "İlahi ədalət", "Peyğəmbərlik", "Xatəmiyyət", "Möcüzə və ismət", "İmamət və xilafət", "Ölümdən sonrakı həyat", "İslamda ictihad və fiqh", "İman, küfr" və s. mövzular araşdırılmışdır.

Kitabın bütün hüquqları qorunur.

ISBN: 978 - 9952 - 460 - 25 - 4

O gələcək...

# MÜNDƏRİCAT

**Ön söz ........ 10**

**I FƏSİL**
**İslam dünyagörüşü**

**İslamda idrak vasitələri ........ 16**
Birinci bəhs ........ 16
İkinci bəhs ........ 18
Üçüncü bəhs ........ 18
Dördüncü bəhs ........ 19
Beşinci bəhs ........ 20
**Varlıq aləmi İslam dünyagörüşündə ........ 21**
Altıncı bəhs ........ 21
Yeddinci bəhs ........ 21
Səkkizinci bəhs ........ 22
Doqquzuncu bəhs ........ 23
Onuncu bəhs ........ 23
On birinci bəhs ........ 24
On ikinci bəhs ........ 25
**İnsan İslam dünyagörüşündə ........ 26**
On üçüncü bəhs ........ 26
On dördüncü bəhs ........ 27
On beşinci bəhs ........ 27
On altıncı bəhs ........ 28
On yeddinci bəhs ........ 29
On səkkizinci bəhs ........ 30
On doqquzuncu bəhs ........ 30
İyirminci bəhs ........ 31
İyirmi birinci bəhs ........ 32
İyirmi ikinci bəhs ........ 34
İyirmi üçüncü bəhs ........ 35

O gələcək...

İyirmi dördüncü bəhs ........ 36
İyirmi beşinci bəhs ........ 36
İyirmi altıncı bəhs ........ 37

## II FƏSİL
## Allahı tanıma və tövhid

**Allahın varlığına dair dəlillər ........ 40**
İyirmi yeddinci bəhs ........ 40
**Tövhid və onun mərtəbələri ........ 42**
İyirmi səkkizinci bəhs ........ 42
İyirmi doqquzuncu bəhs ........ 43
Otuzuncu bəhs ........ 45
Otuz birinci bəhs ........ 47
**Təkvini rübubiyyət ........ 48**
Otuz ikinci bəhs ........ 54
**Təşrii rübubiyyət ........ 55**
Otuz üçüncü bəhs ........ 57

## III FƏSİL
## Allahın sifətləri

**Allahın sifətləri ........ 62**
Otuz dördüncü bəhs ........ 62
Otuz beşinci bəhs ........ 62
Otuz altıncı bəhs ........ 64
**Allahın zati sifətləri ........ 66**
Otuz yeddinci bəhs ........ 66
**Allahın feli sifətləri ........ 70**
Otuz səkkizinci bəhs ........ 70
Otuz doqquzuncu bəhs ........ 72
Qırxıncı bəhs ........ 73
Qırx birinci bəhs ........ 73

O gələcək...

**Allahın səlbi sifətləri ........ 75**
Qırx ikinci bəhs ........ 75
**Xəbəri sifətlər........ 79**
Qırx üçüncü bəhs ........ 79

## IV FƏSİL
## Allahın ədaləti

**Allahın ədaləti ........ 86**
Qırx dördüncü bəhs ........ 86
Qırx beşinci bəhs........ 88
Qırx altıncı bəhs........ 90
Qırx yeddinci bəhs........ 92
**Qəza və qədər ........ 93**
Qırx səkkizinci bəhs........ 93
Qırx doqquzuncu bəhs ........ 94
Əllinci bəhs........ 97
**İnsan və ixtiyar ........ 99**
Əlli birinci bəhs........ 99
Əlli ikinci bəhs ........ 100
Əlli üçüncü bəhs........ 101

## V FƏSİL
## NÜBÜVVƏT – Peyğəmbərlərin göndərilməsi

**Nübüvvətin zəruriliyi dəlilləri ........ 104**
Əlli dördüncü bəhs ........ 104
**Quran və nübüvvətin hədəfləri ........ 106**
Əlli beşinci bəhs ........ 106
**Peyğəmbəri tanımağın yolları ........ 109**
Əlli altıncı bəhs ........ 109
Əlli yeddinci bəhs ........ 110
Əlli səkkizinci bəhs ........ 110

O gələcək...

Əlli doqquzuncu bəhs ........ 111
**Vəhy və nübüvvət ........ 113**
Altmışıncı bəhs ........ 114
Altmış birinci bəhs ........ 114
**Peyğəmbərlərin məsumluğu ........ 116**
Altmış ikinci bəhs ........ 116
Altmış üçüncü bəhs ........ 117
Altmış dördüncü bəhs ........ 119
Altmış beşinci bəhs ........ 120
Altmış altıncı bəhs ........ 120
Altmış yeddinci bəhs ........ 121
Altmış səkkizinci bəhs ........ 122
Altmış doqquzuncu bəhs ........ 123

## VI FƏSİL
## İslam peyğəmbəri (s)

Yetmişinci bəhs ........ 126
**Quran – əbədi möcüzə ........ 127**
Yetmiş birinci bəhs ........ 128
Yetmiş ikinci bəhs ........ 129
Yetmiş üçüncü bəhs ........ 131
Yetmiş dördüncü bəhs ........ 133
Yetmiş beşinci bəhs ........ 136
Yetmiş altıncı bəhs ........ 137
**İslam peyğəmbərinin (s) gətirdiyi şəriətin özəllikləri ........ 140**
Yetmiş yeddinci bəhs ........ 140
Yetmiş səkkizinci bəhs ........ 142
Yetmiş doqquzuncu bəhs ........ 143
Səksəninci bəhs ........ 145
Səksən birinci bəhs ........ 146
Səksən ikinci bəhs ........ 149

O gələcək...

## VII FƏSİL
## İMAMƏT – Xəlifəlik və rəhbərlik

**İmamət və xilafət ........................................................ 156**
Səksən üçüncü bəhs ................................................ 156
Səksən dördüncü bəhs.............................................. 158
Səksən beşinci bəhs ................................................ 160
Səksən altıncı bəhs .................................................. 160
Səksən yeddinci bəhs ............................................... 165
Səksən səkkizinci bəhs ............................................. 168
Səksən doqquzuncu bəhs .......................................... 170
Doxsanıncı bəhs ....................................................... 172
Doxsan birinci bəhs .................................................. 173
Doxsan ikinci bəhs ................................................... 176
Doxsan üçüncü bəhs.................................................. 177
Doxsan dördüncü bəhs ............................................. 180
**On ikinci imamın qeybə çəkilməsi və zühuru............ 182**
Doxsan beşinci bəhs ................................................ 182
Doxsan altıncı bəhs .................................................. 183
Doxsan yeddinci bəhs ............................................... 184
Doxsan səkkizinci bəhs ............................................. 185
Doxsan doqquzuncu.................................................. 185
Yüzüncü bəhs........................................................... 187
Yüz birinci bəhs ........................................................ 187
Yüz ikinci bəhs ......................................................... 188

## VIII FƏSİL
## MƏAD - Axirət aləmi və ölümdən sonrakı həyat

**Ölümdən sonrakı həyat ............................................... 190**
Yüz üçüncü bəhs....................................................... 190
Yüz dördüncü bəhs ................................................... 190
Yüz beşinci bəhs ...................................................... 192

O gələcək...

Yüz altıncı bəhs ........ 196
Yüz yeddinci bəhs ........ 197
Yüz səkkizinci bəhs ........ 198
Yüz doqquzuncu bəhs ........ 200
Yüz onuncu bəhs ........ 202
Yüz on birinci bəhs ........ 203
Yüz on ikinci bəhs ........ 205
Yüz on üçüncü bəhs ........ 205
Yüz on dördüncü bəhs ........ 208
Yüz on beşinci bəhs ........ 210
Yüz on altıncı bəhs ........ 215
Yüz on yeddinci bəhs ........ 216
Yüz on səkkizinci bəhs ........ 218
Yüz on doqquzuncu bəhs ........ 219

## IX FƏSİL
**İman, küfr, bidət, təqiyyə, təvəssül, bəda və s.**

Yüz iyirminci bəhs ........ 222
Yüz iyirmi birinci bəhs ........ 224
Yüz iyirmi ikinci bəhs ........ 226
Yüz iyirmi üçüncü bəhs ........ 227
Yüz iyirmi dördüncü bəhs ........ 232
Yüz iyirmi beşinci bəhs ........ 235
Yüz iyirmi altıncı bəhs ........ 237
Yüz iyirmi yeddinci bəhs ........ 238
Yüz iyirmi səkkizinci bəhs ........ 243
Yüz iyirmi doqquzuncu bəhs ........ 248
Yüz otuzuncu bəhs ........ 251
Yüz otuz birinci bəhs ........ 254
Yüz otuz ikinci bəhs ........ 258
Yüz otuz üçüncü bəhs ........ 260
Yüz otuz dördüncü bəhs ........ 264

O gələcək...

Yüz otuz beşinci bəhs ............................................... 265

## X FƏSİL
## Hədis, ictihad və fiqh

Yüz otuz altıncı bəhs ............................................... 268
Yüz otuz yeddinci bəhs ............................................... 268
Yüz otuz səkkizinci bəhs ............................................... 272
Yüz otuz doqquzuncu bəhs ............................................... 273
Yüz qırxıncı bəhs ............................................... 275
Yüz qırx birinci bəhs ............................................... 276
**Fərqli fiqh hökmləri ............................................... 277**
Yüz qırx ikinci bəhs ............................................... 277
Yüz qırx üçüncü bəhs ............................................... 279
Yüz qırx dördüncü bəhs ............................................... 281
Yüz qırx beşinci bəhs ............................................... 284
Yüz qırx altıncı bəhs ............................................... 286
Yüz qırx yeddinci bəhs ............................................... 287
Yüz qırx səkkizinci bəhs ............................................... 288
Yüz qırx doqquzuncu bəhs ............................................... 291
Yüz əllinci bəhs ............................................... 294

**İstifadə olunan ədəbiyyat ............................................... 295**

# ÖN SÖZ

## MÜASİR İNSANIN DİNƏ YÖNƏLMƏSİ VƏ DİNİ İNANCLARIN ÖYRƏNİLMƏSİ ZƏRURƏTİ

Çağdaş dövrü haqlı olaraq texnika və sənaye əsri adlandırırlar. Çünki son əsrdə bəşər övladı bu sahədə nəzərə çarpacaq nailiyyətlər əldə etmişdir.

Lakin eyni zamanda olduqca önəmli bir fenomen də özünü göstərməkdədir. Bu, müasir insanın din və dini dəyərlərə yönəlməsindən ibarətdir.

Dini meyillər tarixdən məlum olduğu kimi insanın köklü və ən qədim meyillərindən biridir. Mötəbər tarixi qaynaqlar sübut edir ki, bəşər həyatı heç zaman dini meyillərdən xali olmamışdır.

Lakin Avropada intibah dövrünün başlanması, elmi metodların dəyişilməsi və nəhayət, insanın maddi aləmi (təbiəti) ram etməsilə bir sıra siyasi, mədəni amillər üzündən qərb cəmiyyətlərində dinə qarşı etinasızlıq yaranmışdı. Bu xəstəlik şərq ölkələrinə də sirayət etmiş və cəmiyyətin müəyyən qismini öz təsiri altına salmışdı. İnsanlarda belə bir təsəvvür yaranmışdı ki, müasir elm bəşərin bütün ehtiyaclarına cavab verə bilər, hətta yalnız və yalnız dinin təmin etdiyi ehtiyacları da qarşılaya bilər.

Lakin bir sıra amillər və baş verən bir sıra hadisələr bu təsəvvürü puça çıxardı və bəşərin heç bir zaman dinə, onun

bələdçiliyinə ehtiyacsız olmadığını, dinin heç nə ilə əvəz oluna bilməyəcəyini sübuta yetirdi. Burada biz bu amillərdən üçünü qeyd edirik:

**1. İyirminci əsrin dünya müharibələri:**

On milyonlarla insanın həyatını almış birinci və ikinci dünya müharibələri dindən ayrı düşmüş elmin acı nəticəsi olmuş və bəşəriyyətin arzularını gerçəkləşdirəcəyi güman olunan elm, gözlənilmədən onları belə bir acı taleyə məhkum etmişdi.

**2. Əxlaq pozğunluğunun yayılması ilə ailə ocağının dağılması:**

Qərb dünyasının böyük bir hissəsində ailə artıq öz məfhumunu itirmiş və müasir elm belə bir vəziyyətin yaranmasında təsirsiz deyildir.

Bir daha vurğulayırıq, bu o demək deyil ki, müasir elm tamamilə zərərli bir fenomen kimi qəbul edilməlidir. Sadəcə olaraq elm və texnika dindən, mənəviyyatdan ayrı düşdüyünə görə belə nöqsanlar və zərərlərə səbəb olmuşdur.

**3. Bəzi elmi fərziyyələrin özünü doğrultmaması:**

İnsanların müasir elmə ifrat dərəcəyə çatmış nikbin baxışlarını və heyranlıqlarını azaldan yuxarıdakı iki amillə yanaşı, bəzi elmi fərziyyələrin özünü doğrultmaması da kainatı tanıma xüsusunda bəşərin müasir elmə bəslədiyi inamın itməsinə və on doqquzuncu əsrdə şirin yuxuya gedən avropalıların oyanmasına səbəb oldu.

Yuxarıda qeyd edilən və bir sıra başqa amillər insanın bir daha öz fitrətinə dönməsinə, din və dini təlimlərə üz tutmasına səbəb olmuşdur. Əslində, bəşər övladı bir dövr özünü dinin məziyyətlərindən məhrum etdikdən sonra sanki susamış fərd kimi saf və şirin “din” suyunun axtarışına çıxmışdır.

Bu o qədər aydın bir mövzudur ki, burada hər hansı bir dəlil-sübut gətirməyə ehtiyac yoxdur. Dünyada baş verən hadisələrdən məlumatı olan hər bir şəxs bütün bunları çox yaxşı bilir. Dinə yönəlmə artıq elə bir həddə çatmışdır ki, din ye-

nidən yüksək səviyyəli elmi dairələrdə diqqət mərkəzindədir, alim və mütəfəkkirlər onun haqqında mülahizələr irəli sürür, mütəmadi olaraq din və dinşünaslığa dair saysız-hesabsız məqalə və kitablar nəşr edilir.

Müasir yazarlardan biri belə deyir:

"Din və mənəviyyata dönüş qərb sosiologiyasının əsaslarını hədələyən bir hərəkatdır. Belə ki, onlar (qərblilər) müsəlmanların İslama dönüşündən qorxuya düşdükləri kimi, xristianların da xristianlığa üz tutmasından qorxurlar".

Doğrudan da mənəvi dəyərlərin hər hansı bir şəkildə yayılması, iman və mənəviyyatın qərb cəmiyyətinə, hətta qərb insanının fərdi həyatına belə hakim olması onları qorxuya salır.

Qərb analitiklərindən biri müsəlman və qeyri-müsəlman cəmiyyətlərində dinə dönüş və dini inancların artmasına nümunələr göstərərkən son illər qərbdə nəzərəçarpacaq dərəcədə güclənən radikal xristianlığa toxunmuşdur: "Dindarların sayının günü-gündən artması son illər yüksələn templə müşahidə olunan bir hadisədir ki, bu da bir çox dövlətlər üçün təhlükə hesab olunur". (Henri Tinka, Peni-hini, Lumund qəzetinin xüsusi buraxılışı, səh.152.)

Sözügedən analitikdən fərqli olaraq, biz bu hadisəni müsbət qiymətləndirir və insanların bir daha dinə sarılmasından sevinc hissi duyuruq. Lakin bununla yanaşı narahatlıq doğuran bir nüans da vardır. Belə ki, əgər belə bir vəziyyətdə insanların dinə olan ehtiyacı düzgün şəkildə təmin edilməzsə və din adı altında yanlış düşüncələr yayılarsa, müasir insan itirdiyini tapmağa macal tapmamış bir daha dindən üz döndərəcəkdir. Buna görə də bütün bunları dərk edən hər bir dinşünas alim insan fitrətinin bu çağırışına cavab verməyə və dini bilikləri və dəyərləri olduğu kimi cəmiyyətə təqdim etməyə səy göstərməli, bu ilahi neməti haqq axtarışında olan insanlara çatdırmalıdır. Dinə yönəlmənin qlobal bir hadisəyə çevrildiyi və dindən uzaq düşmüş insanların bir daha ona üz

tutduğu belə bir şəraitdə, şübhəsiz ki, öz şəxsi və ya təmsil etdikləri dairələrin mənfəətini dinin gerçək mahiyyətinin məhvində görən ünsürlər din və həqiqət axtarışında olanları din adı altında zəhərli qidalarla təmin etməyə çalışacaq, bu yolla onların qəlbindəki din yanğısını söndürməklə yanaşı öz mənfur məqsədlərini də həyata keçirməyə müvəffəq olacaqlar.

İslam dinini sonuncu və ən kamil səmavi şəriət hesab edən, bu dinin qiyamətədək bəşəriyyətin fərdi və ictimai həyatının bütün ehtiyaclarını təmin etmək iqtidarında olduğuna inanan biz müsəlmanlar onun ali məqsədlərini həyata keçirmək üçün çeşidli vasitələrdən faydalanmalı, bu qaçırılmaz fürsətdən İslam təlimlərini cəmiyyətdə yaymaq üçün istifadə etməliyik.

Digər tərəfdən biz inanırıq ki, "Əhli-beyt məktəbi" Quran və sevimli peyğəmbərimiz Həzrət Məhəmmədin (s) pak ailəsi tərəfindən bizə çatmış həqiqi İslam təlimləridir. Doğrudan da heç bir çirkin əlin toxuna bilmədiyi "Əhli-beyt məktəbi" bizi həqiqət mənbəyinə aparıb çıxarır. Bu məktəbin ali prinsipləri, eləcə də onun Peyğəmbər ailəsinə mənsubluğu tarix boyu həqiqət axtaran insanları özünə cəzb etmiş, bu gün də cəzb etməkdədir. Bu insanlar Əhli-beyt məktəbinə olan sevgilərilə onun müdafiəsi uğrunda öz canlarını belə fəda etməyə hazırdırlar.

Dini həqiqətləri sonuncu səmavi şəriətin sahibi olan Həzrət Məhəmməd (s) və onun pak ailəsindən öyrənmək istəyənlər bu kiçik əsərə müraciət etməklə öz yollarını işıqlandırmış olarlar. Onlar bu əsəri oxumaqla Əhli-beyt məktəbinin gerçək mahiyyətini anlaya, daha geniş məlumat əldə etmək üçün isə burada göstərilən mənbələrə müraciət edə bilərlər. Bu əsər Əhli-beyt məktəbinin əqidə prinsiplərinin buradakı mətləblərdən ibarət olduğunu və onlara müvafiq olmayan, lakin bu məktəbə nisbət verilən hər hansı bir mətləbin əsassız ittihamdan başqa bir şey olmadığını bəyan etməkdədir.

Burada sözümüzü yekunlaşdırırıq. Kitabda Allahın köməkliyi ilə 150 bəhsdə Əhli-beyt məktəbinin əqidə əsaslarını açıqlamağa çalışmışıq. İlk öncə İslam dünyagörüşündə idrak vasitələri, varlıq aləmi və insan barədə söhbət açmışıq. Burada hər mövzunu geniş izah etməyə imkan olmadığından, qısa açıqlamalarla kifayətlənmişik. Təbii ki, bu mövzular təfsilatı ilə "kəlam elmi" (müsəlman sxolastikası) sahəsində qələmə alınan əsərlərdə şərh olunmuşdur.

Sonda əlinizdəki əsərin ərsəyə gəlməsində müəllifə yardım etmiş cənab höccətül-islam vəl-müslimin Rəbbani Gülpayqaniyə çəkdiyi zəhmətlərə görə səmimi-qəlbdən təşəkkür edir, öz minnətdarlığımı bildirirəm.

**Cəfər Sübhani**
**14 Ramazan, h.q. 1418-ci il**

I FƏSİL

# İSLAM DÜNYAGÖRÜŞÜ

# İSLAMDA İDRAK VASİTƏLƏRİ

## Birinci bəhs

İslama görə dünya və din həqiqətləri üç vasitə ilə dərk edilir və onların hər biri öz yerində önəmlidir. Bu vasitələr aşağıdakılardan ibarətdir:

**1. Hiss** (hissi və ya emprik idrak): Burada görmə və eşitmə daha böyük önəm kəsb edir.

**2. Əql** (əqli və ya rasional idrak): Əql, müəyyən hüdudlarda xüsusi qayda-qanunlar əsasında həqiqəti kəşf etməyə qadirdir.

**3. Vəhy:** Bu, ucaməqamlı və seçilmiş insanların qeyb aləmilə əlaqə vasitəsidir.

Birinci və ikinci vasitələr ümumi xarakter daşıyır, belə ki, bütün insanlar həm kainatı tanımada, həm də dini həqiqətləri dərk etmədə onlardan bəhrələnə bilərlər. Lakin üçüncü vasitə yalnız Allahın xüsusi lütfünü qazanmış insanlara xasdır və onların bariz nümunəsi Allahın peyğəmbərləridir[1].

Hiss vasitəsilə yalnız maddi aləmi dərk etmək olar. Əql və şüur vasitəsilə də yalnız əqlin hüdudları daxilində olan anlayışları dərk edə bilərik. Vəhyin hüdudları isə olduqca genişdir və onun vasitəsilə dini əqidə və göstərişlər də daxil olmaqla bir çox həqiqətlər dərk edilir.

Qurani-Kərimin bir sıra ayələrində bu vasitələrdən söz açılmışdır. Nümunə olaraq burada həmin ayələrdən ikisini qeyd edirik. Hiss və əql haqda buyurulur:

---

[1] İslami hədislərdə bəzi insanlar "muhəddəs", yəni "danışılan" adlandırılıb. Bu haqda gələcək bəhslərdə söhbət açacağıq.

O gələcək...

وَ اللَّهُ أَخْرَجَكُمْ مِنْ بُطُونِ أُمَّهَاتِكُمْ لَا تَعْلَمُونَ شَيْئًا وَ جَعَلَ لَكُمُ السَّمْعَ وَ الْأَبْصَارَ وَ الْأَفْئِدَةَ لَعَلَّكُمْ تَشْكُرُونَ.

**"Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, bəlkə, şükr edəsiniz!"**[1]

Ayədə "qəlb" sözü qulaq və gözlə yanaşı işlədildiyi üçün "əql, şüur" mənasını ifadə edir.

Ayənin sonunda "…**bəlkə, şükr edəsiniz!"** – deyə buyurulur və bu, həmin vasitələrin (eşitmə, görmə və düşünmə) hər birindən istifadə edilməsinin lüzumunu bizə çatdırır. Çünki şükrün mənası verilən hər bir nemətin öz yerində istifadə edilməsidir.

Vəhylə bağlı isə buyurulur:

وَ مَا أَرْسَلْنَا مِن قَبْلِكَ إِلَّا رِجَالًا نُّوحِى إِلَيْهِمْ فَسْئَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لَا تَعْلَمُونَ.

**"(Ya Məhəmməd!) Biz səndən əvvəl də özlərinə vəhy etdiyimiz ancaq kişi peyğəmbərlər göndərmişdik. Əgər (bunu) bilmirsinizsə, zikr (kitab, elm) əhlindən soruşun!"**[2]

Dindar insan kainatı və dini dərk etməkdə hissdən istifadə edir, lakin hiss əksər hallarda əql və şüurun mühakiməsi üçün zəmin yaradır. Əql vasitəsilə də insan Allahı, Onun sifət və fellərini dərk edir. Bu vasitələrin hər biri öz yerində önəmlidir və həqiqətlərin kəşf edilib üzə çıxarılmasında istifadə edilə bilər.[3]

---

[1] Nəhl surəsi, 78-ci ayə.

[2] Nəhl surəsi, 43-cü ayə.

[3] Ruhun saflaşması insana Allah tərəfindən ilham nazil olmasına səbəb olur və bəziləri bunu da idrak vasitələrindən biri kimi qəbul edirlər (irfani idrak).

## İkinci bəhs

Peyğəmbərlər vasitəsilə bəşərə çatdırılan ilahi əmrlər iki sahədə xülasələşir: əqidə və əməl.

Əqidə sahəsini Allahın varlığına, habelə Onun camal və cəlal sifətlərinə və fellərinə[1] iman təşkil edir. Əməl sahəsi isə insanın fərdi və ictimai həyatını əhatə edən dini vəzifələrdən ibarətdir.

Bir müsəlmanın öz dini inanclarına yəqinliyi olmalıdır, bunun üçünsə öz dini inanclarını tutarlı dəlil-sübutlarla əsaslandıra bilməlidir. Etiqad məsələlərində başqalarını təqlid etmək yolverilməzdir.

Dini vəzifələrə gəlincə, hər bir müsəlman onları yerinə yetirməlidir. Burada yəqinlikdən əlavə, şəriətin təsdiq etdiyi yollara istinad etmək (məsələn, Quran və sünnəyə istinad etmək) lazımdır. Camiuş-şərait müctəhidə təqlid etmək[2] şəriətin təsdiqlədiyi yollardan biridir və gələcək bəhslərdə bu mövzu ilə bağlı daha ətraflı söhbət açacağıq.

## Üçüncü bəhs

Biz dini əqidə və vəzifələrin isbatında bütün idrak vasitələrindən istifadə edirik. Əql və vəhy burada əsas vasitələr hesab edilir. “Vəhy” dedikdə səmavi kitab olan Qurani-Kərim və Həzrət Məhəmməd (s) peyğəmbərdən nəql olunan hədislər nəzərdə tutulur. Əhli-beyt İmamlarından (ə) nəql olunan hədislər də “sünnə”nin tərkib hissəsi sayılır və gələcək bəhslərdə izah edəcəyik ki, “sünnə” ilahi hökmlərin istinad mənbələrindən biridir.

Əql ilə vəhy bir-birini etibarlı istinad mənbəyi kimi təsdiqləyirlər. Belə ki, vəhyin istinad mənbəyi olması əqlin qəti hök-

[1] Peyğəmbərlər göndərmək, öldükdən sonra insanları yenidən diriltmək və s. Allahın fellərinin nümunələridir.
[2] Yəni bir sıra lazımi şərtlərə sahib müctəhidə müraciət etmək.

O gələcək...

mü ilə isbat edilir və vəhy də öz növbəsində əqlin öz hüdudlarında bir istinad mənbəyi olmasını təsdiqləyir.

Qurani-Kərim bir çox hallarda insanları əqlin mühakiməsinə yönəldir və onları yaradılış aləminin əsrarəngizliyi haqqında düşünməyə çağırır. Beləcə, dini maarifin sübuta yetirilməsində əql və düşüncədən yararlanır. Qeyd edək ki, Quranda əqidə ilə bağlı həddən ziyadə "əqli dəlil" öz əksini tapmışdır.

Əhli-beyt İmamları (ə) da əqlin - mühakimə yürütməyə səlahiyyəti olduğu hallarda - ilahi hökmlərin istinad mənbələrindən biri olduğunu təsdiqləmişlər. İmam Musa Kazim (ə) vəhyi zahiri, əqli isə batini hüccət (qəti və qaçılmaz dəlil) hesab etmişdir.[1]

## Dördüncü bəhs

Nəzərə alsaq ki, vəhy qəti bir dəlil, əql də Allahın hər birimizin daxilində yandırdığı bir çıraqdır, bu ikisi arasında ziddiyyət təsəvvürolunmazdır. Əgər hər hansı bir məsələdə ilkin mülahizə zamanı ziddiyyət nəzərə çarparsa, onda bilməliyik ki, ya dinin bu haqda irəli sürdüyü müddəanı olduğu kimi anlamamışıq, ya da əqli dəlillərimizdə hansısa səhvə yol vermişik. Çünki hikmət sahibi olan Allah heç zaman insanı bir-birinə zidd olan iki yola dəvət etməz.

Əql ilə vəhy arasında ziddiyyət təsəvvür olunmadığı kimi, elm ilə vəhy arasında da əsla ziddiyyət yarana bilməz. Burada da əgər ilkin mülahizədə hansısa bir ziddiyyət nəzərə çarparsa, yenə bilməliyik ki, ya dinin bu haqda irəli sürdüyü mülahizəni düzgün dərk etməmişik, ya da elm hələ sözügedən məsələ ilə bağlı qəti bir nəticəyə gəlməmişdir. Əksər hallarda elm ilə vəhy arasında nəzərə çarpan ziddiyyətlər məhz

[1] Kuleyni, Usuli-kafi, c.1, səh.16.
إنَّ اللَّهَ عَلَى النَّاس حُجَّتَيْن: حُجَّةٌ ظَاهِرَةٌ وَ حُجَّةٌ بَاطِنَةٌ، فَأَمَّا الظَاهِرَةُ فَالرُّسُلُ وَ الأَنْبِيَاءُ وَ الأئِمَّةُ، وَ أمّا البَاطِنَةُ فَالْعُقُوَل.

ikinci səbəbdən irəli gəlir (yəni elm hələ sözügedən məsələ ilə bağlı qəti bir nəticəyə gəlməmişdir). Bəzən tələskənliyə yol verilərək hansısa bir elmi fərziyyə qəti elmi sübut, elmi kəşf kimi qələmə verilir və beləliklə də elmlə din arasında ziddiyyətin mümkünlüyü təsəvvürü yaranır.

## Beşinci bəhs

Varlıq aləminə hakim olan qanunlar – belə ki, bu qanunlar bizim düşüncə və idrakımızdan ayrı və müstəqil reallıqlardır - əbədi və dəyişməzdir. Əgər insan idrak vasitələri ilə hər hansı bir reallığı (varlıq aləminə hakim olan hansı bir qanunu) “həqiqət” olaraq (olduğu kimi) kəşf edərsə (dərk edərsə), onun bu dərki hər zaman həqiqət və dəyişməz olacaqdır. Mühit və şəraitin dəyişməsi ilə həqiqət dəyişmir. Başqa sözlə, həqiqətin nisbiliyi – bu mənada ki, dərk olunmuş eyni bir həqiqət müəyyən bir zaman kəsimində həqiqət, başqa bir zaman kəsimində isə yanlışdır - varlıq aləminin dərkində yolverilməzdir. Məsələn, əgər iki vur ikinin cavabı dörddürsə, deməli, hər zaman dörddür. Yox əgər dörd deyilsə, onda heç zaman dörd deyildir.

Həqiqətin nisbiliyi yalnız insan düşüncəsinə və rəyinə söykənən “həqiqət”lər üçün təsəvvür edilə bilər. Məsələn, ölkənin idarə olunmasında ilahi qanunları rəhbər tutmayan cəmiyyətlər istədikləri dövlət quruluşunu seçirlər. Əgər hamı bu və ya başqa tipli quruluşa tərəfdar çıxırsa, onlar arasında fikir birliyi mövcud olduğu müddətdə həmin quruluş doğru hesab edilir. Əgər bir gün başqa bir quruluşa tərəfdar çıxırlarsa, onda artıq birinci quruluş deyil, ikinci quruluş doğru hesab edilir. Baxmayaraq ki, hər iki seçim öz zamanında doğru hesab edilmişdi.

Lakin insan düşüncəsindən xaricdə olan obyektiv bir reallıq əgər olduğu kimi dərk edilərsə, əbədi olaraq həqiqət və dəyişməzdir, onun əksi isə daima yanlış və əsassızdır.

O gələcək...

# VARLIQ ALƏMİ İSLAM DÜNYAGÖRÜŞÜNDƏ

## Altıncı bəhs

Bütün varlıqlar – əlbəttə, Allahdan qeyri - Allahın məxluqu olub bir an belə Ondan ehtiyacsız olmamış, olmayacaqlar da.

“Кainat Allahın məxluqudur” dedikdə, varlıqların Allahdan törənmələri deyil, Allahın iradəsilə (istəyilə) var olmaları, vücuda gəlmələri nəzərdə tutulur. Qurani-Kərimdə buyurulur:

لَمْ يَلِدْ وَ لَمْ يُولَدْ.

**“O, nə doğmuş, nə də doğulmuşdur”.**[1]

## Yeddinci bəhs

Dünyanın mövcud quruluşu əbədi deyildir. Yalnız Allaha məlum olan müəyyən bir müddətdən sonra bu quruluş dağılacaq və başqa bir quruluş yaradılacaqdır. Həmin quruluş, Allah-Təalanın Quranda xəbər verdiyi Axirət aləmidir. Aşağıdakı ayələr də bu həqiqətə toxunur:

يَوْمَ تُبَدَّلُ الْأَرْضُ غَيْرَ الْأَرْضِ وَ السَّمَاوَاتُ وَ بَرَزُواْ لِلهِ الْوَاحِدِ الْقَهَّارِ.

**“(Qiyamət günü) elə bir gündür ki, Yer başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq və onlar (bütün insanlar) hər şeyə qalib olan tək Allahın hüzurunda duracaqlar!”**[2]

... إِنَّا لِلهِ وَ إِنَّا إِلَيْهِ رَاجِعُونَ.

[1] İxlas surəsi, 3-cü ayə.
[2] İbrahim surəsi, 48-ci ayə.

**“Biz Allaha məxsusuq (Allahın bəndələriyik) və (vaxtı gələndə) hamımız Ona tərəf (Onun hüzuruna) qayıdacağıq!”[1]**

## Səkkizinci bəhs

Кainata səbəb-nəticə qanunu hakimdir. Onun bütün fenomenləri arasında determinizm (səbəbiyyət) əlaqəsi mövcuddur. Hər bir fenomenin digərinə təsiri Allahın iradə (istək) və izninə bağlıdır. Кainata səbəb-nəticə qanununun hakim olması isə Allahın müdrikanə iradəsidir.

Qurani-Кərim bu iki mətləbi açıqlamaqdadır: həm varlıqlar arasında səbəb-nəticə əlaqəsinin mövcudluğunu, həm də təsiretmədə hər bir səbəbin Allah-Təalanın iznindən və mütləq iradəsindən asılı olduğunu. Birinci məsələ ilə bağlı bu ayəyə nəzər salaq:

... وَ أَنزَلَ مِنَ السَّمَاءِ مَاءً فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقًا لَّكُمْ...

**“(Allah) göydən yağmur endirdi və onun vasitəsilə sizin üçün müxtəlif meyvələrdən ruzilər yetişdirdi”.[2]**

İkinci məsələ ilə bağlı isə Rəbbimiz buyurur:

وَ الْبَلَدُ الطَّيِّبُ يَخْرُجُ نَبَاتُهُ بِإِذْنِ رَبِّهِ...

**“Təmiz (torpağı münbit) bir məmləkətin bitkiləri Rəbbinin iznilə çıxar...”[3]**

Eyni məzmun aşağıdakı ayələrdə də öz əksini tapmışdır:

Bəqərə surəsi, 102, 249 və 251-ci ayələr; Ali-İmran surəsi, 49 və 166-cı ayələr.[4]

---

[1] Bəqərə surəsi, 156-cı ayə.
[2] Bəqərə surəsi, 22-ci ayə.
[3] Əraf surəsi, 58-ci ayə.
[4] Bu məsələ ilə bağlı daha ətraflı məlumat əldə etmək üçün təfsir və kəlam kitablarına, o cümlədən “əl-Mizan”, c.1, səh.72 və “əl-İlahiyyat”, c.2, səh.51-54 əsərlərinə müraciət edə bilərsiniz.

## Doqquzuncu bəhs

Varlıq aləmi təkcə materiyadan ibarət deyildir. Onun bir hissəsini qeyri-maddi (metafizik) varlıqlar təşkil edir. Qurani-Kərimdə bu, “qeyb aləmi” adlanır. Maddi varlıqlar Allahın izni-lə bir-birinə təsir göstərdiyi kimi, qeybi (qeyri-maddi) varlıqlar da maddi aləmə Allahın iznilə təsir göstərə bilir. Allah-Təala Qurani-Məciddə mələklərin təbiət aləminin hadisələrinə təsirindən söz açaraq buyurur:

فَالْمُدَبِّرَاتِ أَمْرًا.

**“And olsun işə əncam çəkənlərə (Allahın əmri ilə dünyanın işlərini idarə edən mələklərə)!”**[1]

وَ هُوَ الْقَاهِرُ فَوْقَ عِبَادِهِ وَ يُرْسِلُ عَلَيْكُمْ حَفَظَةً...

**“Allah Öz bəndələri üzərində qəhr sahibidir (hakimi-mütləqdir). O sizə gözətçi mələklər göndərir…”**[2]

Yuxarıdakı aydın məzmunlu ayələrdən bu nəticəyə gəlirik ki, maddi və qeyri-maddi varlıqlardan ibarət yaradılış aləmi ona hakim olan səbəb-nəticə qanunu əsasında Allahın iradəsi ilə mövcuddur və Ondan asılıdır.

## Onuncu bəhs

Bütün varlıqlar – varlığın hansı mərtəbəsində olmasından asılı olmayaraq - özünə münasib “hidayət”dən bəhrələnməkdədirlər. Bu ümumi hidəyət “təbii”, “qərizi” və “təkvini” hidayət növlərinə bölünür. Qurani-Kərimin müxtəlif ayələrində bu ümumi hidayətdən söz açılır və biz burada bir ayəni qeyd etməklə kifayətlənirik:

قَالَ رَبُّنَا الَّذِى أَعْطَى كُلَّ شَىْءٍ خَلْقَهُ ثُمَّ هَدَى.

---

[1] Naziat surəsi, 5-ci ayə.
[2] Ənam surəsi, 61-ci ayə.

O gələcək...

**“Dedi: “Rəbbimiz hər şeyə öz xilqətini və surətini verən, sonra da onu hidayət edəndir!””[1]**

## On birinci bəhs

Кainat ən mükəmməl və ali bir yaradılışa malikdir. Bu aləm üçün bundan daha kamil və üstün bir yaradılış təsəvvürolunmazdır. Rəbbimiz buyurur:

الَّذِى أَحْسَنَ كُلَّ شَىْءٍ خَلَقَهُ...

**“O, yaratdığı hər şeyi gözəl yaratdı”.[2]**

Həmçinin buyurur:

... فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ.

**“Yaradanların ən gözəli olan Allah nə qədər uca, nə qədər uludur!”[3]**

Aydındır ki, Yaradanın kamilliyi və qüsursuzluğu yaratdıqlarının mükəmməlliyini və qüsursuzluğunu zəruri edir. Çünki hər bir “fail” (işi yerinə yetirən) ilə onun “fel”i (iş) arasında mütənasiblik olur. Əgər fail kamil və nöqsansız olarsa, onun feli də kamil və nöqsansız olar. Allah-Təala bütün kamilliklərə malik olduğundan, təbii ki, onun işi də ən mükəmməl və ali iş olacaqdır.

Bundan əlavə, Allahın hikməti belə bir zərurəti doğurur ki, mükəmməl bir aləm yaratmaq mümkün olduğu təqdirdə O, bundan qeyrisini (yəni müəyyən nöqsanları olan bir aləm) yaratmasın.

Yeri gəlmişkən qeyd edək ki, təbiətdə “şər” adlanan hadisələr kainatın mükəmməl yaradılışı ilə ziddiyyət təşkil etmir

---

[1] Taha surəsi, 50-ci ayə.
[2] Səcdə surəsi, 7-ci ayə.
[3] Muminun surəsi, 14-cü ayə.

və bu mövzu barədə "xaliqiyyətdə tövhid" bəhslərində söhbət açacağıq.

## On ikinci bəhs

Varlıq aləmi mütləq haqq olan Allahın məxluqu və feli olduğundan, haqdır və hikmət əsasındadır; mənasızlıq və məqsədsizlik onun üçün təsəvvürolunmazdır. Qurani-Kərimin bir çox ayələrində bu mətləbə toxunulmuşdur. Həmin ayələrdən birinə nəzər salaq:

مَا خَلَقْنَا السَّمَاوَاتِ وَ الْأَرْضَ وَ مَا بَيْنَهُمَا إِلَّا بِالحَقِّ وَ أَجَلٍ مُّسَمًّى...

**"Biz göyləri, yeri və onların arasında olanları ancaq haqq olaraq və (qiyamət günü sona çatacaq) müəyyən bir müddət üçün yaratdıq..."**[1]

Bəşər həyatının və dünyanın qayəsi isə Qiyamətin qopacağı zaman gerçəkləşəcəkdir. Bu xüsusda İmam Əli (ə) buyurmuşdur:

فَإِنَّ الْغَايَةَ القِيَامَةُ.

"Həqiqətən də, qayə, qiyamətdir!"[2]

[1] Əhqaf surəsi, 3-cü ayə.
[2] Nəhcul-bəlağə, xütbə: 190.

O gələcək...

# İNSAN İSLAM DÜNYAGÖRÜŞÜNDƏ

## On üçüncü bəhs

İnsan cism və ruhdan təşəkkül tapmış bir varlıqdır ki, öldükdən sonra onun cismi aradan gedir, ruhun isə həyatı davam edir. Ölüm insanın fəna və yox olması demək deyildir. İnsan öldükdə ruh bədəndən ayrılır və qiyamət gününədək bərzəx aləmində yaşayır.

Qurani-Kərim insanın yaradılış mərhələlərindən söz açarkən ona son mərhələdə ruhun üfürüldüyünü belə bəyan edir:

... ثُمَّ أَنشَأْنَاهُ خَلْقًا ءَاخَرَ ...

**“...Daha sonra onu yeni bir məxluq olaraq yaratdıq”.**[1]

Bir sıra ayələrdə isə insanın bərzəx həyatına toxunulur və belə buyurulur:

... وَ مِنْ وَرَائِهِم بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ.

**“Onların önündə dirildilib (haqq-hesab üçün Allahın hüzurunda) duracaqları günə (Qiyamət gününə) qədər bərzəx (öldükdən sonra qiyamətədək qalacaqları bir aləm) vardır”.**[2]

Bərzəx həyatının gerçəkliyini təsdiqləyən ayələr saysızdır və onların hamısını burada qeyd etmək kitabın həcmi xaricindədir.

---

[1] Muminun surəsi, 14-cü ayə.
[2] Muminun surəsi, 100-cü ayə.

## On dördüncü bəhs

Hər bir insan pak və təkallahlıq fitrətilə yaradılır. Heç kim dünyaya günahkar gəlmir və bütün çirkinliklər sonradan qazanılır. Qeyd edək ki, insana irsi olaraq keçən xoşagəlməz xüsusiyyətlərin belə insanın iradə və istəyi ilə dəyişilə bilməsi mümkünsüz hesab edilməməlidir. Buna görə də müasir xristianlıqdakı "günah Adəm övladının zatındadır" (yəni dünyaya günahkar gəlir) tərzi-düşüncəsi əsassızdır. Allah-Təala Qurani-Kərimdə bu haqda belə buyurur:

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَتَ اللَّهِ الَّتِى فَطَرَ النَّاسَ عَلَيْهَا...

**"Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (İslama) tərəf tut".[1]**

Sevimli Peyğəmbərimiz (s) də bu xüsusda buyurmuşdur:

مَا مِنْ مَوْلُودٍ إِلَّا يُولَدُ عَلَى الْفِطْرَةِ.

"Elə bir insan yoxdur ki, dünyaya pak fitrətlə (tövhid və təkallahlılıq fitrətilə) gəlməsin".[2]

## On beşinci bəhs

İnsan ixtiyar və seçim sahibi olan bir varlıqdır. Yəni o öz ağlı ilə bu və digər işin müxtəlif tərəflərini gözdən keçirdikdən sonra onu yerinə yetirib-yetirməməyi ixtiyari şəkildə qərara alır. Rəbbimiz buyurur:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَ إِمَّا كَفُورًا.

**"Biz ona (insana) haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor".[3]**

---

[1] Rum surəsi, 30-cu ayə.
[2] "Tövhid", Səduq, səh. 331.
[3] İnsan surəsi, 3-cü ayə.

Həmçinin buyurur:

وَ قُلِ الْحَقُّ مِنْ رَبِّكُمْ فَمَنْ شَاءَ فَلْيُؤْمِنْ وَ مَنْ شَاءَ فَلْيَكْفُرْ...

**“Və de ki: “Haqq Rəbbinizdədir. Kim istəyir inansın, kim də istəyir inkar etsin (kafir olsun)”.**[1]

## On altıncı bəhs

İnsan pak və sağlam fitrətə, yaxşını pisdən ayırd edən ağıl qüvvəsinə, eləcə də seçim və ixtiyara sahib olduğundan həyatının istənilən bir dönəmində haqq yolu tutmaq və özünü islah etmək imkanına malikdir. Yalnız ölüm ayağında insanın tövbəsi qəbul olunmur.

Elə bu səbəbdən də ilahi peyğəmbərlərin çağırışı bütün insanlara, hətta Firon kimilərinə belə şamil olmuşdur. Rəbbimiz buyurur:

فَقُلْ هَلْ لَكَ إِلَى أَن تَزَكَّى. وَ أَهْدِيَكَ إِلَى رَبِّكَ فَتَخْشَى.

**“Və de ki: “(Günahlardan) təmizlənmək istəyirsənmi? Səni Rəbbinə tərəf gətirimmi ki, (Ondan) qorxasan?”**[2]

Buna görə də insan heç vaxt Allahın əfv və rəhmətindən ümidini üzməməlidir. Allah-Təala buyurur:

قُلْ يَا عِبَادِىَ الَّذِينَ أَسْرَفُواْ عَلَى أَنفُسِهِمْ لاَ تَقْنَطُواْ مِنْ رَحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ.

**“(Ya peyğəmbər! Mənim adımdan bəndələrimə) de ki: “Ey mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz**

[1] Kəhf surəsi, 29-cu ayə.
[2] Naziat surəsi, 18-19-cu ayələr.

**olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayandır, rəhm edəndir!"[1]**

## On yeddinci bəhs

İnsan ağıl və ixtiyara sahib olan bir varlıq olduğundan o, məsuliyyət daşıyır və əməllərinə görə cavabdehdir. İnsan Allah, peyğəmbərlər, ilahi rəhbərlər, eləcə də özü, digər insanlar və bütövlükdə kainat qarşısında məsuliyyət daşıyır.

Bu mətləb Quranın bir çox ayələrində öz əksini tapmışdır. Rəbbimiz buyurur:

... وَ أَوْفُواْ بِالْعَهْدِ إِنَّ الْعَهْدَ كانَ مَسْئُولًا.

**"Əhdə vəfa edin. Çünki (insan) əhd barəsində cavabdehdir (sorğu-sual olunacaqdır) ".[2]**

... إِنَّ السَّمْعَ وَ الْبَصَرَ وَ الْفُؤَادَ كُلُّ أُوْلَئِكَ كَانَ عَنْهُ مَسْئُولًا.

**"Həqiqətən də qulaq, göz və ürək - bunların hamısı sorğu-sual olunacaqdır".[3]**

أَيَحْسَبُ الْإِنسَانُ أَن يُتْرَكَ سُدًى.

**"Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq?!"[4]**

Sevimli Peyğəmbərimiz (s) buyurmuşdur: "Məgər sizin hər biriniz himayəçi (qəyyum) və hər biriniz öz himayəsində olanın məsuliyyətini daşıyan deyilsinizmi?" (Yəni, hər biriniz himayəsində olan üçün məsuliyyət daşıyır.)[5]

---

[1] Zumər surəsi, 53-cü ayə.
[2] İsra surəsi, 34-cü ayə.
[3] İsra surəsi, 36-cı ayə.
[4] Qiyamət surəsi, 36-cı ayə.
[5] Musnəd-i Əhməd, cild 2, səh.54; Səhih Buxari, cild 2, səh.284 (Kitab əl-Cumuə, 11-ci fəsil, hədis: 2.)

O gələcək...

## On səkkizinci bəhs

İnsanın öz həmtaylarından üstünlüyü yalnız və yalnız sahib olduğu mənəvi kamilliklərlə ölçülür. Üstünlük meyarlarından biri bütün işlərdə təqvalı olmaq, yəni günahdan çəkinməkdir. Allah-Təala buyurur:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَ أُنْثَى وَ جَعَلْنَاكُمْ شُعُوبًا وَ قَبَائِلَ لِتَعَارَفُوا
إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ...

**“Ey iman gətirənlər! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir)!”**[1]

Buna görə də irqi, coğrafi mənsubiyyət və bu kimi cəhətlər İslamın baxışında üstünlük və iftixar əlaməti hesab edilmir.

## On doqquzuncu bəhs

İnsanlıq prinsipləri olan və fitri köklərə dayanan əxlaqi dəyərlər dəyişilməzdir. Zamanın ötməsi və ictimai dəyişikliklər onların dəyişilməsinə səbəb olmur. Məsələn, əhdə vəfa etmək, yaxşılığa yaxşılıqla cavab vermək və s. hər zaman yaxşı bir iş kimi dəyərləndirilmiş və dəyərləndiriləcək. Qarşı tərəfdən əhdə vəfasızlıq, xəyanət və s. çirkin bir iş hesab olunmuş və olunacaq. Başqa sözlə, nə qədər ki, insanlıq mövcuddur, bu insani-əxlaqi dəyərlər dəyişilməyəcək. Beləliklə, insanın ictimai həyatında onun təbiətilə, fitrətilə uzlaşan bir sıra dəyişilməz əxlaqi dəyərlər mövcuddur.

Bu əxlaqi dəyərlər və insanlıq prinsipləri ilə yanaşı ayrı-ayrı cəmiyyətlərdə müəyyən adət-ənənələr də vardır ki, zaman və məkan amillərindən asılı olaraq təsirlərə məruz qala-

[1] Hucurat surəsi, 13-cü ayə.

raq dəyişilir. Lakin bilməlisiniz ki, bunlar daimi və dəyişilməz olan əxlaqi dəyərlərdən ayrıdır.

Qurani-Kərim bir sıra əxlaqi dəyərlərə toxunaraq buyurur:

هَلْ جَزَاءُ الْإِحْسَانِ إِلَّا الْإِحْسَانُ.

**“Yaxşılığın əvəzi yaxşılıqdan başqa bir şeydirmi? (Yaxşılığın əvəzi ancaq yaxşılıqdır!)”[1]**

... مَا عَلَى الْمُحْسِنِينَ مِن سَبِيلٍ...

**“Yaxşı işlər görənləri də məzəmmət etməyə heç bir əsas (lüzum) yoxdur!”[2]**

... فَإِنَّ اللَّهَ لَا يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ.

**“Allah yaxşı işlər görənlərin mükafatını əsla zay etməz!”[3]**

إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَ الْإِحْسَانِ وَ إِيتَاءِ ذِى الْقُرْبَى وَ يَنْهَى عَنِ الْفَحْشَاءِ وَ الْمُنكَرِ وَ الْبَغْيِ...

**“Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara verməyi (əl tutmağı) buyurar. Zina etməyi, pis işlər görməyi, zülm etməyi isə qadağan edər!”[4]**

## İyirminci bəhs

İnsan əməllərinə görə nəinki təkcə axirət aləmində mükafat və ya cəza alacaq, elə bu dünyanın özündə də yaxşı və pis işlərinin nəticəsi ilə üzləşəcəkdir. Əslində, dünyada baş verən bir sıra hadisələr insanın əməllərinin nəticəsidir. Bu

---

[1] ər-Rəhman surəsi, 60-cı ayə.
[2] ər-Rəhman surəsi, 60-cı ayə.
[3] Tövbə surəsi, 91-ci ayə.
[4] Nəhl surəsi, 90-cı ayə.

mətləbə həm Qurani-Kərim toxunmuş, həm də bəşər elmi qismən bu həqiqətə varmışdır.

Qurani-Kərimdə bu haqda çoxlu ayələr mövcuddur. Biz burada nümunə olaraq onlardan ikisini qeyd edirik:

وَ لَوْ أَنَّ أَهْلَ الْقُرَى ءَامَنُواْ وَ اتَّقَوْاْ لَفَتَحْنَا عَلَيْهِمْ بَرَكَاتٍ مِنَ السَّمَاءِ وَ الْأَرْضِ وَ لَاكِن كَذَّبُواْ فَأَخَذْنَاهُم بِمَا كَانُواْ يَكْسِبُونَ.

**“Əgər o məmləkətlərin əhalisi iman gətirib (pis işlərdən) çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq (göyün və yerin bərəkət qapılarını onların üzünə açardıq). Lakin onlar (öz peyğəmbərlərini) yalançı hesab etdilər, Biz də onları qazandıqları günahlara görə məhv etdik”.**[1]

Nuh peyğəmbər öz ümmətinə xatırladırdı ki, günahdan çəkinmə ilə ilahi rəhmət qapılarının açılması və nemətlərin bolluğu arasında bir səbəbiyyət əlaqəsi mövcuddur. Qurani-Kərimdə bu xüsusda belə buyurulur:

فَقُلْتُ اسْتَغْفِرُواْ رَبَّكُمْ إِنَّهُ كانَ غَفَّارًا. يُرْسِلِ السَّمَاءَ عَلَيْكُمْ مِدْرَارًا. وَ يُمْدِدْكُمْ بِأَمْوَالٍ وَ بَنِينَ وَ يَجْعَل لَكُمْ جَنَّاتٍ وَ يَجْعَل لَكُمْ أَنْهَارًا.

**“Və dedim ki: (Tövbə edib) Rəbbinizdən bağışlanmanızı diləyin. Çünki O, (tövbə edən bəndəsinin günahlarını) çox bağışlayandır! O sizə göydən bol yağış göndərər. O sizə mal-dövlət, oğul-uşaq əta edər. O sizin üçün bağlar əmələ gətirər və çaylar axıdar”.**[2]

## İyirmi birinci bəhs

Ümmətlərin (yəni ayrı-ayrı cəmiyyətlərin) inkişafı və ya geriliyinin səbəbi, bəzi xarici amillər nəzərə alınmamaqla,

[1] Əraf surəsi, 96-cı ayə.
[2] Nuh surəsi, 10-12-ci ayələr.

O gələcək...

əsasən onların əqidə, əxlaq və davranışlarından doğur. Bu məsələ ilə Allahın qəzavü-qədəri arasında heç bir ziddiyyət yoxdur. Çünki elə bu qanunun özü Allah-Təalanın mütləq təqdirinin təzahürlərindəndir. Yəni Mütəal Allah birmənalı olaraq istəmişdir ki, ümmətlər öz talelərini əqidə və davranışları ilə müəyyənləşdirsinlər. Məsələn, ictimai münasibətlərini ədalət və düzgünlük əsasında quran bir cəmiyyət gözəl və asudə yaşayışa sahib olacaq, ədalət və düzgünlüyə biganə olan bir cəmiyyəti isə xoşagəlməz aqibət gözləyir. Bu prinsip Qurani-Kərimdə termin olaraq "Allahın sünnəsi", yəni "İlahi ənənə" və ya "İlahi qanun" adlanır. Rəbbimiz buyurur:

... فَلَمَّا جَاءَهُمْ نَذِيرٌ مَّا زَادَهُمْ إِلَّا نُفُورًا. اسْتِكْبَارًا فِى الْأَرْضِ وَ مَكْرَ السَّيِّئِ وَ لَا يَحِيقُ الْمَكْرُ السَّيِّئُ إِلَّا بِأَهْلِهِ فَهَلْ يَنظُرُونَ إِلَّا سُنَّتَ الْأَوَّلِينَ فَلَن تَجِدَ لِسُنَّتِ اللَّهِ تَبْدِيلًا وَ لَنْ تَجِدَ لِسُنَّتِ اللَّهِ تَحْوِيلًا.

**"Lakin onlara belə bir peyğəmbər (Həzrət Məhəmməd) gəldikdə bu ancaq onların nifrətini artırdı (haqq yoldan daha da uzaqlaşdılar.) Bu isə onların yer üzündə təkəbbür göstərmələri (iman gətirməyi özlərinə sığışdırmamaları) və pis əməlləri ucbatından idi. Pis əməl (qərəzli hiylə) ancaq onun öz sahibinin başında çatlayar. Məgər onlar Allahın adəti (qanunu) üzrə əvvəlkilərin düçar olduqları müsibətlərimi gözləyirlər? (Ya peyğəmbər!) Sən Allahın qoyduğu qanunda heç bir dəyişiklik tapmazsan!"**[1]

... وَ أَنْتُمُ الْأَعْلَوْنَ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ. إِن يَمْسَسْكُمْ قَرْحٌ فَقَدْ مَسَّ الْقَوْمَ قَرْحٌ مِّثْلُهُ وَ تِلْكَ الْأَيَّامُ نُدَاوِلُهَا بَيْنَ النَّاسِ وَ لِيَعْلَمَ اللَّهُ الَّذِينَ ءَامَنُواْ وَ يَتَّخِذَ مِنكُمْ شُهَدَاءَ...

[1] Fatir surəsi, 42-43-cü ayələr.

O gələcək...

**“Əgər möminsinizsə, siz (Allah yanında inanmayanlardan) çox yüksəkdə durursunuz! Əgər siz (Ühüd savaşında) yara aldınızsa, o biri (kafir) dəstə də (Bədr savaşında) o cür yara aldı. Biz bu günləri insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri ayırd etsin və içərinizdən şəhidlər (şahidlər) seçsin”.[1]**

## İyirmi ikinci bəhs

Bəşəriyyəti parlaq gələcək gözləyir. Doğrudur, indiyədək bəşər tarixində daim bərabərsizlik, ədalətsizlik və çəkişmələr müşahidə olunmuşdur, lakin bu vəziyyət heç də axıradək belə davam etməyəcəkdir. Bəşər tarixi mütləq ədalətin hakim olacağı parlaq bir gələcəyin intizarındadır. Qurani-Məcidin təbirilə desək, saleh şəxslər yer üzündə hakim olacaqlar. Allah-Təala bu xüsusda buyurur:

وَ لَقَدْ كَتَبْنَا فِى الزَّبُورِ مِن بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِىَ الصَّالِحُونَ.

**“Biz Tövratdan sonra Zəburda da yer üzündə yalnız Mənim saleh bəndələrimin hakim olacağını yazmışdıq”[2]**

Həmçinin buyurur:

وَعَدَ اللَّهُ الَّذِينَ ءَامَنُواْ مِنْكُمْ وَ عَمِلُواْ الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُمْ فِى الْأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِن قَبْلِهِمْ...

**“Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi Yer üzünün varisləri edəcəyini vəd buyurmuşdur”.[3]**

---

[1] Ali-İmran surəsi, 139-140-cı ayələr.
[2] Ənbiya surəsi, 105-ci ayə.
[3] Nur surəsi, 55-ci ayə.

Buna görə də gələcəkdə, nə qədər gec olsa da, haqq ilə batil arasında davam edən mübarizə nəhayət haqqın həlledici qələbəsilə sona çatacaqdır. Rəbbimiz buyurur:

بَلْ نَقْذِفُ بِالْحَقِّ عَلَى الْبَاطِلِ فَيَدْمَغُهُ فَإِذَا هُوَ زَاهِقٌ...

**“Xeyr, Biz batili haqla rədd edərik və o, batili yox edər. (Bir də baxıb görərsiniz ki) o (batil) yox olub getmişdir”.**[1]

## İyirmi üçüncü bəhs

Qurani-Kərimə istinadən insan elə bir xüsusi izzət və hörmətə sahibdir ki, mələklər belə ona səcdə etmişlər. Rəbbimiz buyurur:

وَ لَقَدْ كَرَّمْنَا بَنِى ءَادَمَ وَ حَمَلْنَاهُمْ فِى الْبَرِّ وَ الْبَحْرِ وَ رَزَقْنَاهُمْ مِنَ الطَّيِّبَاتِ وَ فَضَّلْنَاهُمْ عَلَى كَثِيرٍ مِمَّنْ خَلَقْنَا تَفْضِيلاً.

**“Biz Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik”.**[2]

İnsan həyatının əsasını ona bəxş edilən bu izzət və hörməti qorumaq təşkil etdiyindən, bu İlahi bəxşişə xələl yetirən hər hansı bir işi görmək İslam baxımından qadağandır. O cümlədən, izzət və cəlal sahibi olan Allahdan qeyrisinə əyilmək qadağandır. Həzrət Əli (ə) buyurmuşdur:

“Başqa birisinin qulu olma! Allah səni azad yaratmışdır!”[3]

[1] Ənbiya surəsi, 18-ci ayə.
[2] İsra surəsi, 70-ci ayə.
[3] Nəhcul-bəlağə, Məktublar fəsli, 38-ci məktub.

## İyirmi dördüncü bəhs

Həyat yolunu ağıl nuru ilə işıqlandırmaq İslam baxımından olduqca əhəmiyyətli hesab olunur. Çünki insanın digər canlılardan üstünlüyü məhz onun təfəkkür və ağıl sahibi olmasındadır. Bu üzdən Qurani-Kərimin bir çox ayələri insanları dərindən düşünməyə çağırır.

Qurani-Kərim yaradılış aləmi haqqında düşünüb daşınmağı ağıl sahiblərinə xas olan bir keyfiyyət kimi vəsf etmişdir. Rəbbimiz buyurur:

الَّذِينَ يَذْكُرُونَ اللّهَ قِيَامًا وَ قُعُودًا وَ عَلَى جُنُوبِهِمْ وَ يَتَفَكَّرُونَ فِى خَلْقِ السَّمَاوَاتِ وَ الأَرْضِ رَبَّنَا مَا خَلَقْتَ هَذا بَاطِلاً...

**“O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): “Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan”.**[1]

İnsanları yaradılış aləmində qüdrətli və elmli Yaradanın varlığına dəlalət edən nişanələr haqda düşünməyə çağıran ayələrin sayı çoxdur. Qurani-Məcid insanları düşüncə ilə davranmağa çağırıb onları keçmiş nəsillərin ənənələrinə kor-korana bağlanmaqdan çəkindirmişdir.

## İyirmi beşinci bəhs

İslamın iqtisadi, siyasi və digər sferalarda nəzərdə tutduğu insan azadlığı, insanın mənəvi yüksəlişinə, habelə cəmiyyətin ümumi mənafeyinə zidd olmaması ilə şərtlənir. Əslində, İslamın müəyyən etdiyi öhdəliklər və vəzifələr insanı məsuliyyətli edib, onun insanlıq ləyaqətini qorumaq və cəmiyyətin ümumi mənafeyini təmin etmək məqsədi güdür. İslam dinində bütpərəstliyə, alkoqolizmə və s. qoyulan qada-

[1] Ali-İmran surəsi, 191-ci ayə.

O gələcək...

ğa da həmin məqsədi güdür. Burada İslamın cəza tədbirlərinin fəlsəfəsi də aydınlaşır. Qurani-Kərim “qisas” qanununun icrasını həyatın zəmanəti sayır və belə buyurur:

وَ لَكُمْ فِى الْقِصَاصِ حَيَاةٌ يَا أُوْلِى الْأَلْبَابِ لَعَلَّكُمْ تَتَّقُونَ.

**“Ey ağıl sahibləri, bu qisas (qisas hökmü) sizin üçün həyat deməkdir. Ola bilsin ki, (bununla) pis əməllərdən (adam öldürməkdən) çəkinəsiniz”.**[1]

Sevimli Peyğəmbərimiz (s) buyurmuşdur: “Əgər bir şəxs gizlində bir günah işlədərsə, yalnız özünə zərər yetirər. Lakin əgər həmin günahı aşkarda edərsə və etirazla qarşılaşmazsa (günahın qarşısı alınmasa), bütün cəmiyyətə zərər yetirər”.

İmam Sadiq (ə) yuxarıdakı hədisi nəql etdikdən sonra bu sözləri əlavə etmişdir: “Bunun səbəbi odur ki, aşkarda günah işlədən şəxs bu rəftarı ilə ilahi hökmlərə qarşı sayğısızlıq edir və Allah düşmənləri də onun yolunu tutub gedirlər”.[2]

## İyirmi altıncı bəhs

İslam dinində insan azadlığının bariz nümunələrindən biri dini qəbul etməkdə məcburiyyətin olmamasıdır. Rəbbimiz buyurur:

لاَ إِكْرَاهَ فِى الدِّينِ قَدْ تَبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ...

**“Dində məcburiyyət yoxdur. Artıq, doğruluq (iman) azğınlıqdan (küfrdən) aydın fərqlənir”.**[3]

Belə ki, ayədə sözügedən din, qəlbə nüfuz edən iman və inancdır. İman və inanc isə zor gücünə insanın qəlbinə yeridilə bilməz. Qəlbdə imanın yaranması üçün bir sıra amillər mövcud olmalıdır. Haqqın batildən seçilməsi isə bu zəmində

[1] Bəqərə surəsi, 179-cu ayə.
[2] Vəsailuş-şiə, c. 11, səh.407, Kitabul-əmr bil-məruf, 4-cü fəsil, hədis: 1.
[3] Bəqərə surəsi, 256-cı ayə.

O gələcək...

ən mühüm amillərdəndır. Belə ki, əgər insan haqqı batildən ayırd edə bilərsə, adi halda o, haqqı seçəcəkdir.

Doğrudur, cihad İslamın mühüm göstərişlərindən biridir, lakin bu göstərişin fəlsəfəsi haqq dini insanlara zorla qəbul etdirmək deyildir. Cihadın daşıdığı məqsəd haqla batili aydınlaşdıran ilahi qanunların bəşəriyyətə çatdırılması yolunda mövcud olan maneələri aradan qaldırmaqdır. Belə ki, öz maddi və şeytani məqsədlərini təmin etmək üçün hər yola əl atan mənfur qüvvələr bəşəriyyətə azadlıq və səadət bəxş edən dinin insanlara çatdırılmasına mane olur, onun qarşısını almağa çalışırlar. Belə olduğu təqdirdə "nübüvvət"in (peyğəmbərlərin göndərilməsi) fəlsəfəsi[1] tələb edir ki, mücahidlər qarşılarında olan bütün maneələri aşaraq haqqın insanlara çatdırılması üçün şərait yaratsınlar.

Bura qədər İslamın varlıq aləmi və insan haqqındakı görüşləri açıqlandı. Bu mövzu ilə bağlı bir sıra başqa məsələlər də vardır ki, gələcək bəhslərdə açıqlanacaqdır.

[1] Nübüvvətin fəlsəfəsi bəşəriyyətin düz yola yönəlməsi, nəticədə dünya və əbədi axirət səadətinə çatmasıdır.

II FƏSİL

# ALLAHI TANIMA VƏ TÖVHİD

# ALLAHIN VARLIĞINA DAİR DƏLİLLƏR

## İyirmi yeddinci bəhs

Allahın varlığına etiqad bəsləmək bütün səmavi dinlər arasında müştərək prinsipdir və ümumiyyətlə, hansısa bir ilahi dinə tapınmış insanla materialist insanı məhz bu inanc ayırır.

Qurani-Kərim Allahın varlığını dəlil-sübuta ehtiyacı olmayan aydın bir məsələ hesab edir və bu barədə hər hansı bir şəkk-şübhəni yersiz sayır. Rəbbimiz buyurur:

... أَ فِى اللَّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَ الْأَرْضِ...

**“Məgər göyləri və yeri yaradan Allaha da (Allahın varlığına) şübhə etmək olarmı?!”[1]**

Lakin bununla yanaşı, Qurani-Məcid düşüncə və dəlil yolu ilə Allahı dərk etmək, habelə mümkün tərəddüdləri zehinlərindən kənarlaşdırmaq istəyənlərin üzünə bir neçə yol açmışdır. Onlardan ən mühümü aşağıdakılardır:

Bəzi məqamlarda, xüsusilə də çətin və çıxılmaz bir vəziyyətə düşdüyü məqamda insan, daxilən çox qüdrətli və uca bir varlığa üz tutur, ona ehtiyac duyur və ondan yardım diləyir. Bu, insanı kainatın yaradanına doğru səsləyən fitrət səsidir. Rəbbimiz buyurur:

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا  فِطْرَتَ اللَّهِ الَّتِى فَطَرَ النَّاسَ عَلَيْهَا...

**“(Ya Məhəmməd!) Üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (İslama) tərəf tut!”[2]**

---

[1] İbrahim surəsi, 10-cu ayə.
[2] Rum surəsi, 30-cu ayə.

O gələcək...

Həmçinin buyurur:

فَإِذَا رَكِبُواْ فِى الْفُلْكِ دَعَوُاْ اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ.

**"Müşriklər gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub mömin insanlar kimi) yalnız Allaha dua edərlər. Allah onları sağ-salamat quruya çıxaran kimi yenə də (Ona) şərik qoşarlar".[1]**

Qurani-Məcid insanları Allahın varlığına açıq-aydın dəlil olan təbiət aləmi və onun əsrarəngizliyi barədə, eləcə də varlıq aləminin elm, qüdrət və hikmət əsasında yaradılıb idarə edilməsinə dəlalət edən nişanələr haqqında düşünməyə çağırır:

إِنَّ فِى خَلْقِ السَّمَاوَاتِ وَ الْأَرْضِ وَ اخْتِلَافِ الَّيْلِ وَ النَّهَارِ لَئَايَاتٍ لِأُوْلِى الْأَلْبَابِ.

**"Həqiqətən, göylərin və yerin yaradılması, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən aydın) dəlillər vardır".[2]**

Bu mövzuda olan ayələr saysızdır və biz nümunə olaraq yuxarıdakı ayələri qeyd etməklə kifayətlənirik.

Allahın varlığının isbatına dair yuxarıdakı iki dəlildən əlavə bir çox başqa dəlillər də vardır ki, İslam mütəkəllimlərinin kəlam elmi sahəsində qələmə aldıqları geniş kitablarda şərh edilmişdir.

[1] Ənkəbut surəsi, 65-ci ayə.
[2] Ali-İmran surəsi, 90-cı ayə.

O gələcək...

# TÖVHİD VƏ ONUN MƏRTƏBƏLƏRİ

Tövhid, yəni təkallahlıq bütün səmavi dinlərin təməl inanclarındandır. Baxmayaraq ki, bəzi səmavi dinlərin ardıcılları arasında bu təməl əqidədə düz yoldan sapanlar da tapılır.

Burada Quran ayələri və səhih hədislərə istinad edərək, eləcə də əqli dəlillərə əsaslanaraq tövhidin mərtəbələri barədə danışacağıq.

## İyirmi səkkizinci bəhs

Tövhidin birinci mərtəbəsi “zati tövhid”dir. Zati tövhid iki cür izah olunur:

Allahın zatı tək və bənzərsizdir. Onun tayı-bərabəri, oxşarı təsəvvüredilməzdir.

Allahın zatı bəsitdir, yəni mürəkkəb deyildir.

Həzrət Əli (ə) yuxarıdakı bu iki izah barədə buyurmuşdur:

1) O vahiddir (yeganə) və varlıqlar arasında Onun bənzəri yoxdur:

هُوَ وَاحِدٌ لَيْسَ لَهُ فِى الْأَشْيَاءِ شِبْهٌ

2) Allah “əhədiyyul-məna”dır, yəni nə zehindən xaricdə (obyektiv reallıqda), nə təxəyyüldə, nə də zehində Onun üçün hissələr təsəvvüredilməzdir (Onun hissələrə bölünməsi qeyri-mümkündür):[1]

وَ أَنَّهُ عَزَّ وَ جَلَّ أَحَدِىُّ الْمَعْنى لَا يَنْقَسِمُ فِى وُجُودٍ وَ لَا وَهْمٍ وَ لَا عَقْلٍ

Müsəlmanların tövhid barədəki əqidəsini bəyan edən “İxlas” surəsi hər iki mənanı özündə ehtiva edir:

[1] “Tövhid”, Səduq, səh. 84, 3-cü fəsil, hədis: 3.

O gələcək...

**1) “Onun heç bir tayı-bərabəri yoxdur”.**[1]

**“De ki: “O Allah əhəddir!”**[2]

Deməli, xristianlıqdakı “təslis” inancı (yəni “üçallahlıq”: Ata Allah, Oğul Allah və Müqəddəs Ruh Allah) Qurani-Kərimin məntiqinə görə yanlış bir inancdır. Bu məsələ kəlam elminə aid kitablarda təfsilatilə izah edilmişdir. Biz isə bu məsələyə aid təkcə bir məqama toxunmaqla kifayətlənirik:

Üçallahlıq mənasını ifadə edən “təslis” aşağıdakı iki təsəvvürdən xali deyil:

1. Bu üç Allahın hər biri ayrıca varlığa və şəxsiyyətə sahibdir. Yəni onların hər biri mütləq mənada Allahdır. Bu təsəvvür “zati tövhid”in birinci mənasına (Allahın tayı-bərabəri yoxdur) ziddir.

2. Bu üç Allah eyni bir varlıq və şəxsiyyətdir və onlardan hər biri bu varlığın bir hissəni təşkil edir. Bu təqdirdə Allahın mürəkkəbliyi (hissələrdən təşəkkül tapması) lüzumu yaranır ki, bu da “zati tövhid”in ikinci mənasına ziddir.

## İyirmi doqquzuncu bəhs

Tövhidin ikinci mərtəbəsi “Allahın zati sifətlərində tövhid”dir.

Bizim əqidəmizə görə Allah bütün kamal sifətlərə sahib olan bir varlıqdır. Bunu həm əql, həm də vəhy təsdiqləyir. Beləliklə, Allah hər şeyi bilən, hər şeyə qadir olan, daima diri (varlığı əzəli və əbədi olan), hər şeyi eşidən, hər şeyi görən və s. sifətlərə sahibdir.

Bu sifətlər məfhum etibarilə bir-birindən ayrıdır, yəni bizim “alim” sözündən anladığımız məna “qadir” sözündən anladığımız mənadan ayrıdır (ayrı-ayrı məfhumlardır). Burada belə bir sual ortaya çıxır: bu sifətlər məfhum etibarilə (məfhum müstəvisində, zehnimiz daxilində) bir-birindən ayrı olduqları kimi, obyektiv reallıqda (zehindən xaricdə), yəni Allahın zatında da bir-birindən ayrıdırmı, yoxsa vahid bir həqiqətdir?

[1] İxlas surəsi, 4-cü ayə.
[2] İxlas surəsi, 1-ci ayə.

Cavab olaraq demək lazımdır ki, bu sifətlərin Allahın zatında bir-birindən ayrı olması Allahın zatında mürəkkəblik zərurəti yaradır. **Ona görə də sadalanan bu sifətlər məfhum etibarilə bir-birindən ayrı olsalar da, Allahın zatında vahid bir həqiqətdir.** Başqa sözlə, Allahın zatı bəsit olmaqla bərabər bütün bu kamilliklərə sahibdir. Heç də belə deyil ki, Allahın zatının bir qismini elm, digər qismini qüdrət və üçüncü bir qismini isə həyat təşkil etsin. Alimlərin təbirilə desək, "O, bütövlükdə elmdir, bütövlükdə qüdrətdir və bütövlükdə həyatdır…"[1]

Burada başqa bir dəqiq məsələyə diqqət yetirmək lazımdır. O da bundan ibarətdir ki, **Allahın zati sifətləri qədim və əzəli olmaqla bərabər, həm də Onun zatının özüdür.** Allahın sifətlərini qədim və əzəli sayıb, lakin bu sifətlərin "zata əlavə olunduğu"nu ("zayid bər zat") iddia edənlər yanlışlığa yol veriblər. Bu nəzəriyyə əslində, Allahın sifətlərinin insanın sifətlərinə bənzədilməsindən qaynaqlanmışdır. Belə ki, insanın sifətləri onun zatına əlavə olunduğu üçün Allahın sifətlərinin də belə olduğu təsəvvür edilmişdir.

İmam Sadiq (ə) buyurmuşdur:

"Allah - əzzə və cəllə - əzəldən Rəbbimiz idi və olmaqdadır. Elm əhatəsində olanlar mövcud olmamışdan öncə də "elm" Onun zatı idi. Eşidilənlər mövcud olmamışdan öncə də "eşitmə" Onun zatı idi. Görünənlər mövcud olmamışdan öncə də "görmə" Onun zatı idi. Qüdrət əhatəsində olanlar mövcud olmamışdan öncə də "qüdrət" Onun zatı idi".[2]

Əmirəl-möminin Əli (ə) **"Allahın sifətləri ilə zatının vəhdəti"ni** bəyan edərək buyurmuşdur:

"Tövhiddə ixlasın kamalı budur ki, Onun üçün vəsfləri (sifətlərin zata əlavə olunduğunu) inkar edək, çünki hər bir "vəsf" "vəsf olunan"dan və hər bir "vəsf olunan" da "vəsf"dən ayrı olduğunu göstərir".[3]

---

[1] Sədrul-mutəəllihin, Əsfar-i ərbəə, c. 6, səh. 135.
[2] "Tövhid", Səduq, səh. 139, 11-ci fəsil, hədis: 1.
[3] Nəhcul-bəlağə, xütbə: 1.

Bəziləri məlumatlarının azlığı üzündən bu nəzəriyyəni ("Allahın sifətləri ilə zatının vəhdəti" nəzəriyyəsini) "muəttələ" nəzəriyyəsi hesab etmişlər. Halbuki, "muəttələ" nəzəriyyəsinin tərəfdarları Allahın zatının "camal sifətlər"ə sahib olduğunu qəbul etmirlər və onların mülahizələrindən Allahın zatının kamilliklərə sahib olmaması zərurəti meydana çıxır. Bu yanlış nəzəriyyənin "Allahın sifətləri ilə zatının vəhdəti" nəzəriyyəsi ilə heç bir əlaqəsi yoxdur. Hətta "Allahın sifətləri ilə zatının vəhdəti" nəzəriyyəsi Allahın camal sifətlərə sahib olduğunu isbat etməklə yanaşı, "sifətlərin zata əlavə olunduğu" nəzəriyyəsini irəli sürənlərin qarşılaşdıqları "təəddud-e qudəma" (qədimlərin çoxsaylılığı) kimi iraddan da kənarda qalmış olur.

## Otuzuncu bəhs

Tövhidin üçüncü mərtəbəsi "xaliqiyyətdə tövhid"dir (xəlq etmədə, yaratmada tövhid). Yəni Allahdan başqa bir yaradan yoxdur və varlıq libası geyinən hər şey – əvvəlcə olmayıb sonradan var olan hər şey - Allah-Təalanın məxluqu, yaratdığıdır. Qurani-Kərim tövhidin bu mərtəbəsinə işarə edərək buyurur:

... قُلِ اللَّهُ خَالِقُ كُلِّ شَىْءٍ وَ هُوَ الْوَاحِدُ الْقَهَّارُ.

**"De ki: "Allah hər şeyin xaliqidir! O, hər şeyə qalib olan və təkdir!"**[1]

ذَالِكُمُ اللَّهُ رَبُّكُمْ خَالِقُ كُلِّ شَىْءٍ لَا إِلَاهَ إِلَّا هُوَ...

**"Bu sizin Rəbbiniz, hər şeyin xaliqi olan Allahdır. Ondan başqa heç bir ilah (məbud) yoxdur!"**[2]

Vəhy ilə (Qurani-Kərimin ayələri ilə) yanaşı əql də "xaliqiyyətdə tövhid"i təsdiq edir. Belə ki, Allahdan qeyri bütün varlı-

[1] Rəd surəsi, 16-cı ayə.
[2] Mumin surəsi, 62-ci ayə.

qlar “mümkünül-vücud”dur[1], odur ki, “var olma”ları Allah-Təaladan asılıdır.

Əlbəttə, “xaliqiyyətdə tövhid” varlıq aləminə hakim olan səbəb-nəticə qanununun (determinizm) inkarı anlamına gəlmir. Belə ki, fenomenlərin (mümkünül-vücudların) bir-biri ilə əlaqəsi, bir-birinə təsir göstərə bilməsi də məhz Allahın izninə söykənir: həm “səbəb”in mövcud olması, həm də fenomenlərin “səbəb” ola bilməsi Allahın iradəsidir (istəyidir). Günəşə və Aya hərarət və nur bəxş edən Odur, istədiyi vaxt da bu təsirləri onlardan ala bilər. Buna görə də Allah yeganə və şəriki olmayan Xaliqdir (Yaradandır).

Səkkizinci bəhsdə qetdik ki, Qurani-Kərim səbəb-nəticə qanunu haqda söz açmışdır. Allah-Təala buyurur:

اللّهُ الَّذِى يُرْسِلُ الرِّيَاحَ فَتُثِيرُ سَحَابًا فَيَبْسُطُهُ فِى السَّمَاءِ كَيْفَ يَشَاءُ...

**“Buludları hərəkətə gətirən, külələri göndərib onları göy üzündə istədiyi kimi topa-topa edən və yayan Allahdır”.**[2]

Yuxarıdakı ayədə aydın şəkildə bəyan olunur ki, buludlar küləyin təsiri ilə hərəkət edir.

Bütün fenomenlərin Allahın “xaliqiyyət”i əhatəsində olması (yəni bütün fenomenlərin Allahın məxluqu olması) bu anlamda deyil ki, insanların çirkin əməlləri də Allaha nisbət verilməlidir. Bəli, Allahdan qeyri varlıqlar, fenomenlər “mümkünül-vücud” olduqlarından Allahın mütləq qüdrəti və iradəsinə isnad edilmədən “vücuda gəlmə, var olma” onlar üçün təsəvvürolunmazdır.

Lakin insana gəlincə, o, Allahın təqdiri ilə (Allahın yazısı ilə) öz əməlləri hüdudlarında azaddır, bu mənada ki, hansı əməli yerinə yetirəcəyinə özü qərar verir, seçim və ixtiyara

[1] Allahdan qeyri varlıqların “mümkünül-vücud”, Allahın isə “vacibul-vücud” olması kəlam elminə dair geniş kitablarda əqli dəlillərlə sübuta yetirilir. Müt.

[2] Rum surəsi, 48-ci ayə.

O gələcək...

sahibdir.[1] Buna görə də insanın əməlinin (Allaha) "itaət" və ya "üsyan" olması onun qərarına və seçiminə bağlıdır.

Başqa sözlə, Allah-Təala var edəndir. Varlıq birmənalı olaraq Ondandır və Ona isnad verilir, bu baxımdan yaradılışda hər hansı "nöqsan"dan söhbət gedə bilməz. Rəbbimiz buyurur:

الَّذِى أَحْسَنَ كُلَّ شَىْءٍ خَلَقَهُ...

**"O (Allah), yaratdığı hər şeyi gözəl yaratdı!"[2]**

Lakin insanın əməllərinin əql və şəriətin ölçülərinə uyğun olub-olmaması insanın qərarından və seçimindən asılıdır. Məsələni daha ətraflı izah etmək üçün "yemək" və "içmək" kimi iki felə nəzər salaq. Bu iki fel bir varlıq, bir fenomen olma baxımından Allaha isnad verilir. Lakin bu varlıq, insanın bədən üzvlərinin ixtiyari hərəkətilə "yemək" və "içmək" qəlibinə düşdüyündən (yəni bu varlığı "yemək" və "içmək" qəlibinə salan insan olduğu üçün) əlbəttə ki, "yemək" və "içmək" insana isnad verilməlidir. Belə ki, heç bir vəchlə bu qəlibdə olan bu iki feli Allaha nisbət vermək olmaz. Beləliklə, Allah varlıq bəxş edəndir (var edəndir), insan isə yeyən, içən, hansısa bir işi yerinə yetirəndir.

## Otuz birinci bəhs

Tövhidin dördüncü mərtəbəsi "rübubiyyətdə tövhid"dir, yəni kainatı və insanı "idarə edən"in yeganəliyi, Rəbbin yeganəliyi. "Rübubiyyətdə tövhid" iki sahədə özünü göstərir:

**1. Təkvini rübubiyyət;**

**2. Təşrii rübubiyyət.**

"Təşrii rübubiyyət" haqqında bir qədər irəlidə bəhs edəcəyik. İndi isə "təkvini rübubiyyət" haqqında bəhs edirik.

[1] İnsanın öz əməlləri hüdudlarında azad və seçim ixtiyarına sahib olması barədə "Ədalət" mövzusuna aid bəhslərdə söz açacağıq.
[2] Səcdə surəsi, 17-ci ayə.

O gələcək...

# TƏKVİNİ RÜBUBİYYƏT

Təkvini rübubiyyət, "yaradılış aləminin (məxluqatın) idarə edilməsi" deməkdir. Bu mənada ki, yaradılış aləminin idarə edilməsi yaradan Allahın felidir, yəni məxluqatı bir olan Allah yaratmış və O da idarə edir.

Qeyd edək ki, insanın gördüyü işlərdə "idarə edən" "icad edən"dən ayrı ola bilər. Məsələn, bir nəfər bir zavod tikir və başqa bir nəfər bu zavodu idarə edir. Lakin yaradılış aləmində **"rübubiyyət" "xaliqiyyət"dən ayrı deyildir,** yəni "idarə edən"lə "icad edən, yaradan" ayrı-ayrı varlıqlar deyil, eyni bir varlıqdır.[1]

Peyğəmbərlərin tarixini araşdırdıqda görürük ki, "xaliqiyyətdə tövhid", yəni varlıqların bir olan Allah tərəfindən yaradılması məsələsi ilahi peyğəmbərlərlə onların ümmətləri arasında mübahisə mövzusu olmamışdır. Şirk (yəni Allaha şərik qoşma) adətən kainatın idarə olunması məsələsində (rübubiyyət), bunun ardınca da ibadət və pərəstişdə (übudiyyət) özünü göstərmişdir. İbrahim peyğəmbərin (ə) dövründəki müşriklər Xaliqin (Yaradanın) yeganəliyinə etiqad bəsləmişlər, lakin yanlış olaraq belə zənn etmişlər ki, ulduz, Ay və ya Günəş yaradılış aləminin rəbbləridir (idarə edənləridir). İbrahim peyğəmbərin (ə) onlarla mübahisəsi də məhz bu məsələdə olmuşdur.[2]

İbrahim peyğəmbərdən (ə) sonra yaşamış Yusif peyğəmbərin (ə) zamanında da şirk "rübubiyyət" məsələsində idi: güya, Allah aləmi yaratdıqdan sonra onu idarə etməyi başqalarına həvalə etmişdir. Həzrət Yusif (ə) zindandakı məhbuslarla etdiyi mübahisədə də bu yanlış inanca toxunur. Yusif peyğəmbər (ə) onlara belə buyurur:

---

[1] Yaradılış aləmində "rübubiyyət"in "xaliqiyyət"dən ayrı olmaması müddəası kəlam elminə dair kitablarda əqli dəlillə sübuta yetirilir. Müt.
[2] Ənam surəsi, 76-78-ci ayələr.

O gələcək...

يَا صَاحِبَيِ السِّجْنِ ءَأَرْبَابٌ مُّتَفَرِّقُونَ خَيْرٌ أَمِ اللَّهُ الْوَاحِدُ الْقَهَّارُ.

**“Ey mənim iki zindan yoldaşım! Ayrı-ayrı rəblər daha yaxşıdır, yoxsa hər şeyə qadir və qalib olan bir Allah?!”[1]**

Həzrət Məhəmməd peyğəmbərin (s) zamanındakı müşriklər isə talelərinin bir qisminin “məbudlarının” (pərəstiş etdikləri bütlərin) əlində olduğuna inanırmışlar. Rəbbimiz buyurur:

وَ اتَّخَذُواْ مِن دُونِ اللَّهِ ءَالِهَةً لِيَكُونُواْ لَهُمْ عِزًّا.

**“Müşriklər onları izzətli etsinlər (Qiyamət günü onlar üçün şəfaət diləsinlər) deyə, Allahdan başqa ilahlar (məbudlar) qəbul etdilər”.[2]**

Həmçinin buyurur:

وَ اتَّخَذُواْ مِن دُونِ اللَّهِ ءَالِهَةً لَعَلَّهُمْ يُنصَرُونَ. لَا يَسْتَطِيعُونَ نَصْرَهُمْ وَ هُمْ لَهُمْ جُندٌ مُحْضَرُونَ.

**“(Müşriklər), bəlkə özlərinə bir yardım oluna deyə, Allahdan başqa ilahlar (məbudlar) qəbul etdilər. O ilahlar (müşriklərin tapındıqları bütlər) onlara heç bir kömək edə bilməzlər. Onların özləri isə o ilahlar (bütlər) üçün (onları başqalarından qoruyan) hazır əsgərlərdir”.[3]**

Qurani-Kərim bir çox ayələrdə müşriklərə xəbərdarlıq edir ki, sizin ibadət etdiyiniz məbudlar nə özlərinə, nə də sizlərə heç bir mənfəət və ya zərər vermək iqtidarında deyillər. Məlum olur ki, Həzrət Peyğəmbərin (s) dövründəki müşriklər tapındıqları bütlərin onlara mənfəət və ya zərər verməyə qadir olduqlarına inanırmışlar, bu səbəbdən də bütlərə ibadət edirmişlər.[4]

---

[1] Yusif surəsi, 39-cu ayə.
[2] Məryəm surəsi, 81-ci ayə.
[3] Yasin surəsi, 74-75-ci ayələr.
[4] Yunus surəsi, 18-ci ayə; Furqan surəsi, 55-ci ayə.

Həzrət Peyğəmbərin (s) dövründəki müşriklərin əqidəsini bəyan edən ayələrdən belə məlum olur ki, onlar (müşriklər) “xaliqiyyətdə tövhid”ə etiqad bəsləmiş, lakin Allahın rübubiyyəti hüdudlarında olan bir sıra işlərdə Allaha şərik qoşaraq öz məbudlarının bu işlərə təsir edə biləcəklərini zənn etmişlər. Qurani-Kərim onları bütlərə ibadətdən çəkindirmək üçün bu fikrin yanlışlığını ortaya qoyaraq buyurmuşdur: **“Sizin məbudlarınız bu işləri görməyə acizdirlər!”**

Allah-Təala bəzi ayələrdə müşrikləri məzəmmət edərək buyurur ki, onlar bütləri Allaha şərik qoşur və onları Allahı sevən kimi sevirlər:

وَ مِنَ النَّاسِ مَن يَتَّخِذُ مِن دُونِ اللَّهِ أَندَادًا يُحِبُّونَهُمْ كَحُبِّ اللَّهِ...

**“İnsanlar içərisində Allahdan qeyrilərini Allaha şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır”.**[1]

Qurani-Kərimin bir sıra başqa ayələrində də Allah-Təalaya şərik qoşanlar məzəmmət ediliblər.[2] Deməli, müşriklər tapındıqları bütlərin Allaha xas olan sifətlərə malik olduğunu zənn etmiş və elə bu səbəbdən də onları sevmişlər. Başqa sözlə, öz bütlərini bəzi cəhətlərdən Allahın bənzəri və şəriki hesab etdiklərindən onlara tapınmışlar.

Allah-Təala Quranda buyurur ki, Qiyamət günü müşriklər özlərini və öz bütlərini belə məzəmmət edəcəklər:

تَاللَّهِ إِن كُنَّا لَفِى ضَلَالٍ مُبِينٍ. إِذْ نُسَوِّيكُم بِرَبِّ الْعَالَمِينَ.

**“Allaha and olsun ki, biz (haqq yoldan) açıq-aydın azmışdıq! Çünki biz sizi (siz bütləri) aləmlərin Rəbbi ilə bərabər tuturduq”.**[3]

Allah-Təalanın “rübubiyyət”i vüsətlidir (çoxşaxəlidir). Odur ki, Həzrət Peyğəmbərin (s) dövründəki müşrikləri ruzi

---

[1] Bəqərə surəsi, 165-ci ayə.

[2] Bax: Bəqərə-21; İbrahim-30; Səba-33; Zumər-8; Fussilət-9.

[3] Şuəra surəsi, 97-98-ci ayələr.

vermək, dirildib-öldürmək, varlıq aləminin bütövlükdə idarə olunması kimi mühüm məsələlərdə müvəhhid (təkallahlı) hesab etmək olar. Allah-Təala bu xüsusda buyurur:

قُلْ مَنْ يَرْزُقُكُمْ مِنَ السَّمَاءِ وَ الْأَرْضِ أَمَّن يَمْلِكُ السَّمْعَ وَ الْأَبْصَارَ وَ مَن يُخْرِجُ الْحَىَّ مِنَ الْمَيِّتِ وَ يُخْرِجُ الْمَيِّتَ مِنَ الْحَيِّ وَ مَنْ يُدَبِّرُ الْأَمْرَ فَسَيَقُولُونَ اللَّهُ فَقُلْ أَفَلَا تَتَّقُونَ.

**(Ya Məhəmməd!) De ki: "Sizə göydən və yerdən kim ruzi verir? Qulaqlara və gözlərə sahib olan (onları yaradan) kimdir? Ölüdən diri, diridən ölü çıxardan kimdir? Hər işi düzüb-qoşan (idarə edən), sahmana salan kimdir?" Onlar: "Allahdır!"- deyəcəklər. De ki: "Bəs onda Allahdan qorxmursunuz?"[1]**

قُلْ لِمَنِ الْأَرْضُ وَ مَنْ فِيهَا إِن كُنتُمْ تَعْلَمُونَ. سَيَقُولُونَ لِلَّهِ قُلْ أَفَلَا تَذَكَّرُونَ. قُلْ مَنْ رَبُّ السَّمَاوَاتِ السَّبْعِ وَ رَبُّ الْعَرْشِ الْعَظِيمِ. سَيَقُولُونَ لِلَّهِ قُلْ أَفَلَا تَتَّقُونَ.

**(Ya Məhəmməd! Bu müşriklərə) de ki: "Əgər bilirsinizsə, (bir deyin görək) bu yer və yer üzündə olanlar (bütün məxluqat) kimindir?" Onlar mütləq: "Allahındır!"- deyə cavab verəcəklər. Sən də de ki: "Bəs elə isə düşünmürsünüz?" De ki: "Yeddi (qat) göyün Rəbbi, o böyük, əzəmətli ərşin sahibi kimdir?" Müşriklər mütləq: "Allahdır!"-deyə cavab verəcəklər. Onda sən də de ki: "Bəs elə isə qorxmursunuz?"[2]**

Lakin, elə bu insanlar daha öncə qeyd etdiyimiz Məryəm və Yasin surələrindəki ayələrə istinadən, savaşda qələbə

[1] Yunus surəsi, 30-cu ayə.
[2] Muminun, 84-87-ci ayələr.

çalmaq, səfər zamanı xata-bəladan qorunmaq və s. bu kimi işlərdə "öz məbudlarının" yaradılış aləminin taleyinə təsir edə biləcəklərini zənn etmişlər. Həmçinin tapındıqları bu bütlərin onlara şəfaətçi ola biləcəklərini və bu şəfaətin də təsirli olacağını (onların taleyini dəyişə biləcəyini) düşünmüşlər.

Deməli, Peyğəmbər (s) dövrünün müşrikləri kainatın bəzi işlərini Allahın idarə etdiyinə, lakin şəfaət, xeyir və zərər vermək, izzət bəxş etmək, əfv etmək və s. işlərin isə tapındıqları məbudların (əldəqayırmı bütlərin) ixtiyarında olduğuna inanmışlar.

Bəzən müşriklər bütpərəstliklərinə haqq qazandırmaq üçün belə deyirmişlər: Bizi Allaha yaxınlaşdırsınlar deyə biz bütlərə ibadət edirik. (Yəni biz onların bizim həyatımıza təsir edəcəyini düşünmürük.) Qurani-Məcid onların bu iddiasını belə nəql edir:

مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَا إِلَى اللَّهِ زُلْفَى...

**"Biz onlara (bütlərə) yalnız bizi Allaha yaxınlaşdırmaları üçün ibadət edirik!"**

Lakin ayənin davamı onların yalan söylədiklərindən xəbər verir:

... إِنَّ اللَّهَ لَا يَهْدِى مَنْ هُوَ كَاذِبٌ كَفَّارٌ.

**"Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!"**[1]

Beləliklə, "rübubiyyətdə tövhid" bundan ibarətdir ki, heç kim Allahın izni olmadan və müstəqil şəkildə insanın və kainatın işlərini – istər böyük işlər olsun, istərsə də kiçik işlər - idarə etmir, edə də bilməz. Qurani-Kərim "rübubiyyət"in yalnız uca Allaha aid olduğunu əsas tutaraq Ondan başqasına ibadəti də qəbuledilməz hesab edir.

[1] Zumər surəsi, 3-cü ayə.

"Rübubiyyətdə tövhid"in dəlili aydındır. Belə ki, qeyd olunduğu kimi "rübubiyyət" "xaliqiyyət"dən ayrı deyildir (yəni Rəbb və Xaliq eyni bir varlıqdır). Əgər Xaliq birdirsə, deməli Rəbb də bir olacaqdır.

Qurani-Kərimdə də Allah-Təala göylərin yaradılışı haqqında söhbət açarkən Özünü Rəbb - bu aləmin bütün işlərini idarə edən kimi təqdim edir və buyurur:

اللّٰهُ الَّذِى رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ وَ سَخَّرَ الشَّمْسَ وَ الْقَمَرَ كُلٌّ يَجْرِى لِأَجَلٍ مُسَمًّى يُدَبِّرُ الْأَمْرَ...

**"Göyləri sizin görə bilmədiyiniz dayaqla yüksəldən, sonra ərşi hökmü altına alan, müəyyən vaxta qədər (səmada) dolanan Günəşi və Ayı (iradəsinə) tabe edən, bütün işləri idarə edən Allahdır!"**[1]

Başqa bir ayədə kainata hakim olan həmahəngliyi onu idarə edənin yeganəliyinə dəlil gətirərək buyurur:

لَوْ كَانَ فِيهِمَا ءَالِهَةٌ إِلَّا اللّٰهُ لَفَسَدَتَا...

**"Əgər yerdə və göydə Allahdan başqa ilahlar olsaydı, onların ikisi də (müvazinətdən çıxıb) pozulardı".**[2]

Bir daha xatırladırıq ki, "rübubiyyətdə tövhid" ilə **"Allahın izni ilə"** yaradılış aləminin işlərini idarə edən və həqiqətdə öhdələrinə qoyulan vəzifələri yerinə yetirən "idarəçilər"in varlığına etiqad arasında heç bir ziddiyyət yoxdur. Bunun özü Allahın rübubiyyətinin bir təzahürüdür. Belə ki, Qurani-Kərim "rübubiyyətdə tövhid" üzərində möhkəm dayanmaqla yanaşı, belə varlıqların olmasını da açıq şəkildə bəyan etmişdir:

فَالْمُدَبِّرَاتِ أَمْرًا.

[1] Rəd surəsi, 2-ci ayə.
[2] Ənbiya surəsi, 2-ci ayə.

**“And olsun işə əncam çəkənlərə (Allahın əmri ilə dünyanın işlərini idarə edən mələklərə)”.**[1]

## Otuz ikinci bəhs

“Rübubiyyət” dedikdə, kainatın və insanın bütün işlərinin – dünya və axirətə aid, varlığa (təkvin) və şəriətə (təşri) aid bütün işlərin - idarə edilməsi nəzərdə tutulur. Beləliklə, insan həyatının idarə edilməsi hər bir baxımdan yalnız Allaha aiddir.

[1] Naziat surəsi, 5-ci ayə.

# TƏŞRİİ RÜBUBİYYƏT

Öyrəndik ki, Allah kainatın yeganə Rəbbidir. Məxluqatın, o cümlədən insanın idarə edilməsi yalnız Allahın ixtiyarında olduğu kimi (təkvini rübubiyyət), şəriətə aid bütün işlər də - hakimiyyət və rəhbərlik, qanunvericilik, şəfaət, günahların bağışlanması və s. – yalnız Allahın ixtiyarındadır. Allahın izni olmadan heç kəsin bu işlərə səlahiyyəti çatmır.

Bu səbəbdən “hakimiyyətdə tövhid”, “qanunvericilikdə tövhid” və s. “rübubiyyətdə tövhid”in şaxələri hesab edilir.

Deməli, əgər Həzrət Peyğəmbər (s) müsəlmanların rəhbəri olursa, bu, Allahın izni və istəyi ilədir. Elə bu səbəbdən də Peyğəmbərə (s) itaət etmək Allaha itaət etmək kimi vacibdir. Hətta demək olar ki, Peyğəmbərə (s) itaət, elə Allaha itaətdir. Rəbbimiz buyurur:

مَنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللَّهَ...

**“Peyğəmbərə itaət edən şəxs, şübhəsiz ki, Allaha itaət etmiş olur”.**[1]

Həmçinin buyurur:

وَ مَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا لِيُطَاعَ بِإِذْنِ اللَّهِ...

**“Biz hər bir peyğəmbəri ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik”.**[2]

Əgər Allahın izni olmasaydı, Peyğəmbər (s) nə əmr sahibi olardı, nə də ona itaət etmək müsəlmanlara vacib buyu-

[1] Nisa surəsi, 80-ci ayə.
[2] Nisa surəsi, 64-cü ayə.

O gələcək...

rulardı. Əslində, Peyğəmbərin (s) əmr sahibi olması Allahın mütləq hakimiyyətinin təcəllisidir.

Ümumiyyətlə, vəzifə və öhdəliklər müəyyən etmək Allahın "rübubiyyət" məqamına aid olduğundan Allahın verdiyi göstərişdən qeyri bir şeyi əmr etməyə kimsənin haqqı yoxdur:

... وَ مَنْ لَمْ يَحْكُمْ بِمَا أَنْزَلَ اللَّهُ فَأُوْلَئِكَ هُمُ الْكَافِرُون.

**"Allahın nazil etdiyilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!"[1]**

Həmçinin şəfaət etmək və günahları bağışlamaq yalnız Allaha məxsusdur və heç kəs Allahın izni olmadan şəfaət edə bilməz. Rəbbimiz buyurur:

... مَنْ ذَا الَّذِى يَشْفَعُ عِندَهُ إِلَّا بِإِذْنِهِ...

**"Allahın izni olmadan Onun yanında (hüzurunda) kim şəfaət edə bilər?"[2]**

Həmçinin buyurur:

... وَ لَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَى...

**"Onlar yalnız Allahın razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilər".[3]**

Buna görə də xristianlıqda geniş yayılan "əfv vərəqələrinin alğı-satqısı" - bu təsəvvürlə ki, Rəbbdən qeyri hansısa bir kəs Cənnəti sata və ya kimisə cəhənnəm əzabından qurtara bilər - İslama görə mənasız bir işdir. Allah-Təala buyurur:

... فَاسْتَغْفَرُواْ لِذُنُوبِهِمْ وَ مَن يَغْفِرُ الذُّنُوبَ إِلَّا اللَّهُ...

---

[1] Maidə surəsi, 44-cü ayə.

[2] Bəqərə surəsi, 255-ci ayə

[3] Ənbiya surəsi, 28-ci ayə.

**“(Müttəqilər) günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər?”[1]**

Deyilənlərə əsasən, müvəhhid bir şəxs şəriətə aid işlərdə yalnız Allaha və şəri vəzifələri bizlərə bəyan etmək üçün Allahın seçdiyi insanlara müraciət etməli, yalnız Onu bu işlərə hakim saymalıdır.

## Otuz üçüncü bəhs

“İbadətdə tövhid” bütün səmavi dinlərin təməl inancıdır. Qurani-Kərimdə buyurulur ki, ilahi peyğəmbərlər bu inancı bəşər övladına xatırlatmaqdan ötrü göndərilmişlər:

وَ لَقَدْ بَعَثْنَا فِى كُلِّ أُمَّةٍ رَسُولاً أَنِ اعْبُدُواْ اللَّهَ وَ اجْتَنِبُواْ الطَّاغُوتَ...

**“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan çəkinin!” - deyə peyğəmbər göndərmişdik”.[2]**

Namazda hər bir müsəlman “ibadətdə tövhid”ə şəhadət verərək deyir:

إِيَّاكَ نَعْبُدُ...

**“Biz yalnız Sənə ibadət edirik...”[3]**

Buna görə də “yalnız Allaha ibadət etmək, Ondan qeyrisinə ibadət etməmək” məsələsi mübahisə mövzusu deyil və heç kim bu inanca qarşı çıxmır. Mübahisəli məsələ bəzi əməllərin Allahdan qeyrisinə ibadət sayılıb-sayılmamasıdır.

Bu məsələ barədə qəti fikir bildirmək üçünsə “ibadət”in tərifini bilmək və “ibadət” sayılan əməl ilə “təzim və ehtiram” hesab edilən əməli bir-birindən ayıran meyarı tanımaq lazımdır.

Heç şübhəsiz, ata-anaya, ilahi peyğəmbərlərə və övliyalara ibadət etmək haram və şirkdir (Allaha şərik qoşmaqdır).

---

[1] Ali-İmran surəsi, 135-ci ayə.

[2] Nəhl surəsi, 36-cı ayə.

[3] Fatihə surəsi, 5-ci ayə.

O gələcək...

Lakin onlara təzim və ehtiram göstərmək vacibdir və tövhidin özüdür:

وَ قَضَى رَبُّكَ أَلَّا تَعْبُدُواْ إِلَّا إِيَّاهُ وَ بِالْوَالِدَيْنِ إِحْسَانًا...

**"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi buyurmuşdur".**[1]

Burada "ibadət" ilə "ehtiram"ı bir-birindən ayıran meyarı tanımaq və aşağıdakı suala cavab vermək lazımdır:

Necə olur ki, eyni bir əməl bəzi hallarda (məsələn, mələklərin Adəmə səcdə etməsi, yaxud Yəqub peyğəmbərin (ə) övladlarının Yusifə səcdə etməsi) tövhid, bəzi hallarda isə (məsələn, müşriklərin bütlərə səcdə etməsi) şirk və bütpərəstlik sayılır?

Bu sualın cavabı "rübubiyyətdə tövhid" bəhsindən aydınlaşır. İbadət və pərəstiş odur ki, insan "məxluqatın sahibi" və "rəbb" hesab etdiyi bir varlığa əyilir, ona mütilik göstərir (istər məxluqatın taleyinin bütövlükdə, istərsə də məxluqatın taleyinin bir qisminin bu rəbbin əlində olduğuna inam bəsləsin).

Lakin əgər bir şəxsə Allahın saleh, fəzilətli və kəramətli bəndəsi olduğuna görə mütilik göstərilərsə, bu, ibadət deyil, təzim və ehtiram hesab edilir. Mələklərin və Yəqub peyğəmbərin övladlarının səcdəsi şirk və Allahdan qeyrisinə ibadət sayılmırdı. Çünki bu mütilik Adəmin və ya Yusif peyğəmbərin rübubiyyətinə etiqaddan qaynaqlanmırdı.

Məhz bu meyarı nəzərə alıb müsəlmanların Allah övliyalarının məzarlıqlarında nümayiş etdirdikləri ehtiram haqda mühakimə yürütmək lazımdır. Müqəddəs məqbərələri öpmək və ya Həzrət Peyğəmbərin (s) mövludu (anadan olması), besəti (peyğəmbərliyə seçilməsi) ilə əlamətdar olan günlərdə sevinib şadlanmaq sevimli Peyğəmbərimizə (s), həmçinin Allah övliyalarına olan məhəbbət və ehtiramın təzahürüdür. Bu işlər

[1] İsra surəsi, 23-cü ayə.

əsla onların rübubiyyətə sahib olmaları kimi batil inanclardan qaynaqlanmır. Məclislərdə ilahi övliyalara mədhiyyə və mərsiyə oxumaq, peyğəmbərlərdən yadigar qalmış irsi qoruyub saxlamaq, övliyaların qəbirləri üzərində məqbərə ucaltmaq kimi işlər nə şirkdir, nə də ki bidət. Ona görə şirk deyil ki, bu işlər Allah övliyalarının rübubiyyətinə etiqaddan deyil, onlara qarşı sevgidən irəli gəlir. Ona görə bidət hesab edilə bilməz ki, bu əməllər Quran və hədislərə əsaslanır. Sözügedən mənbələr Peyğəmbəri (s) və Əhli-beyti (ə) sevməyi vacib buyurmuşdur. Bizim mövlud və besət günlərində ehtiram məqsədilə gördüyümüz işlər bu məhəbbətin bir təzahürüdür. (Bu məsələ "bidət" bəhsində ətraflı surətdə şərh olunacaqdır.)

Bunun müqabilində müşriklərin bütlərə səcdə etmələri bu səbəbdən qəbuledilməzdir ki, onların bu mütiliyi bütlərin "rübubiyyət"inə inamdan irəli gəlirdi (qeyd olunduğu kimi, müşriklər insanların taleyilə bağlı bəzi işlərdə bütlərin ixtiyar sahibi olmalarına etiqad bəsləyirdilər). Müşriklər izzət və zillətin, məğfirət (bağışlanma) və şəfaətin bütlərin əlində olduğuna inanırdılar.

III FƏSİL

# ALLAHIN SİFƏTLƏRİ

# ALLAHIN SİFƏTLƏRİ

## Otuz dördüncü bəhs

Allahın zatı “tayı-bərabəri” olmayan “hüdudsuz” bir gerçəklik olduğundan insan Allahın zatının mahiyyətini dərk etməyə acizdir. Lakin eyni zamanda Allahı “camal” və “cəlal” sifətlər vasitəsilə tanımaq mümkündür.

“Camal sifətlər” Allahın zatındakı kamillikləri əks etdirən sifətlərdir, məsələn, elm, qüdrət, həyat və s. bu sifətlərdəndir.

“Cəlal sifətlər” Allahın şəninə yad olan sifətlərdir və onlar Allaha nisbət verilə bilməz. Çünki bu sifətlər naqisliyə və ehtiyaca dəlalət edir, halbuki, Allah hər cür naqislikdən münəzzəh və mütləq zəngindir. Cism olma, məkan və zamana sığma, mürəkkəb olma və s. “cəlal sifətlər” hesab edilir.

Qeyd edək ki, bəzən camal sifətlərə “sübuti sifətlər”, cəlal sifətlərə isə “səlbi sifətlər” də deyilir.[1]

## Otuz beşinci bəhs

“İslamda idrak vasitələri” adlı bəhsdə qeyd etdik ki, həqiqətlər üç vasitə ilə - hiss, əql və vəhy ilə dərk edilir və bunlar “idrak vasitələri” adlanır. Allahın camal və cəlal sifətlərini tanımaq üçün bu vasitələrin ikisindən faydalanmaq mümkündür:

---

[1] Burada “sübuti” və “səlbi” sifətlərin başqa bir tərifini nəzərinizə çatdırmağı məqsədəuyğun hesab etdik. Bu təriflərə diqqət yetirin:
Sübuti sifətlər, Allahın zatı üçün hər hansı bir “kamalın təsdiqi”ni ifadə edir. Səlbi sifətlər, isə Allahın zatından hər hansı bir “naqisliyin inkarı”nı ifadə edir. “Naqisliyin inkarı” isə elə “kamalın təsdiqi” olduğundan “səlbi sifətlər” də nəticə etibarilə Allahın zatındakı kamillikləri aşılayır. Bu təriflərə əsasən, elm, qüdrət, iradə və s. “sübuti sifətlər”, cism olmamaq, mürəkkəb olmamaq, hərəkətli olmamaq və s. “səlbi sifətlər” olacaqdır. (Məhəmməd Səidimehr, “Amuzeş-e kəlam-e İslami”, c.1, səh.197.)

1. Əql: Allahın məxluqu olan bu kainat və onun əsrarəngizliyi haqqında düşünmək bizi Allah-Təalanın zatındakı kamilliklərə yönəldir.

**Belə bir əzəmətli yaradılış elm, qüdrət və ixtiyar olmadan ərsəyə gələ bilərmi?!**

Qurani-Kərim insanları kainatdakı "nişanə"lər - Allahın varlığına və Onun zatındakı kamilliklərə dəlalət edən nişanələr haqqında düşünməyə çağırır. Rəbbimiz buyurur:

قُلِ انظُرُواْ مَا ذَا فِى السَّمَاوَاتِ وَ الْأَرْضِ...

**"De ki: "Bir gör göylərdə və yerdə nələr var".**[1]

Əlbəttə, təbiət aləmindəki əsrarəngizliklər haqqında mühakimə yürütməkdə əql hiss üzvlərindən kömək alır. Belə ki, insan ilk öncə hiss üzvləri vasitəsilə müəyyən bir varlığın əsrarəngizliyini kəşf edir, sonra isə əql, yaradılışın bu əsrarəngizliyini Yaradanın əzəmət və kamillik nişanəsi olduğuna hökm edir.

2. Vəhy: "Nübüvvət" və "vəhy" tutarlı əqli dəlillərlə isbat olunduqdan sonra, başqa sözlə, Peyğəmbərin (s) Allah-Təala tərəfindən göndərildiyi və Quranın Allah kəlamı olduğu aydınlaşdıqdan sonra təbii ki, bu təqdirdə Quran ayələri və Peyğəmbər (s) hədisləri Allahın sifətlərini tanımaqda bizə istiqamət verib yol göstərə bilər.

Bu iki mənbədə – Quran və hədislərdə - Allah-Təala ən uca sifətlərlə vəsf edilmişdir. Bunu qeyd etmək kifayətdir ki, Qurani-Kərimdə Allah-Təala üçün 135 ad və sifət bəyan edilmişdir. Burada biz onlardan bir nümunəni qeyd etməklə kifayətlənirik:

هُوَ اللَّهُ الَّذِى لَا إِلَاهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ سُبْحَانَ اللَّهِ عَمَّا يُشْرِكُونَ. هُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ لَهُ الْأَسْمَاءُ الْحُسْنَى يُسَبِّحُ لَهُ مَا فِى السَّمَاوَاتِ وَ الْأَرْضِ وَ هُوَ الْعَزِيزُ الْحَكِيمُ.

[1] Yunus surəsi, 101-ci ayə.

**"O, Özündən başqa heç bir ilah olmayan, (bütün məxluqatın) sahibi, müqəddəs və pak olan, əmin-amanlıq və salamatlıq bəxş edən, arxayın edən, (hər şeyə) göz-qulaq olan, yenilməz qüvvət və qüdrət sahibi, qalib olub hökmü keçən və (hər şeyin) fövqündə olan Allahdır! Allah müşriklərin Ona qoşduğu şəriklərdən ucadır!**

**O, yaradan, yoxdan var edən və surət verən Allahdır. Ən gözəl adlar (əsmaül-hüsna) ancaq Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət və hikmət sahibidir!"**[1]

Qeyd etmək lazımdır ki, Allahın sifətlərinə dair bəhsləri qadağan hesab edən firqə "muəttilə" adlanır. Onlar insanı əql və vəhyin istiqamətləndirdiyi ali maarifdən məhrum edirlər. Əgər doğrudan da Allahın sifətləri barədə bəhs etmək və Allahın sifətlərini tanımaq qadağan olsaydı, onda Quranda Allahın bu qədər sifəti bəyan olunmaz və Quran da insanları bu barədə düşünməyə çağırmazdı.

## Otuz altıncı bəhs

Allahın sifətləri başqa bir baxımdan 2 qismə bölünür:

1- Zati sifətlər;

2- Feli sifətlər.

Zati sifətlər yalnız "Allahın zatı"nı nəzərə alaraq Allaha nisbət verilən sifətlərdir. Kəlam elminin təbiri ilə desək, bu sifətlər "Allahın zatından əxz olunur". Elm, qüdrət və həyat bu qəbildən olan sifətlərdir.

Feli sifətlər isə "Allahın zatını Onun feli ilə birgə" nəzərə alaraq Allaha nisbət verilən sifətlərdir. Məsələn, xəlq etmək, ruzi vermək, bağışlamaq və s. sifətlər "Allahın felindən əxz olunur".

---

[1] Həşr surəsi, 23-24-cü ayələr.

Başqa sözlə, Allah xəlq etmək və ruzi vermək kimi felləri yerinə yetirməyənədək "Xaliq bil-fel"[1] və "Raziq bil-fel" adlandırıla bilməz, baxmayaraq ki, Allahın zatı xəlq etmək və ruzi vermək "qüdrət"inə malikdir.

Sonda xatırladırıq ki, Allahın bütün feli sifətləri Onun zatından və zati kamalından qaynaqlanır, yəni Allah mütləq kamala sahibdir və bütün bu feli sifətlərin qaynağıdır.

[1] Fəlsəfə terminidir. Bil-fel bil-qüvvənin müqabilindədir. Müasir terminologiyada bil-qüvvə "potensial", bil-fel isə "aktual" deməkdir.

# ALLAHIN ZATİ SİFƏTLƏRİ

Allahın “sübuti” və “səlbi”, “zati” və “feli” sifətlərini izah etdikdən sonra bu sifətlərə aid bir sıra mühüm məsələlərə də aydınlıq gətirməyi məqsədəuyğun hesab etdik.

## Otuz yeddinci bəhs

### 1. Əzəli və hüdudsuz elm

Allahın elmi Onun zatının özü olduğundan (“**Allahın sifətləri ilə zatının vəhdəti” nəzəriyyəsi**) “əzəli” və “hüdudsuz”dur (bildiyiniz kimi, Allahın zatı əzəli və hüdudsuzdur).

Allah-Təalanın Öz zatına olan elmi ilə yanaşı, zatından qeyrilərinə də - istər külli olsun, istərsə də cüzi, eləcə də, istər baş verməmişdən öncə olsun, istərsə də baş verdikdən sonra – elmi vardır (yəni Allah hər şeyi bilir). Qurani-Kərim bu məsələni vurğulayaraq buyurur:

... إِنَّ اللَّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ.

**“Həqiqətən, Allah hər şeyi biləndir!”**[1]

Həmçinin buyurur:

أَلَا يَعْلَمُ مَنْ خَلَقَ وَ هُوَ اللَّطِيفُ الخَبِيرُ.

**“Məgər yaradan bilməzmi?! Allah (hər şeyi) incəliyinə qədər biləndir, (hər şeydən) xəbərdardır!”**[2]

Əhli-beyt İmamlarının (ə) hədislərində də Allahın elminin əzəli və hüdudsuz olduğu qeyd edilir. İmam Sadiq (ə) bu xüsusda buyurur:

[1] Ənkəbut surəsi, 62-ci ayə.
[2] Mülk surəsi, 14-cü ayə.

O gələcək...

"Məkanı yaratmazdan öncə Allahın ona olan elmi, onu yaratdıqdan sonra ona olan elmi ilə eynidir. Onun bütün məxluqata olan elmi məhz belədir".[1]

**2. Əzəli və hüdudsuz qüdrət**

Allahın qüdrəti də elmi kimi Allahın zatının özü olduğundan əzəli və hüdudsuzdur. Qurani-Kərim Allahın qüdrətinin hüdudsuzluğu üzərində təkid edərək buyurur:

... وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرًا.

**"Allah hər şeyə qadirdir!"[2]**

Həmçinin buyurur:

... وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ مُقْتَدِرًا.

**"Allah hər şeyə (hər bir şeyi yaratmağa və məhv etməyə) qadirdir!"[3]**

İmam Sadiq (ə) buyurmuşdur:

"Elm, qüdrət, təsəllüt (hakim olma), malikiyyət və əhatəlik baxımından hər şey Onun (Allah) üçün bərabərdir".[4] (Yəni Allahın elmi, qüdrəti, təsəllütü (hakim olma), malikiyyəti və əhatəliyi hər şey üzərində eynidir.)

Burada mühüm bir məsələ ondan ibarətdir ki, "mumtəne və məhal biz-zat" ("zatən var olması qeyri-mümkün olan şey") Allahın qüdrət və təsəllütünün hüdudları xaricindədir. Bunun səbəbi isə Allahın qüdrətsizliüi (yəni bu işə qüdrəti çatmaması) deyil, həmin şeyin zatən var ola bilməməsidir.

Həzrət Əlidən (ə) "mümtəni"lərin[5] var ola bilmələri barədə soruşduqda buyurmuşdu:

[1] "Tövhid", Səduq, səh. 137, 10-cu fəsil, hədis: 9.
[2] Əhzab surəsi, 27-ci ayə.
[3] Kəhf surəsi, 45-ci ayə.
[4] "Tövhid", Səduq, 9-cu fəsil, hədis: 15.
[5] Kəlam elminin termini olub "var olması, vücuda gəlməsi zatən qeyri-mümkün olan şey" mənasını daşıyır.

إِنَّ اللهَ تَبَارَكَ وَ تَعَالَى لَا يُنْسَبُ إِلَى الْعَجْزِ وَ الَّذِى سَأَلْتَنِى لَا يَكُون.

"Allah-Təala acizlikdən münəzzəhdir! Soruşduğun şeyin özü var ola bilməz".[1]

### *3. Həyy (həyat, diri olma)*

Alim və qadir olan Allah hökmən "həyy və diri"dir. Çünki elm və qüdrət "diri olan" bir varlığın sifətləridir. Deməli, bu sifətlər Allahın həyy və diri olmasının dəlilidir.

Əlbəttə, Allahın "həyat" sifəti Onun digər sifətləri kimi hər cür naqislikdən uzaqdır, yəni insanda və digər canlılarda olan "həyat"a xas cəhətlərdən - məsələn, həyatın müqabilində ölümün dayanması - münəzzəhdir.

Həyat, Allahın zatının özü olduğundan ölüm (yəni fanilik) Onun üçün təsəvvürolunmazdır. Allah-Təala buyurur:

وَ تَوَكَّلْ عَلَى الْحَيِّ الَّذِى لَا يَمُوتُ...

**"Ölməz, həmişə diri olan Allaha təvəkkül et (bel bağla)!"[2]**

### *4. İradə və ixtiyar*

Necə ki, şüurlu fail[3] (işi şüurlu şəkildə yerinə yetirən fail), şüursuz faildən kamildir, eynilə öz işində iradə və ixtiyara sahib olan fail də (hansısa bir işi görmək istədikdə görən, istəmədikdə isə görməyən fail), məcbur olan faildən (hansısa bir işi görməyə və ya görməməyə məcbur olan fail) kamildir.

Nəzərə alsaq ki, Allah-Təala varlıqlar içərisində ən kamil faildir, onda deyə bilərik ki, Allah-Təala faili-muxtardır (yəni feli öz ixtiyarı ilə yerinə yetirir); nə başqası tərəfindən, nə də

[1] "Tövhid", Səduq, səh. 133, 9-cu fəsil, hədis: 9.
[2] Furqan surəsi, 58-ci ayə.
[3] İşi yerinə yetirən, icra edən.

O gələcək...

Öz zatı tərəfindən bir işə məcbur edilmir. Allah “iradə edəndir” dedikdə, Onun ixtiyar sahibi olması nəzərdə tutulur.

İnsanda olan iradə “hadis”[1] olduğundan Allahın zatı üçün təsəvvür edilə bilməz. Bu səbəbdən də Əhli-beyt İmamlarının (ə) hədislərində təkidlə vurğulanır ki, Allahın iradəsi dedikdə, “felin həyata keçməsi” anlaşılmalıdır. Bu xüsusda buyurulur: “İnsanda olan iradə batini bir halətdir və bu halətin ardınca “fel” həyata keçir. Lakin Allahın iradəsi, Onda belə bir halət yaranmadan felin həyata keçməsidir”.[2]

Bu açıqlamadan aydın olur ki, iradə, “ixtiyar” mənasını bildirərkən Allahın zati sifəti olur, lakin “vücuda gətirmək, varlıq bəxş etmək” mənasını bildirərkən Allahın feli sifəti olur.

[1] Kəlam elminin terminidir: “əvvəl olmayıb sonradan vücuda gələn fenomen” deməkdir.
[2] Usuli-kafi, c.1, səh.109.

# ALLAHIN FELİ SİFƏTLƏRİ

İndi də Allahın feli sifətlərindən üçünü araşdıraq:
1. Təkəllüm (danışmaq);
2. Sidq (doğru danışmaq);
3. Hikmət (müdriklik).

## Otuz səkkizinci bəhs

Qurani-Kərim Allahı “təkəllüm” sifətilə vəsf edərək buyurur:

... وَ كَلَّمَ اللَّهُ مُوسَى تَكْلِيمًا.

**“...Və Allah Musa ilə xüsusi bir tərzdə danışdı”.**[1]
Həmçinin buyurur:

وَ مَا كَانَ لِبَشَرٍ أَن يُكَلِّمَهُ اللَّهُ إِلَّا وَحْيًا أَوْ مِنْ وَرَاءِ حِجَابٍ أَوْ يُرْسِلَ رَسُولاً...

**“Heç bir bəşər övladına Allahla danışmaq müyəssər olmaz. Allah onlarla ancaq vəhylə, yaxud pərdə arxasından danışar, yaxud bir elçi göndərər”.**[2]

Beləliklə, bu barədə heç bir şübhə yoxdur ki, “təkəllüm” Allahın sifətlərindən biridir. Bizim bəhsimiz isə bu sifətin həqiqəti, həmçinin bu sifətin Allahın zati, yoxsa feli sifəti olması barəsindədir. Aydın məsələdir ki, “təkəllüm” (danışmaq), insanda mövcud olan tərzdə Allah üçün təsəvvüredilməzdir.

Allahın təkəllüm sifəti Qurani-Kərimdə bəyan edildiyindən onun həqiqətini dərk etmək üçün elə bu ilahi kitaba müraciət etmək lazımdır.

[1] Nisa surəsi, 164-cü ayə.
[2] Şura surəsi, 51-ci ayə.

O gələcək...

Şura surəsinin 51-ci ayəsində buyurulur ki, Allah-Təala bəşər övladı ilə üç yolla danışmışdır:

Qəlbə ilham (vəhy);

Pərdə arxasından: belə ki, insan Allahı eşidir, lakin Onu görmür, məsələn, Allahın Musa ilə danışması kimi;

Allahın iznilə bəşərə vəhy edən bir elçinin (mələk) göndərilməsi.

Bu ayəyə istinadən Allahın "təkəllüm"ü (danışması) belə izah olunur:

Allah "kəlam" (kəlmə) icad edir və bu kəlam bəzən vasitəsiz, bəzən isə mələyin vasitəsilə çatdırılır. Həmçinin, birinci halda (yəni vasitəsiz çatdırılarkən) kəlam, ya birbaşa peyğəmbərin qəlbinə təlqin edilir, ya da eşitmə duyğusu yolu ilə peyğəmbərin qəlbinə çatdırılır. Hər üç halda təkəllüm, "kəlamın icad edilməsi" mənasını daşıyır və bu da Allahın feli sifətlərindəndir.

Bu, Qurana istinadən Allahın təkəllümünün bir izahı idi. Başqa bir izah isə budur ki, Allah-Təala kainatdakı varlıqları Öz "kəlmələri" sayır. Rəbbimiz buyurur:

قُلْ لَوْ كَانَ الْبَحْرُ مِدَادًا لِكَلِمَاتِ رَبِّى لَنَفِدَ الْبَحْرُ قَبْلَ أَنْ تَنفَدَ كَلِمَاتُ رَبِّى وَ لَوْ جِئْنَا بِمِثْلِهِ مَدَدًا.

**"De ki: "Əgər Rəbbimin kəlmələrini yazmaq üçün dəryalar mürəkkəb olsaydı və bir o qədər də ona əlavə etsəydik, yenə də Rəbbimin kəlmələri tükənməzdən əvvəl onlar tükənərdi!""**[1]

Bu ayədəki "kəlmələr" sözündə "məxluqat", yəni Allahın yaratdığı varlıqlar nəzərdə tutulur və Allahdan başqa kimsə onları saymağa qadir deyildir. Başqa bir ayədə İsa peyğəmbərin (ə) "Allahın kəlməsi" adlandırılması sözümüzə dəlildir:

... وَ كَلِمَتُهُ أَلْقَاهَا إِلَى مَرْيَمَ...

---

[1] Kəhf surəsi, 109-cu ayə.

**"... Məryəmə çatdırdığı bir kəlmə..."[1]**

Əmirəl-möminin Əli (ə) xütbələrinin birində "Allahın kəlamı"nı "Allahın icadı və feli" kimi təfsir edərək buyurur: "Bir şeyi vücuda gətirmək istədikdə ona "Ol!" deyir və o da vücuda gəlir. Lakin Onun deməsi tələffüz edilən səs və eşidilən nida ilə deyildir. Allahın kəlamı Allahın felidir: o fel ki, mövcudatı yoxdan vücuda gətirir və ona varlıq bəxş edir".

Bütün bunlardan belə nəticə alınır ki, "Allahın təkəllümü" istər "danışmaq" mənasında olsun (Şura surəsi, 51-ci ayə), istərsə də "icad etmək, xəlq etmək" (Kəhf surəsi, 109-su ayə), Allahın feli sifətidir.

## Otuz doqquzuncu bəhs

Ötən bəhsimizdə Allahın "təkəllüm" sifəti iki cür izah edildi və ikinci izah birincidən daha geniş mənanı əhatə edirdi.

Bu izahlardan belə məlum olur ki, Allahın kəlamı "hadis"-dir, "qədim" (əzəli) deyildir. Çünki Allahın kəlamı felin özüdür və təbii ki, Allahın feli hadisdir. Nəticə etibarilə "təkəllüm" feli hadisdir.

Baxmayaraq ki, Allahın kəlamı hadisdir, lakin biz yanlışlıq yaranmasın deyə  Allahın kəlamına "məxluq" demirik, çünki burada "məxluq" ifadəsi səhv mənalara yozula bilər. Yoxsa heç şübhəsiz, Allahdan başqa hər şey Allahın məxluqudur.

Süleyman ibn Cəfər belə deyir: "Yeddinci imam Musa ibn Cəfərdən (ə) "Quran məxluqdurmu?" - deyə soruşdum. O Həzrət sualımın cavabında buyurdu: "Mən deyirəm ki, Quran Allahın kəlamıdır".[2]

Burada bir məsələyə də toxunmağı lazımlı hesab edirik. Hicri-qəməri tarixilə 3-cü əsrin əvvəllərində, yəni 212-ci ildə Quranın "qədim" (əzəli), yoxsa "hadis" olması (sonradan yaranması) məsələsi mübahisə mövzusuna çevrildi və müsəlmanlar

[1] Nisa surəsi, 171-ci ayə.
[2] Tövhid-i Səduq, səh.223, "Quran nədir" fəsli, hədis:2.

arasında ikitirəlik yarandı. Halbuki Quranı "qədim" hesab edənlər öz müddəalarını qaneedici cavablarla əsaslandıra bilmirdilər. Çünki bu mövzuda mövcud olan ehtimalların bəzilərinə əsasən Quran hadis, bəzilərinə əsasən isə qədimdir:

Əgər tilavət edilən Quran kitabı və Quranın kəlmələri, yaxud da Cəbrailin Allahdan əxz edib Peyğəmbərin (s) qəlbinə nazil etdiyi kəlmələr nəzərdə tutulursa, onda şübhəsiz ki, bunların hamısı hadisdir.

Əgər Quran ayələrinin məfhum və məzmunu nəzərdə tutulursa, Quranın bir qisim ayələrində ilahi peyğəmbərlərin hekayətlərindən, Peyğəmbərimizin (s) apardığı döyüşlərdən söhbət getdiyini nəzərə alaraq, onları əzəli hesab etmək olmaz.

Nəhayət, əgər Allahın Qurani-Kərimin kəlmə və mənasına olan "elm"i nəzərdə tutulursa, şübhəsiz ki, Allahın elmi əzəlidir və zati sifətlərdəndir. Lakin elm (yəni Uca Yaradanın Quran həqiqətlərini bilməsi) heç də kəlam (bu həqiqətlərin sözlə ifadəsi) deyildir.

## Qırxıncı bəhs

Allahın feli sifətlərindən biri də "sidq"dir, yəni Allah doğru danışandır və Onun sözlərində əsla yalan yoxdur. Bunun dəlili aydındır. Belə ki, cahil (nadan), aciz və qorxaq fərd yalana əl atar, Allah isə bu sifətlərdən uzaq və münəzzəhdir. Həmçinin, yalan pis işdir və Allah pis işdən münəzzəhdir.

## Qırx birinci bəhs

Allahın camal sifətlərindən biri də "hikmət"dir və "həkim" (hikmət sahibi olma) Allahın adlarından biridir. Allahın hikmət sahibi olması aşağıdakı mənaları əhatə edir:

Allahın felləri son dərəcə mükəmməl və yerli-yerindədir;

Allah-Təala əbəs və gərəksiz işlər görməkdən münəzzəhdir.

Birinci mənaya sübut olaraq ən ali və mükəmməl bir şəkildə xəlq edilən əzəmətli və əsrarəngiz yaradılış aləmini göstərmək olar. Rəbbimiz buyurur:

صُنْعَ اللَّهِ الَّذِى أَتْقَنَ كُلَّ شَيْءٍ...

**"Bu, hər şeyi bacarıqla, yerli-yerində edən Allahın gördüyü işdir!"[1]**

İkinci mənaya isə aşağıdakı ayəni sübut olaraq qeyd etmək kifayətdir:

وَ مَا خَلَقْنَا السَّمَاءَ وَ الْأَرْضَ وَ مَا بَيْنَهُمَا بَاطِلًا...

**"Biz göyü, yeri və onların arasında olanları boş-boşuna yaratmadıq!"[2]**

Bundan əlavə, Allah-Təala mütləq kamaldır və buna görə də Onun feli mükəmməl olub gərəksizlik və bihudəlikdən uzaqdır.

[1] Nəml surəsi, 88-ci ayə.
[2] Sad surəsi, 27-ci ayə.

# ALLAHIN SƏLBİ SİFƏTLƏRİ

## Qırx ikinci bəhs

Qeyd etdik ki, Allahın sifətləri iki qismə bölünür: camal və cəlal.

"Camal sifətlər" Allahın zatındakı kamillikləri əks etdirən sifətlərdir. "Cəlal sifətlər" isə Allahın şəninə yad olan sifətlərdir.

Allahın zatı mütləq kamal və zənginlik olduğundan, hər cür naqislik və ehtiyacı ifadə edən vəsflərdən uzaqdır. Bu səbəbdən də İslam mütəkəllimləri (kəlam elminin alimləri) deyirlər: Allah cism deyil, heç bir şey üçün məkan deyil, heç bir şeyə hülul etmir, çünki cism olma, məkana sığma və s. naqislik və ehtiyaca dəlalət edir.

Naqisliyə dəlalət edən digər bir sifət də "görünmək"dir. Çünki bu və digər bir şeyin gözlə görünməsi üçün onda aşağıdakı şərtlər olmalıdır:

Müəyyən bir məkanda və cəhətdə (səmtdə) yerləşməlidir;

Qaranlıqda olmamalı və üzərinə işıq düşməlidir;

Görən ilə onun arasında müəyyən bir məsafə olmalıdır.

Aydındır ki, bu şərtlər maddi varlıq və cism üçün reallaşa bilər, halbuki Uca Allah maddi varlıq və cism deyildir.

Bundan əlavə, "gözlə görünən Allah" üçün 2 haldan biri labüddür: ya onun vücudu bütövlükdə görünməlidir, ya da vücudunun bəzi hissəsi. Birinci halda hər şeyi əhatə edən Allahın özü əhatəolunan və məhdud (hüdudları) olmalıdır.[1] İkinci halda isə, O, hissələrə malik olmalıdır. Bu təsəvvürlə-

[1] Kəlam termini ilə desək "muhit" olan Allah "muhat" olmalıdır.

rin hər ikisi kamil və hər növ nöqsandan uzaq olan Allahın şəninə yaddır.

Söylənilənlər Allahın gözlə görünməsinə aid idi. Kamil iman nəticəsində hasil olan batini müşahidə və Allahı qəlb ilə görmə isə tamamilə başqa bir mövzudur. İlahi övliyalar üçün onun mümkünlüyü və hətta baş verdiyi inkaredilməzdir. Həzrət Əlinin (ə) səmimi dostlarından olan Zələb Yəmani ondan "Allahı görmüsənmi?" - deyə soruşur. İmam (ə) cavabında buyurur: "Mən görmədiyimə ibadət etmərəm!" Bu zaman Yəmani soruşur: "Onu necə görürsən?" İmam (ə) buyurur: "Gözlər müşahidə etməklə Onu görməz, amma qəlblər iman həqiqəti sayəsində Onu dərk edər!"[1]

Allahın gözlə görünməsi əqli baxımdan qeyri-mümkün olmaqla yanaşı, Quran da bunun qeyri-mümkünlüyünü açıq-aydın bəyan edir. (İsrail övladlarının təkidilə) Musa peyğəmbər (ə) Allahdan gözlə görünməsini istədikdə mənfi cavab alır:

قَالَ رَبِّ أَرِنِى أَنْظُرْ إِلَيْكَ قَالَ لَنْ تَرَانِى...

**"(Musa): "Ey Rəbbim! Özünü mənə göstər, Sənə baxım!" - dedi. Allah: "Sən məni heç vaxt görə bilməzsən!" – deyə buyurdu".**[2]

Burada sual oluna bilər ki, əgər Allahın gözlə görünməsi mümkün deyilsə, bəs nə üçün Allah Qurani-Kərimdə buyurur ki, Qiyamət günü ləyaqətli bəndələr Ona baxacaqlar? Rəbbimiz bu barədə buyurur:

وُجُوهٌ يَوْمَئِذٍ نَاضِرَةٌ. إِلَى رَبِّهَا نَاظِرَةٌ.

**"O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə baxacaqdır!"**[3]

---

[1] Nəhcul-bəlağə, xütbə: 179.
[2] Əraf surəsi, 143-cü ayə.
[3] Qiyamət surəsi, 22-23-cü ayələr.

Cavabında deməliyik ki, sözügedən ayədəki “baxmaq” feli “Allahın mərhəmətinin intizarında olmaq” mənasını daşıyır. Belə ki, həmin ayələrin özündə bu mənaya dair iki dəlil mövcuddur:

Allah-Təala “baxmaq” felini “üzlər”ə aid edir və buyurur: **“O gün neçə-neçə üzlər sevinib güləcək, Öz Rəbbinə baxacaqdır!”** Əgər gözlə görmək nəzərdə tutulsa idi, onda bu fel üzlərə deyil, gözlərə aid edilərdi.

Bu surədə iki dəstə insanlar haqda bəhs edilir: üzləri sevinib gülən, alacaqları mükafat isə “Öz Rəbbinə baxacaqdır!” cümləsi ilə ifadə edilən bir dəstə və çöhrələri tutqun və qəmli, alacaqları cəza isə “…bel sümüklərinin dəhşətli bir əzabla qırılacağını anlayacaqdır!”[1] şəklində ifadə edilən başqa bir dəstə.

İkinci ayənin (Qiyamət surəsi, 25-ci ayə) məzmunu aydındır: bu dəstə bilir ki, onları dəhşətli bir əzab gözləyir və təbii ki, əzab onları gözlədiyi kimi onlar da bu əzabı gözləyəcəklər.

Bu iki dəstəni gözləyən aqibəti müqayisə etməklə birinci ayənin (Qiyamət surəsi, 23-cü ayə) də məzmununu anlamaq olar: necə ki, tutqun və qəmli üzlər dəhşətli əzabı gözləyəcəklər, şad üzlər də Allahın mərhəmətinin intizarında olacaqlar.

“Allaha baxacaqlar” ifadəsi burada “Allahın mərhəmətinin intizarında olacaqlar” mənasını daşıyan bədii ifadədir. Belə bədii ifadələrə hər bir dildə olduğu kimi ərəb dillində də çox rast gəlinir. (Məsələn, bizim dilimizdə “onun əlinə baxır” ifadəsi “ondan kömək gözləyir” mənasını bildirir.)

Üstəlik, Quran ayələrinin təfsirində, bir qayda olaraq, bir ayə ilə kifayətlənmək olmaz. Gərək eyni mövzuda olan ayələrin məcmusundan ayənin həqiqi mənası üzə çıxarılsın. Allahı görmək mövzusu ilə bağlı olan ayə və hədislərin hamısı gözdən keçirildikdə aydın olur ki, Allahı gözlə görmək İslam inanclarında qəbul olunmur.

[1] Qiyamət surəsi, 25-ci ayə.

Eyni zamanda məlum olur ki, Həzrət Musa (ə) məhz İsrail övladlarının təkidilə Allahdan gözlə görünməsini istəmişdir. Onlar belə deyirdilər: Allahın səsini eşidib bizə nəql etdiyin kimi, Onu görüb bizə vəsf et:

وَ إِذْ قُلْتُمْ يَا مُوسَى لَن نُّؤْمِنَ لَكَ حَتَّى نَرَى اللَّهَ جَهْرَةً...

**"Ya Musa, Allahı aşkar surətdə görməyincə, heç vaxt sənə inanmayacağıq".[1]**

يَسْئَلُكَ أَهْلُ الْكِتَابِ أَن تُنَزِّلَ عَلَيْهِمْ كِتَابًا مِنَ السَّمَاءِ فَقَدْ سَأَلُواْ مُوسَى أَكْبَرَ مِنْ ذَالِكَ فَقَالُواْ أَرِنَا اللَّهَ جَهْرَةً...

**"(Ya Rəsulum!) Кitab əhli (yəhudilər) sənin onlara göydən bir kitab endirməyini istəyirlər. Halbuki onlar (vaxtilə) Musadan bundan daha böyüyünü istəmiş və: "Bizə Allahı aşkar göstər!" - demişdilər".[2]**

Bu üzdən də Həzrət Musa (ə) Allahdan gözlə görünməsini istəmiş və mənfi cavab almışdı. Rəbbimiz buyurur:

وَ لَمَّا جَاءَ مُوسَى لِمِيقَاتِنَا وَ كَلَّمَهُ رَبُّهُ قَالَ رَبِّ أَرِنِى أَنْظُرْ إِلَيْكَ قَالَ لَن تَرَانِى...

**"Musa vəd etdiyimiz vaxt gəlib çatanda Rəbbi onunla danışdı. Musa: "Ey Rəbbim! Özünü mənə göstər Sənə baxım!"- dedi. Allah: "Sən məni heç vaxt görə bilməzsən!" - deyə buyurdu".[3]**

[1] Bəqərə surəsi, 55-ci ayə.
[2] Nisa surəsi, 153-cü ayə.
[3] Əraf surəsi, 143-cü ayə.

# XƏBƏRİ SİFƏTLƏR

## Qırx üçüncü bəhs

Bura qədər izah etdiyimiz ilahi sifətlər (“təkəllüm” sifətindən başqa) elə sifətlər idi ki, onların Allahda olub-olmaması barədə əql mühakimə yürüdə bilirdi. Lakin Quran və hədislərdə bir sıra sifətlər də qeyd olunub ki, onların izahı üçün yalnız Quran və sünnənin özünə istinad etmək lazımdır. Məsələn:

1. Allahın əli:

إِنَّ الَّذِينَ يُبَايِعُونَكَ إِنَّمَا يُبَايِعُونَ اللَّهَ يَدُ اللَّهِ فَوْقَ أَيْدِيهِمْ...

**“Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın əli onların əllərinin üstündədir...”[1]**

2. Allahın üzü:

وَ لِلَّهِ الْمَشْرِقُ وَ الْمَغْرِبُ فَأَيْنَمَا تُوَلُّواْ فَثَمَّ وَجْهُ اللَّهِ إِنَّ اللَّهَ وَاسِعٌ عَلِيمٌ.

**“Şərq də, qərb də Allahındır. Hansı tərəfə üz tutsanız Allahın üzü oradır (Allah ordadır). Şübşəsiz ki, Allah (vücud, qüdrət və mərhəmət baxımından) geniş və (hər şeyi) biləndir!”[2]**

3. Allahın gözü:

وَ اصْنَعِ الْفُلْكَ بِأَعْيُنِنَا وَ وَحْيِنَا...

**“Gözümüz (nəzarətimiz) altında və vəhyimiz üzrə gəmini düzəlt!”[3]**

---

[1] Fəth surəsi, 10-cu ayə.
[2] Bəqərə surəsi, 115-ci ayə.
[3] Hud surəsi, 37-ci ayə.

4. Taxtda qərar tutmaq:

الرَّحْمَانُ عَلَى الْعَرْشِ اسْتَوَى.

**“Rəhman (varlıq aləminə hökmranlıq) taxtın(ın) üzərində qərar tutmuşdur (məxluqatı yaradıb hökmü altına almışdır)”.[1]**

Qurani-Кərimdə və hədislərdə qeyd olunan bu sifətlərin izahı üçün Quran və sünnənin özünə istinad etməkdən qeyri bir yol olmadığından onlar “xəbəri sifətlər” adlanmışdır.

Qeyd etmək lazımdır ki, bu sifətlərin hərfi mənada qəbul edilməsi qəti surətdə rədd edilir, çünki bu, Allahın cismaniləşdirilməsi və bənzədilməsi ilə nəticələnir. Halbuki, “əql” və “nəql”[2] bunun (Allahın cismaniliyinin və bənzədilməsinin) doğru olmadığını təsdiqləməkdədir. Buna görə də, bu sifətləri düzgün təfsir etmək üçün gərək Quran ayələrinin məcmusu nəzərdən keçirilsin. Bunu da bilmək lazımdır ki, ərəb dili digər dillər kimi frazeologizmlər və məcazlarla zəngindir və xalq dililə danışan Quran da bu bədii ifadə vasitələrindən istifadə etmişdir.

İndi isə bu sifətlərin düzgün təfsirinə nəzər salaq:

**1.** Fəth surəsinin 10-cu ayəsində buyurulur: **“Sənə beyət edənlər (əlini beyət məqsədilə sıxanlar), şübhəsiz ki, Allaha beyət etmiş olurlar…”** Çünki göndərilən elçiyə beyət, əslində onu göndərənə beyətdir. Ayənin davamında buyurulur: **“Allahın əli onların əllərinin üstündədir…”** Yəni Allahın qüdrəti onların qüdrətindən üstündür, nəinki Allahın da insanlar kimi cismani əli vardır və Onun əli beyət edənlərin əllərinin üstündədir. Bu məna ayənin davamında öz təsdiqini tapır:

… فَمَنْ نَكَثَ فَإِنَّمَا يَنْكُثُ عَلَى نَفْسِهِ وَ مَنْ أَوْفَى بِمَا عَاهَدَ عَلَيْهُ اللَّهَ فَسَيُؤْتِيهِ أَجْرًا عَظِيمًا.

---

[1] Taha surəsi, 5-ci ayə.

[2] Yəni Quran və sünnə.

**“Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar. Kim Allahla etdiyi əhdi yerinə yetirsə, Allah ona böyük mükafat verər!”**

Beyəti pozanları hədələmək, əhdə vəfadar olanları isə müjdələmək bunu göstərir ki, “Allahın əli” ifadəsində Allahın qüdrət və hakimiyyəti nəzərdə tutulur.

Ümumiyyətlə “əl” sözü bəzi lüğətlərdə “qüdrət” mənasını ifadə edən söz kimi göstərilir.

**2.** “Allahın üzü” dedikdə, “Allahın zatı” nəzərdə tutulur, insanda olan “üz” kimi bir üzv deyil. Qurani-Kərim insan həyatının faniliyini, əbədi olmadığını xəbər verərkən buyurur:

كُلُّ مَنْ عَلَيْهَا فَانٍ.

**“Yer üzündə olan hər kəs fanidir (ölümə məhkumdur)”.**[1]

Sonrakı ayədə isə Allahın əbədiliyindən və baqi qalacağından, faniliyin Ona aid olmadığından söz açaraq buyurur:

وَ يَبْقَى وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَ الْإِكْرَامِ.

**“Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin üzü (zatı) baqidir”.** [2]

Bu açıqlama ilə sözügedən ayənin (Bəqərə surəsi, 115-ci ayə: **“...Hansı tərəfə üz tutsanız Allahın üzü oradır...”**) mənası aydınlaşır. Belə ki, Allah müəyyən bir nöqtədə qərar tutmamışdır, Onun zatı hər şeyi əhatə edir və hansı tərəfə üz tutsaq Ona tərəf üz tutmuş olarıq. Sözügedən ayədə bu mənanın isbatı üçün Allahın iki sifəti qeyd edilib:

1- geniş: Allahın vücudunun hüdudsuzluğu.

2- hər şeyi bilən: Allahın hər şeydən xəbərdar olması.

---

[1] ər-Rəhman surəsi, 26-cı ayə.
[2] ər-Rəhman surəsi, 27-ci ayə.

**3.** Hud surəsinin 37-ci ayəsində buyurulur ki, Həzrət Nuh (ə) Allahdan bir gəmi düzəltmək əmrini alır. Dənizdən uzaq bir yerdə gəmi düzəltmək nadanların istehzasına və əziyyət etmələrinə səbəb olduğundan, belə bir şəraitdə Allah Öz peyğəmbərinə buyurur: “Sən gəmini düzəlt, sən Bizim **nəzarətimiz** altındasan və bu işi görməyi Biz sənə vəhy etdik”. Ayənin çatdırmaq istədiyi məzmun bundan ibarətdir ki, Nuh Allahın göstərişi əsasında hərəkət edirdi və təbii ki, Onun mühafizəsi və himayəsi altında olduğundan istehza edənlər ona heç bir zərər yetirə bilməzdilər.

**4.** “Ərş” (عَرْش) ərəb sözü olub “taxt” mənasını bildirir. “اسْتَوَى” (istəva) feli isə “عَلَى” (əla) önqoşması ilə işlədildikdə “qərar tutmaq, yerləşmək” mənasını bildirir. Adətən hökmdarlar öz taxtlarına əyləşib məmləkətin işlərini idarə etdiklərindən “اسْتَوَى عَلَى الْعَرْش” ifadəsi “hökmü altına almaq və hökmranlıq étmək” mənasını ifadə edir.

Allahın məkansızlığını, məkan anlayışına sığmadığını sübuta yetirən əqli və nəqli dəlillərdən əlavə, bu ifadənin (“اسْتَوَى عَلَى الْعَرْش”) cismani taxta əyləşmək deyil, məxluqatın Allahın mütləq hakimiyyəti altında idarə edilməsi anlamında olduğuna dair başqa aydın dəlil də vardır:

a) Bir çox ayələrdə **bu ifadədən öncə** göyün və yerin yaradılışından söhbət açılır (məsələn, Rəd surəsinin 2-ci ayəsində qeyd olunur ki, Allah göyləri görünməz dayaqla yüksəltmişdir).

b) Bir çox ayələrdə **bu ifadədən sonra** dünya işlərinin idarə olunmasından söz açılır.

Nəzərə alsaq ki, bu ifadə qeyd olunan iki mətləbin – yəni xəlq etmə və məxluqların idarə olunması - arasında yer tutmuşdur, “اسْتَوَى عَلَى الْعَرْش” ifadəsinin mənası aydınlaşır. Qurani-Məcid aşağıdakı mənanı bizə çatdırmaq istəyir:

O gələcək...

Кainatın bu əzəməti səbəb olmamışdır ki, işlər Allahın idarəçiliyindən çıxsın. Əksinə, Allah yaradılış aləmini yaratmaqla yanaşı, həm də onu idarə etməkdədir.

Biz burada mövzumuza aid olan ayələrdən yalnız birini qeyd etməklə kifayətlənirik:[1]

إِنَّ رَبَّكُمُ اللّهُ الَّذِى خَلَقَ السَّمَاوَاتِ وَ الْأَرْضَ فِى سِتَّةِ أَيَّامٍ ثُمّ اسْتَوَى عَلَى الْعَرْشِ يُدَبِّرُ الْأَمْرَ مَا مِن شَفِيعٍ إِلَّا مِنْ بَعْدِ إِذْنِه...

**"Sizin Rəbbiniz göyləri və yeri altı günə xəlq edən, sonra taxtda (hökmranlıq və idarəçilik taxtanda) qərar tutan (məxluqatı hökmü altına alan), hər işi idarə edən Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz..."**[2]

---

[1] Bu haqda aşağıdakı ayələrə də müraciət etmək olar: Rəd surəsi, 2-ci ayə; Səcdə surəsi, 4-cü ayə; Əraf surəsi, 54-cü ayə.
[2] Yunus surəsi, 3-cü ayə.

IV FƏSİL

# ALLAHIN ƏDALƏTİ

O gələcək...

# ALLAHIN ƏDALƏTİ

## Qırx dördüncü bəhs

Bütün müsəlmanlar Allahın ədalətli olduğuna inanırlar. Ədalət Allah-Təalanın camal sifətlərindən biridir. Bu inanc Qurani-Kərimin ayələrinə əsaslanır. Belə ki, saysız ayələrdə Allahın əsla zülm etmədiyi və ədalətlə rəftar etdiyi qeyd olunub. Rəbbimiz buyurur:

إِنَّ اللَّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ...

**“Həqiqətən, Allah zərrə qədər zülm etməz”.**[1]

إِنَّ اللَّهَ لاَ يَظْلِمُ النَّاسَ شَيْئًا...

**“Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz”.**[2]

Başqa bir ayədə isə belə buyurur:

شَهِدَ اللَّهُ أَنَّهُ لاَ إِلَاهَ إِلَّا هُوَ وَ الْمَلاَئِكَةُ وَ أُوْلُواْ الْعِلْمِ قَائِمًا بِالْقِسْطِ...

**“Allah, mələklər və elm sahibləri Allahdan başqa məbudun olmamasına şəhadət verdilər və O (Onun bütün işləri) ədalətə əsaslanır”.**[3]

Qeyd edilən ayələrdən əlavə əql də Allahın ədalətli olduğuna hökm verir. Bu izahla ki, ədalət kamillik, zülm isə naqislik nişanəsidir. Allah isə bütün kamilliklərə sahibdir: O, həm zat, həm də fellərində hər cür nöqsandan münəzzəh, pakdır. Deməli, Allah ədalətlidir.

---

[1] Nisa surəsi, 40-cı ayə.
[2] Yunus surəsi, 44-cü ayə.
[3] Ali-İmran surəsi, 18-ci ayə.

Ümumiyyətlə, zülm və sitəmkarlıq aşağıdakı amillərdən irəli gəlir:

1. Zülm edən zülmün pis iş olduğunu dərk etmir (nadanlıq);

2. Zülm edən zülmün pis iş olduğunu dərk edir, lakin ədalətli davranmaqda acizdir və ya zülmə ehtiyacı vardır (acizlik və ehtiyac);

3. Zülmkar zülmün pis iş olduğunu bilir və ədalətlə rəftar etmək imkanı da vardır, lakin müdrik bir şəxs olmadığı üçün ədalətsizlikdən çəkinmir (cəhalət və səfehlik.)

Aydındır ki, yuxarıdakı amillərdən heç biri Allaha aid edilə bilməz. Deməli, Allahın felləri bütövlükdə ədalətli və müdrikanədir.

Yuxarıdakı dəlil Həzrət Peyğəmbərin (s) buyurduğu bir hədisdə də açıqlanmışdır.[1] Şeyx Səduq həmin hədisi belə nəql edir:

"Bir yəhudi Rəsulullahın (s) yanına gəlib bir neçə sual soruşdu. Suallardan biri Allahın ədaləti barəsində idi. Rəsulullah (s) Allah-Təalanın zülm etmədiyinə dair belə buyurdu: "Allah-Təala zülmün pis iş olduğunu bildiyi və zülmə heç bir ehtiyacı olmadığı üçün zülm etmir"."[2]

İlahi ədaləti qəbul edən mütəkəllimlər də elə bu dəlilə əsaslanmışlar.[3]

Qeyd olunduğu kimi ilahi ədalət Quran ayələrində dəfələrlə vurğulanmışdır və odur ki, bütün müsəlmanlar Allahın ədalətli olduğuna inanırlar. Lakin Allahın ədalətinin **təfsirində** müsəlmanlar arasında fikirayrılığı mövcud olmuş və onlar aşağıdakı iki nəzəriyyədən birini qəbul etmişlər:

a) İnsan ağlı fellərin (görülən işlərin) yaxşı və ya pis olduğunu dərk edir, eyni zamanda yaxşı işi failin (işi görənin)

---

[1] "Tövhid", Səduq, Bab əl-Ətfal, 13-cü hədis, səh.397-398.

[2] Cümə gününün duasında oxuyuruq: "Həqiqətən də, ölümdən qorxanlar dünya işlərində tələsərlər, zülmə ehtiyacı olanlar isə zəiflərdir!"

[3] bax: Kəşful-murad, səh.305.

kamilliyinə, pis işi isə onun naqisliyinə bir əlamət sayır. Allah-Təalanın zatı bütün kamilliklərə sahib olduğu üçün Onun bütün felləri də kamil və bəyəniləndir, Onun müqəddəs zatı hər cür pis işdən uzaqdır.

Burada incə bir məsələyə diqqət yetirmək lazımdır. O da bundan ibarətdir ki, əql əsla Allah haqqında "Allah gərək adil olsun" hökmünü çıxarmır. Burada əql yalnız Allahın fellərinə aid gerçəkliyi kəşf edib üzə çıxarır. Yəni əql, Allahın zatının kamilliyini və hər cür naqislikdən münəzzəh olduğunu nəzərə alır, sonra bu nəticəyə gəlir ki, Onun işləri də son dərəcə mükəmməl və nöqsansızdır. Beləliklə, Allah bəndələri ilə ədalətlə rəftar edir.

Quran ayələri, əslində, insanın əql vasitəsilə dərk etdiyi mətləbi təsdiq edir. Kəlam elmində buna "hüsn və qübh əqli", yəni "əqlin yaxşı və pisi dərk etməsi" deyilir, bu nəzəriyyənin tərəfdarları isə "ədliyyə" adlanır. "İmamiyyə" ("Cəfəri", yaxud "İsna-əşəriyyə" məzhəbinin ardıcılları) bu nəzəriyyənin tərəfdarlarındandır.

b) Bu nəzəriyyənin müqabilində dayanan nəzəriyyəyə görə isə insan əqli fellərin yaxşı və ya pis olduğunu dərk etməkdə acizdir. Yaxşı və ya pisi tanımağın yeganə yolu ilahi vəhydir, yəni Allah hansı işi yerinə yetirməyi əmr edibsə, həmin iş yaxşıdır və hansı işi qadağan edibsə, həmin iş pisdir. Kəlam elmində buna "hüsn və qübh şəri" deyilir.

Bu nəzəriyyənin tərəfdarları deyirlər: "Mütəal Allah səmavi kitabda ədalət sifətilə vəsf edildiyinə görə biz ilahi ədaləti qəbul edirik".

## Qırx beşinci bəhs

Cəfəri məzhəbinin bir çox inancları "hüsn və qübh əqli" prinsipinə əsaslandığı üçün aşağıda bu prinsipin dəlillərindən ikisini qısa şəkildə açıqlayırıq:

O gələcək...

a) Məsləkindən və coğrafi mövqeyindən asılı olmayaraq hər bir insan ədalətin, əhdə vəfadarlığın, yaxşılığa yaxşılıqla cavab verməyin gözəlliyini, bunun müqabilində isə zülmkarlığın, əhdi pozmağın, yaxşılığa pisliklə cavab verməyin çirkinliyini dərk edir. Bu həqiqətə bəşər tarixi şahidlik edir və indiyədək ağıllı bir insanın bunu inkar etdiyinə rast gəlinməyib.

b) Əgər fərz etsək ki, əql fellərin yaxşı və pisliyini ümumiyyətlə dərk etməyə qadir deyil və insanlar bu xüsusda hökmən şəriətə müraciət etməlidirlər, onda qəbul etməliyik ki, "hüsn və qübh şəri" də sübuta yetməyəcək. Aşağıdakı izaha diqqət yetirin:

Fərz edək ki, "şəriət sahibi"[1] hansısa bir işin yaxşı və hansısa bir işin pis olduğunu bizə xəbər verir. Nə qədər ki, onun sözlərinin yalan olması ehtimalı mövcuddur, bu xəbərdən həmin işlərin yaxşı və ya pis olması sübuta yetmir. Bunun üçün əvvəlcədən yalanın çirkin, pis bir iş olduğu və "şəriət sahibi"nin də bu çirkin sifətdən münəzzəh olduğu sübuta yetməlidir. Bu isə əqldən başqa bir yolla mümkün deyildir.[2]

Bundan əlavə, Quran ayələrindən məlum olur ki, bəşər əqli bir sıra işlərin yaxşı və ya pis olduğunu dərk etməyə qadirdir. Elə bu səbəbdəndir ki, Allah-Təala onların əql və vicdanını hakimlik etməyə çağırır və buyurur:

أَ فَنَجْعَلُ الْمُسْلِمِينَ كَالْمُجْرِمِينَ. مَا لَكُمْ كَيْفَ تَحْكُمُونَ.

**"Məgər biz itaətkarları günahkarlarla eyni tutacağıqmı? Sizə nə olub, necə mühakimə yürüdürsünüz?"[3]**

Həmçinin buyurur:

هَلْ جَزَاءُ الْإِحْسَانِ إِلَّا الْإِحْسَانُ.

---

[1] Şəriəti göndərən, yəni Allah.

[2] Görkəmli alim Tusinin "Təcrid əl-Etiqad"dakı təbiri də bu dəlili açıqlayır. Orada deyilir: Əgər yaxşı və pisin sübutu yolu şəriətlə məhdudlaşarsa, fellərin yaxşı və pis olması ömumiyyətlə anlamını itirər və nə əql, nə də şəriətlə söbuta yetər.

[3] Qələm surəsi, 35-36-cı ayələr.

**"Yaxşılığın əvəzi yaxşılıqdan başqa bir şeydirmi?"**[1]

**Sual:** Burada belə bir sual ortaya çıxır. Allah-Təala Qurani-Məciddə buyurur:

لاَ يُسْئَلُ عَمَّا يَفْعَلُ وَ هُمْ يُسْئَلُونَ.

**"Allah gördüyü işlər barəsində sorğu-sual olunmaz, onlar (bəndələr) isə sorğu-sual olunacaqlar".**[2]

Allah Özünü sorğu-suala çəkilməkdən münəzzəh bilir və buna görə də gördüyü işlər barədə sorğu-suala çəkilə bilməz. Halbuki, "hüsn və qübh əqli" prinsipinə əsasən əgər fərzən Allah pis bir iş görərsə, bu işi hansı səbəbə görə gördüyü barədə sorğu-suala çəkilməlidir.

**Cavab:** Allahın sorğu-sual olunmamasının səbəbi budur ki, O, hikmət sahibidir və hikmət sahibi isə heç zaman yanlış, xoşagəlməz bir iş görməz. Hikmət (müdriklik) hər zaman yaxşı işlər görməyi zəruri edir. Beləliklə, sorğu-suala çəkilmək üçün ortada bir səbəb qalmır.

## Qırx altıncı bəhs

Yaradılış aləmi (təkvin), şəriət qanunları (təşri) və əməllərin haqq-hesabı aspektindən ilahi ədalətin özünəxas izahları vardır və aşağıda bu izahlara nəzər salaq:

***1. "Təkvin"də ədalət:*** Allah-Təala hər bir varlığa onun layiq olduğunu bəxş edir və "icad və ifazə"[3] məqamında onların fərqli tutumlarını nəzərdən qaçırmır. Allah-Təala buyurur:

قَالَ رَبُّنَا الَّذِى أَعْطَى كُلَّ شَىْءٍ خَلْقَهُ ثُمَّ هَدَى.

**"Dedi: "Rəbbimiz hər şeyə öz xilqətini və surətini verən, sonra da onu hidayət edəndir!""**[4]

---

[1] ər-Rəhman surəsi, 60-cı ayə.
[2] Ənbiya surəsi, 23-cü ayə.
[3] Yaratma və əta etmə.
[4] Taha surəsi, 50-ci ayə.

O gələcək...

***2. "Təşri"də ədalət:*** Allah-Təala Öz elçiləri vasitəsilə şəriət qanunları göndərməklə mənəvi kamillikləri kəsb etmək istedadına malik olan insanı doğru yola hidayət edir. Eyni zamanda Rəbbimiz insanın gücü çatmadığı şeyi ondan tələb etmir. Allah-Təala buyurur:

إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَ الْإِحْسَانِ وَ إِيتَاءِ ذِى الْقُرْبَى وَ يَنْهَى عَنِ الْفَحْشَاءِ وَ الْمُنْكَرِ وَ الْبَغْىِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ.

**"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara verməyi (əl tutmağı) buyurar. Zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər. Allah sizə, bəlkə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!"**[1]

Ədalətli olmaq, yaxşılıq etmək və qohumlara əl tutmaq insanın kamala çatmasına (kamilliyinə), digər üç əməl isə onun mənəvi tənəzzülünə səbəb olduğundan Allah-Təala birinci üç əməli vacib, o biri üçünü isə qadağan buyurmuşdur.

İlahi göstərişlərin insanın gücü və imkanı xaricində olmaması haqda isə Rəbbimiz belə buyurur:

وَ لَا نُكَلِّفُ نَفْسًا إِلَّا وُسْعَهَا...

**"Biz heç kəsi gücü çatmayan işə vadar etmərik".**[2]

***3.* Əməllərin haqq-hesab*ında ədalət:*** Allah-Təala möminlə kafirin, əməli-salehlə bədəməlin haqq-hesabını əsla bir tutmaz, onlara eyni mükafatı və ya cəzanı verməz. O, hər bir insana layiq olduğu mükafatı və ya cəzanı verər.

Bu səbəbdən də Allah Öz göstərişlərini peyğəmbərlər vasitəsilə insanlara çatdırmayana qədər əsla onları mühakimə etməz. Rəbbimiz buyurur:

---

[1] Nəhl surəsi, 90-cı ayə.
[2] Muminun surəsi, 62-ci ayə.

... وَ مَا كُنَّا مُعَذِّبِينَ حَتَّى نَبْعَثَ رَسُولاً.

**“Biz peyğəmbər göndərməmiş əzab vermərik”.**[1]

Həmçinin buyurur:

وَ نَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا...

**“Biz Qiyamət günü üçün ədalət tərəzisi quraraq, heç kəsə əsla haqsızlıq edilməz”.**[2]

## Qırx yeddinci bəhs

Allah insanı yaratdı və insanın yaradılışının bir hədəfi vardır. Həmin hədəf insanlıq kamalına çatmaqdır. Bu isə yalnız və yalnız Allaha ibadət və bəndəlik sayəsində gerçəkləşə bilər.

Bilmək lazımdır ki, əgər insanın bu hədəf üçün hazırlanması və ona doğru istiqamətləndirilməsi Allah-Təala tərəfindən uyğun zəminin hazırlanmasından asılıdırsa, Uca Allah mütləq bu zəmini hazırlayar. Əks təqdirdə insanın yaradılışının hədəfi gerçəkləşməz. Buna görə də Allah-Təala insanları doğru yola hidayət etmək üçün peyğəmbərlər göndərmiş, Öz dəlil və möcüzələrini peyğəmbərlərin ixtiyarında qoymuşdur. Həmçinin nazil etdiyi vəhydə bəndələrini itaətə rəğbətləndirmək, günahdan isə çəkindirmək üçün yaxşı əməl sahiblərinə mükafat, pis əməl sahiblərinə isə cəza vəd etmişdir.

Yuxarıda söylədiklərimiz “Ədliyyə” inanclarında “hüsn və qübh əqli” prinsipindən qaynaqlanan “lütf qaydası”nın qısa şəkildə izahı idi. Qeyd edək ki, “lütf qaydası” etiqadla bağlı bir sıra məsələlərin əsasını təşkil edir.

[1] İsra surəsi, 15-ci ayə.
[2] Ənbiya surəsi, 47-ci ayə.

# QƏZA VƏ QƏDƏR

## Qırx səkkizinci bəhs

Qəza və qədər, yaxud qəzavü-qədər Quran və sünnədə öz əksini tapan danılmaz dini inanclardan biridir. Həmçinin əqli dəlillər də onu təsdiqləyir.

Quranda qəza və qədər barədəki ayələr saysızdır. Onlardan bir neçəsinə nəzər salaq:

“Qədər” barədə Rəbbimiz buyurur:

إِنَّا كُلَّ شَىْءٍ خَلَقْنَاهُ بِقَدَرٍ.

**“Şübhəsiz ki, Biz hər şeyi öz qədərində (ölçüsündə) yaratdıq”.[1]**

Həmçinin buyurur:

وَ إِنْ مِنْ شَىْءٍ إِلَّا عِندَنَا خَزَائِنُهُ وَ مَا نُنَزِّلُهُ إِلَّا بِقَدَرٍ مَّعْلُومٍ.

**“Elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin Biz onlardan ancaq müəyyən (lazımi) qədər endirdik”.[2]**

“Qəza” barədə isə belə buyurur:

... وَ إِذَا قَضَى أَمْرًا فَإِنَّمَا يَقُولُ لَهُ كُن فَيَكُونُ.

**“Göyləri və yeri (yoxdan) yaradan Odur. Bir işin yaranmasını (qətiləşməsini) istədiyi zaman, ona yalnız: “Ol!” - deyər, o da (dərhal) olar!”[3]**

---

[1] Qəmər surəsi, 49-cu ayə.
[2] Hicr surəsi, 21-ci ayə.
[3] Bəqərə surəsi, 117-ci ayə.

Həmçinin buyurur:

هُوَ الَّذِى خَلَقَكُمْ مِنْ طِينٍ ثُمَّ قَضَى أَجَلًا...

**"Sizi palçıqdan yaradan, sonra da (sizin üçün) bir əcəl müəyyən edən Odur".**[1]

Bu, eləcə də bu mövzuda olan bir çox hədisləri nəzərə alaraq heç bir müsəlman "qəza və qədər"i inkar edə bilməz. Əlbəttə, bu və bu kimi mövzuları dərk etməyə düşüncə gücü yetməyən kəslərə tövsiyə olunur ki, mövzunun xırdalıqlarına və təfərrüatına varmasınlar. Bu səbəbdən də Həzrət Əli (ə) belələrinə xitabən buyurmuşdur: "Bu bir qaranlıq yoldur, onunla getməyin. Dərin bir dənizdir, ora girməyin. Bu ilahi bir sirdir ki, onu anlamaqda özünüzü çətinliyə salmayın".[2]

Əlbəttə, İmam Əlinin (ə) bu xəbərdarlığı o kəslərə aiddir ki, dəqiq və incə məsələləri dərk etməyə onların düşüncələrinin gücü yetmir və belə məsələlər haqqında bəhs etmək onları çaşdıra bilər. Həzrət Əlinin (ə) qəza və qədər barədəki geniş açıqlamaları sözümüzə şahiddir.[3] Buna görə biz də biliyimizin hüdudları daxilində Quran və hədislərdən istifadə edərək bu məsələni şərh etməyə çalışacağıq.

## Qırx doqquzuncu bəhs

"Qədər" sözünün lüğəvi (leksik) mənası "ölçü, miqdar", "qəza" sözünün lüğəvi mənası isə "qətiləşmə"dır.[4]

İmam Rza (ə) "qəza və qədər"in izahında buyurmuşdur: "Qədər, baqilik və fanilik baxımından hər hansı bir şey üçün götürülən ölçüdür. Qəza isə bir şeyin qətiləşməsi, vücuda gəlməsi və gerçəkləşməsidir".[5]

[1] Ənam surəsi, 2-ci ayə.
[2] Nəhcul-bəlağə, Qısa kəlamlar: 287.
[3] "Tövhid", Səduq, 60-cı bölüm, hədis: 28; Nəhcul-bəlağə, Qısa kəlamlar: 88.
[4] Məqayisul-luğət, cild:5, səh. 63 və 93; Mufrədat-i Rağib, "Qəza və qədər" sözü.
[5] Usuli-kafi, c.1, səh.158.

O gələcək...

Bu iki sözün lüğəvi mənası ilə tanış olduq, indi isə bu sözlərin terminoloji mənaları ilə tanış olaq.

### *a) Qədərin izahı:*

Bütün məxluqat "mümkünəl-vücud" olduğundan varlığının müəyyən bir hüdudu, ölçüsü vardır. Məsələn, cansız aləm müəyyən bir ölçü ilə yaradılmış, bitki və heyvanlar isə başqa bir ölçü ilə. Həmçinin, bütün məxluqat Allah-Təalanın məxluqu olduğuna görə təbii ki, onların "təqdir"i[1], yəni onların qədərinin, ölçüsünün müəyyən edilməsi də "ilahi təqdir" olacaqdır.

Bu təqdir "Allahın feli" olması baxımından "feli təqdir və qədər" adlanır. Amma bu baxımdan ki, Allah məxluqatı yaratmamışdan qabaq onların təqdir və qədərini bilirdi, bu təqdir "elmi təqdir və qədər" adlanır.

"Qədər"ə inam, əslində, hər bir varlığın özünəxas şəkildə yaradılması etibarilə "Allahın xaliqiyyəti"nə inamdır. "Feli təqdir" Allahın əzəli elminə söykənir. Nəticədə "elmi təqdir"ə inam da, əslində, Allahın əzəli elminə inamdır.

### *b) Qəzanın izahı:*

Qeyd etdiyimiz kimi, qəza, "bir şeyin qətiləşməsi, vücuda gəlməsi və gerçəkləşməsi" mənasını daşıyır. Aydındır ki, səbəb-nəticə (determinizm) qanununa əsasən hər hansı bir şeyin vücuda gəlməsi və gerçəkləşməsi onun "tam səbəb"inin[2] gerçəkləşməsinə dayanır. Nəzərə alsaq ki, səbəb-nəticə zənciri də Allahın varlığına dayanır, deməli, hər bir şeyin varlığının qətiləşməsi, yəni qaçılmaz və labüd olması Onun qüdrət və iradəsinə söykənir. Bu, fel və yaradılış məqamındakı "Allahın qəzası"dır. Bu qəza barədə Allahın əzəli elmi isə "Allahın zati qəzası"dır.

---

[1] Ölçü, qədər müəyyən etmə.

[2] Yəni onun vücuda gəlməsi üçün lazım olan bütün səbəblər.

Bura qədər söylədiklərimiz - həm "zati qəza və qədər" və həm də "feli qəza və qədər" - Allahın "təkvini qəza və qədər"inə aid idi. Bəzən isə "qəza və qədər" şəriətə aid olur və "təşrii qəza və qədər" adlanır. Belə ki, şəri vəzifələrin qoyulması öz-özlüyündə "Allahın qəzası" idi, bu vəzifələrin vacib, haram və s. keyfiyyətləri isə "Allahın təşrii təqdiri"dir. Həzrət Əli (ə) ondan "qəza və qədər" anlayışının nədən ibarət olduğunu soruşan bir şəxsə qəza və qədərin bu mərhələsini (yəni "təşrii qəza və qədər"i) izah edərək buyurmuşdur: "Qəza və qədər dedikdə itaətkarlığa əmr, günaha qadağa, yaxşı işləri görmək və pis işləri tərk etməkdə insana güc-qüvvə bəxş edilməsi, Allaha yaxınlaşmaq üçün insana tövfiq verilməsi, günahkarın öz halına buraxılması[1], mükafat və cəza haqqında verilən vədlər nəzərdə tutulur. Bunlar Allahın bizim işlərimizdəki qəza və qədəridir".[2]

Göründüyü kimi, burada Həzrət Əli (ə) verilən sualın cavabında yalnız "təşrii qəza və qədər"i izah etməklə kifayətlənmişdir. Ola bilsin ki, o həzrət sual verən şəxsin və ya həmin məclisdə iştirak edənlərin düşüncə səviyyələrini nəzərə almışdır. Çünki həmin dövrdə "təkvini qəza və qədər"dən "məcburiyyət", yəni "insanın seçim ixtiyarının inkar edilməsi" nəticə çıxarılırdı. Hədisin davamında Həzrət Əlinin (ə) buyurduğu cümlə dediklərimizə şahiddir: "Bundan başqa bir şey güman etmə, zira bu güman əməllərin puç olmasına gətirib çıxarar".

Həzrət Əli (ə) bunu çatdırmaq istəyirdi ki, insan öz fellərində ixtiyar sahibi (faili-muxtar) olduğu təqdirdə onun əməlləri dəyər kəsb edir, əks təqdirdə (yəni insan əməllərini məcburiyyət əsasında yerinə yetirərsə) onun əməlləri dəyərləndirilməz.

Xülasə, qəza və qədərin "təkvini" və "təşrii" qisimləri vardır. Onların da hər biri öz növbəsində 2 qismə bölünür: zati (elmi) və feli (əməli).

---

[1] İnsanın faili-muxtar olması nəzərdə tutulur. Müt.
[2] Tövhid-i Səduq, səh. 380.

## Əllinci bəhs

İnsanın əməlləri xüsusundakı qəza və qədər onun ixtiyar və azadlığı ilə zərrə qədər ziddiyyət təşkil etmir. Çünki Allahın insan üçün "təqdir"i insanın faili-muxtar olmasıdır, başqa sözlə, Allah insanı faili-muxtar yaratmışdır. Bu o deməkdir ki, insan hər hansı bir işi yerinə yetirməkdə və ya tərk etməkdə seçim sahibidir, onu yerinə yetirib-yetirməmək onun öz ixtiyarındadır. İnsanın feli xüsusundakı "ilahi qəza" felin qətiləşməsi və gerçəkləşməsidir, əlbəttə ki, insan onu seçdikdən sonra. Başqa sözlə, insan ixtiyar və azadlığa sahib bir varlıq olaraq yaradılmışdır və insan öz seçimi, istəyi ilə bu və digər işi yerinə yetirmək istədikdə Allah onu gerçəkləşdirir.

Bəzi insanlar öz səhvlərini "ilahi təqdir" hesab edir və belə təsəvvür edirlər ki, getdikləri yoldan başqa bir yolu seçmək imkanına sahib olmamışlar. Halbuki, əql və vəhy bu təsəvvürü təkzib edir. Çünki sağlam düşüncə hökm edir ki, insan öz qərarı ilə öz taleyini seçir. Vəhy də bildirir ki, insan öz seçimi ilə şükr edən və yaxşı əməl sahibi, yaxud nankor və pis əməl sahibi ola bilər. Rəbbimiz buyurur:

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَ إِمَّا كَفُورًا.

**"Biz ona (insana) haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor".[1]**

İslam Peyğəmbərinin (s) dövründə bütpərəstlərin bir qismi öz azğınlıqlarını "ilahi istəyin" nəticəsi sayaraq deyirdilər: "Əgər Allah istəməsəydi, biz bütpərəst olmazdıq!" Qurani-Kərim onların bu iddiasını belə nəql edir:

سَيَقُولُ الَّذِينَ أَشْرَكُواْ لَوْ شَاءَ اللَّهُ مَا أَشْرَكْنَا وَ لَا ءَابَاؤُنَا وَ لَا حَرَّمْنَا مِن شَيْءٍ...

[1] İnsan surəsi, 3-cü ayə.

**“Müşriklər belə deyəcəklər: Əgər Allah istəsəydi, nə biz, nə də atalarımız müşrik olar və nə də biz bir şeyi haram edə bilərdik”.**[1]

Ayənin davamında onlara cavab olaraq isə buyurur:

كَذَالِكَ كَذَّبَ الَّذِينَ مِن قَبْلِهِمْ حَتَّى ذَاقُواْ بَأْسَنَا...

**“Onlardan əvvəlkilər də belə təkzib etmişlər. Nəhayət əzabımızı daddılar!”**

Sonda qeyd edək ki, Allahın yaradılış aləminə hakim qıldığı qanunlar – belə ki, bu qanunlar nəticəsində bəzi insanlar səadətə qovuşur, bəziləri isə bədbəxtliyə düçar olur - “ilahi qəza və qədər”in təzahürüdür. İnsan öz ixtiyarı ilə bu ikisindən birini - səadəti və ya bədbəxtliyi - seçir. Bu barədə “İnsan İslam dünyagörüşündə” bəhsində də söhbət açmışdıq.

[1] Ənam surəsi, 148-ci ayə.

O gələcək...

# İNSAN VƏ İXTİYAR

## Əlli birinci bəhs

İnsanın ixtiyar və azadlığa sahib olması çox aydın bir həqiqətdir. Hər bir insan müxtəlif yollarla bu həqiqəti dərk edə bilər. Aşağıda həmin yollardan bir neçəsinə nəzər salaq:

1. Hər bir insanın vicdanı şahidlik edir ki, o bu və digər işi görüb-görməməkdə seçim edə bilər, başqa sözlə, ixtiyar sahibidir. Əgər kimsə belə bir aydın məsələdə tərəddüd edərsə, onda heç bir aydın həqiqəti qəbul etməməlidir.

2. Bəşər cəmiyyətlərində – istər dini, istərsə də qeyri-dini cəmiyyətlərdə - müxtəlif şəxslərə yönələn tərif və ya məzəmmətlər bunu göstərir ki, tərif və ya məzəmmət edən şəxs tərəf müqabilini öz işlərində ixtiyar və seçim sahibi hesab edir.

3. Əgər insanın ixtiyar və azadlığı qəbul edilməzsə, şəriət də puç və mənasız olar. Belə ki, əgər hər bir insan onun üçün əvvəlcədən müəyyən edilmiş bir yolu getmək məcburiyyətindədirsə və zərrə qədər də bu yoldan kənara çıxa bilməzsə, bu təqdirdə əmr və qadağanın, vəzifə və öhdəliyin, mükafat və cəzanın heç bir mənası olmaz.

4. Tarix boyu fərdlərin və bütövlükdə cəmiyyətin islahına çalışan insanlara rast gəlirik ki, bu yolda müəyyən addımlar ataraq bir sıra nəticələr əldə etmişlər. Aydın məsələdir ki, bu, "məcburiyyət" nəzəriyyəsilə uzlaşmır, belə ki, əgər bu nəzəriyyə qəbul edilərsə, bu yolda göstərilən bütün səylər puç və mənasızdır.

Əlbəttə, insanın azadlıq və ixtiyar sahibi olması prinsipindən bu nəticəni çıxarmaq olmaz ki, insan mütləq şəkildə öz öhdəsinə buraxılıb və Allahın onun işlərinə heç bir təsiri,

müdaxiləsi yoxdur. Çünki "təfviz" adlanan bu əqidə "insanın daima Allahdan asılı olması" (Ona ehtiyacı olması) prinsipilə ziddiyyət təşkil edir, həmçinin Allahın qüdrət və xaliqiyyət dairəsini də məhdudlaşdırır. Növbəti bəhsdə məsələnin mahiyyətinə tam aydınlıq gətiriləcəkdir.

## Əlli ikinci bəhs

Sevimli Peyğəmbərimizin (s) vəfatından sonra müsəlmanlar arasında mübahisəli mövzulardan biri də insanın faili-muxtar[1], yoxsa faili-məcbur[2] olması məsələsi oldu. Müsəlmanların bir qismi "məcburiyyət" nəzəriyyəsini qəbul etdilər və insanı faili-məcbur hesab etdilər, yəni insanın felləri, hərəkətləri əvvəlcədən ona yazılmış alın yazısıdır. Başqa bir qisim müsəlmanlar isə bu nəzəriyyənin tam əksini qəbul etdilər və elə təsəvvür etdilər ki, insan öz öhdəsinə buraxılmış bir varlıqdır, onun əməllərinin Allahla heç bir bağlılığı yoxdur.

Bu iki dəstə elə təsəvvür etmişlər ki, insanın feli (işi) ya insanın özünə isnad verilməlidir, ya da Allaha isnad verilməlidir. Başqa sözdə, ya insanın qüdrəti onun felində təsirli olmalıdır, ya da Allahın qüdrəti.

Halbuki, burada üçüncü bir yol da mövcuddur və Məsum İmamlar (ə) məhz bu yolu doğru yol olaraq tanıtdırmışlar. İmam Sadiq (ə) buyurmuşdur:

**"Nə məcburiyyət var, nə də təfviz! Həqiqət bu ikisinin arasındadır".**[3] Yəni insanın feli (işi) eyni zamanda həm onun özünə isnad verilir, həm də Allaha isnad verilir, əlbəttə müxtəlif cəhətlərdən. Belə ki, "fel"i (iş) "fail" (işi görən) yerinə yetirir, amma "fail" və "onun qüdrəti" Allahın məxluqu olduğundan, "fel"i Allaha isnad etməmək mümkündürmü?

---

[1] Yəni insanın felləri, hərəkətləri onun özünün ixtiyarı və seçimi ilədir.

[2] Yəni insan öz fellərində, hərəkətlərində məcburdur, başqa sözlə, onun felləri, hərəkətləri əvvəlcədən ona yazılmış alın yazısıdır.

[3] Tövhid-i Səduq, 55-ci bölüm, hədis: 8.

O gələcək...

Əhli-beytin (ə) insan feli xüsusundakı açıqlamaları elə Qurani-Kərimdən qaynaqlanır. Bu səmavi kitabın bəzi ayələrində bir fel eyni zamanda həm öz failinə isnad verilib, həm də Allaha. Yəni hər iki isnad məqbuldur. Rəbbimiz buyurur:

... وَ مَا رَمَيْتَ إِذْ رَمَيْتَ وَ لَاكِنَّ اللَّهَ رَمَى...

**“Düşmənlərin gözünə (bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı”.**[1]

Ayənin mənası bundan ibarətdir ki, sevimli Peyğəmbərimiz (s) bu işi öz müstəqil qüdrətilə deyil, Allahın qüdrətilə həyata keçirmişdir. Ona görə də sözügedən əməlin hər ikisinə isnad verilməsi tamamilə düzgündür.

Başqa sözlə, Allahın güc və qüvvəsi hər bir varlıqda mövcud olmaqdadır. Bunu elektrik stansiyalarından qaynaqlanıb naqillərdə cərəyan edən elektrik cərəyanına bənzətmək olar. Biz düyməni basdıqda işıq yanır. İndi “işığı biz yandırdıq” deməyimiz doğru olduğu kimi, “lampanı elektrik cərəyanı yandırdı” demək də doğrudur.

## Əlli üçüncü bəhs

Biz insanın ixtiyar və azadlığına inandığımız kimi, buna da inanırıq ki, Allahın bizim əməllərimizə əzəli elmi vardır, yəni Allah bizim nə edəcəyimizi əzəldən bilirdi. Bu iki inanc arasında heç bir ziddiyyət yoxdur.

Burada bu incə məqama diqqət yetirmək lazımdır ki, Mütəal Allah əzəldən insanın faili-muxtar olacağını da bilirdi. Başqa sözlə, Allah insanın yerinə yetirəcəyi işləri əzəldən bildiyi kimi, bu işləri öz ixtiyarı və seçimi ilə yerinə yetirəcəyini də bilirdi.

Allahın bu əzəli elmi insanın ixtiyar və azadlığı ilə nəinki ziddiyyət təşkil etmir, əksinə insanın ixtiyar və azadlığını zəruri edir. Belə ki, insanın faili-muxtar olacağına Allahın əzəli

[1] Ənfal surəsi, 17-ci ayə.

elmi var idi. İndi əgər insan işlərini öz ixtiyarı ilə yerinə yetirməzsə, onda Allahın əzəli elmi gerçəkləşməyəcəkdir. Allahın əzəli elminin gerçəkləşməməsi isə qeyri-mümkündür. Deməli, insan işlərini öz ixtiyarı ilə yerinə yetirməlidir.

O gələcək...

V FƏSİL

# NÜBÜVVƏT — PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏSİ

O gələcək...

# NÜBÜVVƏTİN ZƏRURİLİYİ DƏLİLLƏRİ

## Əlli dördüncü bəhs

Hikmət sahibi olan Allah bəşərə doğru yolu göstərmək üçün ucaməqamlı insanları peyğəmbər seçərək Öz göstərişlərini onların vasitəsilə çatdırmışdır. Peyğəmbərlər silsiləsi Həzrət Adəm (ə) ilə başlayıb İslam peyğəmbəri Həzrət Məhəmməd (s) ilə tamamlanır. Bilmək lazımdır ki, hər bir peyğəmbərin dini öz dövrü və ümməti üçün ən kamil din olmuşdur.

Hikmətli Allah insanı əbəs yerə yaratmayıb, onun yaradılışının ali bir hədəfi vardır ki, insan bu hədəfə çatmaldır. Əvvəldə qeyd etdiyimiz kimi, bu hədəf insanlıq kamalına çatmaqdır.

Digər tərəfdən, insanın əql və şüuru kamillik yolunu qət etməkdə əhəmiyyətli və zəruri olsa da, yetərli deyildir. Məsələn, varlığın başlanğıcını və sonunu bilmək bəşəri düşündürən ən əsas məsələlərdən biri olmuşdur. İnsan haradan və nə üçün gəldiyini, hara gedəcəyini bilmək istəyir. Əql isə təklikdə bu məsələni açıqlamağa qadir deyildir. Çağdaş bəşərin elm sahəsindəki bu qədər nailiyyətlərinə rəğmən insanların böyük bir qisminin bütpərəst olması sözümüzə sübutdur.

Bəşər əqlinin və elminin yetərsizliyi yalnız “məbdə və məad”[1] məsələsində məhdudlaşmır, bu, bir çox həyati məsələlərdə də özünü göstərmişdir. İqtisadiyyat, əxlaq, ailə və s. sahələrdə bir-birindən fərqli görüşlərin və cərəyanların yaranması göstərir ki, bu sahələrə aid məsələləri hərtərəfli və düzgün dərk etməkdə əql yetərli deyildir.

[1] Varlığın, varlıqların başlanğıcı və sonu.

O gələcək...

Bütün bu deyilənləri nəzərə alaraq sağlam düşüncə hökm edir ki, insanlara düzgün həyat yolunu öyrətmək üçün Uca Yaradan tərəfindən müəllimlər və rəhbərlər seçilməlidir.

Əqli hidayətin (yəni əqlin bələdçiliyinin) səmavi hidayəti əvəz edə biləcəyini düşünənlər gərək bu iki mətləbi nəzərdən qaçırmasınlar:

1- Bəşər əqli və elmi insanın və varlıq aləminin sirlərini, keçmiş və gələcəyini mükəmməl şəkildə öyrənməyə yetərli deyildir. İnsanın və bütün məxluqatın xaliqi olan Allah isə Öz məxluqatının sirlərindən, keçmiş və gələcəyindən agahdır. Allah-Təala Qurani-Məciddə bu mətləbi vurğulayaraq buyurur:

أَ لاَ يَعْلَمُ مَنْ خَلَقَ وَ هُوَ اللَّطِيفُ الْخَبِيرُ.

**“Məgər yaradan bilməzmi?! Allah (hər şeyi) incəliyinə qədər biləndir, (hər şeydən) xəbərdardır!”[1]**

2- İnsan, onda olan “özünü istəmə” meylinin tələbinə görə şüurlu və yaxud şüuraltı olaraq hər bir işdə “öz” mənafeyini güdür (burada həm şəxsi mənafe, həm də insanın özününkü hesab etdiyi kiçik və ya böyük cəmiyyətin mənafeyi nəzərdə tutulur). Odur ki, insanların həyat tərzi üçün təqdim etdikləri proqramlarda hamının mənafeyi təmin olunmayacaq. İlahi peyğəmbərlərin təlimləri isə belə nöqsanlardan uzaqdır.

Bu iki mətləbi nəzərə alaraq deyə bilərik ki, bəşəriyyət heç vaxt ilahi hidayət və peyğəmbərlərin gətirdiyi ali təlimlərdən ehtiyacsız olmamış və olmayacaqdır.

[1] Mulk surəsi, 14-cü ayə.

# QURAN VƏ NÜBÜVVƏTİN HƏDƏFLƏRİ

## Əlli beşinci bəhs

Ötən bəhsdə əqlin mühakiməsi əsasında nübüvvətin zəruriliyini isbat etdik. Bu bəhsdə isə nübüvvətin hədəfləri aspektindən onun zəruriliyini Quran ayələri və hədislər əsasında araşdıracağıq.

Qurani-Kərim nübüvvətin, yəni peyğəmbərlərin göndərilməsinin hədəflərini belə bəyan edir:

**1. *Tövhidə (təkallahlıq) çağırış və şirklə mübarizə:***

Rəbbimiz buyurur:

وَ لَقَدْ بَعَثْنَا فِى كُلِّ أُمَّةٍ رَسُولاً أَنِ اعْبُدُواْ اللَّهَ وَ اجْتَنِبُواْ الطَّاغُوتَ...

**“Biz hər ümmətə: “Allaha ibadət edin, tağutdan çəkinin!” - deyə peyğəmbər göndərmişdik”.**[1]

Həzrət Əli (ə) nübüvvətin hədəfi barədə belə buyurub: “Peyğəmbərlər göndərildi ki, bəndələr öz Rəbbi haqqında (tövhid və Allahın sifətləri haqqında) bilmədiklərini öyrənsinlər, Onun rübubiyyətini və yeganəliyini inkar etdikdən sonra iman gətirsinlər”.[2]

**2. *İlahi təlimlərin və göstərişlərin, özünü islah yollarının insanlara çatdırılması:***

Rəbbimiz buyurur:

هُوَ الَّذِى بَعَثَ فِى الْأُمِّيِّنَ رَسُولاً مِنْهُمْ يَتْلُواْ عَلَيْهِمْ ءَايَاتِهِ وَ يُزَكِّيهِمْ وَ يُعَلِّمُهُمُ الْكِتَابَ وَ الْحِكْمَةَ...

[1] Nəhl surəsi, 36-cı ayə.
[2] Nəhcul-bəlağə, xütbə: 143.

**"Ümmi (yazıb-oxumağı bilməyən) ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu peyğəmbər) onlara Onun (Allahın) ayələrini oxuyar, onları (günah, şirk və küfr çirkabından) təmizləyər, onlara kitabı və hikməti öyrədər".**[1]

**3.** ***Bəşər cəmiyyətlərində ədalətin təmin edilməsi:***

Allah-Təala buyurur:

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَ أَنزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَ الْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ...

**"Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik. Biz onlarla kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar ədalətlə rəftar etsinlər".**[2]

Şübhəsiz ki, insanların ədalətlə rəftar etmələri ədalət anlayışını bilmələrinə dayanır.

**4.** ***Mübahisəli məsələləri həll etmək:***

Rəbbimiz buyurur:

كَانَ النَّاسُ أُمَّةً وَاحِدَةً فَبَعَثَ اللَّهُ النَّبِيِّنَ مُبَشِّرِينَ وَ مُنذِرِينَ وَ أَنزَلَ مَعَهُمُ الْكِتَابَ بِالْحَقِّ لِيَحْكُمَ بَيْنَ النَّاسِ فِيمَا اخْتَلَفُواْ فِيهِ...

**"İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi, insanlar arasında yaranan mübahisəli məsələləri həll etmək üçün O, peyğəmbərlərlə haqq olan kitab nazil etdi".**[3]

Aydın məsələdir ki, insanlar arasında yaranan mübahisələr əqidə və inanc məsələlərində məhdudlaşmır, həyatın müxtəlif sahələrini də əhatə edir.

---

[1] Cümə surəsi, 2-ci ayə.

[2] Hədid surəsi, 25-ci ayə. .

[3] Bəqərə surəsi, 213-cü ayə.

**5.** ***Bəndələrə bəhanə yeri qoymamaq:***

Rəbbimiz buyurur:

رُسُلًا مُّبَشِّرِينَ وَ مُنذِرِينَ لِئَلَّا يَكُونَ لِلنَّاسِ عَلَى اللَّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ وَ كَانَ اللَّهُ عَزِيزًا حَكِيمًا.

**“Biz müjdə verən və (kafirləri əzabla) qorxudan peyğəmbərlər göndərdik ki, daha insanlar üçün peyğəmbərlərdən sonra Allaha qarşı bir bəhanə yeri qalmasın. Allah izzətli, qüdrətlidir!”[1]**

Şübhəsiz, insanın yaradılışında uca Yaradan bir hədəf qoyub və insanın bu hədəfə çatması həyatın bütün sahələrini əhatə edən mükəmməl bir proqramın tənzimlənməsi ilə mümkündür. Bu proqram Allah-Təala tərəfindən insanlara elə bir şəkildə çatdırılmalıdır ki, sonradan insan üçün bəhanə qalmasın.

[1] Nisa surəsi, 165-ci ayə.

# PEYĞƏMBƏRİ TANIMAĞIN YOLLARI

## Əlli altıncı bəhs

İnsan fitri olaraq dəlil-sübutu olmayan bir iddianı qəbul etmir. Hər hansı bir iddianı dəlil-sübutsuz qəbul edənlər isə, əslində, öz fitrətlərinə zidd davranmışlar.

Peyğəmbərlik iddiası isə çox böyük bir iddiadır. Təbii ki, belə bir iddianı sübuta yetirməkdən ötrü tutarlı və möhkəm dəlil ortaya qoyulmalıdır. Bu dəlil aşağıdakı üç dəlildən biri ola bilər:

**1) Haqq bir p*eyğəmbərin özündən sonrakı peyğəmbəri tanıtdırması:*** İsa peyğəmbər (ə) ondan sonra Həzrət Məhəmmədin (s) gələcəyini müjdə vermişdir.[1]

**2) *Peyğəmbərlik iddiasının doğruluğunu təsdiqləyən nişanələr:*** Peyğəmbərlik iddiası edən şəxsin keçmiş həyatı, onun dəvətinin məzmunu və üsulu, onun ardıcılı olan şəxslərin fərdi keyfiyyətləri bu nişanələrdən hesab olunur. Hal-hazırkı dövrdə məhkəmələrdə doğrunu yanlışdan, cinayətkarı günahsızdan ayırd etmək üçün bu üsullardan istifadə edilir. İslamın yeni zühur etdiyi çağlarda da sağlam düşüncə sahibləri bu üsullara əsaslanaraq Həzrət Peyğəmbərin (s) haqq peyğəmbər olduğunu iqrar etmişlər.[2]

**3) *Möcüzə:*** Yəni peyğəmbərlik iddiası edən şəxs fövqəltəbii bir iş görür və başqalarını həmin işi təkrarlamağa çağırır. Qeyd edək ki, həmin fövqəltəbii iş, yəni möcüzə peyğəmbərlik iddiası ilə uzlaşmalıdır.

---

[1] Səff surəsi, 6-cı ayə.

[2] Roma hökmdarı bu dəlilə əsaslananlardan biri olmuşdur. Müraciət edin: Tarix-i Təbəri, c. 3, səh. 240, hicri 6-cı ilin hadisələri.

Bütün peyğəmbərlər haqq olduqlarını sübuta yetirmək üçün öz ümmətlərinə möcüzə və ya möcüzələr göstərmişlər.

## Əlli yeddinci bəhs

"Möcüzə" və "peyğəmbərlik iddiasının doğruluğu" arasında məntiqi bir əlaqə vardır (başqa sözlə, möcüzəni yalnız haqq peyğəmbər göstərə bilər). Belə ki, əgər möcüzə göstərən şəxsin iddiası doğrudursa, bu təqdirdə məsələ öz həllini tapmışdır. Çünki möcüzə elə peyğəmbərlik iddiasının doğruluğunu sübuta yetirməkdən ötrüdür. Yox əgər bu şəxsin iddiası yalandırsa, bu təqdirdə bəndələrini hidayət etmək istəyən hikmətli Allahın şəninə yaddır ki, yalançıya möcüzə göstərmək qüdrəti versin. Çünki insanlar belə bir fövqəltəbii qüdrəti və işi (möcüzəni) müşahidə etməklə ona iman gətirib sözlərinə əməl edəcək, nəticədə isə doğru yoldan azacaqdır. Belə bir iş isə Allahın ədalət və hikmətinə ziddir. Deməli, möcüzəni yalnız haqq peyğəmbərlər göstərə bilərlər.

Bu məsələ "hüsn və qübh əqli" (əqlin yaxşı və pisi dərk etməsi) prinsipinə dayanır və bu barədə daha öncə bəhs etmişdik.

## Əlli səkkizinci bəhs

Peyğəmbərlik iddiası ilə yanaşı olub bu iddia ilə uzlaşan fövqəltəbii iş "möcüzə" adlanır. Peyğəmbərlik iddiası etməyən əməlisaleh bir bəndənin yerinə yetirdiyi fövqəltəbii iş isə "kəramət" adlanır. Allahın saleh bəndələrinin (peyğəmbərlərdən başqa) fövqəltəbii işlər görməyə qadir olmalarına bir sübut kimi Xanım Məryəmə (s.ə) Allah tərəfindən ruzilərin nazil olmasını və Səba padşahının taxtının bir göz qırpımında Süleyman peyğəmbərin (ə) yardımçısı (Asəf ibn Bərxiya) tərəfindən Yəməndən Fələstinə gətirilməsini göstərmək olar. Qurani-Kərimdə Xanım Məryəm (s.ə) haqqında belə buyurulur:

كُلَّمَا دَخَلَ عَلَيْهَا زَكَرِيَّا الْمِحْرَابَ وَجَدَ عِندَهَا رِزْقًا قَالَ يَا مَرْيَمُ أَنَّى لَكِ هَذَا قَالَتْ هُوَ مِنْ عِندِ اللّهِ...

**"Zəkəriyya hər dəfə Məryəmin ibadət etdiyi mehraba daxil olduqda, onun yanında bir ruzi olduğunu görərdi. Zəkəriyya: "Ey Məryəm, bunlar sənin üçün haradandır?" - dedikdə, Məryəm: "Allah tərəfindəndir!" - deyə cavab verərdi".[1]**

Bilqeysin taxtının hekayəti barədə isə belə buyurulur:

قَالَ الَّذِى عِندَهُ عِلْمٌ مِنَ الْكِتَابِ أَنَا ءَاتِيكَ بِهِ قَبْلَ أَن يَرْتَدَّ إِلَيْكَ طَرْفُكَ...

**"Kitabdan bir qədər xəbəri olan birisi dedi: "Mən onu sənə bir göz qırpımında gətirərəm!"[2]**

## Əlli doqquzuncu bəhs

Möcüzə ilə digər fövqəltəbii işlərin (sehr, murtazlıq və s. bu qəbildən olan işlər) fərqləri aşağıdakılardan ibarətdir:

**1)** ***Möcüzə təlim edilmir və öyrənilmir:***

Peyğəmbərlər möcüzə göstərməyi kimdənsə təlim almırlar, lakin möcüzədən qeyri fövqəltəbii işlər bir sıra təlim və məşqlərin nəticəsidir. Gənclik dövrünü başa vuran Musa peyğəmbər (ə) Misirə yollanır. Yolun yarısında ona peyğəmbərlik verilir və xitab olunur ki, "Ey Musa, əsanı yerə at!" Yerə atdıqda əsa qəfildən bir əjdahaya çevrilir və Musa özü də qorxur. Həmçinin Musaya xitab olunur ki, əlini qoynundan çıxar. O əlini çıxardıqda, əlindən gözləri qamaşdıran bir nur saçır.[3] Lakin Süleyman peyğəmbərin (ə) dövründəki sehrbazlar barədə belə buyurulur:

---

[1] Ali-İmran surəsi, 37-ci ayə.

[2] Nəml surəsi, 40-cı ayə.

[3] Qəsəs surəsi, 31-32-ci ayələr.

يُعَلِّمُونَ النَّاسَ السِّحْرَ... فَيَتَعَلَّمُونَ مِنْهُمَا مَا يُفَرِّقُونَ بِهِ بَيْنَ الْمَرْءِ وَ زَوْجِهِ...

**"Şeytanlar sehri camaata öyrətdilər... Və camaat da o iki mələkdən ər-arvad arasına nifaq salan işləri öyrənirdilər".**[1]

**2) Təkrarolunmazlıq:**

Möcüzə sonsuz ilahi qüdrətdən qaynaqlandığına görə insanlar onu təkrarlamağa qadir deyillər. Lakin cadu, sehr və murtazların gördükləri işlər bəşərin məhdud qüdrətindən qaynaqlandığından insanlar onu təkrarlamağa qadirdirlər.

**3) *Qeyri-məhdudluq:***

Peyğəmbərlərin möcüzələri bir və ya iki növlə məhdudlaşmır və olduqca müxtəlifdir. Məsələn, əsanın əjdahaya çevrilməsi, əldən gözqamaşdıran nurun saçması, əsanın daşa dəyməsilə daşdan çeşmənin qaynaması və yaxud dəryaya dəyməsilə onun yarılması və s. möcüzələr Musa peyğəmbərin (ə) möcüzələrindəndir. Palçıqdan düzəltdiyi quşa üfürməklə mücəssimənin canlı bir quşa çevrilməsi, korların və xora xəstəliyinə düçar olanların üzlərinə əl çəkməklə onların şəfa tapması, ölüləri diriltmək və s. isə İsa peyğəmbərin (ə) möcüzələrindəndir.[2]

**4) Hədəflərin fərqliliyi:**

Bir qayda olaraq, möcüzə və ya kəramət sahibləri sehrbazlardan və bu kimi fövqəltəbii işlər görənlərdən həm hədəf, həm də mənəvi baxımdan fərqlənirlər. Birinci dəstə ali bir hədəfi izlədiyi təqdirdə, ikinci dəstə yalnız dünyəvi və maddi məqsədlər güdür.

---

[1] Bəqərə surəsi, 102-ci ayə.
[2] Ali-İmran surəsi, 42-ci ayə.

# VƏHY VƏ NÜBÜVVƏT

## Altmışıncı bəhs

Ötən bəhsdə həqiqi peyğəmbərləri yalançı iddiaçılardan ayırd etməyin yolları açıqlandı. Bu bəhsdə isə “vəhy”, yəni peyğəmbərin qeyb aləmilə əlaqəsi barədə söhbət açacağıq.

Peyğəmbərlərin qeyb aləmilə ən mühüm əlaqə vasitəsi olan “vəhy”, bəşər əqlinin və duyğularının məhsulu deyildir. Bu, xüsusi bir idrakdır ki, Allah Öz göstərişlərini insanlara çatdırmaq üçün yalnız peyğəmbərlərin ixtiyarına qoymuşdur. Qurani-Kərim vəhyi belə bəyan edir:

نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ. عَلَى قَلْبِكَ...

**“Şübhəsiz ki, bu (Quran), aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir. Onu Ruhul-Əmin (vəhy mələyi olan Cəbrail) endirdi. Sənin qəlbinə...”[1]**

Bu ayədə açıqlanır ki, peyğəmbər ilahi göstərişləri hiss üzvlərinin və ya bu kimi vasitələrin iştirakı ilə əldə etmir, bu göstərişləri vəhy mələyi peyğəmbərin qəlbinə ilham edir.[2] Buna görə də vəhyin mürəkkəb həqiqətini bəşərin ixtiyarında olan bilgilərlə izah etmək mümkün deyildir.

Vəhyin nazil olması qeyb aləminin təzahürlərindəndir və onun mahiyyəti bizə aydın olmasa da, ona iman gətirmək zəruridir. Rəbbimiz buyurur:

الَّذِينَ يُؤْمِنُونَ بِالْغَيْبِ...

**“O kəslər ki, qeybə inanırlar”.[3]**

---

[1] Şuəra surəsi, 192-194-cü ayələr.

[2] Əlbəttə peyğəmbərlərə yalnız vəhy mələyi vəhy nazil etməyib. Şura surəsinin 51-ci ayəsində vəhyin hansı yollarla nazil olduğu açıqlanıbdır. Bu barədə 38-ci bəhsdə söz açmışdıq.

[3] Bəqərə surəsi, 3-cü ayə.

O gələcək...

## Altmış birinci bəhs

Hər şeyi maddi aləmdə xülasələşdirib elmi təcrübə yolu ilə isbat etmək istəyənlər ilahi vəhy üçün müxtəlif yozumlar söyləmişlər ki, bizim nəzərimizcə onların hamısı yanlışdır. Aşağıda bu yozumlardan ikisini qeyd edir və onların yanlış olduğunu aydınlaşdıracağıq:

1) Bir qrup tədqiqatçının fikrincə, "peyğəmbər"lər qeyri-adi istedada malik olan dühalar, "vəhy" isə onların düşüncə və daxili dünyalarının məhsuludur. Onların zənnincə, "Ruhul-Əmin" bu dühaların pak ruhu və mənəviyyatı, "səmavi kitab" isə onların ali düşüncə və ideyalarıdır.

Vəhyin bu yozumu, əslində, təcrübi elmlərdən qeyri elmləri əsassız sayanların mülahizəsidir. Bu fikrə yönələn ən böyük irad isə onun ilahi peyğəmbərlərin dedikləri ilə ziddiyyət təşkil etməsidir. Belə ki, ilahi peyğəmbərlər hər bir münasib məqamda bildirmişlər ki, insanlara çatdırdıqları maarif ilahi vəhydən qeyri bir şey deyildir. Bu fikrə əsasən isə peyğəmbərlər yalançı şəxslər olmalıdırlar, halbuki, tarixi faktlar onların sədaqət və dürüstlüyünü təsdiqləməkdədir.

Başqa sözlə, bəşər tarixinin yaddaşında qalan ictimai islahatçılar iki dəstəyə bölünür: bir dəstə öz ideyalarını Allaha nisbət verir, digər bir dəstə isə onları öz düşüncələrinin məhsulu kimi tanıtdırır. Əlbəttə, onların hər ikisi cəmiyyətin səadətini istəyən xeyirxah fərdlər ola bilər, lakin onları eyni tutmaq olmaz.

2) Başqa bir qrupun fikrincə isə vəhy, peyğəmbərlərin mənəvi aləminin işartılarıdır. Onların zənnincə, peyğəmbər Allaha olan möhkəm iman və çoxlu ibadət sayəsində elə bir dərəcəyə yetişir ki, öz mənəvi aləmində bir sıra ali həqiqətləri aşkarlayır və elə təsəvvür edir ki, bunlar ona qeyb aləmindən təlqin edilmişdir. Halbuki, bütün bunların qaynağı onun öz mənəvi aləmidir.

Bu fikrin sahibləri bildirirlər ki, peyğəmbərlərin sədaqətinə bizim şübhəmiz yoxdur və onlar həqiqətən də bir sıra ali həqiqətləri müşahidə edirlər. Lakin məsələ, bu ali həqiqətlə-

rin haradan qaynaqlanmasıdır. Peyğəmbərlər elə təsəvvür edirlər ki, bu həqiqətlər xaricdən və qeyb aləmindən onlara təlqin olunur, həqiqətdə isə onların qaynağı peyğəmbərlərin mənəvi aləmidir.[1]

Bu fikir yeni deyildir və cahiliyyət dövründə vəhy haqqında söylənilən fikirlərdən birinin yeni formasıdır. Cahil ərəblər deyirdilər:

بَلْ قَالُواْ أَضْغَاثُ أَحْلَامٍ...

**“(Vəhy) qarmaqarışıq yuxulardır”.**[2]

Bunlar isə deyirlər ki, vəhy peyğəmbərlərin təxəyyülünün və öz mənəvi aləmlərinə varmalarının nəticəsidir. Peyğəmbərlər Allah, ibadət, bəşərin islahı haqqında o qədər düşünürlər ki, nəhayət, özlərində bir sıra ali həqiqətləri aşkarlayırlar və elə güman edirlər ki, bunlar qeyb aləmindən onlara təlqin olunur.

Qurani-Kərim bir çox ayələrdə bu fikri qəti surətdə rədd edərək buyurur ki, əgər peyğəmbər vəhy mələyini gördüyünü söyləyirsə, deməli, doğru söyləyir: nə onun qəlbi, nə də gözü yanlış görməmişdir. Rəbbimiz buyurur:

مَا كَذَبَ الْفُؤَادُ مَا رَأَى.

**“Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı”.**[3]

مَا زَاغَ الْبَصَرُ وَ مَا طَغَى.

**“Göz nə (sağa-sola) yayındı, nə də ki, uzağa getdi (hər şeyi olduğu kimi gördü)”.**[4]

Yəni Həzrət Peyğəmbər (s) həqiqətən də vəhy mələyini həm zahiri, həm də batini gözü ilə görmüşdür.

---

[1] Seyid Məhəmməd Rəşid Rza, Vəhy-i Məhəmmədi, səh. 66.
[2] Ənbiya surəsi, 5-ci ayə.
[3] Nəcm surəsi, 11-ci ayə.
[4] Nəcm surəsi, 17-ci ayə.

# PEYĞƏMBƏRLƏRİN MƏSUMLUĞU

## Altmış ikinci bəhs

“Məsum” sözü “səhvsiz, günahsız” mənalarını bildirir. Peyğəmbərlərin məsumluğu aşağıdakı mərtəbələrə malikdir:

1) Vəhyi almaq, saxlamaq və çatdırmaqda məsumluq;

2) Şəriət hökmlərinə əməldə məsumluq;

3) Fərdi və ictimai məsələlərdə məsumluq.

Birinci mərtəbədə peyğəmbərlərin məsumluğu yekdilliklə qəbul edilir. Çünki bu mərtəbədə peyğəmbərin hər hansı bir səhvə, yanlışlığa yol verməsi ehtimalı insanların inam və etimadını zədələyər və onlar peyğəmbərin təlimlərinə etina etməzlər. Nəticədə nübüvvətin hədəfi gerçəkləşməz.

Bundan əlavə, Qurani-Kərim qeyd edir ki, Allah-Təala ilahi vəhyi səhvsiz və olduğu kimi bəşərə çatdırsınlar deyə peyğəmbərləri mükəmməl bir şəkildə qoruyur. Rəbbimiz buyurur:

عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَى غَيْبِهِ أَحَدًا. إِلَّا مَنِ ارْتَضَى مِنْ رَسُولٍ فَإِنَّهُ يَسْلُكُ مِنْ بَيْنِ يَدَيْهِ وَ مِنْ خَلْفِهِ رَصَدًا. لِيَعْلَمَ أَن قَدْ أَبْلَغُواْ رِسَالَاتِ رَبِّهِمْ وَ أَحَاطَ بِمَا لَدَيْهِمْ وَ أَحْصَى كُلَّ شَيْءٍ عَدَدًا.

**“Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz; bəyənib seçdiyi peyğəmbərdən başqa! Allah onların önündə və arxasında (mələklərdən ibarət) gözətçilər qoyar ki, peyğəmbərlərin öz Rəbbinin göndərdiklərini (nə cür) təbliğ etdiyini bilsin. Allah onlarda olanların hamısını əhatə etmişdir. O, hər şeyi bir-bir saymışdır (təsbit etmişdir)!”[1]**

Yuxarıdakı ayələrdə vəhyi qoruyan iki gözətçidən söz açılır:

a) Peyğəmbəri hər tərəfdən əhatə edən mələklər;

[1] Cinn surəsi, 26-28-ci ayələr.

b) Peyğəmbər və mələkləri əhatə edən Allah.

Peyğəmbərlərin belə bir şəkildə qorunmasının səbəbi isə nübüvvətin hədəfinin gerçəkləşməsi, yəni ilahi vəhyin insanlara çatdırılmasıdır.

## Altmış üçüncü bəhs

Peyğəmbərlər şəriət hökmlərinə əməldə də məsumdurlar, yəni onlar Allahın əmr və qadağalarından əsla çıxmırlar. Nübüvvətin hədəfi də yalnız və yalnız peyğəmbərlərin belə bir məsumluğa sahib olduqları təqdirdə gerçəkləşə bilər. Çünki əgər peyğəmbərlər təbliğ etdikləri ilahi hökmləri dəqiqliklə yerinə yetirməsələr, sözlərinin doğruluğuna inam itər və nəticədə nübüvvətin hədəfi gerçəkləşməz.

Mühəqqiq Tusi qısa bir ifadədə bu dəlilə toxunaraq yazır: "Peyğəmbərlər üçün ismət (məsumluq) zəruridir, ondan ötrü ki, onların sözlərinə etimad yaransın və nübüvvətin hədəfi gerçəkləşsin".[1]

Peyğəmbərlərin məsumluğu Qurani-Kərimin bir çox ayələrində də vurğulanmışdır. Aşağıdakı Quran ayələrinə nəzər salaq:

a) Qurani-Kərim peyğəmbərləri "hidayət olunmuş"lar və "Allah tərəfindən seçilmiş"lər adlandırır:

وَ مِنْ ءابَائِهِمْ وَ ذُرِّيَّاتِهِمْ وَ إِخْوَانِهِمْ وَ اجْتَبَيْنَاهُمْ وَ هَدَيْنَاهُمْ إِلَى صِرَاطٍ مُسْتَقِيمٍ.

**"Biz onların atalarından, nəsillərindən və qardaşlarından (bir qismini də) hidayətə çatdırdıq, onları seçdik və düz yola yönəltdik".[2]**

b) Qurani-Kərim xatırladır ki, Allahın hidayət etdiyi kəsi heç kim düz yoldan çıxara bilməz:

---

[1] Kəşful-murad, səh.349, Nübüvvət bəhsi.

[2] Ənam surəsi, 87-ci ayə.

وَ مَن يَهْدِ اللّٰهُ فَمَا لَهُ مِنْ مُضِلٍّ...

**"Allahın doğru yola yönəltdiyi kimsəni heç kəs yoldan çıxara bilməz".[1]**

v) Qurani-Kərim günahı azğınlıq hesab edir:

وَ لَقَدْ أَضَلَّ مِنْكُمْ جِبِلًّا كَثِيرًا...

**"Həqiqətən, Şeytan içərinizdən çoxlarınızı yoldan çıxartdı..."[2]**

Bu ayələrin məcmusundan belə nəticə çıxır ki, peyğəmbərlər hər cür azğınlıq və günahdan uzaqdırlar.

Qeyd edək ki, peyğəmbərlərin məsumluğunun zəruriliyinə dair gətirdiyimiz əqli dəlil (Mühəqqiq Tusinin vurğuladığı dəlil) peyğəmbərlərin peyğəmbər seçilməmişdən qabaq da məsum olmalarının zəruriliyinə dəlalət edir. Belə ki, əgər bir şəxs ömrünün böyük hissəsini günah və azğınlıq içində keçirdikdən sonra "doğru yol"un carçısı olarsa, camaatın etimadını bir o qədər də qazanmaz. Digər tərəfdən də, qərəzli və inadkar insanlar qaranlıq keçmişini onun üzünə vurub sözlərinin doğruluğunu sual altına salarlar. Lakin ömrü boyu hər növ çirkinlik və yaramazlıqdan uzaq olan bir şəxs çox asanlıqla camaatın etimadını qazanar və onları doğru yola yönəldə bilər.

Beləliklə, paklığına və dürüstlüyünə görə "Məhəmməd Əmin" ləqəbini qazanan bir şəxs öz parlaq şəxsiyyətilə düşmənin əks təbliğatını alt-üst edə və insanları heyrətə gətirən bir dözüm nümayiş etdirməklə cahiliyyətin qaranlıq fəzasını tədricən işıqlandıra bilər.

Bundan əlavə, ömrü boyu günahdan qorunan və məsum bir şəxsin, peyğəmbər seçildikdən sonra məsumluq dərəcəsinə

---

[1] Zumər surəsi, 37-ci ayə.
[2] Yasin surəsi, 62-ci ayə.

çatan bir şəxsdən üstünlüyü aydın bir məsələdir. Ömrü boyu günahdan qorunan bir şəxs daha asanlıqla insanların etibarını qazana və onları doğru yola yönəldə bilər. İlahi hikmət də daha üstün və mükəmməl olan işin yerinə yetirilməsini tələb edir.

## Altmış dördüncü bəhs

Peyğəmbərlər şəriət hökmlərinə əməldə məsum olmaqla yanaşı, aşağıdakı məqamlarda da səhvsiz və məsumdurlar:

**a) Mühakimə etmək:**

Allah Öz peyğəmbərlərini ilahi qanunlar əsasında mühakimə etməyə vəzifələndirmişdir. İddiaçıdan şahid tələb etmək, iddiaçının şahidi olmadığı təqdirdə günahkar bilinən tərəfdən and içməyi tələb etmək və s. mühakimə xüsusundakı ilahi qanunlardır. Peyğəmbərlər bu xüsusdakı ilahi qanunları da əsla pozmamışlar.

Əlbəttə, əgər şahid qəsdən və ya səhvən həqiqətə zidd şahidlik verərsə, yaxud günahkar bilinən tərəf yalandan və ya səhvən and içərsə, bu təqdirdə peyğəmbərin çıxardığı hökm həqiqətə müvafiq olmaya bilər. Bu isə peyğəmbərlərin məsumluğuna xələl yetirmir. Çünki onlardan Allahın qoyduğu qanunlar əsasında mühakimə etmək tələb olunur.

Qeyd edək ki, peyğəmbər həqiqətə müvafiq olmayan bir hökm çıxararkən həqiqəti bilir, lakin bir sıra ictimai zərurətlərə görə bu məqamda o, həqiqətə müvafiq şəkildə davranmağa vəzifələndirilməyib.

**b)** ***Dini hökmlərin predmetlərini müəyyən etməkdə, məsələn, hər hansı bir mayenin şərab olub olmamasını müəyyən etməkdə;***

**c)** ***İctimai məsələlərdə və onların xeyir-ziyanını müəyyən etməkdə;***

**ç)** ***Gündəlik həyat məsələlərində.***

**B, c** və **ç** bəndlərində peyğəmbərlərin məsumluğunun dəlili budur ki, əksər insanların nəzərində bu məsələlərdə səhvə yol vermək şəriət hökmlərində səhvə yol vermək ilə əlaqələndirilir. Deməli, bu qəbildən olan məsələlərdə səhvə yol vermək camaatın peyğəmbərə olan etimadını itirər və nəticədə də nübüvvətin hədəfi gerçəkləşməz.

## Altmış beşinci bəhs

Peyğəmbərlərdə insanların onlardan uzaqlaşmasına səbəb olan bir qüsur və çatışmazlıq olmamalıdır. Bildiyiniz kimi, bəzi xəstəliklər və ya xoşagəlməz xislətlər ətrafdakı insanlarda ikrah yaradır və onların uzaqlaşmasına səbəb olur. Peyğəmbərlərdə belə qüsur və çatışmazlıqlar olmamalıdır, çünki insanların peyğəmbərdən uzaqlaşması nübüvvətin hədəfi ilə - ilahi göstərişlərin insanlara çatdırılmasıyla uzlaşmır.

Xatırladaq ki, bu, əqli bir dəlildir. Yəni əql hökm edir ki, Allahın hikmətinə əsasən peyğəmbər seçilən insanlarda hər hansı bir qüsur və çatışmazlıq olmamalıdır.[1]

## Altmış altıncı bəhs

Ötən bəhslərdə Quran ayələrinə istinadən peyğəmbərlərin məsumluğu isbat olundu. Peyğəmbərlərin məsumluğunun zəruriliyinə dair əqli dəlil də açıqlandı. Lakin bəzi ayələr-

---

[1] Bəzi hədislərdə Əyyub peyğəmbərin (ə) insanlarda ikrah doğuran və onların o həzrətdən uzaqlaşmasına səbəb olan bir xəstəliyə düçar olduğu qeyd olunur. Bu mətləb əqli dəlilə zidd olmaqla yanaşı, Əhli-beyt İmamlarının (ə) buyurduğu hədislərə də ziddir. İmam Sadiq (ə) öz atalarından belə nəql edir: "Həzrət Əyyub peyğəmbər (ə) xəstə olduğu müddətdə pis qoxu vermədi və üzü çirkinləşmədi. Bu müddətdə onun bədənindən irin, qan və bu kimi insanlarda ikrah yaradan bir şey gəlmədi. Allahın Öz peyğəmbəri və övliyaları üçün ənənəsi belədir. Əyyub peyğəmbər (ə) maddi baxımdan imkansız, həmçinin zahiri görkəmcə zəif olduğu üçün camaat ondan uzaqlaşırdı. Lakin onlar Allah qarşısında o həzrətin hansı dərəcəyə sahib olduğundan xəbərsiz idilər." (Xisal, c.1, Əbvab-i həftgane, hədis: 107, səh.400.) Şübhəsiz, bu mətləbə zidd olan hədislər etibarsız və qəbuledilməzdir.

də – ilk baxışda - peyğəmbərlərin (məsələn, Həzrət Adəm (ə) və başqaları) günah etdiklərindən danışılır.

Bu haqda nə demək olar?

Sualın cavabında deməliyik:

Quranda heç bir ziddiyyətin olmadığını nəzərə almaq və buna görə də sözügedən ayələri diqqətlə incələyərək nəzərdə tutulan mənaları üzə çıxarmaq lazımdır. Xoşbəxtlikdən, böyük şiə təfsirçiləri və mütəkəllimləri bu ayələri təfsir etmiş, hətta onların bəziləri bu barədə ayrıca əsərlər də yazmışlar. Bu kitabda sözügedən ayələr haqqında təfsilatilə söz açmaq mümkün olmadığından maraqlananlar qeyd olunan əsərlərə müraciət edə bilərlər:

“Tənzihul-ənbiya”, Seyid Mürtəza;

“İsmətul-ənbiya”, Fəxrəddin Razi;

“Məfahimul-Quran”, Cəfər Sübhani, c.5, “Peyğəmbərlərin məsumluğu” hissəsi.

## Altmış yeddinci bəhs

Aşağıdakı 2 amil məsumluğun amili ola bilər:

1) Peyğəmbərlər (və Allah övliyaları) “Allahıtanıma”da elə bir mərtəbəyə çatmışlar ki, Allahın razılığını heç zaman heç nəyə dəyişmirlər. Başqa sözlə, onlar Allahın əzəmətini, camal və cəlalını dərk etdikləri üçün Allahdan qeyrisinə yönəlmir və Allahın razılığından başqa heç nə düşünmürlər. “Allahıtanıma”nın bu mərtəbəsi Həzrət Əlinin (ə) kəlamında belə ifadə olunur:

مَا رَأَيْتُ شَيْئًا إِلَّا وَ رَأَيْتُ اللهَ قَبْلَهُ وَ بَعْدَهُ وَ مَعَهُ.

“Nəyi gördümsə, ondan əvvəl də, ondan sonra da, onunla birgə də Allahı gördüm”.

İmam Sadiq (ə) isə buyurur:

وَ لَكِنِّى أَعْبُدُهُ حُبًّا لَهُ وَ تِلْكَ عِبَادَةُ الْكِرامِ.

“Mən Allahı sevdiyim üçün Ona ibadət edirəm. Budur kəramətlilərin (uca məqamlıların) ibadəti!”[1]

2) Peyğəmbərlər Allaha itaətin mükafatla, üsyanın isə cəza ilə nəticələnəcəyini tam əminliklə bildikləri üçün Allaha itaətsizlik etmirlər.

Əlbəttə, hərcəhətli məsumluq xüsusi ilahi övliyalara xasdır, lakin eyni zamanda bəzi təqvalı möminlər də çox-çox günahlardan çəkinirlər. Məsələn, təqvalı bir şəxs heç vaxt və heç bir vəchlə intihar etməz, yaxud günahsız bir insanı öldürməz.[2]

Bir həyati misala diqqət yetirin:

Elektrik cərəyanının öldürücü olduğunu bilən bir şəxs heç zaman elektrik cərəyanı axan izolyasiya olunmamış bir naqilə əl vurmaz. Çünki o, bu işin nə ilə nəticələnəcəyini bilir və odur ki, olduqca ehtiyatlı davranır. Əgər insan günahların çox acı nəticələrini belə əminliklə bilərsə, heç şübhəsiz, günahdan çəkinər.

## Altmış səkkizinci bəhs

Məsumluğun amillərini nəzərə alaraq qeyd etməliyik ki, məsumluq məsum bir şəxsin azadlıq və ixtiyarı ilə ziddiyyət təşkil etmir. Məsum şəxs Allahı tanımaqla, itaət və üsyanın nəticələrini mükəmməl şəkildə bilməklə yanaşı, günah işlətməyə də qadirdir, baxmayaraq ki, bu imkandan əsla istifadə etmir. Bu mətləbi dərk etmək üçün aşağıdakı misallara diqqət yetirin:

Övladını sevən mehriban bir ata övladını öldürmək qüdrətinə malik olsa da o, bu qüdrətindən əsla istifadə etməz. Yaxud mütləq qüdrət sahibi olan Allah itaətkar insanları Cəhənnəmə, asi olanları isə Cənnətə apara bilər, lakin Onun ədalət və hikməti belə bir iş görməsinin qarşısını alır.

---

[1] Biharul-ənvar, c.70, səh.22.

[2] Həzrət Əli (ə) belə insanlar haqqında buyurur: “Onlar elə kəslərdir ki, sanki Cənnəti görmüş və onun nemətlərindən bəhrələnmişlər. Həmçinin sanki Cəhənnəmi görmüş və oradakı əzaba düçar olmuşlar”.  (Nəhcul-bəlağə, xütbə: 193.)

Bu açıqlama ilə aydın olur ki, məsum şəxslərin günahlardan çəkinib ibadət və itaətdə bulunmaları böyük bir iftixardır. Çünki onlar günah etməyə qadir olsalar da, heç vaxt buna yol vermirlər.

## Altmış doqquzuncu bəhs

Biz bütün peyğəmbərlərin məsum olmalarını qəbul etməklə yanaşı, məsumluğu peyğəmbərliklə şərtləndirmirik. Yəni ola bilər ki, bir nəfər məsum olsun, amma peyğəmbər olmasın. Qurani-Kərim Xanım Məryəm (s.ə) haqqında buyurur:

... يَا مَرْيَمُ إِنَّ اللّهَ اصْطَفَاكِ وَ طَهَّرَكِ وَ اصْطَفَاكِ عَلَى نِسَاءِ الْعَالَمِينَ.

**“Ya Məryəm, həqiqətən, Allah səni seçdi, təmizlədi və aləmlərin qadınları üzərində seçilmiş (üstün) etdi”.[1]**

Bu ayədə Xanım Məryəm barədə **“seçilmiş”** sözünün işlənməsindən aydın olur ki, o, məsum olmuşdur. Çünki peyğəmbərlər haqqında da bu söz işlədilmişdir:

إِنَّ اللّهَ اصْطَفَى ءَادَمَ وَ نُوحًا وَ ءَالَ إِبْرَاهِيمَ وَ ءَالَ عِمْرَانَ عَلَى الْعَالَمِينَ.

**“Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər (məxluqat) üzərində seçilmiş (üstün) etdi”.[2]**

Bundan əlavə, sözügedən ayədə Xanım Məryəmin (s.ə) “təmizlənmə”sindən söz açılır. Bu ifadədə oğlu ilə əlaqədar yəhudilərin Xanım Məryəmə (s.ə) qarşı irəli sürdükləri ittihamdan onun təmizə çıxarılması deyil, hər cür çirkinlikdən təmizlənməsi nəzərdə tutulur. Çünki Həzrət İsanın (ə) dünyaya göz açdığı elə ilk gündə dil açıb danışması[3] ilə Məryəmin günahsızlığı sübuta yetmişdi və bu barədə yenidən söz açmağa bir ehtiyac qalmamışdı.

[1] Ali-İmran surəsi, 42-ci ayə.
[2] Ali-İmran surəsi, 33-cü ayə.
[3] Məryəm surəsi, 29-cu ayə.

Həmçinin, sözügedən ayə ilə yanaşı gələn ayələrin məzmununu nəzərə alaraq deyə bilərik ki, bu ayədə Xanım Məryəmin (s.ə) mehrabda ibadət etdiyi və hələ Həzrət İsaya (ə) hamilə qalmadığı dövrdən söz açılır. Odur ki, hələ ona qarşı belə bir ittiham irəli sürülməmişdi ki, "təmizlənmə" sözündə də bu ittihamın təkzibi nəzərdə tutulsun.

VI FƏSİL

# İSLAM PEYĞƏMBƏRİ (S)

## Yetmişinci bəhs

Əvvəlki fəsildə "nübüvvət"ə dair bir sıra məsələlər açıqlandı. Bu fəsildə isə İslam peyğəmbəri Həzrət Məhəmməd ibn Abdullahın (s) peyğəmbərliyindən söz açılacaq.

Ötən bəhslərimizdə qeyd etdik ki, peyğəmbərlik iddiası 3 dəlil ilə sübuta yetə bilər, başqa sözlə, həqiqi peyğəmbərləri yalançı iddiaçılardan 3 yolla ayırd etmək olar:

**1) Möcüzə;**

**2) Peyğəmbərlik iddiasının doğruluğunu təsdiqləyən nişanələr;**

**3) Haqq bir peyğəmbərin özündən sonrakı peyğəmbəri tanıtdırması.**

İslam peyğəmbərinin peyğəmbərliyini yuxarıda qeyd olunan hər üç yolla sübuta yetirmək olar. Biz qısa şəkildə onları açıqlayırıq.

# QURAN — ƏBƏDİ MÖCÜZƏ

Mötəbər tarixi mənbələrə istinadən İslam peyğəmbəri müxtəlif məqamlarda müxtəlif möcüzələr göstərmişdir. Lakin onlardan biri Həzrət Peyğəmbərin (s) əbədi möcüzəsi hesab olunur. Bu, Qurani-Kərimdir.

İslam peyğəmbəri bu səmavi kitabı insanlara təqdim edərək öz peyğəmbərliyini elan etdi və hamını bu kitabın bənzərini gətirməyə, başqa sözlə, bu möcüzəni təkrarlamağa çağırdı. Lakin kimsə həmin dövrdə onun bənzərini yarada bilmədi. Üstündən əsrlər keçdiyi bu günümüzdə də Qurani-Kərim öz bənzərsizliyini elan edərək buyurur:

قُلْ لَئِنِ اجْتَمَعَتِ الْإِنْسُ وَ الْجِنُّ عَلَى أَنْ يَأْتُوا بِمِثْلِ هَذَا الْقُرْءَانِ لَا يَأْتُونَ بِمِثْلِهِ وَ لَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا.

**“(Ya Peyğəmbər!) De ki: “Əgər insanlar və cinlər bu Qurana bənzərini gətirmək üçün bir yerə yığışsalar, bir-birinə kömək etsələr belə yenə də ona bənzərini gətirə bilməzlər!”[1]**

Yuxarıdakı ayədə “Qurana bənzər bir kitab gətirmək” tələb olunursa, başqa ayələrdə bundan daha azı tələb olunur:

... قُلْ فَأْتُوا بِعَشْرِ سُوَرٍ مِثْلِهِ مُفْتَرَيَاتٍ...

**“De ki, onun kimi özünüzdən on surə uydurub gətirin”.[2]**

---
[1] İsra surəsi, 88-ci ayə.
[2] Hud surəsi, 13-cü ayə.

... فَأْتُواْ بِسُورَةٍ مِنْ مِثْلِهِ...

**(Ya Peyğəmbər, de ki:) "Ona bənzər bir surə gətirin!"[1]**

Məlumdur ki, İslam düşmənləri bu dinin gəlişindən keçən 15 əsr boyunca ona zərbə endirmək üçün əllərindən gələni əsirgəməmiş, İslam peyğəmbərinə sehrbaz, ruhi xəstə və bu kimi töhmətlər vurmaqdan çəkinməmişlər. Lakin onlar Quranın bənzərini yarada bilmədilər. Bu günümüzdə də hər cür imkanlara malik olmalarına baxmayaraq, Quranın qarşısına ona bənzər bir kitab qoymağa qadir deyildirlər. Bunun özü Quranın insan sözündən fövqdə durduğunu təsdiqləyən sübutdur.

## Yetmiş birinci bəhs

Sevimli Peyğəmbərimiz (s) müxtəlif möcüzələr göstərmişdir və bu barədə tarix və hədis qaynaqlarında geniş məlumatlar verilib. Lakin Qurani-Kərim İslam peyğəmbərinin (s) bütün dövrlərdə parlayan əbədi möcüzəsidir. Digər peyğəmbərlərdən fərqli olaraq, sevimli Peyğəmbərimizin (s) əbədi bir möcüzəyə sahib olmasının sirri budur ki, onun gətirdiyi din sonuncu və əbədi dindir. Əbədi dinin isə əbədi bir möcüzəsi olmalıdır, ondan ötrü ki, bu möcüzə hər bir dövrdə yeni-yeni nəsillər üçün nübüvvət dəlili olsun.

Qurani-Kərim müxtəlif cəhətlərdən möcüzə hesab olunur. Qarşınızdakı kitabda bu barədə təfsilatilə söhbət açmaq qeyri-mümkün olduğundan biz yalnız qısa şəkildə sözügedən cəhətləri nəzərdən keçiririk:

Qurani-Məcidin nazil olduğu dövrdə ərəbin söz ustadlarının diqqətini ilk növbədə onun "fəsahət və bəlağət"i, yəni Quran kəlmələrinin gözəlliyi, Quranın yeni üslubu və ali məzmunu çəkdi. Elə bu cəhətinə görə də bir neçə ayəni eşitməklə onlar Quranın əzəməti qarşısında heyrətlərini gizlədə bilmə-

[1] Bəqərə surəsi, 23-cü ayə.

miş, onun fövqəlbəşəriliyini etiraf edib qarşısında baş əymək məcburiyyətində qalmışdılar.

Qüreyş şairi və söz ustadı Vəlid ibn Müğeyrə Həzrət Peyğəmbərdən (s) bir neçə Quran ayəsini eşitdikdən sonra belə demişdi: “And olsun Allaha ki, indicə Məhəmməddən (s) elə bir kəlam eşitdim ki, nə insan kəlamına bənzəyirdi, nə də cin kəlamına. Onun xüsusi bir şirinliyi və gözəlliyi var idi. Bu kəlamın budaqları barlı, kökü bərəkətlidir; bu elə bir uca kəlamdır ki, ondan ucası yoxdur”.[1]

Quranın özünəxas gözəl bədii üslubu və ali məzmunu qarşısında baş əyən təkcə Vəlid ibn Müğeyrə deyildi. Ütbə ibn Rəbiə, Tüfeyl ibn Əmr və başqa ərəb söz ustadları da Quranın ədəbi baxımdan möcüzəliyini etiraf etmişlər.

Əlbəttə, cahiliyyət dövrünün[2] ərəbləri həmin dövrdə elmi səviyyənin aşağı olması səbəbilə Quranın başqa möcüzəvi cəhətlərini dərk edə bilməmişdilər. Lakin İslam dini yer üzünün dörddə birinə günəş kimi nur saçdığı zamandan bu yana dünya mütəfəkkirləri Quranı dərindən araşdırmış, onun ədəbi cəhətilə yanaşı, hər biri ayrı-ayrılıqda qeyb aləmilə bağlılığını yetirən digər möcüzəvi cəhətlərindən də faydalanmışlar. Hər dövrdə bu xəzinədən yeni-yeni biliklər öyrənmiş, indi də öyrənməkdədirlər.

## Yetmiş ikinci bəhs

Ötən bəhsimizdə Quranın ədəbi cəhətdən möcüzəliyi barədə danışdıq. İndi isə Quranın digər möcüzəvi cəhətlərini qısa şəkildə açıqlayaq. Qeyd edək ki, əgər Quranın ədəbi cəhətdən möcüzəliyini dərk etmək yalnız ərəb dilini və ədəbiyyatını mükəmməl şəkildə bilənlər üçün müyəssər idisə, xoşbəxtlikdən onun sadalayacağımız digər möcüzəvi cəhətlərini çoxları dərk etmək iqtidarındadır.

[1] Məcməul-bəyan, c.5, səh.387.
[2] İslamdan əvvəlki dövr belə adlandırılıb.

O gələcək...

1) Quranı gətirən şəxs təhsil görməmiş və heç bir müəllimdən dərs almamış (ümmi) bir şəxs idi; o, nə məktəbə getmiş, nə bir müəllim qarşısında diz qatlamış, nə də bir kitab oxumuşdu. Rəbbimiz buyurur:

وَ مَا كُنْتَ تَتْلُواْ مِنْ قَبْلِهِ مِنْ كِتَابٍ وَ لَا تَخُطُّهُ بِيَمِينِكَ إِذًا لَارْتَابَ الْمُبْطِلُونَ.

**“(Ya Məhəmməd!) Sən bu Qurandan əvvəl nə bir kitab oxumusan, nə də onu əlinlə yazmısan. Əgər belə olsaydı, onda batilə uyanlar (onun barəsində) şəkk-şübhəyə düşərdilər (onu hardansa oxuyub öyrənmişdir deyərdilər)”.**[1]

Sevimli Peyğəmbərimiz (s) bu ayəni elə bir camaata oxumuşdu ki, onlar o həzrətin tərcümeyi-halını çox yaxşı bilirdilər. Heç şübhəsiz, əgər Həzrət Peyğəmbər (s) təhsil almış olsaydı, onun bu iddiasını anındaca təkzib edərdilər. Əlbəttə, “Quranı ona bir insan öyrədir…” (bax: Nəhl surəsi, 103-cü ayə) kimi ittihamlar isə digər ittihamlar kimi əsassızdır. Qurani-Kərim bu ittihamı təkzib edərək buyurur:

... لِسَانُ الَّذِى يُلْحِدُونَ إِلَيْهِ أَعْجَمِىٌّ وَ هَذَا لِسَانٌ عَرَبِىٌّ مُبِينٌ.

**“Onların dedikləri adamın dili başqa dildir. Bu (Quranın dili) isə açıq-aşkar (bəlağətli, fəsahətli) ərəb dilidir!”**[2]

2) 23 il ərzində və fərqli şəraitlərdə (sülh, müharibə, səfər və s.) Həzrət Peyğəmbər (s) tərəfindən tilavət olunan Qurani-Kərimin məzmun uyğunluğu, başqa sözlə, ilk tilavət olunan ayədən sonuncu ayəyədək bu məcmuədə məzmun və məna baxımından heç bir ziddiyyətin olmaması danılmaz bir həqiqətdir. Qeyd edək ki, Qurani-Kərim əqidə, şəri hökmlər, əxlaq qaydaları, qədim ümmətlərin tarixi, təbiət aləmi və s. mövzular haqqında bəhs etmişdir. Quranın özü bu möcüzəvi cəhətini vurğulayaraq buyurur:

[1] Ənkəbut surəsi, 48-ci ayə.
[2] Nəhl surəsi, 103-cü ayə.

O gələcək...

أَ فَلَا يَتَدَبَّرُونَ الْقُرْءَانَ وَ لَوْ كَانَ مِنْ عِندِ غَيْرِ اللَّهِ لَوَجَدُواْ فِيهِ اخْتِلَافًا كَثِيرًا.

**“Onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan qeyrisi tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət (uyğunsuzluq) tapardılar”.**[1]

3) Qurani-Kərim dəyişməz fitrətə sahib insanın mənəvi və maddi həyatının bütün sahələrini əhatə edən qanunlar müəyyən etmişdir.

İmam Baqir (ə) buyurmuşdur: “Allah insanın ehtiyacı olan hər bir şey haqqında Öz Kitabında (Quranda) buyurmuş və öz elçisinə onun hökmünü bəyan etmişdir. Hər şey üçün bir hədd və hər hədd üçün bir dəlil qoymuşdur”.[2]

İslam qanunlarının özəlliklərindən biri budur ki, müxtəlif şəraitlər və mühitlərdə icra olunmağa qabildir. Müsəlmanlar böyük ərazilərə hakim olduqları dövrlərdə bu qanunların sayəsində əsrlər boyu böyük cəmiyyətləri idarə etmişlər.

## Yetmiş üçüncü bəhs

4) Qurani-Kərim bir sıra ayələrdə təbiət qanunlarını bəyan etmişdir. Halbuki, həmin dövrün insanları təbiətin bu qanunlarının mahiyyətini dərk etmək səviyyəsində deyildilər və son əsrdə bu qanunların kəşfi elmi nailiyyət hesab olunur. Kainatın bu sirlərinin elmi-mədəni səviyyəsi çox-çox aşağı olan bir cəmiyyətdə yaşayan və təhsil almamış bir şəxs tərəfindən açıqlanması yalnız vəhy sayəsində mümkün ola bilərdi.

Cazibə (qravitasiya) qanununun kəşfi müasir elmin nailiyyətlərindən biri sayılır. Qurani-Kərim qısa bir cümlədə bu qanunu bəyan edərək buyurur:

اللَّهُ الَّذِى رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا...

---

[1] Nisa surəsi, 82-ci ayə.
[2] Usuli-kafi, c.1, səh.59.

**“Göyləri sizin görə bilmədiyiniz dayaqla yüksəldən məhz Allahdır”.**[1]

“Zövciyyət”[2] qanununun kəşfi də müasir elmin nailiyyətlərindən biridir. Qurani-Kərim bu həqiqətdən xəbər verərək buyurur:

وَ مِن كُلِّ شَيْءٍ خَلَقْنَا زَوْجَيْنِ لَعَلَّكُمْ تَذَكَّرُونَ.

“Biz hər şeydən (bir-birinin əksi olmaqla) cüt yaratdıq, bəlkə bir düşünüb ibrət alasınız”.[3]

(Məsələn, canlıların erkək və dişi olması, qüvvələrin mənfi yüklü və müsbət yüklü olması, iqlimin isti və soyuq olması və s.)

Təfsir və kəlam kitablarında və ya ensiklopediyalarda Qurani-Kərimin digər elmi möcüzələri qeyd edilmişdir.

5) Qurani-Kərim gələcəkdə baş verəcək bəzi hadisələri öncədən xəbər vermiş və bu xəbərlər zamanı çatdıqda gerçəkləşmişdir. Biz bu nümunələrdən yalnız birini qeyd edirik:

Allahpərəst romalı məsihilər atəşpərəst sasanilərə məğlub olduqda müşrik ərəblər bu hadisəni bir müjdə kimi qəbul etmiş və demişdilər ki, biz də Ərəbistan yarmadasındakı Allahpərəstlər (müsəlmanlar) üzərində qələbə çalacağıq. Qurani-Kərim o zaman qəti şəkildə buyurmuşdu:

غُلِبَتِ الرُّومُ. فِى أَدْنَى الْأَرْضِ وَ هُمْ مِنْ بَعْدِ غَلَبِهِمْ سَيَغْلِبُونَ. فِى بِضْعِ سِنِينَ
لِلَّهِ الْأَمْرُ مِن قَبْلُ وَ مِن بَعْدُ وَ يَوْمَئِذٍ يَفْرَحُ الْمُؤْمِنُونَ.

**“Rumlular (bizanslılar iranlılara) məğlub oldular. Ən yaxın bir yerdə (Şamda və İordaniya.) Lakin onlar bu məğlubiyyətlərindən sonra qalib gələcəklər. Bir neçə ilin içində. Əvvəl də, sonra da hökm Allahındır. Möminlər sevinəcəklər”.**[4]

---

[1] Rəd surəsi, 2-ci ayə.
[2] Cüt olma.
[3] Zariyat surəsi, 49-cu ayə.
[4] Rum surəsi, 2-4-cü ayələr.

O gələcək...

Tezliklə gələcəkdən verilən bu xəbər gerçəkləşir. Allaha inanan hər iki dəstə (bizanslı xristianlar və ərəbistanlı müsəlmanlar) eyni zamanda öz düşmənləri (Sasanilər sülaləsinin hakimiyyəti altında olan İran və Qüreyşli müşriklər) üzərində qələbə çalır. Bu üzdən ayənin sonunda möminlərin sevinəcəklərindən söz açılır və buyurulur: “Möminlər sevinəcəklər”.

6) Qurani-Kərim müxtəlif surələrdə əvvəlki peyğəmbərlərin və onların ümmətlərinin hekayətlərini bəyan etmişdir. Bu hekayətlər Əhdi-Ətiq (Tövrat) və Əhdi-Cədiddə (İncil) də nəql olunmuşdur. Müqayisə etdikdə aydın olur, Tövrat və İncildə nəql olunan bu hekayətlər müəyyən təhriflərə uğramışlar. Çünki peyğəmbərlərin haqqında Quranın verdiyi tarixi məlumatlarda ağıl, fitrət və peyğəmbərlərin yüksək dərəcələri ilə uzlaşmayan kiçik bir məqam belə yoxdur. Lakin Tövrat və İncildəki hekayətlərdə belə çatışmazlıqlar çoxdur. Nümunə üçün Quranda və bu iki əvvəlki səmavi kitabda Adəm peyğəmbər (ə) haqqında yazılanları müqayisə etmək kifayətdir.

## Yetmiş dördüncü bəhs

### Həzrət Məhəmmədin (s) haqq peyğəmbər olduğunu təsdiqləyən nişanələr

Qeyd etdik ki, müəyyən nişanələr peyğəmbərlərin iddiasının doğruluğunu sübuta yetirə bilər. Bu bəhsimizdə İslam peyğəmbəri Həzrət Məhəmmədin (s) haqq peyğəmbər olduğunu təsdiqləyən nişanələri qısa şəkildə açıqlayacağıq.

**1) *Peyğəmbərlikdən qabaq Həzrət Məhəmmədin (s) keçdiyi həyat yolu:***

Qüreyş camaatı İslam peyğəmbərini peyğəmbərlikdən öncə “Məhəmməd Əmin” (əmanətdar Məhəmməd) adlandırmış və öz qiymətli əşyalarını saxlamaq üçün ona əmanət etmişlər.

Kəbə evində bərpa işləri apardıqdan sonra “həcərul-əsvəd”in (qara daş) yerinə qoyulması məsələsində dörd qəbilə arasında ixtilaf düşdüyü zaman hamı bu işin Həzrət Məhəm-

mədə (s) həvalə edilməsinə razılaşmışdı. Çünki o, etibarlı, əmanətdar və təmiz bir insan idi.[1]

***2) Fəsad dolu mühitdə günaha bulaşmamaq:***

İslam peyğəmbərinin (s) yaşadığı, boya-başa çatdığı mühit bütpərəstlik, qumarbazlıq, qız uşağının diri-diri torpağa basdırılması, olü heyvanın ətinin yeyilməsi və s. bu kimi zülm və fəsadların hökm sürdüyü bir mühit olmuşdur. Buna baxmayaraq, o həzrət yüksək mənəviyyata sahib bir insan olmuş, heç zaman bu kimi əqidə və əxlaq rəzilliklərinə bulaşmamışdır.

**3) *Çağırışın məğzi*:**

İslam peyğəmbəri (s) insanları cahillik və cahillik ənənələrindən, zülm və fəsaddan çəkinməyə səsləmişdir:

Peyğəmbərin (s) yaşadığı cəmiyyət bütpərəst idi, o isə tövhidə çağırırdı. Bu insanlar “məad”ı (Qiyaməti və axirət həyatını) inkar edirdilər, o isə məada imanı İslamın əsas şərti sayırdı. Bu insanlar qız uşaqlarını diri-diri basdırırdılar, lakin o, qadının tapdalanmış haqqını özünə qaytardı. Bu insanlar sələmçi və var-dövlət hərisi idilər, o isə sələmçilik və hərislikdən çəkindirirdi. Onlar şərabxorluq və qumarbazlıq edirdilər, o isə bu işləri şeytan əməli adlandırır və onlardan çəkinməyi vacib buyururdu.

**4) *Dinin təbliğində istifadə etdiyi üsul və vasitələr*:**

Dinin təbliğində Həzrət Peyğəmbərin (s) yararlandığı üsul və vasitələr bəşəri dəyərlərə və əxlaq normalarına söykənirdi. Sevimli Peyğəmbərimiz (s) heç vaxt düşmənin suyunu kəsmək və ya onu çirkləndirmək, yaşıllıqları (əkin sahələrinin) məhv etmək və s. bu kimi qeyri-humanist üsullardan istifadə etməmişdir. Əksinə, o dönə-dönə tapşırırdı ki, qadın, uşaq və yaşlılar incidilməsin, ağaclar kəsilməsin və düşmənə son xəbərdarlıq etmədən onlarla müharibə edilməsin. O, Makiyavelist məntiqin irəli sürdüyü “hədəfə çatmaq üçün hər cür vasitədən istifadə etmək olar” müddəasından tamamilə

[1] Sire-yi İbn Hişam, c.1, səh.209.

O gələcək...

çəkinmişdir. Misal olaraq, Xeybər savaşında bir nəfər Peyğəmbərə (s) təklif edir ki, düşmənin təslim olması üçün onların qalasına axan suyu zəhərləsinlər. Lakin Peyğəmbər (s) bu təklifi rədd edir.

Sevimli Peyğəmbərimizin (s) həyat səhifələri hətta düşmənlərlə mərhəmətli və insani davranış nümunələrilə doludur.

***5) Peyğəmbərə (s) iman gətirənlərin, onun davamçılarının şəxsiyyəti və xüsusiyyətləri****:*

İslam Peyğəmbərinə (s) iman gətirənlərin düşüncə və davranışlarını araşdırdıqda onun haqq peyğəmbər olduğu aydın olur.

Şübhə yoxdur ki, əgər hansısa bir çağırış cəmiyyətdə müsbət keyfiyyətlərilə fərqlənən şəxslərə təsir edərsə, bu, həmin çağırışın doğru və haqq olmasının göstəricisidir. Əksinə, əgər hansısa bir çağırışın ətrafına dünyapərəst insanlar yığışarsa, bu, həmin çağırışın ali dəyərlərə söykənmədiyindən xəbər verir. Peyğəmbərə (s) iman gətirən insanlar içərisində Əli ibn Əbu Talib (ə), Cəfər ibn Əbu Talib, Salman, Əbuzər, Bilal, Musəb, İbn Məsud, Miqdad və Əmmar kimi dahi şəxsiyyətləri görürük ki, tarix onların insani keyfiyyətlərini, zahidliklərini, təqvalarını, fədakarlıqlarını, paklıq və dürüstlüklərini təsdiqləməkdədir.

**6) *Yaşadığı cəmiyyətə göstərdiyi müsbət təsir və əzəmətli bir sivilizasiyanın meydana gəlməsi***:

İslam peyğəmbəri (s) iyirmi üç il ərzində Ərəbistan yarmadasında yeni bir sivilizasiya formalaşdırdı. Sevimli Peyğəmbərimiz (s) xəyanətkar və bütpərəst insanlardan əmanətdar və təkallahlı insanlar tərbiyə etdi. Peyğəmbərin (s) tərbiyə etdiyi insanlar əzəmətli və bənzərsiz İslam sivilizasiyasını təkcə öz məntəqələrində deyil, yaxın və uzaq məntəqələrə də yaydılar. İslamın ilkin çağlarının müsəlmanlarından olan Cəfər ibn Əbu Tailib bu təbliğatçılardan biri idi. O, həbəş hökmdarının sualına belə cavab vermişdi:

O gələcək...

“Ey hökmdar, Allah bizim içərimizdən bir peyğəmbər seçdi. O bizi bütpərəstlikdən və qumarbazlıqdan çəkindirdi. O bizə namaz qılıb zəkat verməyi, ədalətli olub yaxşılıq etməyi və qohum-əqrəbaya yardım etməyi buyurdu, əxlaqsızlığı, pis işləri və zülmü isə qadağan etdi”.[1]

Bu və digər nişanələr İslam peyğəmbərinin (s) haqq olduğunu təsdiqləyən nişanələrdən hesab olunur.

## Yetmiş beşinci bəhs
### Əvvəlki peyğəmbərin təsdiqi

Peyğəmbərlik iddiasının sübutu yollarından biri də “əvvəlki peyğəmbərin təsdiqi”dir. Əlbəttə, bunun üçün əvvəlki peyğəmbərin həqqaniyyəti qəti dəlillərlə sübuta yetmiş olmalıdır. Bu təqdirdədir ki, onun özündən sonrakı peyğəmbər barədə buyurduqları qəti bir dəlil kimi qəbul edilə bilər.

Qurani-Kərimdə oxuyuruq ki, Kitab-əhli (yəhudilər və xristianlar) İslam peyğəmbərini öz övladlarını tanıdıqları kimi tanıyırmışlar, çünki onun peyğəmbərliyinin əlamətləri onların səmavi kitablarında bəyan edilmişdir. Rəbbimiz buyurur:

الَّذِينَ ءَاتَيْنَاهُمُ الْكِتَابَ يَعْرِفُونَهُ كَمَا يَعْرِفُونَ أَبْنَاءَهُمْ وَ إِنَّ فَرِيقًا مِنْهُمْ لَيَكْتُمُونَ الْحَقَّ وَ هُمْ يَعْلَمُونَ.

**“Kitab (Tövrat və İncil) verdiyimiz şəxslər onu (Məhəmmədi) öz övladlarını tanıdıqları kimi tanıyırlar. Onların bir qismi, şübhəsiz ki, həqiqəti bilə-bilə gizlədir”**.[2]

İslam peyğəmbəri (s) buyurmuşdur ki, İsa peyğəmbər (ə) onun gəlişini müjdə vermişdir:

... وَ مُبَشِّرًا بِرَسُولٍ يَأْتِى مِنْ بَعْدِى اسْمُهُ أَحْمَدُ...

[1] Sire-yi İbn Hişam, c.1, səh.359-360.
[2] Bəqərə surəsi, 146-cı ayə.

**“Məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verirəm”.**[1]

Kitab-əhli bu iddianı təkzib etməmiş, baxmayaraq ki, həqiqəti açıb söyləməkdən boyun qaçırmışlar.

Bunu da bilmək maraqlı olardı ki, İncil kitabı əsrlər boyunca təhriflərə uğradığına baxmayaraq, “İohan” İncilində (14, 15 və 16-cı fəsillərdə) Həzrət İsa (ə) ondan sonra “Farqelita” (ərəbcəyə tərcümədə: Məhəmməd) adlı bir şəxsin gələcəyi haqda verdiyi xəbər öz əksini tapmışdır. Tədqiqatçılar daha ətraflı məlumat əldə etmək üçün həmin İncil nüsxəsinə müraciət edə bilərlər.[2]

## Yetmiş altıncı bəhs

Qeyd etdiyimiz kimi, sevimli Peyğəmbərimizin (s) möcüzələri təkcə Quranla məhdudlaşmır. Həzrət Məhəmməd (s) insanları inandırmaq üçün müxtəlif məqamlarda fərqli möcüzələr də göstərmişdir.

Bunu da qeyd etmək lazımdır ki, əqlin mühakiməsinə istinadən İslam peyğəmbərinin (s) Qurandan qeyri möcüzələri olması labüddür. Belə ki, İslam peyğəmbəri (s) Həzrət Musanın (ə) doqquz möcüzəsindən söz açır[3] və Həzrət İsanın (ə) beş möcüzəsini xatırladır.[4] Belə olduğu təqdirdə heç mümkündürmü ki, əvvəlki peyğəmbərlərdən daha mükəmməl bir şəriət gətirən və sonuncu peyğəmbər olan İslam peyğəmbəri (s) özündən əvvəlki peyğəmbərlərin göstərdikləri cürbəcür möcüzələri nəql etdiyi halda özü təkcə bir möcüzəyə sahib olsun?! Həmçinin camaat əvvəlki peyğəmbərlərin göstərdikləri o qədər möcüzələri eşidib Həzrət Peyğəmbərdən (s)

---

[1] Səff surəsi, 6-cı ayə.

[2] Bu zəmində Əhdi-Ətiq və Əhdi-Cədidin sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (s) barədə verdiyi müjdələri bir yerə toplamış müəlliflərin əsərlərinə, o cümlədən Ənis ül-Əlamın əsərinə müraciət etmək olar.

[3] İsra surəsi, 101-ci ayə.

[4] Ali-İmran surəsi, 49-cu ayə.

fərqli möcüzələr göstərməsini tələb etməsin və yalnız bir möcüzə ilə kifayətlənsin?!

Qurani-Кərim Həzrət Peyğəmbərin (s) bir neçə möcüzəsindən danışmışdır, o cümlədən:

**1) *Şəqqül-qəmər, yəni ayın parçalanması:***

Tarixi mənbələrə istinadən müşriklər Həzrət Peyğəmbərin (s) qarşısında belə şərt qoyurlar ki, əgər bizim iman gətirməyimizi istəyirsənsə, əlinin işarəsi ilə ayı iki yerə böl. Həzrət Peyğəmbər (s) də Allahın iznilə bu işi görür. Rəbbimiz buyurur:

اقْتَرَبَتِ السَّاعَةُ وَ انْشَقَّ الْقَمَرُ. وَ إِن يَرَوْاْ ءَايَةً يُعْرِضُواْ وَ يَقُولُواْ سِحْرٌ مُّسْتَمِرٌّ.

**“Qiyamət yaxınlaşdı və ay (peyğəmbərin möcüzəsilə) parçalandı. Əgər müşriklər bir möcüzə görsələr, (imandan) üz döndərib “bu, davam edən bir sehrdir!” - deyərlər”.**[1]

İkinci ayə təsdiqləyir ki, birinci ayədə ayın Qiyamət günündə deyil, Peyğəmbərin (s) dövründə onun möcüzəsilə parçalandığından söhbət gedir.

**2) *Merac*:**

Sevimli Peyğəmbərimiz (s) bir gecənin içində Məkkədəki Məscidül-həramdan Fələstindəki Məscidül-əqsaya, oradan da göy aləminə getmişdir. Belə bir qısa zamanda Peyğəmbərimizin (s) belə böyük məsafəni qət edib, sonra göy aləmini səyahət etməsi, onun Quranda buyurulan digər möcüzələrindəndir. Bilməlisiniz ki, Allahın mütləq qüdrəti qarşısında təbii amillər Onun elçisinin göylərə yüksəlməsinə mane ola bilməz.[2]

**3) *Kitab-əhli ilə mübahilə***[3]**:**

---

[1] Qəmər surəsi, 1-2-ci ayələr.
[2] İsra surəsi, 1-ci ayə.
[3] Mübahilə, bir-birini nifrin və qarğış etməyə deyilir.

Həzrət Peyğəmbər (s) haqq olduğunu sübuta yetirmək üçün xristianlardan bir dəstəni mübahiləyə çağırır və buyurur: “Övladlarımız və qadınlarımızla birlikdə gələk və bir-birimizə nifrin edək”.

Aydındır ki, mübahilə iki tərəfdən birinin məhvi ilə tamamlanacaqdı, lakin Həzrət Peyğəmbər (s) buna hazır olduğunu bildirir. İslam peyğəmbərinin (s) qətiyyətini və mübahiləyə özünün ən əziz insanları ilə gəldiyini görən xristianlar geri çəkilib Peyğəmbərlə (s) mübahilə etməyə cürət etmədilər.[1]

Daha öncə qeyd etdik ki, Həzrət İsa (ə) qeybdən xəbər verirdi.[2] Sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (s) də vəhy vasitəsilə qeybdən xəbər vermişdir. Bu qeybi xəbərlərdən biri romalıların iranlılar üzərində qələbə çalacağı[3], digəri isə Məkkənin fəth ediləcəyidir.[4]

Bunlar Peyğəmbərimizin (s) Qurani-Kərimdə açıqlanan möcüzələrindən idi. Bunlardan əlavə İslam tarixçiləri və mühəddisləri (hədis raviləri) o həzrətin çox sayda digər möcüzələrini də rəvayət etmişlər ki, bu rəvayətlər “mütəvatir”dir.

---

[1] Ali-İmran surəsi, 61-ci ayə.
[2] Ali-İmran surəsi, 49-cu ayə.
[3] Rum surəsi, 2-ci ayə.
[4] Fəth surəsi, 27-ci ayə

# İSLAM PEYĞƏMBƏRİNİN (S) GƏTİRDİYİ ŞƏRİƏTİN ÖZƏLLİKLƏRİ

İslam peyğəmbərinin (s) gətirdiyi şəriətin bir sıra özəllikləri vardır. Qarşıdakı bəhslərdə bu özəlliklərdən dördü barədə söz açacağıq.

## Yetmiş yeddinci bəhs

İslam peyğəmbərinin (s) gətirdiyi şəriət cahanşümuldur. Bu şəriət müəyyən bir cəmiyyətə və məntəqəyə xas deyildir. Rəbbimiz buyurur:

وَ مَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِلنَّاسِ بَشِيرًا وَ نَذِيرًا...

**“(Ya Məhəmməd!) Biz səni <u>bütün insanlara</u> müjdə verən və qorxudan bir peyğəmbər göndərdik!”[1]**

وَ مَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِلْعَالَمِينَ.

**“(Ya Məhəmməd!) Biz səni <u>aləmlərə</u> ancaq bir rəhmət olaraq göndərdik!”[2]**

Bu səbəbdəndir ki, o həzrət öz çağırışında “insanlar”a xitab etmiş və buyurmuşdur:

يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءَكُمُ الرَّسُولُ بِالْحَقِّ مِنْ رَبِّكُمْ فَئَامِنُواْ خَيْرًا لَكُمْ...

**“<u>Ey insanlar!</u> Peyğəmbər Rəbbinizdən sizə haqla (Quranla) gəldi. (Ona) iman gətirin! Bu, sizin üçün xeyirli olar”.[3]**

[1] Səba surəsi, 28-ci ayə.
[2] Ənbiya surəsi, 107-ci ayə.
[3] Nisa surəsi, 170-ci ayə.

Əlbəttə, dinin təbliğinə başlayarkən Həzrət Məhəmməd (s) ilk növbədə öz qövmünü ilahi əzabla hədələyib qorxutmuşdur; o qövm ki, bundan qabaq onlara ilahi əzabla qorxudan bir ilahi elçi gəlməmişdi:

بَلْ هُوَ الْحَقُّ مِنْ رَبِّكَ لِتُنذِرَ قَوْمًا مَا أَتَاهُمْ مِنْ نَذِيرٍ مِنْ قَبْلِكَ...

**"Xeyr, o səndən əvvəl peyğəmbər göndərilməmiş bir qövmü (Allahın əzabı ilə) qorxutmağın üçün Rəbbindən (nazil) olan bir haqdır".[1]**

Lakin bu o demək deyildir ki, onun peyğəmbərliyi müəyyən bir cəmiyyətin hidayəti ilə məhdudlaşır. Bu səbəbdən, bəzən Qurani-Kərim müəyyən bir cəmiyyəti haqq yola dəvət etdikdən sonra, fasiləsiz olaraq bu dəvəti bütün insanlara aid etmiş və Peyğəmbərin dilindən buyurmuşdur:

وَ أُوحِيَ إِلَيَّ هَذَا الْقُرْءَانُ لِأُنذِرَكُم بِهِ وَ مَنْ بَلَغَ...

**"Bu Quran mənə vəhy olundu ki, onun vasitəsilə sizə və bu vəhyin çatdığı hər bir kəsə xəbərdarlıq edib qorxudum".[2]**

Aydın məsələdir ki, hər bir peyğəmbər ilk növbədə gərək öz qövmünü, cəmiyyətini gətirdiyi şəriətə dəvət etsin; istər onun şəriəti cahanşümul olsun, istərsə də müəyyən bir məntəqəyə xas olsun. Qurani-Kərim bu məsələ ilə bağlı buyurur:

وَ مَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا بِلِسَانِ قَوْمِهِ لِيُبَيِّنَ لَهُمْ...

**"Biz hər bir peyğəmbəri yalnız öz qövmünün (millətinin) dilində (danışan) göndərdik ki, (Allahın əmrlərini) ona izah edə bilsin".[3]**

---

[1] Səcdə surəsi, 3-cü ayə.
[2] Ənam surəsi, 19-cu ayə.
[3] İbrahim surəsi, 4-cü ayə.

Lakin, qeyd etdiyimiz kimi, hər bir qövmə onun dilində danışan bir peyğəmbərin göndərilməsi, bu peyğəmbərin gətirdiyi şəriətin yalnız həmin qövmə aid olması anlamını daşımır.

## Yetmiş səkkizinci bəhs

Həzrət Məhəmməd (s) sonuncu peyğəmbərdir, odur ki, onun gətirdiyi şəriət və səmavi kitab da sonuncu şəriət və səmavi kitabdır. Başqa sözlə, Həzrət Məhəmməddən (s) sonra daha peyğəmbər gəlməyəcək və onun gətirdiyi şəriət Qiyamət gününədək baqi qalacaqdır.

Həzrət Məhəmmədin (s) sonuncu peyğəmbər olması 2 məsələni bizim üçün aşılayır:

İslamın gəlişilə əvvəlki şəriətlər (ilahi qanunlar) qüvvədən düşür;

Gələcəkdə başqa bir səmavi şəriət gəlməyəcək və hər cür yeni şəriət iddiası təkzib edilir.

"Xatəmiyyət" məsələsi, yəni İslam Peyğəmbərinin (s) sonuncu peyğəmbər olması Quranda və hədislərdə aydın şəkildə öz əksini tapmışdır. Bu məsələ ilə bağlı olan ayələrdən birinə nəzər salaq:

مَا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِنْ رِجَالِكُمْ وَ لَاكِن رَسُولَ اللّٰهِ وَ خَاتَمَ النَّبِيِّينَ وَ كَانَ اللّٰهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا.

**"Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Rəsulu (elçisi) və nəbilərin sonuncusudur ("xatəmul-ənbiya"dır ). Allah hər şeyi biləndir!"[1]**

"Xatəm" sözü ərəb sözü olub "sona çatdıran, xətm edən" mənasını bildirir. Bu sözün başqa bir mənası isə "üzük"dür. Üzük ondan ötrü "xatəm" adlandırılıb ki, İslamın zühur etdiyi dövrlərdə insanlar üzüklərinin qaşından möhür kimi istifadə

[1] Əhzab surəsi, 40-cı ayə.

edirdilər və məktubu möhürləmək, məktubun mətninin sona çatdığını göstərirmiş.

Burada diqqətəlayiq bir məqam da ondan ibarətdir ki, "risalət", vəhy yolu ilə alınan ilahi göstərişlərin insanlara çatdırılması deməkdir ("rəsul" da bu göstərişləri çatdıran şəxsə deyilir). Təbii ki, "risalət" "nübüvvət"siz (yəni Allahdan vəhy alan nəbilər, yəni peyğəmbərlər olmadan) həyata keçə bilməz. Nəticə etibarilə "nübüvvət"in sona çatması, "risalət"in də sona çatmasıdır.[1]

"Xatəmiyyət" məsələsi ilə bağlı çoxsaylı hədislər içərisindən yalnız "Mənzilət" adı ilə tanınan hədisi nəzərinizə çatdırırıq. Sevimli Peyğəmbərimiz (s) Təbuk savaşına gedərkən Həzrət Əlini (ə) Mədinədə öz yerinə təyin edir və ona belə buyurur:

أَلاَ تَرْضَى أَنْ تَكُونَ مِنِّى بِمَنْزِلَةِ هَارُونَ مِنْ مُوسَى إِلَّا أَنَّهُ لَا نَبِىَّ بَعْدِى.

"Sevinmirsənmi ki, mənim yanımda sənin yerin, Musanın yanında Harunun yeri kimidir. Bircə fərqlə ki, məndən sonra nəbi (peyğəmbər) olmayacaqdır".[2]

Hədis mənbələrində mütəvatir "Mənzilət" hədisindən əlavə, bu məsələyə dair bir çox başqa mütəvatir hədislər də vardır.[3]

## Yetmiş doqquzuncu bəhs

İslam şəriətinin qiyamətədək baqi qalacaq sonuncu şəriət olmasının səbəbi 2 amildir:

**1)** İslam şəriəti insanın təbii və fitri ehtiyaclarını ilahi qanunlar çərçivəsində təmin edəcək mükəmməl bir həyat proqramı təqdim etmişdir.

---

[1] "Xatəmiyyət"i təsdiqləyən ayə yalnız yuxarıdakı ayə deyildir. Bu məsələ ilə Qurani-Məciddə daha 6 ayə vardır. Müraciət edin: Məfahimul-Quran, c.3, səh.130-139.

[2] Səhih Buxari, c.3, səh.58; Səhih Müslim, c.2, səh.323; "Əmali", Səduq, səh.28, 47, 81; Biharul-ənvar, c.37, səh.254-289, bölüm: 53; Səhih Buxari, c.3, səh. 54, bölüm: Təbuk savaşı; Səhih Müslim c.4, səh.1871; Sünəni-Tirmizi, c.2, səh.301; Sire-yi İbn Hişam c.4, səh.162; Müsnədi-Əhməd, c.1, səh.174

[3] Müraciət edin: Məfahimul-Quran, c.3, səh.141–167.

**2)** İslam şəriəti "dinin əməli hökmləri" sahəsində bir sıra dəyişməz ümumi qanunlar müəyyən etmişdir ki, qarşıya çıxan hər növ yeni suallar bu qanunlar əsasında cavablandırılır. İslam fəqihlərinin (xüsusilə də şiə fəqihlərinin) keçən on dörd əsr ərzində müsəlman cəmiyyətin "dinin əməli hökmləri"nə dair suallarına cavab verməkdə aciz qalmaması müddəamıza aydın dəlildir. Bu zəmində aşağıdakı faktorlar mühüm rol oynayır:

**a)** ***Əqlin "höcciyyət"i, yəni etibarlı istinad yeri olması:*** Mühakimə yürütmək üçün səlahiyyəti olduğu məqamlarda əql, vəzifələri müəyyən etməkdə etibarlı istinad yeri hesab olunur.

**b)** ***"Mühüm" ilə "daha mühüm"ün uzlaşmadığı məqamlarda "daha mühüm"ə əməl etmək***: Bilmək lazımdır ki, İslam dininin hökmləri bir sıra meyarlara əsaslanır ki, onlardan bir qismini əql dərk edir, digər qismini isə şəriət açıqlayır. Bu meyarları tanımaqla fəqih, "mühüm" ilə "daha mühüm"ün uzlaşmadığı məqamlarda "daha mühüm"ü tərcih edə və qarşıya çıxan problemi həll edə bilər.

**c)** ***İctihad qapısının açıq olması***: İctihad qapısının İslam ümmətinin üzünə açıq olması – belə ki, bu, şiə məzhəbinin imtiyazlarındandır - İslam dininin sonuncu din olmasına təminat verən amillərdən biridir. Çünki davam edən ictihad sayəsində hər zaman qarşıya çıxan yeni məsələlərin hökmü İslamın dəyişməz ümumi qaydaları əsasında cavablandırılır.

**q)** ***"Sanəviyyə"[1] hökmlər***: İslam şəriətində "əvvəliyyə"[2] hökmlərdən başqa bir çox çətinlikləri həll edə biləcək bir sıra "sanəviyyə" hökmlər də mövcuddur. Məsələn, hansısa bir hökmün icrası insanın məşəqqətə və ya ziyana düşməsinə səbəb olduqda (fiqhdə göstərilən şərtlərə müvafiq olaraq) "la

---

[1] Bu və digər hökmün icrası insanı çətinliyə və ya ziyana salarsa, bu halda "sanəviyyə", yəni "ikinci" bir hökm tətbiq edilir. Daha ətraflı məlumat üçün "Usul-i fiqh" kitablarına müraciət edin.

[2] "Əvvəliyyə" hökmlər adi şəraitdə tətbiq edilən, xüsusi şəraitdə isə "sanəviyyə" hökmlərlə əvəz edilən hökmlərdir. .

zərər və la zirar"[1] qaydası insanın bu dalandan çıxmasına imkan yaradır. Rəbbimiz buyurur:

... وَ مَا جَعَلَ عَلَيْكُمْ فِى الدِّينِ مِنْ حَرَجٍ...

**"(Allah) dində sizin üçün heç bir çətinlik yeri qoymadı!"[2]**

Həzrət Məhəmməd (s) də bu xüsusda buyurmuşdur:

لَا ضَرَرَ وَ لَا ضِرَار.

"İslamda zərər yetirmək və zərəri qəbul etmək olmaz".

Qeyd etmək lazımdır ki, bu və bu kimi qaydalara sahib olan bir şəriətin ardıcılları öz həyatlarında heç vaxt çıxılmaz vəziyyətə düşməzlər.

"Xatəmiyyət" barədə geniş bəhsləri isə kəlam elminə dair əsərlərə həvalə edirik.

## Səksəninci bəhs

İslam dininə xas cəhətlərdən biri də bu dinin təlimlərinin aydın, mötədil və asan olmasıdır. Bu cəhət İslam dininin müxtəlif dünya xalqları arasında yayılmasının başlıca amillərindən olmuşdur.

İslamın "tövhid", yəni "Allahın yeganəliyi" barədəki təlimləri tam aydın və anlaşılandır. Qurani-Kərimin təkcə "Tövhid" surəsi bu müddəanı sübuta yetirmək üçün kifayət edər.

Qurani-Kərimdə insanın üstünlük və ucalıq meyarı onun "təqva"sı göstərilir. Təqva isə bir növ bütün müsbət əxlaqi keyfiyyətləri özündə birləşdirən bir xislətdir.

İslamın əməli hökmlərinə gəlincə, burada məşəqqət və ziyan yolverilməzdir. Həzrət Peyğəmbər (s) özünü asan və rahat bir şəriət gətirən peyğəmbər kimi təqdim edərək buyurur:

جِئْتُ بِشَرِيعَةٍ سَهْلَةٍ سَمْحَةٍ.

---

[1] Bu qayda barədə ətraflı məlumat əldə etmək üçün Üsuli-fiqh kitablarına müraciət edin.

[2] Həcc surəsi, 78-ci ayə.

O gələcək...

"Mən asan və rahat bir şəriət gətirdim".

İnsaflı və qərəzsiz mövqe tutan tədqiqatçı alimlər, hətta qeyri-müsəlman tədqiqatçı alimlər belə bildirmişlər ki, İslam dininin sürətlə yayılmasının əsas amili bu dinin ehkam və təlimlərinin aydınlığı və əhatəliliyi olmuşdur. Məsələn, məşhur fransız alimi Qustav Lebon deyir:

"İslamın irəliləyişinin sirri onun rahatlığı və asanlığındadır. İslam dinində sağlam düşüncənin qəbul edə bilmədiyi bir təlim və fikir yoxdur. Halbuki, digər dinlərdə belə təlim və fikirlərə çox rast gəlinir. Nə qədər axtarsanız da, İslam təlimlərindən daha sadəsini tapa bilməzsiniz. İslam buyurur: Allah təkdir, bütün insanlar Allah qarşısında bərabərdirlər, insan bir sıra dini vəzifələri yerinə yetirməklə Cənnətə və səadətə qovuşar, yerinə yetirmədiyi təqdirdə isə Cəhənnəmə atılar.

İslam təlimləri və göstərişlərinin belə aydın və sadə olması bu dinin yer üzündə yayılmasında böyük rol oynamışdır. Bundan daha mühümü İslamın ürəklərdə yarada bildiyi möhkəm imandır; elə bir iman ki, heç bir şəkk-şübhə onu qoparmağa qadir deyildir.

İslam dini digər dinlərlə müqayisədə elmi kəşflərə münasibətdə daha düzgün mövqe tutmaqla yanaşı, insanları güzəşt və əfvə səsləməklə də saf və mənəviyyatı yüksək bir cəmiyyətin təminatçısı ola biləcək üstün bir dindir".[1]

## Səksən birinci bəhs

Keçmiş peyğəmbərlərin gətirdikləri səmavi kitablar, təəssüflər olsun ki, onlardan sonra şəxsi mənafelərini güdənlərin qərəzli yanaşmaları nəticəsində tədricən təhrif edilmişdir. Bu həqiqəti Qurani-Kərimlə yanaşı tarixi faktlar da təsdiqləməkdədir. Üstəlik, həmin kitabların mətnini dəqiq araşdırdıqda da həmin həqiqət üzə çıxır. Çünki sözügedən müqəd-

[1] İslam və ərəb sivilizasiyası, fransalı doktor Qustav Lebon, səh.141-143.

O gələcək...

dəs kitabların əlimizdə olan nüsxələrində elə mətləblər vardır ki, bunlar əsla ilahi vəhy ola bilməz. Əlimizdəki İncil nüsxələri daha çox Həzrət İsa Məsihin (ə) həyat tarixçəsini xatırladır və orada İsa peyğəmbərin (ə) çarmıxa çəkilməsi də şərh edilir.

Keçmiş səmavi kitabların aşkar təhriflərə uğramasına rəğmən, Qurani-Kərim əlavələr və ixtisarlardan qorunmuşdur. Sevimli Peyğəmbərimiz (s) yüz on dörd surədən ibarət Quranı kamil şəkildə özündən sonra yadigar qoymuş və bəşəriyyətə təhvil vermişdir. Çünki Peyğəmbərin (s) xüsusi "vəhy katibləri", o cümlədən, Həzrət Əli (ə) onu qələmə almışlar. Bu bir xoşbəxtlikdir ki, Quranın nazil olmasından on beş əsr ötməsinə baxmayaraq, onun surə və ayələrindən nə bir şey azaldılmış, nə də onlara bir şey artırılmışdır. Burada Quranın təhrifə uğramadığına dair bir neçə dəlilə nəzər salaq:

1. Mütəal Allah buyurur ki, Quranı O Özü qoruyur:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَ إِنَّا لَهُ لَحافِظُونَ.

"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!"[1]

Belə olduğu təqdirdə, sizcə, Quran təhrifə uğraya bilərmi?

2. Mütəal Allah buyurur ki, batil əsla Qurana yol tapa bilməz:

لَا يَأْتِيهِ الْبَاطِلُ مِنْ بَيْنِ يَدَيْهِ وَ لَا مِنْ خَلْفِهِ تَنزِيلٌ مِنْ حَكِيمٍ حَمِيدٍ.

**"Nə öndən, nə də arxadan batil ona (Qurana) yol tapa bilməz. O, hikmət sahibi və şükrə, tərifə layiq olan Allah tərəfindən nazil edilmişdir!"[2]**

Ayədə işlənən "batil" sözü, "Quranın etibarına xələl gətirən hər hansı bir şey" kimi təfsir olunur. Aydın məsələdir ki, Qurana nəyinsə artırılması, yaxud ondan nəyinsə azaldılması

---

[1] Hicr surəsi, 9-cu ayə.
[2] Fussilət surəsi, 42-ci ayə.

bu səmavi kitabın etibarına xələl gətirə bilər və elə bu səbəbdən də Quranda heç bir artırılma və azaldılma olmamışdır.

3. Tarix təsdiq edir ki, Peyğəmbər dövrünün müsəlmanları Quranın əzbərlənməsinə xüsusi diqqət yetiriblər. Tarixə istinadən həmin dövrdə çox güclü yaddaşa malik insanlar olub ki, hətta uzun bir şeiri, mətni bir dəfə eşitməklə əzbərləyib yadda saxlayıblar. Odur ki, bu qədər qari və hafizi (Quranı əzbərdən bilənlər) olan kitabın təhrifə uğradığını kimsə asanlıqla söyləyə bilməz.

4. Tarixdən məlum olduğu kimi, Həzrət Əlinin (ə) bəzi məsələlərdə xəlifələrlə fikirayrılığı olmuşdur və o həzrət müxtəlif məqamlarda məntiqi şəkildə öz etiraz və iradlarını bildirmişdir. “Şiqşiqiyyə” xütbəsini buna misal göstərmək olar. Lakin Həzrət Əli (ə) ömrü boyu Quranın təhrif olunduğuna dair bircə kəlmə belə söyləməmişdir. Deməli, əgər (Allah eləməmiş) belə bir iş baş vermiş olsaydı, şübhəsiz ki, o həzrət heç bir vəchlə sakit dayanmazdı.

Digər tərəfdən Həzrət Əli (ə) daim müsəlmanları Quran ayələri üzərində düşünməyə çağırmış və buyurmuşdur:

**لَيْسَ لِأَحَدٍ مِنْ بَعْدِ الْقُرْءَانِ مِنْ فَاقَةٍ وَ لَا بَعْدَ الْقُرْءَانِ مِنْ غِنًى فَكُونُوا مِنْ حَرَثَتِهِ وَ أَتْبَاعِهِ.**

“Qurana itaət edənin ehtiyacı olmaz. Qurana itaətsizliklə isə zənginlik və ehtiyacsızlıq hasil olmaz. Buna görə də həyatınıza Quran toxumu səpin və ona tabe olun!”[1]

Yuxarıda qeyd edilən və bir çox başqa dəlillərə əsaslanan böyük şiə alimləri Əhli-beyt (ə) yolunu tutaraq keçmişdən üzü bu yana Quranın təhrif olunmadığını təkidlə söyləmişlər. Aşağıda bu alimlərdən bir neçəsinin adını sadalayırıq:

[1] Nəhcul-bəlağə, xütbə: 171.

1. Fəzl ibn Şazan (İmamların (ə) müasiri olmuş və hicri-qəməri 260-cı ildə vəfat etmişdir);[1]

2. Şeyx Səduq (vəfat tarixi: hicri-qəməri 381-ci il);[2]

3. Şeyx Mufid (vəfat tarixi: hicri-qəməri 413-cü il);[3]

4. Seyid Mürtəza (vəfat tarixi: hicri-qəməri 436-cı il);[4]

5. Şeyxut-taifə adı ilə tanınan Şeyx Tusi (vəfat tarixi: hicri-qəməri 460-cı il);[5]

6. Şeyx Təbərsi (vəfat tarixi: hicri-qəməri 547-ci il);[6]

7. Seyid ibn Tavus (vəfat tarixi: hicri-qəməri 664-cü il);[7]

8. Əllamə Hilli (vəfat tarixi: hicri-qəməri 726-cı il.)[8] Müəllif deyir: "Həqiqət budur ki, Quranda heç bir artırılma və azaldılma yoxdur. Mən Quranda təhrifin olduğunu deyənlərin sözündən Allaha sığınıram. Çünki bu, sevimli Peyğəmbərimizin (s) mütəvatir möcüzəsi barədə şəkkə düşməyə gətirib çıxarır".

Biz bir daha təkidlə söyləyirik ki, bu əqidə müxtəlif dövrlərdə yaşayan böyük şiə alimlərinin inancı olmuşdur. Bu günümüzdə də bütün şiə alimləri istisnasız olaraq bu əqidədədirlər.

## Səksən ikinci bəhs

Hədis və təfsir kitablarında bir sıra hədislər vardır ki, bəziləri onları Quranın təhrif olunduğuna dəlil göstərmişlər. Lakin burada aşağıdakı mətləbləri nəzərdən qaçırmamalıyıq:

1. Bu hədislərin əksəriyyətini nəql edən fərd və mənbələr etibarlı hesab olunmurlar. Məsələn, Əhməd ibn Məhəmməd Səyyarinin (vəfat tarixi: hicri-qəməri 286-cı il) "Qiraat" (Qi-

---

[1] əl-İzah, səh.217.
[2] "əl-Etiqadat", səh.93
[3] Əcvəbətul-məsail əs-sərviyyə, "Məcmuətu ər-rəsail"də çap olunub, səh.266.
[4] Cəvabul-məsail ət-tirablisiyyat (onun söçönö Şeyx Təbərsi "Məcməul-bəyan"ın möqəddiməsində qeyd etmişdir.)
[5] ət-Tibyan, c.1, səh.3.
[6] Məcməul-bəyan, Müqəddimədə.
[7] Səd əs-suud, səh. 144-də deyilir: "İmamiyyə (şiələr) təhrifin olmadığını deyir."
[8] Əcvəbətul-məsail əl-məhnaviyyə, səh.121.

raətlər) əsərini göstərmək olar ki, "rical elmi"nin alimləri burada qeyd edilən hədisləri "zəif hədis" hesab etmiş və onun özünü fəsad yayan bir fərd kimi tanıtdırmışlar.[1] Yaxud Əli ibn Əhməd Кufinin (vəfat tarixi: hicri-qəməri 352-ci il) əsərini göstərmək olar ki, rical alimləri onun barəsində belə demişlər: "Ömrünün sonunda qüluvv etdi (ifratçı cərəyana qoşuldu)".[2]

2. Bu hədislərdən bir qismi təfsir xarakteri daşıyır, yəni hansısa bir ayə bu hədisdə təfsir edilmişdir. Bəziləri isə elə təsəvvür etmişlər ki, bu təfsirlər Quranın mətni olmuş və sonradan Qurandan çıxarılmışdır. Məsələn, Fatihə surəsindəki "doğru yol" ifadəsi hədislərdə "Peyğəmbərin və onun Əhli-beytinin yolu" kimi təfsir edilmişdir.

İmam Xomeyni (r.ə) məzmunundan Quranın təhrif olunduğu anlaşılan hədisləri 3 qrupa bölür:

a) Zəif hədislər: bunlar dəlil göstərilə bilməz;

b) Saxta hədislər: bunların saxtalığı elə mətnlərindən anlaşılır;

v) Səhih hədislər: bu hədislərin məzmununa diqqət yetirərkən aydınlaşır ki, Quranın təhrifi dedikdə, onun mətninin deyil, bu və digər ayənin, ifadənin məna təhrifi nəzərdə tutulub.[3]

3. Bir məzhəbin əqidə əsasları ilə maraqlananlar və məlumat toplamaq istəyənlər bu məzhəbin alimlərinin əqidə əsasları mövzusunda qələmə aldıqları əsərlərə müraciət etməlidirlər. Bu xüsusda yalnız hədis kitablarına müraciət etmək məqbul deyil, çünki hədis məcmuələri yaradan müəlliflərin məqsədi əsasən hədisləri bir yerə toplamaqdır və bu hədislərin müxtəlif aspektlərdən araşdırılması isə tədqiqatçıların öhdəsinə düşür.

---

[1] Rical-i Nəccaşi, c.1, səh. 211.
[2] Rical-i Nəccaşi, c.1, səh. 96.
[3] Təhzibul-usul, c.2, səh. 96.

Həmçinin bir məzhəbin alimlərinin böyük əksəriyyətinin rəyini kənara qoyub onlardan bir və ya iki nəfərin sözünə istinad etmək mühakimə üçün doğru meyar deyildir.

* * *

Sonda təhrif mövzusuna aid bir neçə məsələni qeyd etməyi məqsədəuyğun hesab edirik:

1. İslam məzhəblərinin bir-birini Quranın təhrifinə inanmaqda ittiham etməsi, xüsusilə də indiki dövrdə, İslam düşmənlərinin dəyirmanına su tökməkdən başqa bir şey deyildir.

2. Əgər şiə alimlərindən bəziləri Quranın təhrif olunduğuna dair bir kitab yazmışlarsa, onu bütün şiə alimlərinin deyil, həmin müəllifin rəyi olaraq səciyyələndirmək lazımdır. Nəzərə almaq lazımdır ki, belə əsərlərin nəşrindən sonra bir çox şiə alimləri tərəfindən ona qarşı rəddiyyələr yazılmışdır. Necə ki, hicri-qəməri tarixilə 1345-ci ildə misirli alimlərdən biri tərəfindən "Furqan" adlı kitab yazıldıqdan sonra – belə ki, müəllif əhli-sünnənin hədis kitablarında "nəsx" və ya "insa"[1] barədə olan bir sıra rəvayətlərə istinad edərək Quranın təhrifə uğradığını sübuta yetirmək istəmişdir - həmin əsərə əl-Əzhər universitetinin alimləri tərəfindən rəddiyyələr yazılmaqla yanaşı onun nüsxələri müsadirə olunmuşdur.

3. Dünyada yaşayan bütün müsəlmanların səmavi kitabı "Fatihə" surəsi ilə başlanan və "Nas" surəsi ilə bitən 114 surədən ibarət Qurani-Kərimdir. Bu kitabın özündə Allah kəlamı "Quran" adlandırılıb və "məcid" (şanlı), "kərim" (kəramətli) və "həkim" (hikmətli)[2] kimi sifətlərlə vəsf edilib. Müsəlmanlar onu "müshəf" də adlandırırlar. "Müshəf" sözü ərəbcə "bir yerə toplanmış yazılı kağızların məcmusu"na deyilir. Belə nəql edilir ki, sevimli Peyğəmbərimizin (s) vəfatından sonra

[1] Yəni "unudulmuş ayələr".
[2] Qaf surəsi, 1-ci ayə; Vaqiə surəsi, 77-ci ayə; Yasin surəsi, 1-ci ayə.

Quranın bütün surələri bir yerə cəm olunduqda bəzi səhabələr bu məcmuənin “müshəf” adlandırılmasını təklif etdilər.[1]

Qurani-Kərim əməl dəftərini “suhuf” (səhifələr) adlandırır və belə buyurur:

وَ إِذَا الصُّحُفُ نُشِرَتْ

**“Əməl dəftərləri (suhuf) açılacağı zaman”.[2]**

Həmçinin digər səmavi kitabları da “suhuf” adlandıraraq buyurur:

صُحُفِ إِبْرَاهِيمَ وَ مُوسَى.

**“İbrahim və Musanın kitabları (suhufu)”.[3]**

Bu faktlar göstərir ki, Peyğəmbərin (s) vəfatından sonra Quranın “müshəf” adlandırılmasına baxmayaraq, “səhifə” və ya “müshəf” sözü geniş məna daşımışdır.

Bu üzdən Peyğəmbərimizin (s) sevimli qızı Fatimədən (ə) yadigar qalmış yazıların “müshəf” adlandırılması bizdə təəccüb doğurmamalıdır. Bu müshəflə bağlı həqiqəti İmam Sadiq (ə) bir hədisində izah etmiş və buyurmuşdur:

“Fatimə (ə) Peyğəmbərin (s) vəfatından sonra yetmiş beş gün yaşamış və həmin günləri qəm-qüssə içində keçirmişdi. Cəbrail (Allahın əmrilə) nazil olub Allahın peyğəmbəri (s) və Allah dərgahında onun dərəcəsi haqda danışmış, bu yolla Fatiməyə (ə) təsəlli verərək gələcəkdə baş verəcək hadisələrdən onu xəbərdar etmişdir. Həzrət Əli (ə) də Cəbrailin verdiyi məlumatları (Xanım Fatimənin (s.ə) bilavasitə imlası ilə) qələmə almışdır və bu, Fatimənin sözügedən müshəfidir”.[4]

Əbu Cəfər İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: “Fatimənin müshəfində ilahi kitabdan heç bir şey yoxdur.

---

[1] əl-İtqan, c.11, səh.85.
[2] Təkvir surəsi, 10-cu ayə.
[3] Əla surəsi, 19-cu ayə.
[4] Usuli-kafi, c.1, səh.241.

(Yəni elə təsəvvür etməyin ki, bu müshəf Qurandır.) Bu kitabdakılar atasının vəfatından sonra ona ilham olunmuşdur”.[1]

Biz fiqh və hədislə bağlı bəhsimizdə açıqlayacağıq ki, İslam ümmətində elə ali şəxsiyyətlər olmuşdur ki, peyğəmbər olmasalar da mələklər onlarla ünsiyyətdə olmuş və onlar “mühəddəs” (mələklərin danışdığı şəxslər) adlandırıblar. Sevimli Peyğəmbərimizin (s) qızı Xanım Fatimə (s.ə) də belə şəxslərdən olmuşdur.

[1] Bəsairud-dərəcat, səh.195.

VII FƏSİL

# İMAMƏT —
# XƏLİFƏLİK VƏ RƏHBƏRLİK

# İMAMƏT VƏ XİLAFƏT

İyirmi üç il böyük çətinliklərə dözüb zəhmətlərə qatlaşaraq İslam şəriətini təbliğ edən və nümunəvi bir cəmiyyət, hökumət yaradan sevimli Peyğəmbərimiz (s) hicri-qəməri 11-ci ilin əvvəllərində dünyadan köçdü. Baxmayaraq ki, Həzrət Peyğəmbərin (s) vəfatı ilə vəhy və nübüvvət sona çatdı, yəni artıq heç bir peyğəmbər və yeni şəriət gəlməyəcəkdi, lakin peyğəmbərlikdən (ilahi göstərişləri vəhy yolu ilə alıb insanlara çatdırmaq) qeyri o həzrətin öhdəsinə düşən bir çox vəzifələr, o cümlədən, onun yadigar qoyub getdiyi İslam hökumətinin idarəçiliyi, dini təlimlərin izahı və s. onun vəfatından sonra da icra olunmalı idi. (Sonrakı bəhslərdə bu vəzifələrin icra olunmasının zərurəti açıqlanacaqdır.) Odur ki, Həzrət Peyğəmbərin (s) vəfatından sonra elmli və pak bir fərd o həzrətin xəlifəsi və müsəlmanların rəhbəri olmalı, bu vəzifələrin icrasını öz öhdəsinə götürməli idi. Bu məsələnin zərurətini bütün müsəlmanlar qəbul edirlər, baxmayaraq ki, Peyğəmbərin (s) canişininin şəxsi keyfiyyətləri və onun təyin olunması qaydası xüsusunda şiələrlə əhli-sünnə arasında fikirayrılığı mövcuddur.

Biz öncə şiəliyin mənası və onun meydana gəlməsinin tarixini açıqlayacaq, daha sonra "imamət" mövzusu ilə bağlı digər məsələləri araşdıracağıq.

## Səksən üçüncü bəhs

"Şiə" sözünün lüğəvi mənası "ardıcıl və tərəfdar" deməkdir. Termin olaraq isə, Həzrət Peyğəmbərdən (s) sonra

rəhbərliyin Həzrət Əliyə (ə) və onun məsum övladlarına məxsus olduğunu qəbul edən müsəlmanlara deyilir.

Tarixi faktlara istinadən sevimli Peyğəmbərimiz (s) müxtəlif məqamlarda Həzrət Əlinin (ə) fəzilət və üstünlüklərindən, eləcə də özündən sonra onun rəhbər olacağından dəfələrlə söz açmışdır. Bu da tarixi bir faktdır ki, Həzrət Peyğəmbərin (s) bu sözləri səbəb olmuşdur ki, hələ o həzrətin dövründə bir dəstə səhabə Həzrət Əlinin (ə) səmimi dostlarına çevrilsin və "Əli şiəsi" adı ilə tanınsın. Bu dəstə sevimli Peyğəmbərimizin (s) vəfatından sonra da o həzrətin İmam Əlinin (s) rəhbərliyi xüsusundakı göstərişlərinə sadiq qaldılar.

Bu deyilənlər Həzrət Peyğəmbərin (s) öz dövründə və o həzrətin vəfatından sonra müsəlmanlardan bir dəstəsinin "şiə" adlandırılmasının tarixçəsidir. Bu mətləb millətlər və məzhəblərin tarixinə dair əsərlərdə də qeyd olunmuşdur.

Noubəxti (vəfat tarixi: hicri-qəməri 310-cu il) belə yazır: "Şiə, Peyğəmbərin (s) dövründə və eləcə də o həzrətin vəfatından sonra Əlinin imamlığını və xəlifəliyini qəbul edən, başqalarından ayrılıb onun ardıcılı olan şəxslərə deyilir".[1]

Əbul-Həsən Əşəri belə deyir: "Bu dəstənin şiə adlandırılmasının səbəbi budur ki, onlar Əlinin ardıcılları oldular və onu digər səhabələrdən üstün tutdular".[2]

Şəhristani öz əsərində belə yazır: "Şiə, Əlinin ardıcılı olan, onun Peyğəmbərin (s) təyini və vəsiyyəti ilə imam və xəlifə olduğuna inanan kəslərdir".[3]

Beləliklə, şiəliyin tarixi İslamın tarixi ilə bir başlayır. Gələcək bəhslərimizdə açıqlayacağıq ki, Həzrət Peyğəmbər (s) "aşkar dəvətin" ilk günlərində Bəni-Haşimi (Haşim övladlarını) bir yerə yığıb Əlinin xəlifəlik və canişinliyini onlara elan etmişdir. Bu hadisədən sonra da ayrı-ayrı məqamlarda, xü-

[1] Firəquş-şiə, səh.17.
[2] Məqalatul-islamiyyin; c.1, səh.65.
[3] əl-Miləl vən-nihəl, c.1, səh.131.

susilə də, Qədir-Xum günündə onun xəlifəliyini rəsmi şəkildə elan etmişdir.

Bir sözlə, şiəlik, nə "Səqifə toplantısı"ndakı fikirayrılığından, nə də Osmanın qətli zamanı baş verən hadisələrdən sonra meydana gəlməmişdir. Həmçinin şiəliyin tarixi barədə bəzi qərəzlilərin uydurduqları əfsanələr də boş və əsassız sözlərdir. Həqiqət budur ki, ilk əvvəl elə sevimli Peyğəmbərimizin (s) özü ilahi göstərişlər əsasında davamlı tövsiyələrilə şiəliyin toxumunu səhabələrin ürəyinə səpmiş, zaman-zaman onu yetişdirmiş və Salman, Əbuzər kimi böyük səhabələri şiə adlandırmışdır. İslam təfsirçiləri "İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır"[1] ayəsinin təfsirində sevimli Peyğəmbərimizin (s) belə buyurduğunu nəql etmişlər: "Bu ayədə Əli və onun şiələri nəzərdə tutulur".[2]

Səhabə və tabein[3] içərisindən İmam Əlinin (ə) Həzrət Peyğəmbərdən (s) sonra fasiləsiz xəlifəliyinə inanan şiələrin adları tarix mənbələrində qeyd edilmişdir ki, bu müxtəsər əsərdə onların adlarını sadalamaq mümkün deyildir.

Şiəlik, yuxarıda qeyd edilən anlamı etibarilə, bütün dünya şiələrini birləşdirən ortaq nöqtədir. Bilməlisiniz ki, İslam tarixi boyunca şiələr digər müsəlman məzhəblərilə çiyin-çiyinə dinin yayılmasında əhəmiyyətli rol oynamış, böyük dövlətlər qurmuş, bəşəriyyətə bir çox dahi elmi, ədəbi və siyasi xadimlər töhfə vermiş və verməkdədirlər.

## Səksən dördüncü bəhs

Gələn bəhslərimizdə isbat edəcəyik ki, Həzrət Peyğəmbərin (s) canişini Allah tərəfindən təyin olunmalıdır və olun-

---

[1] Bəyyinə surəsi, 7-ci ayə.
[2] əd-Durrul-mənsur, c.8, səh. 589, Cabir ibn Abdullah, İbn Səid Xidri, İbn Abbas və Həzrət Əlidən (ə) nəql olunur.
[3] Səhabələrdən sonra gələn və Həzrət Peyğəmbəri (s) görməyərək hədislərini səhabələrdən eşidən nəsil.

muşdur. Lakin bu mövzuya dair rəvayətləri və tarixi faktları araşdırmadan öncə qaldırılan bir iddianı cavablandırırıq. Bəziləri iddia edirlər ki, Həzrət Peyğəmbər (s) peyğəmbərliyi boyunca özündən sonra ümmətə rəhbərlik və müsəlman cəmiyyətinin idarə olunması mövzusunda əsla söz açmamışdır. İddianın cavabında deyirik:

Fərz edək ki, bu mövzuya dair əlimizdə heç bir "nəbəvi hədis"[1] yoxdur. Onda görək, o dövrün şəraitini nəzərə almaqla sağlam düşüncə hansı mülahizəni irəli sürərdi?

Sağlam düşüncənin mülahizəsi budur ki, uzun illər boyu çox böyük əzab-əziyyətlərə qatlaşaraq yeni və bənzərsiz bir cəmiyyət quran ictimai islahatçı fərd yaratdığı sistemin davamlı olması, habelə daha da inkişaf etməsi üçün hökmən yollar düşünməlidir. Bu qəbuledilməzdir ki, çox böyük zəhmətlə bir ev quran şəxs qurduğu evi gələcək təhlükələrdən qoruyub saxlamaq üçün heç bir tədbir tökməsin və bunun üçün bir şəxsi məsul təyin etməsin.

Sevimli Peyğəmbərimiz (s) gətirdiyi şəriətlə bəşər həyatında köklü dəyişikliklər edən və yeni bir sivilizasiyanın təməlini qoyan böyük şəxsiyyətlərdən biridir. Şübhəsiz ki, insanlara əbədi şəriət gətirmiş və peyğəmbərliyi dövründə cəmiyyətə rəhbərlik etmiş Həzrət Məhəmməd (s) bu şəriətin gələcək təhlükələrdən qorunması, eləcə də ümmətin hidayəti və idarə olunması üçün tədbirlər görmüş, özündən sonra bu ümmətə rəhbərliyin keyfiyyətlərini açıqlamışdır. Çünki əbədi şəriət gətirən bir peyğəmbərin özündən sonra rəhbərlik məsələsini təfsilatilə açıqlamaması əsla ağlasığan deyildir, bir halda ki, ümmətə rəhbərlik və idarəçilik məsələsi şəriətin qorunub saxlanılmasının ən başlıca amilidir.

Necə mümkündür ki, insanların səadəti üçün ən kiçik məsələni belə nəzərdən qaçırmayan bir peyğəmbər bəşəriyyətin ən ümdə və taleyüklü məsələlərindən olan İslam cəmiyyətinin

[1] Peyğəmbərin (s) buyurduğu hədis.

O gələcək...

idarə edilməsi məsələsinə dair bir söz söyləməsin, bir yol göstərməsin və həqiqətdə İslam ümmətinin öhdəsinə düşən vəzifəni müəyyən etmədən onları tərk edib getsin?!

Məhz buna görə də, sevimli Peyğəmbərimizin (s) özündən sonra müsəlmanların rəhbərliyi və idarə olunmasına dair bir söz söyləməyib dünyadan köçməsi iddiası qəbuledilməzdir.

## Səksən beşinci bəhs

Həzrət Peyğəmbərin (s) vəfatı ərəfəsində İslam məmləkətində və qonşu məmləkətlərdə mövcud siyasi vəziyyətin təhlili Peyğəmbərin (s) canişininin onun özü tərəfindən – əlbəttə, ilahi vəhy ilə - təyin edilməsini zəruri edir. Belə ki, İslam peyğəmbəri (s) vəfat etdiyi zaman İslam dini təhlükə üçbucağı ilə qarşı-qarşıya idi. Üçbucağın bir tərəfini Roma (Bizans) imperatorluğu, digərini İran şahlığı, üçüncü tərəfini isə daxildə olan münafiqlər təşkil edirdi.

Birinci təhlükə ilə bağlı təkcə bunu söyləmək kifayət edər ki, bu məsələ son anadək Peyğəmbəri (s) düşündürüb narahat etmiş və bu səbəbdən hətta ömrünün son saatlarında belə o, romalılarla savaşmaq üçün Üsamə ibn Zeydin başçılığı altında əzəmətli bir qoşun səfərbər etmiş, döyüşə getməkdən boyun qaçıranlara isə nifrin etmişdir.

Təhlükə hesab olunan ikinci tərəf isə Peyğəmbərin (s) İslama dəvət məqsədilə göndərdiyi məktubu cırmış və Yəmən əmirinə məktub yazıb Allah Rəsulunun (s) həbsə alınması və ya başının bədənindən ayıraraq ona göndərilməsini istəyən çirkin niyyətli bir düşmən idi.

Nəhayət, üçüncü təhlükə haqda bilmək lazımdır ki, bu dəstə hər zaman Mədinədə və ya onun xaricində Həzrət Peyğəmbəri (s) incitmiş, öz çirkin planları ilə onun qəlbini dağlamışdır. Quranın bir çox surələrində onların Peyğəmbərə (s) qarşı fitnəkarlıqlarından söhbət açılır, hətta Quran surə-

lərindən biri məhz onların adı ilə (Münafiqlər surəsi) adlandırılmış, onların çirkin niyyətləri və bəd əməlləri şərh edilmişdir.

Burada belə bir sual yaranır:

Sizcə bu nə dərəcədə düzgündür ki, sevimli Peyğəmbərimiz (s) bu təhlükə üçbucağı ilə üz-üzə dayanan İslam dinini taleyin axarına buraxsın və ümmətə rəhbər təyin etməyib onları başsız qoyaraq dünyadan getsin?!

Şübhəsiz, Həzrət Peyğəmbər (s) ərəblərin qəbilə həyat tərzi sürdüklərini və qəbilə üzvləri arasında öz başçılarına qarşı təəssübkeş insanların olduğunu bilirdi. Buna görə də rəhbər və başçı təyin etmək kimi həssas bir məsələni belə bir camaatın öhdəsinə buraxmaq təfriqəyə və bu qəbilələr arasında çəkişmələrə səbəb olacaq, nəticədə isə düşmən bu çəkişmələrdən faydalanacaqdı. Məhz bu həqiqətə əsaslanaraq Şeyx Əbu Əli ibn Sina demişdir: “Peyğəmbər canişininin onun özü tərəfindən təyin edilməsi həqiqətə daha yaxındır. Çünki canişinin Peyğəmbər (s) tərəfindən təyin edilməsi bütün çəkişmələrə, fikirayrılığına son qoya bilərdi”.[1]

## Səksən altıncı bəhs

Ötən bəhsdə deyilənlərə istinadən, Həzrət Peyğəmbərin (s) müdriklik və uzaqgörənliyi zəruri edirdi ki, o həzrət özündən sonra İslam hökuməti və ümmətinin idarə edilməsi xüsusunda lazımi tədbirlər görsün. İndi görək o Həzrət (s) bu xüsusda hansı addımı atmışdır.

Burada iki rəy mövcuddur və biz onları araşdıraraq həqiqəti üzə çıxarmağa çalışacağıq:

1. Həzrət Peyğəmbər (s) Allah-Təalanın əmrilə İslam ümmətinin rəhbərliyinə layiq olan bir şəxsi öz xəlifəsi seçmiş və onu xalqa tanıtmışdır.

2. Həzrət Peyğəmbər (s) özlərinə rəhbər seçməyi camaatın öhdəsinə buraxmış və bu məsələni onlara açıqlamışdır.

[1] Şifa, İlahiyyat, 10-cu məqalə, 5-ci fəsil, səh. 564.

Amma görəsən Quran, sünnə və Peyğəmbərin (s) həyatı bu iki rəydən hansı birini təsdiqləyir?

Peyğəmbərin (s) həyatını araşdırdıqda - gətirdiyi şəriəti ilk öncə öz yaxın qohumlarına, sonra isə bütün insanlara elan etdiyi gündən dünyadan köçdüyü günədək - məlum olur ki, o öz xəlifəsinin xüsusiyyətlərini dəfələrlə bəyan etmişdir. Başqa sözlə, o həzrət imamət və rəhbərlik məsələsində "camaatın seçimi" deyil, "təyin etmə" yolunu tutmuşdur. Bu faktı aşağıdakı hədislər də təsdiqləyir:

***a) "Yovmud-dar" hədisi:***

Peyğəmbər seçildikdən üç il sonra Allah-Təaladan Həzrət Məhəmmədə (s) əmr gəldi ki, insanları aşkarcasına dinə dəvət et:

وَ أَنذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ.

**"Və ən yaxın qohumlarını qorxut!"**[1]

Həzrət Peyğəmbər (s) Bəni-Haşim qəbiləsinin başçılarını qonaq çağırdı və onlara buyurdu: "Mən dünya və axirətin xeyrini sizlərə gətirmişəm. Allah mənə əmr etmişdir ki, sizi bu yola dəvət edim. Hansı biriniz bu dini yaymaqda mənə yardımçı olar? Bununla da sizin aranızda mənim qardaşım, vəsim və canişinim olar?" Allahın Rəsulu (s) sözlərini üç dəfə təkrar etdi və hər dəfə yalnız Həzrət Əli (ə) bu işə hazır olduğunu bildirdi. Belə olduqda Həzrət Peyğəmbər (s) buyurdu: "Həqiqətən də, bu (Əli) sizin aranızda mənim qardaşım, vəsim və xəlifəmdir (canişinimdir)".[2]

***b) "Mənzilət" hədisi:***

Sevimli peyğəmbərimiz müxtəlif məqamlarda bu hədisi buyurmuşdur:

يَا عَلِيُّ أَنْتَ مِنِّى بِمَنْزِلَةِ هَارُونَ مِنْ مُوسَى إِلَّا أَنَّهُ لَا نَبِىَّ بَعْدِى.

[1] Şuəra surəsi, 214-cü ayə.

[2] Müsnəd-i Əhməd, c.1, səh.159; Təbərinin tarixi, c.2, səh. 406; Təbərinin "Camiul-bəyan" təfsiri, c.19, səh.74-75, Şuəra surəsinin 214-cü ayəsinin təfsiri.

"Ey Əli! Mənim yanımda sənin yerin, Musanın yanında Harunun yeri kimidir. Bircə fərqlə ki, məndən sonra nəbi (peyğəmbər) olmayacaqdır".[1]

Qurani-Kərimə istinadən Harun peyğəmbər (ə) Musa peyğəmbərin (ə) dövründə nübüvvət[2] (peyğəmbər), xilafət[3] (xəlifə) və vəzirlik (müşavir)[4] məqamlarına sahib olmuşdur. "Mənzilət" hədisi sübuta yetirməkdədir ki, nübüvvət istisna olmaqla, Həzrət Əli (ə) Harun peyğəmbərin (ə) sahib olduğu bütün ilahi məqamlara sahibdir. Çünki əgər bu hədisdə Həzrət Əlinin (ə) Harun peyğəmbərin (ə) sahib olduğu digər məqamlara sahib olmasını sübuta yetirmək nəzərdə tutulmasaydı, nübüvvəti istisna etməyin lüzumu yox idi.

**c) "Səfinə" hədisi:**

Sevimli Peyğəmbərimiz (s) öz Əhli-beytini Nuhun gəmisinə bənzətmişdir: bu gəmiyə minənlər xilas oldular, üz çevirib gedənlər isə sularda qərq oldular. Həzrət Peyğəmbər (s) buyurmuşdur:

أَلَا إِنَّ مَثَلَ أَهْلِ بَيْتِى فِيْكُمْ مَثَلُ سَفِينَةِ نُوحٍ فِى قَوْمِهِ مَنْ رِكِبَهَا نَجى وَ مَنْ تَخَلَّفَ عَنْهَا غَرَقَ.

"Bilin ki, mənim Əhli-beytim sizin aranızda Nuh qövmü arasında Nuhun gəmisinə bənzəyir: ona minənlər xilas olar, ondan üz döndərənlər isə qərq olar".[5]

---

[1] Səhih Buxari, c.6, səh.3, "Təbuk savaşı" fəslində (hicri-qəməri 1314-cü ildə çap edilib); Səhih Muslim, c.7, səh.120, "Əlinin fəzilətləri" fəslində; Sünən-i İbn-Macə, c.1, səh.55, "Peyğəmbərin səhabələrinin fəziləti" fəsli; Müsnəd-i İmam Əhməd, c.1, səh.173, 175, 177, 179, 182, 185, 230; Sire-yi Nəbəviyyə, İbn Hişam, c.4, səh.163, "Təbuk savaşı" fəsli.

[2] Məryəm surəsi, 53-cü ayə.

[3] Əraf surəsi, 142-ci ayə.

[4] Taha surəsi, 29-cu ayə.

[5] Mustədrək-i Hakim, c.3, səh.351; əs-Səvaiqul-muhrəqə, səh.91; Mizanul-etidal, c.1, səh.224; Tarixul-xuləfa, səh. 573; əl-Xəsaisul-kubra, c.2, səh.266; Yənabiul-məvəddəh, səh.28; Fəthul-qədir, səh.113 və s. mənbələr.

Bildiyimiz kimi, Nuhun gəmisi tufandan xilas olmaq üçün Nuh qövmünün yeganə sığınacaq və pənahgahı olmuşdur. Beləliklə, "səfinə" hədisinə əsasən, xoşagəlməz hadisələrdən qorunmaları üçün müsəlmanların yeganə sığınacağı Peyğəmbərin Əhli-beytidir; o hadisələr ki, müsəlmanları düz yoldan azdıra bilər.

***q) "Əman" hədisi:***

Sevimli Peyğəmbərimiz (s) öz Əhli-beytini İslam ümmətinin vəhdəti amili kimi tanıtdırmışdır:

النُّجُومُ أمَانٌ لِأهْلِ الْأرْضِ مِنَ الْغَرْقِ وَ أهْلُ بَيْتِى أمَانٌ لِاُمَّتِى مِنَ الْاِخْتِلَافِ، فَإذَا خَالَفَتْهَا قَبِيلَةٌ مِنَ الْعَرَبِ اخْتَلَفُوا فَصَارُوا حِزْبَ إبْلِيسَ.

"Necə ki, ulduzlar yer əhli üçün (dənizdə) qərq olmaqdan bir amandır (onların xilas olmaları üçün bir vasitədir)[1], mənim Əhli-beytim də ümmətim üçün təfriqədən bir amandır. Əgər ərəblərdən bir dəstəsi onlara qarşı çıxarsa, ixtilaflara düçar olar və nəticədə İblisin dəstəsindən olar".[2]

***d) "Səqəleyn" hədisi:***

Bu hədis mütəvatir hədislərdəndir və onu həm şiə, həm də əhli-sünnə alimləri öz hədis kitablarında nəql etmişlər. Həzrət Peyğəmbər (s) bu hədisdə İslam ümmətinə xitab edərək belə buyurur:

إنِّى تَارِكٌ فِيْكُمُ الثَّقَلَيْنِ كِتَابَ اللهِ وَ عِتْرَتِى أهْلَ بَيْتِى مَا إنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا أبَدًا وَ إنَّهُمَا لنْ يَفْتَرِقَا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوْضَ.

"Mən sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm, onlardan biri Allahın kitabı, digəri isə itrətim - Əhli-beytimdir. Nə qədər ki, onlara sarılmısınız, əsla yolunuzu azmazsınız.

---

[1] "İnsanlar gecə vaxtı yollarını ulduzlar vasitəsilə taparlar". Nəhl surəsi, 16-cı ayə.
[2] Mustədrək-i Hakim, c.3, səh.149.

O gələcək...

Həqiqətən bu ikisi cənnətdə Kövsər hovuzu kənarında mənə qovuşana qədər əsla bir-birindən ayrılmazlar!”[1]

Bu hədis Quranın kənarında Əhli-beytin istinad və müraciət yeri olduğunu açıq-aşkar sübuta yetirir, başqa sözlə, müsəlmanları vəzifələndirir ki, din işlərində həm Quranın, həm də Əhli-beytin buyurduqlarına tabe olsunlar.

Lakin çox təəssüflər olsun ki, bəziləri bütün qapıları döyürlər, Əhli-beytin qapısından başqa![2]

Şiə və əhli-sünnənin qəbul etdiyi mütəvatir “Səqəleyn” hədisi müsəlmanların vəhdətini təmin edə bilər. Belə ki, Həzrət Peyğəmbərin (s) xəlifəliyi məsələsində olan fikirayrılığı müsəlmanları məzhəblərə ayırsa da, elmi sahədə Əhli-beytin yüksək dərəcəsini nəzərə alıb mütəvatir “Səqəleyn” hədisini rəhbər tutaraq müsəlmanlar vəhdəti qorumağa çalışmalıdırlar.

Məlum olduğu kimi, “xüləfayi-raşidin”in[3] dövründə dini-elmi məsələlər sahəsində məhz Həzrət Əli (ə) müsəlmanların – istər adi camaatın, istərsə də alimlərin və hökumət məmurlarının - müraciət yeri olmuş, dini işlərlə bağlı qarşıya çıxan çətinliklər onun müdrikliyi ilə öz həllini tapmışdır. Həqiqət budur ki, Peyğəmbərin Əhli-beyti dini və elmi məsələlər sahəsindən kənarlaşdırıldığı gündən məzhəbçilik, firqəçilik meydana gəldi, bir-birinin ardınca çoxsayda fiqh və kəlam firqələri ortaya çıxdı.

## Səksən yeddinci bəhs

Ötən bəhsdə nəql olunan hədislərdə gördüyünüz kimi, sevimli Peyğəmbərimiz (s) bəzən ad çəkərək, bəzən isə

---

[1] Səhih Müslim, c.7, səh.122; Sünən-i Tirmizi, c.2, səh.307; Sünən-i Darəmi, c.2, səh. 432; Müsnəd-i Əhməd, c.3, səh.14, 17, 26 və 59, c.4, səh.366 və 371, c.5, səh.182 və 189; Xəsaisul-Ələviyyə, Nisai, səh.20; Mustədrək-i Hakim, c.3, səh 109, 148 və 533 və s. mənbələr. Buna dair Qahirənin Müxəymər mətbəəsində “İslam məzhəbləri arasında yaxınlaşma mərkəzi”nin nəşriyyatı tərəfindən çap edilmiş “Səqəleyn hədisi” adlı kitaba müraciət etmək olar.

[2] Yəni Əhli-beytdən başqa hər yerə müraciət edirlər.

[3] Həzrət Peyğəmbərdən (s) sonra ilk dörd xəlifə belə adlanır.

O gələcək...

"əhli-beyt, itrət" kimi ifadələrdən istifadə edərək öz canişinini müsəlmanlara tanıtdırmışdır. Bu hədislərdən hər biri haqq və həqiqət axtarışında olanları qane edə bilər.

Lakin bununla yanaşı, Həzrət Peyğəmbər (s) öz canişinini yaxında-uzaqda olan müsəlmanlara tanıtdırmaq və bu xüsusda olan şəkk-şübhələrə son qoymaq üçün həyatının sonuncu həcc ziyarətindən (Vida həcci) dönərkən "Qədir-Xum" adlanan yerdə dayandı və yol yoldaşlarına belə buyurdu: "Uca Allahdan mənə əmr gəldi ki, mühüm bir xəbəri sizlərə çatdırım və əgər bu xəbəri çatdırmasam, öz peyğəmbərlik vəzifəmi yerinə yetirməmiş olaram". Rəbbimiz buyurur:

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَ إِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَ اللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لَا يَهْدِى الْقَوْمَ الْكَافِرِينَ.

**"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı təbliğ et. Əgər (bunu) etməsən, Allahın risalətini (peyğəmbərlik vəzifəsini) yerinə yetirməmiş olarsan. Allah səni insanlardan qoruyacaq. Allah kafir camaatı düz yola yönəltməz!"**[1]

Həzrət Peyğəmbər (s) üçün bir minbər quruldu və o, minbərə qalxıb ora toplaşan insanlara buyurdu: "Yaxın gələcəkdə Allahın çağırışına "ləbbeyk" deyəcəyəm. Siz mənim haqqımda nə deyirsiniz?" Cavabında dedilər: "Şəhadət veririk ki, sən Allahın dinini bizlərə çatdırdın, xeyirxahlıq etdin və böyük əzab-əziyyətlərə qatlaşdın. Allah səni mükafatlandırsın!"

Bu vaxt Həzrət Peyğəmbər (s) buyurdu: "Siz Allahın təkliyinə, mənim peyğəmbərliyimə və axirət gününün haqq olduğuna şəhadət verirsinizmi?" Hamı müsbət cavab verdi.

[1] Maidə surəsi, 67-ci ayə. Təfsir və hədis alimləri bu ayənin "vida həcci"ndə, tarixdə Qədir-Xum adı ilə tanınan gündə nazil olduğunu qeyd edirlər. Bax: "əd-Durrul-mənsur", Siyuti, c.2, səh.298; "Fəthul-Qədir", Şukani, c.2, səh.57; "Kəşful-ğummə", İrbili, səh.94; "Yənabiul-məvəddəh", Qunduzi, səh.120; "əl-Mənar", c.6, səh.463 və s.

O gələcək...

Sonra o həzrət buyurdu: “Mən sizdən qabaq (Cənnətdə) Кövsər hovuzuna yetişəcəyəm, baxın görün aranızda qoyduğum iki qiymətli canişinimlə necə davranacaqsınız?” Bir nəfər soruşdu: “İki qiymətli canişin nədir?” Həzrət Peyğəmbər buyurdu: “Biri Allahın kitabı (Quran), digəri isə mənim itrətimdir (Əhli-beytimdir.) Lütfü geniş və hər şeydən xəbərdar olan Allah mənə xəbər verdi ki, Qiyamət günü Hovuz kənarında mənə qovuşanadək onlar bir-birindən əsla ayrılmayacaqlar. Bu ikisindən qabağa keçməyin, yoxsa həlak olarsınız. Onlardan uzaq düşməyin, yoxsa, yenə də həlak olarsınız”.

Bu vaxt Allah rəsulu (s) Həzrət Əlinin (ə) əlindən tutub hamının gözü qarşısında yuxarı qaldırdı və buyurdu:

الیُّهَا النَّاسُ مَنْ أوْلَى النَّاسِ بِالْمُؤْمِنِينَ مِنْ أنْفُسِهِمْ؟

“Ey camaat, möminlərə özlərindən daha layiqlisi kimdir?”
Cavabında dedilər: “Allah və Peyğəmbəri daha yaxşı bilir”.
Həzrət Peyğəmbər (s) buyurdu:

إنَّ اللهَ مَوْلَایَ وَ أنَا مَوْلَى الْمُؤْمِنِينَ وَ أنَا أوْلَى بِهِمْ مِنْ أنْفُسِهِمْ.

“Allah mənim, mən də möminlərin mövlasıyam. Möminlərə özlərindən daha layiqlisi mənəm”.

Sonra üç dəfə buyurdu:

فَمَنْ كُنْتُ مَوْلَاهُ فَعَلِيٌّ مَوْلَاهُ.

“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!” Sonra belə buyurdu:

اللَّهُمَّ وَالِ مَنْ وَالَاهُ، وَ عَادِ مَنْ عَادَاهُ، وَ أحِبَّ مَنْ أحَبَّهُ، وَ أبْغِضْ مَنْ أبْغَضَهُ، وَ انْصُرْ مَنْ نَصَرَهُ، وَ اخْذُلْ مَنْ خَذَلَهُ، وَ ادِرِ الْحَقَّ مَعَهُ حَيْثُ دَارَ، ألَا فَلْيُبَلِّغِ الشَّاهِدُ الْغَائِبَ.

O gələcək...

"İlahi! Əlini dost tutanı Sən də dost tut və onu düşmən biləni Sən özünə düşmən bil! Əli ilə mehriban olana mehriban ol və ona qəzəb edənə Sən də qəzəb et! Əliyə kömək edənə Sən də kömək et və onu xar etmək istəyənin özünü xar et! Haqqı onunla birgə qıl! Burada olanlar mənim söylədiklərimi burada olmayanlara çatdırsınlar!"

## Səksən səkkizinci bəhs

Qədir-Xum hədisi mütəvatir hədislərdəndir. Səhabə və tabeinlər, sonralar isə mühəddislər (hədis məcmuəsi toplayan alimlər) hər bir əsrdə bu hədisi mütəvatir olaraq nəql etmişlər. Qədir-Xum hədisini 110 səhabə, 89 tabein və 350 mühəddis nəql etmişdir ki, bununla da onun düzgün və etibarlı bir hədis olduğuna şübhə yeri qalmır. Hətta bir neçə hədis alimi Qədir-Xum hədisi barədə ayrıca kitablar da yazmışlar və onlardan ən genişi Əllamə Əbdül-Hüseyn Əmininin (1320-1390 h.q.) dəyərli "əl-Qədir" əsəridir. Belə ki, burada hədislə birgə hədisin sənədləri də toplanıb qeyd olunmuşdur.

Amma Qədir-Xum hədisində bir məqama aydınlıq gətirmək lazımdır və o da bundan ibarətdir ki, Həzrət Peyğəmbərin (s) və Həzrət Əlinin (ə) "mövla" olması hansı mənanı daşıyır?

Hədisin söylənildiyi məkan və zaman şəraiti, həmçinin hədisin mətni təsdiqləyir ki, "mövla" ifadəsi burada "rəhbər, əmr və ixtiyar sahibi" mənasını daşıyır. Aşağıdakı sübutlara diqqət yetirin:

**a)** Sevimli Peyğəmbərimiz (s) Allah evinin (Kəbənin) ziyarətindən qayıdan zəvvar karvanını susuz və quru bir çöllükdə, həm də günün ən qızmar çağı olan günorta çağında saxlatdırmışdı. Hava o qədər isti idi ki, müsafirlər öz əbalarının yarısını başlarına çəkmiş, yarısını da üstündə oturmaq üçün yerə sərmişdilər. Belə

bir şəraitdə Həzrət Peyğəmbərin (s) söyləyəcəyi söz, heç şübhəsiz, müsəlmanların taleyi üçün olduqca əhəmiyyətli olmalı idi.

Həmin dönəmdə isə İslam ümmətinin vəhdətini və dinin qorunub yaşamasını təmin edən canişinlik və rəhbərlik məsələsi müsəlmanlar üçün ən mühüm, taleyüklü bir məsələ idi.

**b)** Həzrət Peyğəmbər (s) Həzrət Əlini (ə) "mövla" elan etməzdən öncə ora toplaşan müsəlmanlardan üç təməl əqidə olan tövhid, nübüvvət və məad üçün şəhadət vermələrini istəmiş, onlar da şəhadət vermişdilər. Sonra o həzrət çatdırmalı olduğu xəbəri - ilahi əmri onlara çatdırmışdı.

Bu xəbərin təməl əqidələrə şəhadətdən sonra səslənməsi onun əhəmiyyətini üzə çıxarır. Həzrət Peyğəmbərin (s) belə bir əzəmətli və fövqəladə toplantını təşkil etməkdə məqsədi kimisə müsəlmanların "dost"u[1] elan etmək kimi sadə bir məsələ ola bilməzdi!

**c)** Həzrət Peyğəmbər (s) xütbəsinin başlanğıcında yaxın gələcəkdə dünyadan köçəcəyini bildirmişdi. Bu isə o həzrətin ümmətin gələcək taleyindən nigaran olduğunu göstərirdi. Belə olduğu təqdirdə İslamı gələcək təhlükələrdən qorumaq üçün bir tədbir görmək daha məqsədəuyğun olardı.

**q)** Həzrət Əlini (ə) "mövla" elan etməzdən qabaq Həzrət Peyğəmbər (s) öz "mövla"lığından söz açaraq buyurmuşdu: "Allah mənim mövlam, mən də möminlərin mövlasıyam. Möminlərə özlərindən daha layiqlisi mənəm".

Bu isə onu göstərir ki, Həzrət Əlinin (ə) "mövla"lığı Həzrət Peyğəmbərin (s) "mövla"lığı qismindəndir və Həzrət Peyğəmbər (s) ilahi göstərişlə Həzrət Əlini (ə) bu "mövla"lığa təyin etmişdir.

Həzrət Peyğəmbərin (s) "mövla"lığı barədə isə Əhzab surəsinin 6-cı ayəsində buyurulur:

النَّبِيُّ اوْلَى بِالْمُؤْمِنِينَ مِنْ أَنْفُسِهِمْ...

---

[1] Bəziləri bu hədisdə "mövla" sözünün "dost" mənasını daşıdığını söyləmişlər.

**"Peyğəmbər möminlərə özlərindən daha layiqdir…"**

"Peyğəmbər (s) möminlərə özlərindən daha layiqdir" dedikdə bu nəzərdə tutulur ki, Allahın əmri ilə Peyğəmbər (s) möminlərin canları və malları xüsusunda ixtiyar sahibidir. Yəni əgər o, cihad və ya infaq (malı bağışlamaq) əmri verərsə, möminlər gərək qeyd-şərtsiz bu əmrə tabe olsunlar. Həzrət Peyğəmbərin (s) müsəlmanların canı və malı xüsusunda belə bir ixtiyara sahib olmasının səbəbi isə onun Allah tərəfindən ümmətə rəhbərliyə vəzifələndirilməsidir. Bu vəzifə Həzrət Peyğəmbərdən (s) sonra Həzrət Əliyə (ə) verildi və o, müsəlmanların rəhbəri və imamı oldu.

**d)** Həzrət Peyğəmbər (s) sözügedən xəbəri bəyan etdikdən sonra ora toplananlardan istəmişdi ki, bu xəbəri burada iştirak etməyən müsəlmanlara çatdırsınlar.

Həzrət Peyğəmbər (s) minbərdən düşdükdən sonra səhabələrinə göstəriş verir ki, Həzrət Əliyə (ə) möminlərin-əmiri olması münasibətilə təbrik desinlər. İmam Əli (ə) bir xeymədə yerləşir və səhabələr dəstə-dəstə içəriyə daxil olub onu təbrik edirlər.[1]

## Səksən doqquzuncu bəhs

İslam tarixindən məlum olduğu kimi Həzrət Məhəmməd peyğəmbərin (s) düşmənləri onun ilahi çağırışını susdurmaq üçün müxtəlif vasitələrdən istifadə etmiş, onu sehrbazlıqda ittiham etməkdən tutmuş öz yatağında qətlə yetirmək planınadək çeşidli yollara əl atmışlar. Lakin hər dəfə Allah-Təala yardımını Öz peyğəmbərindən əsirgəməmiş və onu düşmənlərin bədxah planlarından qorumuşdur. Onların son ümidi bu idi ki, Peyğəmbərin (s) vəfatı ilə (xüsusilə də, onun oğlan övladının, başqa sözlə, varisinin olmadığını nəzərə alaraq) onun gətirdiyi din məhv olub aradan gedəcəkdir:

أَمْ يَقُولُونَ شَاعِرٌ نَتَرَبَّصُ بِهِ رَيْبَ الْمَنُونِ.

[1] əl-Qədir, c.1, səh.279-283.

**“Yoxsa onlar: “O (peyğəmbər) şairdir. Biz başına gələcək müsibəti (onun ölümünü) gözləyirik!” - deyirlər”.**[1]

Bu fikir müşrik və münafiqlərin çoxunun başında dolaşırdı. Lakin Həzrət Peyğəmbər (s) öz yerinə həyatı boyunca İslama xalis və möhkəm iman nümayiş etdirən layiq bir şəxsi canişin təyin etməklə, düşmənlərin ümidlərini puça çıxardı. Belə bir rəhbəri təyin etməklə, Həzrət Peyğəmbər (s) dinin qorunub qalmasını təmin etdi, onun təməlini möhkəmləndirdi və İslam nemətini kamala çatdırdı. Belə ki, Qədir-Xum günü Həzrət Peyğəmbər (s) Həzrət Əlini (ə) öz canişini təyin etdikdən sonra “Dinin kamala çatması” ayəsi nazil oldu:

الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَ أَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَ رَضِيتُ لَكُمُ الْاسْلَامَ دِينًا...

**“Bu gün dininizi kamala yetirdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim”.**[2]

Xəlifə təyininin ilahi göstərişə bağlı bir məsələ olduğunu və camaatın peyğəmbər canişini seçməyə səlahiyyəti çatmadığını sübuta yetirən mütəvatir hədislərdən başqa, bir sıra tarixi faktlar da göstərir ki, Həzrət Peyğəmbər (s) hələ

[1] Tur surəsi, 30-cu ayə.

[2] Maidə surəsi, 3-cü ayə. Bir qrup səhabə və tabein, o cümlədən, Əbu Səid Xidri, Zeyd ibn Ərqəm, Cabir ibn Abdullah Ənsari, Əbu Hureyrə və Mücahid Məkki bu ayənin Qədir-Xum hadisəsinə aid olduğunu bildirmişlər. Bu barədə adı çəkilən şəxslərin rəvayətlərilə tanış olmaq üçün aşağıdakı mənbələrə müraciət edin: “əl-Vilayə”, Əbu Cəfər Təbəri; Hafiz ibn Mərdəviyyə İsfahani öz təfsirində (İbn Kəsirdən nəql edir), c.2, səh.491; Hafiz Əbu Nəim İsfahaninin “Əli haqda Quranda nə nazil olmuşdur” kitabı; Xətib Bağdadinin “Tarix”i, c.8, səh.290; İbn Əsakir Şafei, Siyutinin “əd-Durrul-mənsur” əsərinə istinadən, c.2, səh.295; Xətib Xarəzminin “Mənaqib” əsəri. Bütün bunlar “əl-Qədir” kitabında toplanmışdır, bax: c.1, səh.23-236. Fəxr Razi öz təfsirində yazır: “Bu ayə nazil olduqdan sonra sevimli Peyğəmbərimiz 81-82 gündən çox yaşamadı və bundan sonra da heç bir nəsx və dəyişiklik baş verməmişdir. Ona görə də qeyd etmək lazımdır ki, bu ayə Qədir-Xum günü Zilhiccə ayının 17-si, Peyğəmbərin son dəfə etdiyi həcc zəyarəti ilində nazil olmuşdur.” Fəxrəddin Razinin Təfsiri, c.3, səh.369.

Məkkədə yaşadığı və Mədinədə hökumət qurmadığı zaman canişinlik məsələsinin ilahi göstərişə bağlı bir məsələ olduğunu bildirmişdir. Məsələn, Bəni-Amir qəbiləsinin başçısı həcc mərasimində Həzrət Peyğəmbərə (s) yaxınlaşıb deyir: “Əgər biz sənə beyət etsək və sən də düşmənlərin üzərində qələbə çalsan, rəhbərlik məsələsində bizim də payımız olacaqmı?” Bu vaxt o həzrət buyurmuşdu:

الأَمْرُ إِلَى اللهِ يَضَعَهُ حَيْثُ يَشَاءُ.

“Bu iş Allaha aiddir. O, hər kəsi istəsə, onu da təyin edər”.[1]

Aydındır ki, əgər canişin və rəhbər seçmək məsələsi camaatın ixtiyarına qoyulsaydı, onda Peyğəmbər (s) belə buyurardı:

”الأَمْرُ إِلَى الْاُمَّةِ“ أَوْ ”الأَمْرُ إِلَى أَهْلِ الْحَلِّ وَ الْعَقْدِ“

“Bu iş ümmətə aiddir (yəni müsəlmanların ixtiyarına qoyulub)” və ya “bu iş ağıllı insanlardan ibarət şuraya həvalə edilib”.

Bu haqda sevimli Peyğəmbərimizin (s) sözü Allahın peyğəmbərlik haqda buyurduğu söz kimidir:

اللهُ أَعْلَمُ حَيْثُ يَجْعَلُ رِسَالَتَهُ....

**“Allah peyğəmbərliyi kimə göndərəcəyini Özü daha yaxşı bilir!”[2]**

## Doxsanıncı bəhs

Səhabələr ümmətin xəlifə seçməyə səlahiyyəti çatmadığını və bu işin “təyin etmə” yolu ilə həyata keçməli olduğunu xatırlayırdılar. Çünki Allah və Peyğəmbərin (s) təyinatını kənara qoyaraq birinci xəlifəni seçən səhabələr ikinci və üçüncü xəlifə barədə “təyin etmə” yolunu qəbul etmişdilər.

[1] Sire-yi İbn Hişam, c.2, səh.442.
[2] Ənam surəsi, 124-cü ayə.

O gələcək...

Tarixdən məlum olduğu kimi, ikinci xəlifəni (Öməri) birinci xəlifə (Əbu-Bəkr) bu vəzifəyə təyin etmişdi.

Birinci xəlifənin ikinci xəlifəni qəti surətdə təyin etməməsi və onun qərarının bir təklif xarakteri daşıması fərziyyəsi isə tarixi faktlara ziddir. Çünki hələ birinci xəlifə Əbu-Bəkrin sağlığında bir qrup səhabə onun bu qərarına etiraz etmişdilər. Belə səhabələrdən biri də Zübeyr olmuşdur. Şübhəsiz, əgər Əbu-Bəkrin bu qərarı yalnız bir təklif xarakteri daşısaydı, səhabələrin ona qarşı çıxıb etiraz etməsi yersiz olardı.

Bundan əlavə, üçüncü xəlifə Osman da ikinci xəlifə Ömərin təyin etdiyi altı nəfərdən ibarət bir şura tərəfindən seçilmişdi. Bunun özü də bir növ "təyin etmə" (yəni əvvəlki xəlifənin sonrakı xəlifəni təyin etməsi) hesab olunur.

Ümumiyyətlə, xəlifənin camaat tərəfindən seçilməsi fikri səhabələrə yad olmuşdur. Onlar bu fikirdə olmuşlar ki, yeni xəlifə gərək özündən qabaqkı xəlifə tərəfindən təyin edilsin. Məsələn, ikinci xəlifə yaralandıqda Peyğəmbərin (s) zövcəsi Aişə xəlifənin oğlu Abdullah ibn Ömər vasitəsilə ona belə xəbər yollayır: "Mənim salamımı atana çatdır və de ki, Peyğəmbərin ümmətini çobansız qoyub getməsin!"[1]

Abdullah ibn Ömərin özü də atası yataqda yaralı yatarkən ona deyir: "Camaat səndən danışır. Onlar elə düşünürlər ki, sən heç kəsi canişin təyin etməyəcəksən. Əgər çoban sənin dəvələrini və qoyunlarını səhrada başsız buraxıb gedərsə və öz yerinə heç kimi qoymazsa, sən onu danlamazsanmı?! Camaatı düşünmək dəvə və qoyunları düşünməkdən önəmlidir".[2]

## Doxsan birinci bəhs

İmamət fəslinin müqəddiməsində qeyd etdik ki, Peyğəmbərin (s) xəlifəsi olan şəxs o həzrətin vəzifələrini (ilahi vəhyi qəbul etmək istisna olmaqla) daşıyır. Xəlifəlik və rəhbərlik mə-

[1] əl-İmamə vəs-siyasə, c.1, səh.32.
[2] Hilyətul-övliya, c.1, səh. 44.

qamının nə qədər əhəmiyyətli olduğu aydınlaşsın deyə burada xəlifənin daşıdığı vəzifələrdən ən mühümlərini qeyd edirik:

**a) Qurani-Kərimin mətnini şərh və təfsir etmək:**

Həzrət Peyğəmbərin (s) vəzifələrindən biri Qurani-Kərimin mətnini şərh və təfsir etmək olmuşdur. Allah-Təala buyurur:

و أَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ...

**"Sənə Quranı nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən".**[1]

**b) Şəriət hökmlərini izah etmək:**

Həzrət Peyğəmbərin (s) vəzifələrindən biri də şəriət hökmlərini izah etmək idi. Sevimli Peyğəmbərimiz (s) bu hökmlərdən bəzilərini Quran ayələrilə, bəzilərini isə öz sünnəsilə izah etmişdir.

Şəriət hökmləri Həzrət Peyğəmbər (s) tərəfindən tədricən izah edildiyi üçün (yəni müsəlmanlar zaman-zaman müəyyən məsələlərlə qarşılaşdıqca Həzrət Peyğəmbər (s) onların şəri hökmünü açıqlamışdır) zəruri edir ki, bu iş (yəni şəriət hökmlərinin izah edilməsi) davam etsin. Çünki şəriət hökmlərinə dair Peyğəmbərin (s) buyurduğu hədislərin sayı beş yüzü keçmir[2] və fiqhə dair hədislərin belə az sayda olması müsəlmanların bu zəmindəki bütün suallarını cavablandıra bilməz.

**c) Firqəçiliyin qarşısının alınması:**

Həzrət Peyğəmbər (s) dini maarifi bəyan etdiyi üçün o həzrətin sağlığında müsəlmanlar firqələrə - istər fiqhi, istərsə də kəlami - ayrılmadılar və ya buna macal tapmadılar.

**q) Din və etiqadla bağlı sualları cavablandırmaq;**

**d) Söz və əməl ilə insanları tərbiyələndirmək;**

**e) Müsəlman cəmiyyətində ictimai ədaləti, əmniyyət və asayişi təmin etmək;**

---

[1] Nəhl surəsi, 44-cü ayə.

[2] əl-Vəhyul-Muhəmmədi, səh.212, 6-cı çap.

**ə) İslam məmləkətinin sərhədlərini və ərazi bütövlüyünü düşmənl**ərin təcavüzündən qorumaq.

Heç şübhəsiz, sadalanan son iki vəzifə camaatın seçdiyi bir rəhbər tərəfindən icra oluna bilsə də, digər vəzifələri Allahın xüsusi lütfünü qazanmış, elm və əməli Peyğəmbərdən (s) əxz etmiş müdrik, iqtidar sahibi olan bir rəhbər icra edə bilər. Yəni xəlifə, Peyğəmbər (s) elmini daşıyan, səhvsiz və günahsız pak bir şəxs olmalıdır ki, bu böyük vəzifələrin öhdəsindən gələ bilsin və dövranın enişli-yoxuşlu yollarında Peyğəmbərin (s) boş qalan yerini doldursun. Əlbəttə, Peyğəmbər (s) elminin daşıyıcısı olan bu şəxs nə peyğəmbərdir, nə də ki, yeni bir şəriət gətirmişdir. Çünki imamlıq peyğəmbərlik demək deyildir.

Aydın məsələdir ki, belə bir şəxs elmdə müsəlman ümmətin digər fərdlərindən yuxarıda dayanır və Musa peyğəmbərin (ə) həmsöhbəti kimi "lədunni"[1] elmə sahibdir.[2] Odur ki, onu yalnız uca Allahın göstərişi və Peyğəmbərin (s) təqdimatı ilə tanımaq olar.

Bu da aydın məsələdir ki, camaat Həzrət Peyğəmbərin (s) təyin etdiyi rəhbəri dəstəkləyib ona itaət etdiyi təqdirdə yuxarıdakı məqsədlər gerçəkləşə bilər. Allahın təyinatı və Peyğəmbərin (s) təqdimatı bu məqsədlərin gerçəkləşməsi üçün kifayət etmir. Bu zərurət Qurani-Kərimə və sevimli Peyğəmbərimizə (s) də aid olmuş və olmaqdadır. Həzrət Peyğəmbərin (s) vəfatından sonra müsəlmanlar arasında yaranan təfriqənin səbəbi bu deyildi ki, o həzrət (Allah eləməmiş) üzərinə düşən vəzifəni yerinə yetirməmiş və özündən sonra ümmətin idarə edilməsi xüsusunda müsəlmanlara heç bir yol müəyyən etməmişdir, yaxud da onun müəyyən etdiyi yol yetərli olmamışdır. Bu, bir qrup müsəlmanın öz şəxsi rəy və mülahizələrini Allah və Peyğəmbərin (s) göstərişindən üstün tutduqları səbəbindən olmuşdur. Təkcə rəhbərlik məsələsin-

[1] Allah tərəfindən bəxş edilən qeybi biliklər.
[2] Kəhf surəsi, 65-ci ayə.

də deyil, bir çox məsələlərdə belə şəxsi rəylər mövcud olmuşdur.[1]

## Doxsan ikinci bəhs
### İmamın məsumluğu

Ötən bəhsimizdə qeyd etdik ki, imam, yalnız İslam məmləkətini idarə edən və məmləkətin sərhədlərinin, ərazi bütövlüyünün qorunmasını təmin edən bir rəhbər deyildir. Onun bundan əlavə digər vəzifələri də vardır.

Quranı təfsir etmək, şəriət hökmlərini izah etmək, əqidəvi və şəri sualları cavablandırmaq kimi çox mühüm vəzifələrin icrası isə vüsətli elmə sahib olmağı və səhvə yol verməməyi (məsum olmağı) tələb edir. Adi insanlar bu vəzifələrin icrasında, heç şübhəsiz, səhvə yol verəcəklər.

Ötən bəhslərimizdə peyğəmbərlərin məsumluğuna dair bəhs edərkən qeyd etdik ki, peyğəmbər olmayan bir insan məsum ola bilər. Bunun aşkar nümunəsi xanım Məryəm-Üzradır və bu xanımın məsumluğu həmin bəhslərdə sübuta yetirildi.[2]

Yuxarıdakı məntiqi təhlillə (əqli dəlil) yanaşı, bir sıra Quran ayələri və hədislər də (nəqli dəlil) İmamların (ə) məsum olduğunu sübuta yetirir. Aşağıdakı nümunələrə diqqət yetirin:

**1. “Təthir” ayəsi:**

... إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَ يُطَهِّرَكُمْ تَطْهِيرًا.

**“Həqiqətən, Allah siz Əhli-beytdən hər cür çirkinliyi yox etmək və sizi pakdan-pak etmək istər!”[3]**

Yuxarıdakı ayənin Əhli-beytin məsumluğuna (yəni səhvsizliyinə və günahsızlığına) dəlalət etməsi belə izah edilir:

1 Əllamə Seyid Əbdülhüseyn Şərəfuddin Amulinin “ən-Nəss vəl-ictihad” kitabına müraciət oluna bilər.
2 əl-İlahiyyat, Ayətullah Cəfər Sübhani.
3 Əhzab surəsi, 33-cü ayə.

O gələcək...

Əhli-beytdən hər cür çirkinliyi yox edib onları pak etmək Allahın qəti istəyidir ("إِنَّمَا" ədatını nəzərə alaraq). Ayədə işlənən "çirkinlik" ifadəsində isə çirkin niyyət və fikir, xüsusiyyət və rəftar nəzərdə tutula bilər ki, günah bunların bariz nümunəsidir. Buradan belə nəticə çıxır ki, Əhli-beyt günahsız və məsumdur.

**2. "Səqəleyn" hədisi:**

**"Mən sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm, onlardan biri Allahın kitabı, digəri isə itrətim - Əhli-beytimdir. Nə qədər ki, onlara sarılmısınız, əsla yolunuzu azmazsınız. Həqiqətən bu ikisi Cənnətdə Kövsər hovuzu kənarında mənə qovuşana qədər əsla bir-birindən ayrılmazlar!"**

Gördüyünüz kimi, hədisdə Əhli-beyt İmamları (ə) Quranla yanaşı hallanır. Bəs necə ki, Quranda heç bir səhv və yanlışlıq yoxdur, Əhli-beyt İmamları (ə) da səhvsiz və günahsızdırlar. Mətləbin daha da aydınlaşması üçün aşağıdakı məqamlara diqqət yetirin:

a) Nə qədər ki, **onlara** sarılmısınız, əsla yolunuzu azmazsınız;

b) Həqiqətən **bu ikisi** Cənnətdə Kövsər hovuzu kənarında mənə qovuşana qədər əsla bir-birindən ayrılmazlar.

Beləliklə, hidayət səbəbi olan və Qurandan ayrılmayan bir şey hökmən hər cür səhv və yanlışlıqdan uzaq olmalıdır.

Qısa şəkildə bəyan edilən bu dəlillər Əhli-beyt İmamlarının (ə) məsumluğunu sübuta yetirir. Əlbəttə, bu barədəki nəqli dəlillər yuxarıda qeyd edilən ayə və hədislə məhdudlaşmır.

## Doxsan üçüncü bəhs

İmamı 2 yolla tanımaq olar:

***1) Həzrət Peyğəmbər (s) Allahın əmrilə bir şəxsin imam olduğunu bildirir;***

O gələcək...

***2) Əvvəlki imam özündən sonrakı imamı tanıtdırır.***

Bizim qəbul etdiyimiz on iki Məsum İmam (ə) barədə deyə bilərik ki, həm Həzrət Peyğəmbər (s) bir sıra hədislərdə onların imam olduqlarını bildirmiş, həm də hər bir imam özündən sonrakı imamı tanıtdırmışdır.

Bu barədə olan hədislərdən birinə diqqət yetirək.[1]

Sevimli Peyğəmbərimiz (s) təkcə Həzrət Əlinin (ə) imamlığını elan etməmişdir, o həm də Həzrət Əlidən (ə) sonra on bir imamın gələcəyini xəbər verərək bildirmişdir ki, İslamın izzət və yüksəlişi on iki xəlifənin vasitəsilə gerçəkləşəcəkdir. Həzrət Peyğəmbər (s) buyurmuşdur:

**لَا يَزَالُ الدِّينُ مَنِيعًا إِلَى إِثْنَى عَشَرَ خَلِيفَةَ.**

“Din on iki xəlifə ilə hər zaman uca olar”.

**لَا يَزَالُ الْإِسْلَامُ عَزِيزًا إِلَى إِثْنَى عَشَرَ خَلِيفَةَ.**

“İslam on iki xəlifə ilə hər zaman izzətli olar”.

Qeyd etmək lazımdır ki, “on iki xəlifə” barədəki hədislər əhli-sünnənin ən mötəbər hədis qaynaqlarında da mövcuddur.[2]

İslamı izzətləndirən bu on iki xəlifə isə, heç şübhəsiz, şiələrin qəbul etdikləri on iki Məsum İmamdan (ə) qeyrisi deyildir. Çünki Əməvi və Abbasi xəlifələri İslamı izzətləndirməmişlər, digər tərəfdən də onların sayı on iki nəfər olmamışdır.

Şiələrin qəbul etdikləri on iki Məsum İmamın (ə) adları aşağıdakı ardıcıllıqladır:

1. Əli ibn Əbu-Talib (doğum tarixi: İslamın zühurundan 10 il öncə; şəhid olduğu tarix: hicri-qəməri 40-cı il.) Nəcəf şəhərində (İraqda) dəfn olunmuşdur.

---

1 Bu barədəki hədislərlə tanış olmaq istəyənlər Usuli-kafi, Kifayətul-əsər, İsbatul-hudat, Muntəxəbul-əsər və s. hədis kitablarına müraciət edə bilərlər.

2 Səhih Buxari, c.9, səh.81, “İstixlaf” fəsli; Səhih Müslim, c.6, səh.3, “əl-İmarə” fəsli; Müsnəd-i Əhməd, c.5, səh.86 və 108; Mustədrək-i Hakim, c.3, səh.18.

2. İmam Həsən ibn Əli (h.q. 3-50 illər). Məşhur ləqəbi "Müctəba"dır və Mədinə şəhərindəki Bəqi qəbristanlığında dəfn olunmuşdur.

3. İmam Hüseyn ibn Əli (h.q. 4-61 illər). Məşhur ləqəbi "Seyyidüş-şühəda"dır (şəhidlərin ağası) və Kərbala şəhərində (İraqda) dəfn olunmuşdur.

4. İmam Əli ibn Hüseyn (h.q. 38-94 illər). Məşhur ləqəbi "Zeynül-abidin"dir və Mədinədəki Bəqi qəbristanlığında dəfn olunmuşdur.

5. İmam Məhəmməd ibn Əli (h.q. 57-114 illər). Məşhur ləqəbi "Baqirul-ulum"dur və Mədinədəki Bəqi qəbristanlığında dəfn olunmuşdur.

6. İmam Cəfər ibn Məhəmməd (h.q. 83-148 illər). Məşhur ləqəbi "Sadiq"dir və Mədinədəki Bəqi qəbristanlığında dəfn olunmuşdur.

7. İmam Musa ibn Cəfər (h.q. 128-183 illər). Məşhur ləqəbi "Kazim"dir və Kazimeyn şəhərində (İraqda) dəfn olunmuşdur.

8. İmam Əli ibn Musa (h.q. 148-203 illər). Məşhur ləqəbi "Rza"dır və Xorasanda (İranın Məşhəd şəhərində) dəfn olunmuşdur.

9. İmam Məhəmməd ibn Əli (h.q. 195-220 illər). Məşhur ləqəbi "Cavad"dır və Kazimeyndə (İraqda) dəfn olunmuşdur.

10. İmam Əli ibn Məhəmməd (h.q. 212-254 illər). Məşhur ləqəbi "Hadi"dir və Samirra şəhərində (İraqda) dəfn olunmuşdur.

11. İmam Həsən ibn Əli (h.q. 232-260 illər). Məşhur ləqəbi "Əskəri"dir və Samirra şəhərində dəfn olunmuşdur.

12. İmam Məhəmməd ibn Həsən. Məşhur ləqəbləri "Hüccət" və "Məhdi"dir. O, şiələrin on ikinci imamıdır və hal-hazırda sağ olub qeybdədir. Bir gün Allahın əmrilə zühur

edib Quranın aşkar vədinə[1] və mütəvatir hədislərə əsasən Yer üzündə İslamın hakimiyyətini bərqərar edəcəkdir.[2]

Məsum İmamların (ə) həyatı barədə tarixi qaynaqlarda ətraflı məlumatlar qeyd olunubdur. On ikinci imam hal-hazırda sağ olduğu və Allahın istəyilə imamlıq vəzifəsini daşıdığı üçün gələn bəhslərdə onun qeybə çəkilməsi və zühuru barədə söhbət açacağıq.

## Doxsan dördüncü bəhs

Həzrət Peyğəmbərin (s) ailəsini sevmək Quran və sünnədə təkidlə buyurulan məsələlərdən biridir. Rəbbimiz buyurur:

... قُل لَا أَسْئَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِى الْقُرْبَى...

**“De ki: Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlara (Əhli-beytə) məhəbbətdən başqa bir şey istəmirəm”.[3]**

Ayədəki “qohumlara” sözündə Peyğəmbərin (s) qohumları nəzərdə tutulur, çünki bunu istəyən Peyğəmbərdir (s).

Həzrət Peyğəmbərin (s) əziz ailəsini sevmək bir məziyyət olmaqla yanaşı, bu sevgi insanı onların ardınca aparır, fəzilətlər kəsb edib rəzilliklərdən çəkinməkdə insan onlara iqtida edir.

Bir sıra mütəvatir hədislərdə sevimli Peyğəmbərimiz (s) buyurur ki, onun Əhli-beytinə məhəbbət bəsləmək imanın, ədavət bəsləmək isə küfr və münafiqliyin nişanəsidir. Həmçinin onları sevənlər Allah və Peyğəmbəri sevmiş, onlarla düşmənçilik edənlər isə Allah və Peyğəmbərlə düşmənçilik etmişlər.

---

[1] bax: Nur surəsi, 54-cü ayə; Tövbə surəsi, 33-cü ayə; Fəth surəsi, 28-ci ayə; Səff surəsi, 9-cu ayə.

[2] Bəzi imamların doğum və şəhadət tarixləri barədə fikirayrılığı mövcuddur və biz burada onlardan birini qeyd etmişik. Həmçinin, onların həyatı və şəhadəti barədə tarix kitablarında ətraflı məlumatlar verilmişdir.

[3] Şura surəsi, 23-cü ayə.

Ümumiyyətlə, Peyğəmbərin (s) Əhli-beytinə məhəbbət bəsləmək İslam dininin zərurətlərindəndir və bütün müsəlmanlar bu barədə eyni fikirdədirlər. Təkcə "nəvasib" adı ilə tanınan bir qrup bu məsələyə qarşı çıxmış və elə bu səbəbdən də İslam dinini inkar edənlərdən sayılmışlar.

O gələcək...

# ON İKİNCİ İMAMIN QEYBƏ ÇƏKİLMƏSİ VƏ ZÜHURU

Hər bir İmam (ə) haqqında ayrı-ayrılıqda geniş bəhs etmək bu kitab üçün nəzərdə tutulan həcmin xaricindədir. Lakin burada İmam Zaman (on ikinci imam) barədə bir qədər məlumat verməyi zəruri hesab edirik. Belə ki, o, hal-hazırda qeybə çəkilmiş və bir gün Allahın iznilə zühur edərək yer üzündə ədaləti bərpa edəcəkdir.

## Doxsan beşinci bəhs

Dünya zülm və ədalətsizliklə dolduğu bir zamanda Həzrət Peyğəmbərin (s) nəslindən bir nəfərin zühur edərək yer üzündə ədalətli vahid hökumət quracağı bütün müsəlmanların qəbul etdiyi məsələlərdəndir və dini mənbələrdə bu barədə mütəvatir hədislər mövcuddur. Tədqiqatçıların hesablamalarına görə, bu məsələ ilə bağlı 657 hədis nəql olunmuşdur ki, biz burada Əhməd ibn Hənbəlin "Müsnəd" əsərində nəql olunan bir hədisi gətirməklə kifayətlənirik:

Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Dünyanın sona çatmasına bircə gün qalsa belə, Allah həmin günü o qədər uzadar ki, mənim övladlarımdan (nəslimdən) bir nəfər qiyam edib zülmlə dolan yer üzünü ədalətlə doldursun".[1]

Beləliklə, Peyğəmbər (s) nəslindən bir nəfərin axır-zamanda (dünya həyatının son dövranında) zühur edəcəyi şiə və əhli-sünnənin qəbul etdikləri bir məsələdir.

[1] Müsnəd-i Əhməd ibn Hənbəl, c.1, səh.99; c.3, səh.17 və 70.

## Doxsan altıncı bəhs

Şiə və əhli-sünnənin hədis mənbələrinə istinadən, zülm və ədalətsizliklə dolan yer üzünü ədalətlə dolduracaq xilaskarın xüsusiyyətləri aşağıdakılardır:

1. Həzrət Peyğəmbərin (s) nəslindəndir (389 hədis);
2. Həzrət Əlinin (ə) övladlarındandır (214 hədis);
3. Xanım Fatimə-Zəhranın (ə) övladlarındandır (192 hədis);
4. İmam Hüseynin (ə) doqquzuncu nəslindəndir (148 hədis);
5. İmam Zeynül-abidinin (ə) övladlarındandır (185 hədis);
6. İmam Həsən Əskərinin (ə) övladıdır (146 hədis);
7. Əhli-beyt İmamlarının (ə) on ikincisidir (136 hədis);
8. Onun dünyaya gəldiyini nəql edən hədislər (214 hədis);
9. Onun ömrünün uzun olacağını nəql edən hədislər (318 hədis);
10. Onun uzun müddət qeybdə olacağını nəql edən hədislər (91 hədis);
11. İslam dinini yer üzünə hakim edəcəkdir (27 hədis);
12. Yer üzünü ədalətlə dolduracaqdır (132 hədis).

Qeyd olunduğu kimi, dünya zülm və ədalətsizliklə dolduğu bir zamanda Həzrət Peyğəmbərin (s) nəslindən bir nəfərin zühur edərək yer üzündə ədalətli vahid hökumət quracağı müsəlmanların yekdilliklə qəbul etdikləri bir məsələdir. Münaqişəli məsələ isə budur ki, görəsən o, hal-hazırda dünyaya gəlmişdir, yoxsa dünyaya gələcəkdir?

Şiələr və əhli-sünnə tədqiqatçılarından bir qrupu onun hicri-qəməri 255-ci ildə dünyaya gəldiyinə və hal-hazırda yer üzündə həyat sürdüyünə inanırlar. Əhli-sünnə isə onun gələcəkdə dünyaya gələcəyinə inanırlar.

Biz şiələr bəşəriyyət xilaskarının hicri-qəməri 255-ci ildə dünyaya göz açdığına və hal-hazırda yer üzündə həyat sürdüyünə inandığımız üçün bu kitabın həcmi daxilində onun qeybə çəkilməsi və bu qədər uzun ömür sürməsilə bağlı bir neçə məsələni aydınlaşdırmağı zəruri hesab etdik.

## Doxsan yeddinci bəhs

Qurani-Kərimə istinadən ilahi övliyalar 2 dəstəyə ayrılır:

**1. Vəliyyi-zahir:** camaat onu tanıyır;

**2. Vəliyyi-qayib:** camaat onu tanımır, baxmayaraq ki, o, camaat arasında yaşayır və onların vəziyyətindən xəbərdardır.

Kəhf surəsində vəliyyi-zahirlə vəliyyi-qayibin yol yoldaşlığından söz açılmışdır: Musa ibn İmranla (ə) Xızırın yol yoldaşlığı. Diqqətəlayiq məqam budur ki, hətta Musa peyğəmbər (ə) belə bu vəliyyi-qayibi tanımırmış və Allah onu Musaya (ə) tanıtdırır, o da vəliyyi-qayibin elmindən bəhrələnir. Rəbbimiz buyurur:

فَوَجَدَا عَبْدًا مِنْ عِبَادِنَا ءَاتَيْنَاهُ رَحْمَةً مِنْ عِندِنَا وَ عَلَّمْنَاهُ مِن لَدُنَّا عِلْمًا. قَالَ لَهُ مُوسَى هَلْ أَتَّبِعُكَ عَلَى أَن تُعَلِّمَنِ مِمَّا عُلِّمْتَ رُشْدًا.

**“(Musa və Yuşə sahildə) Öz dərgahımızdan rəhmət (peyğəmbərlik və vəhy, yaxud ilham və kəramət) əta etdiyimiz və Öz tərəfimizdən elm (qeybə dair bəzi biliklər) öyrətdiyimiz bəndələrimizdən birini (Xızırı) tapdılar (rastlaşıb tanış oldular). Musa ona dedi: “Səninlə birlikdə ola bilərəmmi ki, sənə öyrədilmiş “doğru yolu göstərən” elmdən mənə öyrədəsən?”**[1]

Həmin surədə bu ilahi övliyanın insanlara göstərdiyi xidmətlərdən bir neçəsi açıqlanır. Musa ilə Xızırın hekayətindən tam aydın olur ki, camaat onu (Xızırı) tanımırdı, lakin onun varlığından bəhrələnirdi (bax: Kəhf surəsi, 71-82-ci ayələr).

İmam Zaman (ə.f) da Musa peyğəmbərin (ə) yol yoldaşı kimi “tanınmayan övliya”dır (vəliyyi-qayib): tanınmasa da ümmətə xidmət göstərir, onlara xeyri dəyir.

Deməli, İmamın (ə) qeybə çəkilməsi onunla insanlar arasında ayrılıq düşməsi anlamında deyildir. Məsum İmamların (ə) hədislərində buyurulduğu kimi: O, bulud arxasındakı gü-

[1] Kəhf surəsi, 65-66-cı ayələr.

nəşə bənzər, gözlər onu görməz, lakin o, yer əhlinə işıq və istilik verər.[1]

Bundan əlavə, tarix boyunca bir çox pak (müxlis) və saleh insanlar onunla görüşməyə nail olmuşlar. Bu yolla, başqaları da onun varlığının bərəkətindən faydalanmışlar.

## Doxsan səkkizinci bəhs

Bəşər tarixi boyunca, bir qayda olaraq, hökmdarlar və rəhbərlər öz vəzifələrinin bir qismini bilavasitə özləri, bir qismini isə öz nümayəndələri vasitəsilə icra etmişlər.

Doğrudur ki, İmam Zaman (ə.f) müxtəlif səbəblərə görə qeybə çəkilmiş və müsəlmanlar onunla birbaşa əlaqə saxlamaq imkanında deyildirlər, lakin xoşbəxtlikdən onun nümayəndələri olan ədalətli və saleh fəqihlərdən bəhrələnmək (ictihad və təqlid) imkanına malikdirlər. Böyük məqam sahibi olan fəqihlər və müctəhidlər şəri məsələlərdə və idarəçilik işlərində İmam Zamanın (ə.f) nümayəndələri olmuş və İmamın (ə.f) qeybi dövründə müsəlman cəmiyyətin idarə edilməsi onların üzərinə düşür.

## Doxsan doqquzuncu bəhs

İmam Zamanın (ə.f) qeybə çəkilməsinin səbəbi ilahi bir sirdir və bu bizim üçün hər zaman bir sirr kimi də qala bilər. Başqa sözlə, bu ilahi sirr bizim üçün açılmaya da bilər.

Xatırladaq ki, ilahi rəhbərin bir müddət camaat arasından qeybə çəkilməsi qabaqkı ümmətlərdə də baş vermişdir. Musa peyğəmbər (ə) qırx gün öz ümməti arasından qeybə çəkilmiş və bu müddətdə Miqatda qalmışdı (bax: Əraf surəsi, 142-ci ayə). İsa peyğəmbər (ə) isə Allahın istəyilə gözlərdən qeyb olmuş və düşmənlər onu öldürməyə müvəffəq olmamışdılar

[1] Kəmalud-din, Şeyx Səduq, 45-ci fəsil, hədis: 4, səh.485.

(bax: Nisa surəsi, 158-ci ayə). Həzrət Yunis (ə) da bir müddət qeybə çəkilmişdi (bax: Saffat surəsi, 140-cı ayə).

Bir qayda olaraq, əgər hansısa bir məsələ barədə mütəvatir hədislər vardırsa və bunun gerçək bir məsələ olduğu “təvatür” yolu ilə sübuta yetibdirsə, insan bu məsələnin mahiyyətini, fəlsəfəsini dərk etməsə də ona tərəddüdlə yanaşmamalıdır. Başqa sözlə, məsələnin fəlsəfə və mahiyyətini tam şəkildə dərk etməmək ona tərəddüdlə yanaşmağa əsas vermir. Əgər belə olarsa, onda gərək İslam dininin bir çox zəruri təlimlərinə şübhə ilə yanaşaq. İmam Zamanın (ə) qeybə çəkilməsi məsələsi də bu qaydadan istisna deyil və odur ki, məsələnin mahiyyətini bilməmək onun şübhə altına alınmasına və ya ümumiyyətlə inkar edilməsinə əsas vermir. Eyni zamanda İmam Zamanın (ə.f) qeybə çəkilməsinin fəlsəfəsini öz dərkimiz hüdudlarında belə izah edə bilərik:

Sonuncu ilahi nümayəndə (höccət) olan Məsum İmam (ə) böyük bir amalı - Tövhid bayrağını ucaltmaq və yer üzünü ədalətlə doldurmaq - gerçəkləşdirməlidir. Bu amalın gerçəkləşməsi üçünsə zəmin yaranmalıdır. Belə ki, insanlar da ədalət və azadlıq öndərinin gəlişini səmimi qəlblə istəməli, onu layiqincə qarşılamalıdırlar. Təbii ki, əgər belə bir zəmin yaranmadan İmam Zaman (ə.f) zühur edərsə, onu da əvvəlki İmamların (ə) aqibəti gözləyəcək və o bu ülvi amalı gerçəkləşdirməmiş dünyanı tərk edəcəkdir.

Bu fəlsəfə hədislərdə də açıqlanmışdır.

İmam Baqir (ə) buyurub: “İmam Zaman (ə.f) zühurdan öncə qeybə çəkiləcək”.

Ravi onun qeybə çəkilməsinin səbəbini soruşduqda İmam Baqir (ə) belə cavab verir: “Qətlə yetrilməsinin qarşısının alınması üçün”.[1]

[1] Kəmalud-din, Şeyx Səduq, 14-cü fəsil, hədis: 8, 9 və 10.

Bundan əlavə, bəzi hədislərdə buyurulur ki, İmam Zamanın (ə.f) qeybi dövründə ümmətin iman və etiqadının möhkəmliyi yoxlanılır.[1]

## Yüzüncü bəhs

Kəlam elmində sübut edilir ki, ümmət arasında məsum imamın olması Allahın insanlara olan böyük lütflərindən biridir. Çünki imam, insanların hidayət amilidir.

Aydın məsələdir ki, insanlar bu ilahi lütfə qucaq açdıqları təqdirdə ondan kamil surətdə bəhrələnə bilərlər. Əks təqdirdə bu nemətdən məhrum olarlar və bu məhrumiyyətin səbəbkarı da Allah və İmam (ə.f) deyil, insanların özüdür.[2]

## Yüz birinci bəhs

İmam Zaman (ə.f) hicri-qəməri tarixilə 255-ci ildə dünyaya göz açmışdır və bu hesabla indi onun ömründən on iki əsr keçir.

Allahın hüdudsuz qüdrətini nəzərə alıb İmam Zamanın (ə.f) bu qədər uzun ömürlü olmasını qəbul etmək elə də çətin iş deyil. Bunu qəbulolunmaz hesab edənlər, əslində, Allahın sonsuz və hüdudsuz qüdrətə sahib olduğundan qafildirlər:

وَ مَا قَدَرُواْ اللَّهَ حَقَّ قَدْرِهِ...

**"Onlar Allahı layiqincə qiymətləndirmədilər".[3]**

Bundan əlavə, keçmiş ümmətlərdə də uzun ömür sürənlər olmuşdur. Qurani-Kərim Həzrət Nuhun (ə) 950 il peyğəmbərlik etdiyini xəbər verir (bax: Ənkəbut surəsi, 14-cü ayə).

Məlum olduğu kimi, çağdaş zamanəmizdə müasir elm insan ömrünün uzadılması yollarını tapmağa çalışır. Bu isə

[1] Biharul-ənvar, Əllamə Məclisi, c.52, səh.102, 113, 114, "ət-Təmhis vən-nəhy ənil-təuqit" fəsli.
[2] Təcridul-etiqad, Mühəqqiq Tusi, (İmamət bəhsi), səh.362.
[3] Ənam surəsi, 91-ci ayə.

onu göstərir ki, alimlər insanın uzun ömür sürmək imkanında olması qənaətindədirlər.

Sizcə, Yunus peyğəmbəri (ə) Qiyamət gününədək balığın qarnında diri saxlamağa qadir olan Allah[1] Öz höccəti olan İmam Zamana (ə.f) uzun ömür bəxş edə bilməzmi? Əlbəttə ki, cavab müsbətdir.

## Yüz ikinci bəhs

İmam Zamanın (ə.f) nə vaxt zühur edəcəyi heç kəsə məlum deyil və bu, Qiyamətin qopacağı gün kimi yalnız Allaha məlum olan bir sirdir. Buna görə də, İmam Zamanın (ə.f) zühur edəcəyi tarixi bildiyini iddia edənlərin və ya zühur tarixini müəyyən edənlərin iddiaları qəbul edilmir.

Lakin zühurun dəqiq tarixi məlum olmasa da, onun əlamətləri rəvayətlərdə açıqlanmışdır və sözügedən əlamətlər iki qisimdir: qəti əlamətlər və qeyri-qəti əlamətlər. Bu haqda əqidə və hədis kitablarında ətraflı bəhs edilmişdir.

[1] Saffat surəsi, 143-144-cü ayələr.

VIII FƏSİL

# MƏAD —
# AXİRƏT ALƏMİ VƏ ÖLÜMDƏN SONRAKI HƏYAT

O gələcək...

# ÖLÜMDƏN SONRAKI HƏYAT

## Yüz üçüncü bəhs

Bütün səmavi dinlər məada - axirət aləmi və ölümdən sonrakı həyata inamı zəruri hesab edir. İlahi elçilər tövhidlə (təkallahlılıq) yanaşı, insanları məada inama çağırmışlar. Deməli, məada inam İslam dininin təməl və zəruri inanclarından biridir.

Məad barədə Əhdi-Ətiq (Tövrat) və Əhdi-Cədiddə (İncildə) də - xüsusilə Əhdi-Cədiddə - söz açılıb, lakin Quran digər səmavi kitablardan daha çox bu mövzuya toxunmuş və onun ayələrindən böyük bir qismi bu mövzuya həsr edilmişdir.

Məada inam ondan ötrü böyük əhəmiyyətə malikdir ki, axirət həyatı olmadan iman və dindarlığın səmərəsi yoxdur.

## Yüz dördüncü bəhs

İslam filosofları və mütəkəllimləri Quranın axirət aləminin varlığına və zəruriliyinə dair gətirdiyi dəlillərdən istiqamət alaraq bu mövzuda müxtəlif dəlillər ortaya qoymuşlar. Biz burada Quranın bu mövzu ilə bağlı dəlillərindən bir neçəsini nəzərinizə çatdırırıq:

**1)** Allah-Təala “mütləq haqq”dır. Onun felləri də haqqdır və puçluq, hədəfsizlik Allahın şəninə yaddır.

Hədəfli və əbədi bir həyat olmadan insanın yaradılışı puç və əbəs iş olardı. Rəbbimiz buyurur:

أَ فَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَ أَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ.

O gələcək...

**“Yoxsa sizi əbəs yerə yaratdığımızı və hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?”[1]**

**2)** İlahi ədalətin tələbinə görə hər bir kəs yerinə yetirdiyi əməllərin əvəzini almalıdır: yaxşı əmələ görə mükafatlanmalı, pis əmələ görə cəzalanmalıdır.

Lakin bu dünya həyatında insanların layiqincə mükafatlanması və ya cəzalanması, başqa sözlə, ədalətin tam şəkildə öz yerini tutması qeyri-mümkündür. Çünki yaxşı və pis əməllərdən bəzilərinin əvəzini bu dünyada vermək qeyri-mümkündür. Məsələn, birisi bir ömür Allah yolunda cihad və mübarizə edir və sonda canını Allah yolunda qurban verir, başqa birisi isə çox sayda günahsız insanların qanını tökür. Buna görə də başqa bir dünya olmalıdır ki, Allahın ədaləti kamil surətdə gerçəkləşsin. Rəbbimiz buyurur:

أَمْ نَجْعَلُ الَّذِينَ ءَامَنُواْ وَ عَمِلُواْ الصَّالِحَاتِ كَالْمُفْسِدِينَ فِى الْأَرْضِ أَمْ نَجْعَلُ الْمُتَّقِينَ كَالْفُجَّارِ.

**“Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq?! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik?!”[2]**

Həmçinin buyurur:

إِلَيْهِ مَرْجِعُكُمْ جَمِيعًا وَعْدَ اللَّهِ حَقًّا إِنَّهُ يَبْدَؤُاْ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ لِيَجْزِىَ الَّذِينَ ءَامَنُواْ وَ عَمِلُواْ الصَّالِحَاتِ بِالْقِسْطِ وَ الَّذِينَ كَفَرُواْ لَهُمْ شَرَابٌ مِنْ حَمِيمٍ وَ عَذَابٌ أَلِيمٌ بِمَا كَانُواْ يَكْفُرُونَ.

[1] Muminun surəsi, 115-ci ayə.
[2] Sad surəsi, 28-ci ayə.

**“Hamınızın axır dönüşü Onadır. Bu, Allahın haqq olan vədidir. O, insanları yoxdan yaradır, sonra Ona iman gətirib yaxşı işlər görənləri ədalətlə mükafatlandırmaq üçün (Qiyamət günü) yenidən diriltdir. Kafirləri etdikləri küfrlərə görə qaynar su (həmim) və şiddətli bir əzab gözləyir!”[1]**

**3)** İnsanın bu dünyadakı yaradılışı ölçüyəgəlməz qədər kiçik bir zərrəciklə başlayır və tədricən fizioloji inkişaf mərhələlərini arxada qoyur. Sonra elə bir nöqtəyə çatır ki, ona ruh üfürülür və Qurani-Kərim bu üstün varlığın (insanın) xilqətinin təkmilləşdiyini nəzərdə tutaraq aləmlərin yaradanını “əhsənül-xaliqin” (yaradanların ən yaxşısı) adlandırır. Daha sonra ölümün yetişməsilə ruh bu dünyadan o biri dünyaya köçür ki, bu da qabaqkı mərhələnin təkmilləşməsidir. Quranda buyurulur:

ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا ثُمَّ أَنشَأْنَاهُ خَلْقًا ءَاخَرَ فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ. ثُمَّ إِنَّكُمْ بَعْدَ ذَالِكَ لَمَيِّتُونَ. ثُمَّ إِنَّكُمْ يَوْمَ الْقِيَامَةِ تُبْعَثُونَ.

**“Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bam-başqa (yeni) bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər uca, nə qədər uludur! Sonra siz mütləq öləcəksiniz! Sonra siz Qiyamət günü yenidən diriləcəksiniz!”[2]**

## Yüz beşinci bəhs

Bu bəhsdə məadın mümkünlüyünü inkar edənlərə Quranın verdiyi cavabları araşdıracağıq:

[1] Yunus surəsi, 4-cü ayə.
[2] Muminun surəsi, 14-16-cı ayələr.

**1)** Bəzi ayələrdə Allahın mütləq qüdrətinə işarə olunaraq buyurulur:

إِلَى اللَّهِ مَرْجِعُكُمْ وَ هُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ.

**“Siz məhz Allahın hüzuruna qayıdacaqsınız. O, hər şeyə qadirdir!”[1]**

**2)** Bəzi ayələrdə isə xatırlanır ki, birinci dəfə yaratmağa qadir olan Yaradan, yenidən yaratmağa da qadirdir:

... فَسَيَقُولُونَ مَن يُعِيدُنَا قُلِ الَّذِى فَطَرَكُمْ أَوَّلَ مَرَّةٍ...

**“Onlar deyəcəklər: “O halda bizi kim dirildəcəkdir?” (Ya Məhəmməd!) De ki: “İlk dəfə sizi yoxdan yaradan Allah dirildəcəkdir!”[2]**

**3)** Bəzi ayələrdə insanın dirilməsi bahar fəslində torpağın oyanışına bənzədilir:

يَأَيُّهَا النَّاسُ إِنْ كُنتُمْ فِى رَيْبٍ مِنَ الْبَعْثِ فَإِنَّا خَلَقْنَاكُم مِّن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ مِنْ عَلَقَةٍ ثُمَّ مِن مُّضْغَةٍ مُخَلَّقَةٍ وَ غَيْرِ مُخَلَّقَةٍ لِنُبَيِّنَ لَكُمْ وَ نُقِرُّ فِى الْأَرْحَامِ مَا نَشَاءُ إِلَى أَجَلٍ مُّسَمًّى ثُمَّ نُخْرِجُكُمْ طِفْلًا ثُمَّ لِتَبْلُغُواْ أَشُدَّكُمْ وَ مِنكُم مَّن يُتَوَفَّى وَ مِنكُم مَّن يُرَدُّ إِلَى أَرْذَلِ الْعُمُرِ لِكَيْلَا يَعْلَمَ مِن بَعْدِ عِلْمٍ شَيْئًا وَ تَرَى الْأَرْضَ هَامِدَةً فَإِذَا أَنزَلْنَا عَلَيْهَا الْمَاءَ اهْتَزَّتْ وَ رَبَتْ وَ أَنبَتَتْ مِن كُلِّ زَوْجٍ بَهِيجٍ. ذَالِكَ بِأَنَّ اللَّهَ هُوَ الْحَقُّ وَ أَنَّهُ يُحْيِ الْمَوْتَى وَ أَنَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ.

**“Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa, (ilk yaradılışınızı yada salın). Həqiqətən, Biz sizi (babanız Adəmi) torpaqdan, sonra mənidən, sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə**

[1] Hud surəsi, 4-cü ayə.
[2] İsra surəsi, 51-ci ayə.

**düşmüş (vaxtında doğulmuş) və düşməmiş (vaxtından əvvəl doğulmuş) bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə göstərək. İstədiyimizi ana bətnində müəyyən bir müddət (adətən doqquz ay) saxlayar, sonra sizi (oradan) uşaq olaraq çıxardarıq. Sonra yetginlik çağına yetişəsiniz deyə (sizi böyüdərik). Kiminiz (bu həddə çatmamış) vəfat edər, kiminiz də ömrün elə bir rəzil çağına çatdırılar ki, vaxtilə bildiyini (tamamilə unudub körpə uşaq kimi) bilməz olar. (Ey insan!) Sən yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə (cana) gəlib qabarar və hər növ gözəl (meyvədən, bitkidən) bar gətirər. Bu, ona görədir ki, Allah haqdır, ölüləri dirildir və O, hər şeyə qadirdir!"**[1]

**4)** "İnsan öldükdən, bədəni parçalanaraq torpağa qarışdıqdan sonra necə ola bilər ki, bədənin torpağa qarışmış hissələri torpaqdan ayırd edilsin və əvvəlki bədən bərpa olunsun?" – sualının cavabında Qurani-Kərim Allahın geniş elminə işarə edərək buyurur:

... بَلَى وَ هُوَ الْخَلَّاقُ الْعَلِيمُ.

**"Əlbəttə qadirdir. (Bütün məxluqatı) yaradan və (hər şeyi) bilən Odur!"**[2]

Başqa bir ayədə Allahın hüdudsuz elmi barədə belə buyurulur:

قَدْ عَلِمْنَا مَا تَنقُصُ الْأَرْضُ مِنْهُمْ وَ عِنْدَنَا كِتَابٌ حَفِيظٌ.

**"Həqiqətən, Biz yerin onlardan nəyi əskiltdiyini (onları tədricən necə çürüdüb məhv etdiyini) bilirik. Dər-**

---

[1] Həcc surəsi, 5-6-cı ayələr.
[2] Yasin surəsi, 81-ci ayə.

**gahımızda (hər şeyi) hifz edən bir kitab (lövhi-məhfuz) vardır!"[1]**

**5)** Bəziləri elə təsəvvür edirlər ki, insan yalnız maddi bədəndən, əzalardan ibarətdir və öldükdən sonra çürüyüb torpağa dönür. Belə olduğu təqdirdə necə iddia etmək olar ki, Qiyamət günü dirilən insan, yeni insan deyil, elə qabaqkı insandır? Başqa sözlə, bu iki bədənin eyniliyini qoruyub saxlayan amil nədir?

Qurani-Kərim kafirlərin belə dediklərini nəql edir:

وَ قَالُواْ أَءِذَا ضَلَلْنَا فِى الْأَرْضِ أَءِنَّا لَفِى خَلْقٍ جَدِيدٍ...

**"Məgər biz torpağa qarışıb yox olandan sonra yenidənmi yaradılacağıq?"[2]**

Onların cavabında buyurulur:

قُلْ يَتَوَفَّاكُم مَّلَكُ الْمَوْتِ الَّذِى وُكِّلَ بِكُمْ ثُمَّ إِلَى رَبِّكُمْ تُرْجَعُونَ.

**"(Ya Məhəmməd!) De ki: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaqdır. Sonra da Rəbbinizin hüzuruna qaytarılacaqsınız!"[3]**

Ayədəki "canınızı alacaqdır" ifadəsindən aydın olur ki, insan öldükdə yerdə qalan və torpağa basdırılan bədəndən əlavə, başqa bir şey də (ruh) mövcuddur ki, ölüm mələyi onu alıb aparır. Deməli, Qiyamət günü dirildilən bədənlə əvvəlki bədən arasında vəhdət və eyniliyi qoruyub saxlayan amil (əzaların eyniliyindən əlavə) ölüm mələyinin aldığı ruhdur.

Bu və digər ayələrdən məlum olur ki, Qiyamət günü dirilən insan elə bu dünyadakı insanın özüdür. Mükafat və cəza da öz sahibinə çatacaqdır. Başqa bir ayədə də bu vəhdət və eynilikdən söz açılır:

---

[1] Qaf surəsi, 4-cü ayə.

[2] Səcdə surəsi, 10-cu ayə.

[3] Səcdə surəsi, 11-ci ayə.

قُلْ يُحْيِيهَا الَّذِى أَنْشَأَهَا أَوَّلَ مَرَّةٍ وَ هُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ.

**"(Ya Peyğəmbər!) De ki: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!"[1]**

## Yüz altıncı bəhs

Quran ayələri və hədislərə istinadən məad, həm "cismani", həm də "ruhani" olacaqdır.

"Cismani məad" dedikdə bu nəzərdə tutulur ki, Qiyamətdə bədən qəbirdən qaldırılacaq və ruh bir daha həmin bədənə daxil ediləcəkdir. Sonra hisslərlə duyula bilən ləzzət və əzab, başqa sözlə, cismani mükafat və cəza gerçəkləşəcəkdir.

"Ruhani məad" dedikdə isə, bu nəzərdə tutulur ki, cismani mükafat və cəzadan əlavə, saleh və günahkar bəndələr üçün bir sıra ruhani mükafat və cəzalar da mövcuddur ki, onları duymaqda ruhun bədənə, hiss üzvlərinə ehtiyacı yoxdur. Məsələn, Allahın razılığını duymaq. Aşağıdakı ayədə cismani mükafatlar sadalandıqdan sonra buyurulur:

... وَ رِضْوَانٌ مِّنَ اللَّهِ أَكْبَرُ ذَالِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ.

**"...Allahın razılığı isə (bunların hamısından) daha böyükdür. Bu, ən böyük qurtuluş və uğurdur!"[2]**

Və yaxud üzücü qəm və həsrəti duymaq:

وَ أَنذِرْهُمْ يَوْمَ الْحَسْرَةِ إِذْ قُضِىَ الْأَمْرُ وَ هُمْ فِى غَفْلَةٍ وَ هُمْ لَا يُؤْمِنُونَ.

**"(Ya Məhəmməd!) Qəflətdə olanları və iman gətirməyənləri işin bitmiş olacağı həsrət və peşmançılıq günü (Qiyamət günü) ilə qorxut!"[3]**

---

[1] Yasin surəsi, 79-cu ayə.
[2] Tövbə surəsi, 72-ci ayə.
[3] Məryəm surəsi, 39-cu ayə.

## Yüz yeddinci bəhs

Ölüm həyatın sonu demək deyil, bu dünyadan əbədi axirət aləminə köçməkdir. Qeyd etmək lazımdır ki, insan öldükdən və bu dünyanı tərk etdikdən sonra Qiyamət gününədək "bərzəx" adlı bir aləmdə qalır. Bərzəx həyatının mahiyyəti bizə məlum deyil və bu barədə bizim məlumatımız yalnız Quran və hədislərdə söylənilənlərdir. Quranın bu barədə verdiyi məlumatların bəzisinə nəzər salaq:

**a)** Bir müşrik öldüyü zaman: "Ay Allah! Məni geriyə (dünyaya) döndər, boynuma düşən və əməl etmədiyim vəzifələri yerinə yetirim!" - deyər. Ona belə xitab olunar: "Əsla! Bu, boş sözlərdən başqa bir şey deyildir!"

Sonra Rəbbimiz buyurur:

... وَ مِنْ وَرَائِهِمْ بَرْزَخٌ إِلَى يَوْمِ يُبْعَثُونَ.

**"Onların önündə dirilib (Allahın hüzurunda) duracaqları günə (Qiyamət gününə) qədər bərzəx (aləmi) vardır".**[1]

Yuxarıdakı ayədən məlum olur ki, insanlar öldükdən, yəni bu dünya həyatını başa vurduqdan sonra başqa bir həyata malikdirlər və bu dünyaya geri qayıtmaları mümkünsüzdür.

**b)** Allah-Təala şəhidlər haqqında buyurur:

وَ لَا تَقُولُواْ لِمَن يُقْتَلُ فِى سَبِيلِ اللَّهِ أَمْوَاتٌ بَلْ أَحْيَاءٌ وَ لَاكِن لَّا تَشْعُرُونَ.

**"Allah yolunda öldürülənlərə (şəhid olanlara) "ölü" deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz!"**[2]

Başqa bir ayədə Allah yolunda şəhid olanların həyatından söz açılır:

فَرِحِينَ بِمَا ءَاتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ وَ يَسْتَبْشِرُونَ بِالَّذِينَ لَمْ يَلْحَقُواْ بِهِم مِّنْ

[1] Muminun surəsi, 100-ci ayə.
[2] Bəqərə surəsi, 154-cü ayə.

خَلْفِهِمْ أَلَّا خَوْفٌ عَلَيْهِمْ وَ لَا هُمْ يَحْزَنُونَ.

**"Onlar Allahın Öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ onlara çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərə müjdə verirlər ki, (axirətdə) heç bir qorxuları olmayacaq və onlar qəm-qüssə görməyəcəklər".[1]**

Yəni onların axirət əzabına düçar olmaq kimi qorxu və nigarançılıqları olmayacaq, dünyada yerinə yetirdikləri əməllərə, xüsusilə də, canlarını Allah yolunda fəda etdiklərinə görə qəm-qüssə və peşmançılıq çəkməyəcəklər.

**c)** Günahkarlar, xüsusilə də, Ali-Firon barədə Allah-Təala xəbər verir ki, hələ Qiyamət günündən öncə onlar hər sübh və axşam atəşə atılacaqlar. Qiyamətdə isə ən şiddətli əzaba düçar olacaqlar. Rəbbimiz buyurur:

النَّارُ يُعْرَضُونَ عَلَيْهَا غُدُوًّا وَ عَشِيًّا وَ يَوْمَ تَقُومُ السَّاعَةُ أَدْخِلُواْ ءَالَ فِرْعَوْنَ أَشَدَّ الْعَذَابِ.

**"Onlar (ölən gündən Qiyamətə qədər) səhər-axşam odda yandırılarlar. Qiyamət qopduğu gün isə (deyiləcəkdir): "Ali-Fironu ən şiddətli əzaba daxil edin!"[2]**

## Yüz səkkizinci bəhs

İnsanın bərzəx həyatının ilk mərhələsi, onun ruhunun bədənindən ayrılması ilə başlanır. Bir çox hədislərə istinadən, insan dəfn edildikdən sonra mələklər ondan tövhid, nübüvvət, ümumiyyətlə əqidə və dini hökmlərlə bağlı bir sıra suallar soruşacaqlar. Aydındır ki, mömin bir şəxsin bu suallara verdiyi cavab kafirinkindən fərqli olacaqdır. Nəticədə də qəbir və

[1] Ali-İmran surəsi, 170-ci ayə.
[2] Mumin surəsi, 46-cı ayə.

bərzəx həyatı mömin şəxs üçün ilahi mərhəmət məkanı, kafir və münafiqlər üçünsə ilahi əzab məkanı olacaqdır.

Qəbir evində mələklərin sorğu-sual aparacağı, beləliklə də, möminlərin mərhəmət, kafirlərin isə əzab görəcəyi inancı dinimizin danılmaz inanclarındandır. Qəbir evi isə əslində, Qiyamət gününədək davam edəcək Bərzəx həyatının başlanğıc mərhələsidir.

Şiə alimləri dini əqidələrə dair əsərlərində bu barədə geniş bəhs etmişlər. Şeyx Səduq "Etiqadlar" (əl-Etiqadat) əsərində deyir: "Qəbir sorğu-sualı barədə etiqadımız budur ki, bu, bir həqiqətdir; həmin suallara düzgün cavab verənlər Allahın mərhəmətinə qovuşar. Səhv cavab verənlər isə, Onun əzabına düçar olarlar".[1]

Şeyx Mufid "Təshihul-etiqad" kitabında yazır: "Peyğəmbərdən nəql olunan səhih hədislərdə buyurulur ki, qəbirdə insan öz dini barədə sorğu-suala çəkiləcəkdir. Bəzi rəvayətlərdə qeyd edilir ki, bu işə iki mələk məmur edilmişdir, onlardan birinin adı Nakir, digərinin isə Nəkirdir".

Sonra əlavə edir: "Qəbir sorğu-sualı buna dəlalət edir ki, ölülər qəbirdə dirilir və onların həyatı Qiyamətədək davam edir".[2]

Xacə Nəsirəddin Tusi də "Təcridul-etiqad" əsərində yazır: "Qəbir əzabı, şübhəsiz ki, olacaqdır. Çünki bu, əqli baxımdan da mümkün bir işdir. Buna dair mütəvatir hədislər də nəql edilmişdir".[3]

Digər müsəlman məzhəblərinin dini əqidələr mövzusundakı kitablarına müraciət etdikdə aydın olur ki, bütün müsəlmanlar qəbir sorğu-sualını və qəbir əzabını qəbul edirlər. Təkcə Zirar ibn Əmrin qəbir əzabını inkar etdiyi qeyd edilmişdir.[4]

---

[1] əl-Etiqadat, Şeyx Səduq, 17-ci fəsil, səh.37.
[2] Təshihul-etiqad, Şeyx Mufid, səh.45-46.
[3] Kəşful-murad, məqsəd: 6, 14-cü məsələ.
[4] Əhməd ibn Hənbəlin "əs-Sünnə", Əbül-Həsən Əşərinin "əl-Əbanə", Qazi Əbdül-

## Yüz doqquzuncu bəhs

Məad fəslinin bəhslərindən aydın oldu ki, insan öldükdən və ruhu bədənindən ayrıldıqdan sonra Qiyamət gününədək Bərzəx aləmində qalacaq. Qiyamət günü isə insanın dünyadakı bədəni bərpa olunacaq və ruh yenidən bədənə daxil ediləcəkdir, sonra insan dünyada gördüyü işlərin əvəzini əbədi aləmdə alacaqdır.

Hinduizm kimi bəzi dinlər səmavi dinlərin söz açdığı məadı və axirət həyatını inkar edirlər, lakin onlar insanın bu dünyada gördüyü işlərin mükafat və cəzasını qəbul edir və bunun "tənasüx"[1] yolu ilə həyata keçdiyinə inanırlar. Onlar iddia edirlər ki, ruh ana bətnindəki körpəyə keçərək onun doğulması ilə yenidən bu dünyaya qayıdır və bir daha uşaqlıq, gənclik və qocalıq dövrlərini yaşayır. Amma əvvəlki həyatlarında saleh əməl sahibi olmuş insanlar xoş və rahat, günahkar olmuş insanlar isə acı həyat sürürlər. Tarix boyu tənasüx inancına etiqad bəsləyənlər olmuşdur və bu əqidə indi də hinduizmin etiqad prinsiplərindən biri sayılır.

Qeyd etmək lazımdır ki, tənasüxü qəbul edənlər, əslində, məadı öz düzgün mənasında dərk etməmişlər. İslam dininə görə tənasüxə etiqad bəsləmək küfrdür. Bizim əqidə kitablarımızda onun yanlış və əsassız olması, İslam əqidəsilə uzlaşmaması barədə müfəssəl şəkildə bəhs edilmişdir. Biz burada bu məsələni qısa şəkildə açıqlayırıq:

1. İnsanın ruhu ölümün yetişməsilə öz kamilliyinin yeni bir mərhələsinə qədəm qoyur. Ruhla bədən arasında həmahəngliyin qorunması zəruriliyini nəzərə alaraq, ruhun yenidən ana bətnindəki körpəyə daxil olması onun kamillikdən naqisliyə tənəzzül etməsi deməkdir. Bu isə yaradılış aləminə

Cabbar Mötəzilinin "Şərhi-usuli xəmsə" əsərlərinə müraciət etmək olar.

[1] Ruhun bir bədəndən çıxıb başqa bir bədənə daxil olması. Müt.

hakim olan qanuna -mövcudatın təkamül yolunu qət etməsinə ziddir.[1]

2. Tənasüxə etiqad bəsləmək yaradılış aləminə hakim qanuna zidd olmaqla yanaşı, zülmkarlar və şəxsi mənafeyini güdənlər üçün bir bəhanəyə çevrilə bilər. Belə ki, onlar hal-hazırda sahib olduqları xoş güzəran və rifahlarını qabaqkı pak həyatlarının, məzlumların bədbəxtliyini isə qabaqkı çirkin həyatlarının nəticəsi kimi qələmə verə bilərlər. Bu yolla da öz çirkin işlərinə və zülmkarlıqlarına haqq qazandıra bilərlər.

3. Qurani-Kərim Qiyamət gününədək insanın iki ölüm və iki həyata malik olduğunu bildirir:

كَيْفَ تَكْفُرُونَ بِاللَّهِ وَ كُنتُمْ أَمْوَاتًا فَأَحْيَاكُمْ ثُمَّ يُمِيتُكُمْ ثُمَّ يُحْيِيكُمْ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ.

**“Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi. O sizi (əcəliniz gəldikdə) yenə öldürəcək, sonra (qiyamətdə) yenə də dirildəcək və daha sonra siz (əməllərinizin haqq-hesabını çəkmək üçün) Ona tərəf (Onun hüzuruna) qaytarılacaqsınız”.[2]**

Yuxarıdakı ayə tənasüxün əsassız iddia olduğunu göstərməkdədir. Belə ki, tənasüx inancına əsasən, insan öldükdən sonra yenidən bu dünya həyatına qayıdır, başqa sözlə, insanın ruhu bədəndən ayrıldıqdan sonra yeni bir bədənə daxil olur və bu qayıdış dəfələrlə təkrarlanır. Sözügedən ayəyə istinadən isə insan öldükdən sonra yalnız bir dəfə və o da Qiyamət günü diriləcəkdir, nəinki dunya həyatına dönəcəkdir.

---

[1] Diqqət yetirmək lazımdır ki, insanın ruhu Qiyamətdə kamil bir bədənə dönəcəkdir və bu fikrin ruhun ana bətnində inkişafda olan körpəyə daxil olması fikrilə fərqi açıq görünür.

[2] Ali-İmran surəsi, 28-ci ayə.

## Yüz onuncu bəhs

Tənasüx haqqında bəhsimizin sonunda qarşıya çıxan iki suala cavab verməyi də zəruri hesab edirik:

***Birinci sual:*** Qurani-Kərimə istinadən keçmiş ümmətlərdə "məsx"lər[1] baş vermiş və bəzi insanlar dönüb donuz və meymuna çevrilmişlər. Allah-Təala bu haqda buyurur:

قُلْ هَلْ أُنَبِّئُكُم بِشَرٍ مِّن ذَالِكَ مَثُوبَةً عِنْدَ اللَّهِ مَن لَّعَنَهُ اللَّهُ وَ غَضِبَ عَلَيْهِ وَ جَعَلَ مِنْهُمُ الْقِرَدَةَ وَ الْخَنَازِيرَ وَ عَبَدَ الطَّاغُوتَ أُوْلئِكَ شَرٌّ مَّكَانًا وَ أَضَلُّ عَن سَوَاءِ السَّبِيلِ.

**"De ki: "Allah yanında cəza etibarilə bundan (dediklərinizdən) daha pisini sizə xəbər verimmi? Allahın lənətlədiyi və qəzəb etdiyi, onlardan meymunlara, donuzlara və şeytanlara ibadət edənlərə döndərdiyi şəxslər mövqecə daha pis və doğru yoldan daha çox azanlardır!"[2]**

Bəs əgər tənasüx qeyri-mümkündürsə, onda bu məsxlər necə baş vermişdir?

***Cavab:*** Məsx ilə tənasüx köklü şəkildə bir-birindən fərqlənir. Belə ki, tənasüx, ruhun bir bədəndən ayrılıb başqa bir bədənə keçməsidir. Lakin məsxdə ruh bədəndən ayrılmır, burada günahkar insanın bədənin forması dəyişilir və o özünü donuz və meymun şəklində görüb bundan əzab çəkir. Başqa sözlə, günahkar insanın ruhu insanlıq ruhundan heyvanlıq ruhuna tənəzzül etmir. Çünki əgər belə olsaydı, onda məsx edilmiş insanlar öz cəzalarını dərk etməz və bundan əzab çəkməzdilər. Halbuki, Quran məsxi günahkarların cəzası və başqaları üçün ibrət dərsi kimi tanıtdırır.[3]

---

[1] Bir şeyin öz formasını dəyişib başqa bir formaya düşməsi -

[2] Maidə surəsi, 60-cı ayə. Həmçinin Əraf surəsinin 166-cı ayəsinə müraciət oluna bilər.

[3] "Biz bunu onlarla bir dövrdə yaşayanlar və sonradan gələnlər üçün ibrət və müttəqilərdən ötrü nəsihət olsun deyə etdik". Bəqərə surəsi, 66-cı ayə.

Müsəlman mütəkəllimlərindən olan alim Təftazani bu məsələyə toxunaraq deyir: "Tənasüx, insanın ruhunun bədəndən ayrıldıqdan sonra elə bu dünyadaca digər bədənlərdə fəaliyyət göstərməsindən ötrü onlara keçməsidir. Bu, məsxdə olduğu kimi, bədənin formasının dəyişilməsi deyildir".[1]

Əllamə Təbatəbai isə bu barədə deyir: "Məsx olunmuş insanlar, insani ruhları qorunaraq xarici formaları dəyişilən insanlardır. Bu, onların insani ruhlarının da məsx olub meymun ruhuna çevrilməsi anlamında deyildir".[2]

***İkinci sual:*** Bəzi müəlliflər "rəcət" inancının tənasüxdən qaynaqlandığını zənn etmişlər.[3]

***Cavab:*** İrəlidə gələn bəhslərdə "rəcət" barədə söz açacağıq və burada yalnız bunu nəzərinizə çatdırırıq ki, şiə alimlərinin əksəriyyətinin nəzərinə görə "rəcət", iman və küfr əhli olan insanlardan bir qisminin axirəz-zamanda yenidən dirilib bu dünyaya qayıtmasıdır. Bu eynilə, İsa peyğəmbərin (ə) vasitəsilə ölülərin dirilməsi[4] və ya yüz ildən sonra Üzeyir peyğəmbərin (ə) dirilməsinə[5] bənzəyir. Bu səbəbdən də rəcətə inancın tənasüx məsələsilə heç bir əlaqəsi yoxdur.

## Yüz on birinci bəhs

Dinşünas alimlər Qurana əsaslanaraq Qiyamətin əlamətlərindən bəhs etmişlər. Qiyamətin əlamətləri 2 qismə bölünür:

1) Qiyamət qopmamışdan və yaradılış aləminin nizam-intizamı bir-birinə dəyməmişdən öncə baş verəcək bir sıra hadisələr: belə ki, bu zaman insanlar yer üzündə hələ yaşayacaqlar. Qiyamətin əlamətləri dedikdə, əksər hallarda məhz bu əlamətlər nəzərdə tutulur;

---

[1] Şərh-i məqasid, Təftazani, c.3, səh.337.
[2] əl-Mizan, Təbatəbai, c.1, səh.209.
[3] Fəcrul-İslam, Əhməd Əmin Misri, səh.377.
[4] Ali-İmran surəsi, 49-cu ayə.
[5] Bəqərə surəsi, 259-cu ayə.

2) Qiyamət qopduğu və yaradılış aləminin nizam-intizamı bir-birinə dəydiyi zaman baş verəcək bir sıra hadisələr: bu hadisələr barədə Təkvir, İnfitar, İnşiqaq və Zəlzələ surələrində söz açılmışdır.

Birinci qismə aid əlamətlər əsasən aşağıdakılardan ibarətdir:

1. Sonuncu peyğəmbərin gəlişi (Məhəmməd surəsi, 18-ci ayə);

2. Yəcuc və Məcuc səddinin dağılması (Kəhf surəsi, 98-99-cu ayələr);

3. Səmanın üzünü qatı tüstü tutması (Duxan surəsi, 10-16-cı ayələr);

4. Həzrət İsa peyğəmbərin yerə enməsi (Zuxruf surəsi, 57-61-ci ayələr);

5. Yerdən bir heyvanın çıxması (Nəml surəsi, 82-ci ayə).

Bu əlamətlərin müfəssəl izahı ilə maraqlananlar təfsir və hədis kitablarına müraciət edə bilərlər.

İkinci qismə aid əlamətlər haqda isə Quran təfsilatilə söz açmışdır: Günəş, Ay, dənizlər, dağlar, Yer və göy dağılacaqdır. Bir sözlə, kainatda mövcud olan nizam-intizam bir-birinə dəyəcək və Allahın mütləq qüdrətini təcəlli etdirən yeni bir nizam-intizam bərqərar olacaqdır. Allah-Təala buyurur:

يَوْمَ تُبَدَّلُ الْأَرْضُ غَيْرَ الْأَرْضِ وَ السَّمَاوَاتُ وَ بَرَزُواْ لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ.

**“(Qiyamət günü) elə bir gündür ki, Yer (kürəsi) başqa bir yerlə, göylər də başqa göylərlə əvəz olunacaq və bütün insanlar hər şeyə qalib olan tək Allahın hüzurunda duracaqlar!”[1]**

[1] İbrahim surəsi, 48-ci ayə.

## Yüz on ikinci bəhs

Qurani-Kərim Qiyamət qabağı iki dəfə “sur çalınacağı”nı xəbər verir:

**a)** Birinci dəfə sur çalınacaq və yerdə və göydə olan bütün canlılar (Allahın istədiyi şəxslərdən başqa) öləcəklər.

**b)** İkinci dəfə sur çalınacaq və ölülər dirilib Allahın hüzuruna gətiriləcəklər.[1]

Rəbbimiz buyurur:

وَ نُفِخَ فِى الصُّورِ فَصَعِقَ مَنْ فِى السَّمَاوَاتِ وَ مَنْ فِى الْأَرْضِ إِلَّا مَنْ شَاءَ اللَّهُ ثُمَّ نُفِخَ فِيهِ أُخْرَى فَإِذَا هُمْ قِيَامٌ يَنظُرُونَ.

**“Sur (birinci dəfə) çalınacaq, Allahın istədiyi kimsələrdən başqa dərhal hamı öləcək. Sonra bir daha çalınan kimi onlar qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar!”[2]**

Qurani-Kərim Qiyamət günü insanların məhşərə gətirilməsini belə təsvir edir:

خُشَّعًا أَبْصَارُهُمْ يَخْرُجُونَ مِنَ الْأَجْدَاثِ كَأَنَّهُمْ جَرَادٌ مُنْتَشِرٌ.

**“Onlar (o gün) gözlərini zəlilanə aşağı dikib səpələnmiş çəyirtkələr kimi qəbirlərindən çıxacaqlar”.[3]**

## Yüz on üçüncü bəhs

Quran və hədislər xəbər verir ki, ölülər dirilib Qiyamət səhnəsinə daxil olduqdan sonra hələ Cənnət və ya Cəhənnəmə getməzdən öncə bəzi hadisələr baş verəcəkdir:

---

[1] Yasin surəsinin 51-ci ayəsində buyurulur: “Sur (ikinci dəfə) çalınan kimi qəbirlərdən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar”. Bu surənin 53-cü ayəsində isə buyurulur: “Yalnız bir dəhşətli səs qopan kimi onlar hamısı (haqq-hesab üçün) qarşımızda hazır duracaqlar”. Bu ayələrdən məlum olur ki, ikinci dəfə çalınan sur bir fəryad olacaqdır.

[2] Zumər surəsi, 68-ci ayə.

[3] Qəmər surəsi, 7-ci ayə.

1. İnsanlar bu dünyada etdiyi əməllərə görə müəyyən üsullarla sorğu-suala çəkiləcəklər. Bu üsullardan biri onların əməl dəftərlərinin öz əllərinə verilməsidir (bax: İsra surəsi, 13-14-cü ayələr).

2. Əməl dəftərində insanın etdiyi böyüklü-kiçikli bütün əməllər qeyd olunmaqla yanaşı, Qiyamət günü həm insanın vücudunda olan, həm də kənardan olan şahidlər onun bu dünyada etdiyi əməllərə şahidlik edəcəklər.

Kənardan olan şahidlər bunlardır: Allah[1], hər ümmətin öz peyğəmbəri[2], İslam peyğəmbəri [3], müsəlman ümmətinin seçilmişlər[4], ilahi mələklər[5] və Yer[6].

İnsanın vücudunda olan şahidlər isə bunlardır: insanın bədən üzvləri[7] və əməllərin "təcəssüm"ü[8].

3. Əməllərin haqq-hesabı üçün yuxarıda deyilənlərdən əlavə, ədalət mizanı (tərəzisi) qurulacaq və hər kəs dəqiqliklə öz haqqını alacaqdır. Rəbbimiz buyurur:

وَ نَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَ إِنْ كَانَ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَ كَفَى بِنَا حَاسِبِينَ.

**"Biz Qiyamət günü üçün ədalət tərəzisi qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz. Bir xardal dənəsi ağırlığında olsa belə, hər hansı bir əməli nəzərə alarıq. Haqq-hesab çəkməyə Biz kifayətik".[9]**

---

[1] Ali-İmran surəsi, 97-ci ayə.
[2] Nəhl surəsi, 89-cu ayə.
[3] Nisa surəsi, 41-ci ayə.
[4] Bəqərə surəsi, 143-cü ayə.
[5] Qaf surəsi, 18-ci ayə.
[6] Zəlzələ surəsi, 4-5-ci ayələr.
[7] Nur surəsi, 24-cü ayə; Fussilət surəsi, 20-21-ci ayələr.
[8] Tövbə surəsi, 34-35-ci ayələr.
[9] Ənbiya surəsi, 47-ci ayə.

4. Hədislərdən məlum olur ki, Qiyamət günü hamının keçəcəyi ümumi bir keçid olacaqdır. Bu keçid hədislərdə “Sirat” adlanıb. Təfsirçilər Məryəm surəsinin 71-72-ci ayələrinin bu mövzu ilə bağlı olduğunu söyləyirlər.[1]

5. Cənnətliklər ilə cəhənnəmliklər arasında Quranın “hicab” adlandırdığı bir sədd vardır. Həmçinin, Qiyamət günü uca məqam sahibi olan insanlar yüksək bir nöqtədə duracaqlar ki, cənnətlikləri və cəhənnəmlikləri simalarından tanıyacaqlar. Allah-Təala buyurur:

وَ بَيْنَهُمَا حِجَابٌ وَ عَلَى الْأَعْرَافِ رِجَالٌ يَعْرِفُونَ كُلًّا بِسِيمَاهُمْ.

**“Onların arasında bir hicab (pərdə, sədd) vardır və Əraf (məhşərdəki yüksəkliklər) üzərində isə insanlar qərar tutar ki, onlar hamını (cənnətlikləri və cəhənnəmlikləri) üzlərindən tanıyarlar…”[2]**

Bu insanlar, hədislərə əsasən, peyğəmbərlər və onların şərafətli vəsiləri olacaqlar.

6. Haqq-hesab sona çatdıqdan və insanların tale və aqibətləri bəlli olduqdan sonra aləmləri yaradan Allah “Livaəlhəmd” (həmd bayrağı) adlı bayrağı sevimli Peyğəmbərimizə (s) verəcək və o həzrət cənnətliklərin önündə Cənnətə doğru hərəkət edəcəkdir.[3]

7. Bir çox rəvayətlərdə məhşər səhrasında “Kövsər” adlanan böyük bir hovuzun olacağından xəbər verilir. Həzrət

[1] “Sizdən elə bir kəs olmaz ki, Cəhənnəmə varid olmasın. Bu, Rəbbinin buyurduğu vacib bir hökmdür. (Bütün insanlar Cəhənnəmin müdhiş mənzərəsini onun körpüsü üstündən keçərkən görəcəklər. Cənnətliklər cəhənnəm odunun içindən yanmadan, sağ-salamat keçəcək, cəhənnəmliklər isə ora düşüb əbədi əzaba məhkum olacaqlar. Bir qisim insan da müəyyən müddət orada qalıb günahı təmizlənəcək, sonra Cənnətə qayıdacaqdır). Sonra biz Allahdan qorxub pis əməllərdən çəkinənlərə nicat verəcək, zalimləri isə orada diz üstə çökmüş halda saxlayacağıq”. Məryəm surəsi, 71-72-ci ayələr.

[2] Əraf surəsi, 46-cı ayə.

[3] Biharul-ənvar, c.8, 18-ci fəsil, 1-12-ci hədislər; Musnəd-i Əhməd, c.1, səh.281 və 295, c.3, səh.144.

Peyğəmbər (s) hamıdan qabaq bu hovuzun kənarına gələcək və ümmətin əməlisaleh insanları Həzrət Peyğəmbər (s) və Əhli-beytin (ə) vasitəçiliyi ilə onun suyundan içəcəklər.

## Yüz on dördüncü bəhs

Dinin danılmaz əqidələrindən biri də "şəfaət"dir, belə ki, Qiyamət günü şəfaət sahibləri Allahın iznilə şəfaət edəcəklər. Şəfaət o kəslərə ediləcək ki, onlar bəzi günahlara bulaşsalar da, din və Allahla olan bağlarını bütövlükdə qırmamış və şəfaət sahiblərinin şəfaəti sayəsində bir daha Allahın mərhəmətinə qovuşa bilərlər. Şəfaət inancı Quran və sünnədən qaynaqlanır.

***a) Quranda şəfaət:***

Qurani-Kərim Qiyamət günündə şəfaət sahiblərinin şəfaət edəcəyindən xəbər verir və vurğulayır ki, Allahın izni və razılığı şəfaətin şərtidir:

...وَ لَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضى...

**"... Onlar yalnız Allahın razı olduğu (izn verdiyi) kəslərdən ötrü şəfaət edə bilər..."**[1]

Başqa bir ayədə buyurulur:

...مَا مِن شَفِيعٍ إِلَّا مِن بَعْدِ إِذْنِهِ...

**"Onun (Allahın) izni olmadan heç bir şəfaət edən ola bilməz".**[2]

Ayələrdən göründüyü kimi, şəfaət məsələsi - əlbəttə, Allahın izni və razılığı ilə - Quranın baxışında danılmaz bir həqiqətdir.

Bəs görəsən şəfaət sahibləri, yəni şəfaət edənlər kimlər olacaqlar?

Bəzi ayələrdən məlum olur ki, mələklər şəfaət edəcəklər:

---

[1] Ənbiya surəsi, 28-ci ayə.
[2] Yunus surəsi, 3-cü ayə.

وَ كَم مِّن مَّلَكٍ فِى السَّمَاوَاتِ لَا تُغْنِى شَفَاعَتُهُمْ شَيْئًا إِلَّا مِنْ بَعْدِ أَنْ يَأْذَنَ اللَّهُ لِمَنْ يَشَاءُ وَ يَرْضَى.

**"Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti Allahın izni olmadan öncə, Onun istədiyi və razı olduğu kimsəyə heç bir fayda verməz".[1]**

Təfsirçilər İsra surəsinin 79-cu ayəsinin – (Ya Rəsulum!) Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl ki, Rəbbin səni "bəyənilib təriflənən bir məqama" (axirətdəki ən böyük şəfaət məqamına) seçsin - təfsirində qeyd edirlər ki, "bəyənilib təriflənən məqam" Həzrət Peyğəmbərin (s) şəfaət məqamıdır.[2]

***b) Hədislərdə şəfaət:***

Qurandan əlavə hədis kitablarında da şəfaət barədə Həzrət Peyğəmbərin (s) buyurduğu çox sayda hədislər nəql edilmişdir. Biz burada onlardan bir neçəsini qeyd edirik:

1. Həzrət Peyğəmbər (s) buyurur:

إِنَّمَا شَفَاعَتِى لِأَهْلِ الْكَبَائِرِ مِنْ أُمَّتِى.

"Mənim şəfaətim ümmətimin kəbirə (böyük) günahlara düçar olanları üçündür".[3]

Şəfaətin böyük günahlar etmiş müsəlmanlara şamil olmasının səbəbi budur ki, Allah Quranda böyük günahlardan çəkinənləri bağışlayacağını açıq-aydın şəkildə vəd etmişdir (bax: Nisa surəsi, 31-ci ayə) və belə olduğu təqdirdə, artıq şəfaət və bu kimi amillərə heç bir ehtiyac qalmır.

2. Həmçinin Həzrət Peyğəmbər (s) buyurmuşdur:

أُعْطِيتُ خَمْسًا وَ أُعْطِيتُ الشَّفَاعَةَ، فَادَّخَرْتُهَا لِأُمَّتِى فَهِىَ لِمَنْ لَا يُشْرِك بِاللّٰهِ.

[1] Nəcm surəsi, 26-cı ayə.
[2] əl-Mizan, c.13, səh.191-192; Məcməul-bəyan, c.10, səh.549.
[3] Şeyx Səduq, "Mən la yəhzuruhul-fəqih", c.3, səh.376.

“Mənə beş şey əta edilmişdir və (o cümlədən) şəfaət əta edilmişdir. Mən onu ümmətim üçün ehtiyat saxlayıram. Mənim şəfaətim Allaha şərik qoşmayanlar üçün olacaq”.[1]

Qiyamət günü Həzrət Peyğəmbərdən (s) başqa kimlərin şəfaət edəcəyi (Məsum İmamlar (ə), alimlər və şəhidlər kimi) və kimlərə şəfaət ediləcəyi barədə maraqlananlar ətraflı məlumat əldə etmək üçün əqidə, kəlam və hədis mövzusunda qələmə alınan əsərlərə müraciət edə bilərlər.

Bir məsələyə də diqqət yetirmək lazımdır ki, şəfaətə etiqad bəsləmək - eynilə tövbənin qəbul olunmasına etiqad bəsləmək kimi - insanları günah etməyə sövq etməməlidir. Əksinə, gərək onu günahların bağışlanması üçün bir ümid qapısı bilib doğru yola qayıdaq və artıq heç bir ümidin olmadığını zənn edərək bir daha doğru yola gəlmək barədə düşünməyən ümüdsüz və məyus kəslər kimi olmayaq.

Bura qədər bəyan etdiklərimizdən aydın oldu ki, şəfaət nəticəsində bəzi günahlar, xüsusilə böyük günahlar bağışlanacaqdır. Bu əsasla, bəzi müsəlman firqələrinin (mötəzilə və s.) söylədikləri “Şəfaətlə yalnız və yalnız şəfaət olunanların dərəcələri artır” fikri məqbul deyildir.[2]

## Yüz on beşinci bəhs

Qeyd etdik ki, şəfaət inancı İslamın danılmaz inanclarından biridir. Amma görəsən şəfaət sahiblərindən, o cümlədən Peyğəmbərdən (ə) bu dünyada da şəfaət istəmək olarmı? Başqa sözlə, “Ya Peyğəmbər, Allah yanında mənim üçün şəfaət et!”- demək düzgündürmü?

Sualın cavabında deməliyik ki, bu iş səkkizinci əsrədək (hicri-qəməri təqvimilə) bütün müsəlmanlar tərəfindən qəbul edilirdi. Yalnız səkkizinci əsrin (miladi təqvimilə XV əsrin)

[1] Xisal, Şeyx Səduq, “beş fəsildə”, Səhih Buxarinin hədisi, c.1, səh.42; Müsnəd-i Əhməd, c.1, səh.301.

[2] Əvailul-məqalat, Şeyx Mufid, səh.54 və başqa kəlam kitabları.

O gələcək...

ikinci yarısından bu yana bəziləri buna qarşı çıxmış və onu caiz saymamışlar. Lakin Quran ayələri, Həzrət Peyğəmbərdən (s) nəql edilən mötəbər hədislər və tarixi faktlar bunun caiz olduğunu göstərməkdədir. Çünki şəfaət sahiblərinin şəfaət etməsi, onların insan üçün "dua etməsi" anlamındadır. İnsanın mömin bir şəxsdən onun üçün dua etməsini istəmək isə, şübhəsiz ki, caiz və bəyənilən bir işdir.

İbn Abbas Həzrət Peyğəmbərdən (s) nəql edir:

مَا مِنْ رَجُلٍ مُسْلِمٍ يَمُوتُ فَيَقُومُ عَلَى جَنَازَتِهِ أَرْبَعُونَ رَجُلًا لَا يُشْرِكُونَ بِاللهِ شَيْئًا إِلَّا شَفَّعَهُمُ اللهُ فِيهِ.

"Əgər dünyasını dəyişmiş bir müsəlmanın cənazəsinə qırx müvəhhid (təkallahlı) mömin namaz qılarsa, Allah onların şəfaətini mərhum üçün qəbul edər".[1] Cənazə namazında qırx möminin mərhum üçün etdiyi şəfaət isə, mərhum üçün etdikləri duadan qeyri bir şey deyildir.

Tarixin səhifələrini vərəqlədikdə görürük ki, səhabələr Həzrət Peyğəmbərdən (s) şəfaət istəmişlər. Tirmizi Ənəs ibn Malikin belə dediyini nəql edir:

سَأَلْتُ النَّبِيَّ أَنْ يَشْفَعَ لِي يَوْمَ الْقِيَامَةِ، فَقَالَ أَنَا فَاعِلٌ، قُلْتُ فَأَيْنَ أَطْلُبُكَ؟ فَقَالَ عَلَى الصِّرَاطِ.

"Peyğəmbərdən (s) Qiyamət günü mənə şəfaət etməsini istədim. Allahın elçisi (s) buyurdu: "Elə də edəcəyəm". Ondan soruşdum: "Sizi harada görə bilərəm?" Buyurdu: "Siratın yanında".[2]

Nəzərə alaraq ki, şəfaət istəmək, elə dua istəməkdir, Quranda da belə nümunələrə rast gəlirik:

---

[1] Səhih Müslim, c.3, səh.54.
[2] Sünən-i Tirmizi, c.2, səh.42.

1. Yəqub peyğəmbərin (ə) övladları etdikləri bəd əməl ifşa olduqdan sonra atalarından istədilər ki, Allahdan onların günahlarının bağışlanmasını diləsin:

قَالُواْ يَاأَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ. قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّى إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ.

**"(Oğlanları Yəquba): "Ata! Bizim üçün günahlarımızın bağışlanmasını dilə. Biz, doğrudan da, günahkar olmuşuq!"-dedilər. Yəqub dedi: "Mən Rəbbimdən sizin bağışlanmağınızı diləyəcəyəm. O, həqiqətən, bağışlayan və rəhm edəndir!"""[1]**

Ayədən göründüyü kimi, Yəqub peyğəmbər (ə) də öz övladlarına Allahdan onların günahlarının bağışlanmasını diləyəcəyini vəd etdi və zamanı gəlincə, öz vədinə əməl etdi.

2. Rəbbimiz buyurur:

... وَ لَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُواْ اللَّهَ وَ اسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللَّهَ تَوَّابًا رَّحِيمًا.

**"…Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər".[2]**

Ayədən göründüyü kimi, əgər özünə zülm etmiş (günah işlətmiş) bir kəs Peyğəmbərin (s) yanına gəlib Allahdan onun üçün əfv diləməsini istəsə, özü Allahdan bağışlanma dilədiyi və Peyğəmbər də (s) onun üçün əfv dilədiyi təqdirdə, Allah-Təala onun tövbəsini qəbul edər və onu Öz mərhəmətinə qovuşdurar.

---

[1] Yusif surəsi, 97-98-ci ayələr.

[2] Nisa surəsi, 64-cü ayə.

3. Allah-Təala münafiqlər barədə buyurur:

وَ إِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ يَسْتَغْفِرْ لَكُمْ رَسُولُ اللَّهِ لَوَّوْاْ رُءُوسَهُمْ وَ رَأَيْتَهُمْ يَصُدُّونَ وَ هُم مُّسْتَكْبِرُونَ.

‘‘**Onlara: “Gəlin Allahın Peyğəmbəri (Rəbbinizdən) sizin bağışlanmanızı diləsin!”- deyildiyi zaman (istehza ilə) başlarını bulayar və sən (ya Peyğəmbər) onların təkəbbürlə üz çevirdiklərini görərsən”.**[1]

Məlum məsələdir ki, **“Gəlin Allahın Peyğəmbəri (Rəbbinizdən) sizin bağışlanmanızı diləsin!”-** deyildiyi zaman istehza ilə baş bulayıb o həzrətə müraciətdən boyun qaçırmaq münafiqlik və təkəbbürlük əlamətidirsə, onda bu iş üçün Peyğəmbərə (s) müraciət etmək iman və Allah dərgahında mütilik əlaməti olacaqdır.

Bu bəhsdə bizim sübuta yetirmək istədiyimiz məsələ ondan ibarətdir ki, “şəfaət istəmək” caiz və şəriətə müvafiq bir işdir. Odur ki, “Bu ayələrə istinadən şəfaət edən şəxs diri olmalıdır”- deyə iddia qaldıranların iddiası yenə də bizim sübuta yetirmək istədiyimiz məsələyə xələl gətirməyəcək. Çünki əgər diri şəxsdən şəfaət istəmək şirk (Allaha şərik qoşmaq) deyilsə, onu ölüdən istəmək də şirk olmayacaq. Müqəddəs ruhlardan şəfaət istəyən zaman zəruri olan yeganə şey, onların bizi eşitməsidir və biz təvəssül haqqında edəcəyimiz bəhslərdə onların bizi eşitdiyini sübuta yetirəcəyik.

Burada bir məsələyə də diqqət yetirmək lazımdır ki, mömin və müvəhhidlərin peyğəmbərlərdən və ilahi övliyalardan şəfaət istəməsi bütpərəstlərin öz bütlərindən şəfaət istəməsindən köklü şəkildə fərqlənir. Belə ki, müvəhhidlər iki mühüm məsələni əsas tutaraq ilahi övliyalardan şəfaət istəyirlər:

1. Şəfaət məqamı Allaha məxsusdur və Onun ixtiyarındadır. Rəbbimiz buyurur:

---

[1] Munafiqun surəsi, 5-ci ayə.

قُلْ لِلَّهِ الشَّفَاعَةُ جَمِيعًا...

**“Şəfaət bütünlüklə Allaha məxsusdur…”**[1]

Həmçinin buyurur:

... مَنْ ذَا الَّذِى يَشْفَعُ عِندَهُ إِلَّا بِإِذْنِهِ...

**“Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər?”**[2]

2. Şəfaət etmək izni olan şəxslər Allahın pak, müxlis bəndələridir və Allah dərgahına yaxın olduqları üçün onların duaları qəbul olunur.

Bu iki mühüm məsələni nəzərə alaraq, şəfaət məsələsində müvəhhidlərlə Peyğəmbər (s) dövrünün müşrikləri arasındakı köklü fərq aydın olur. Beləliklə:

1. Müşriklərə görə Allah şəfaət haqqını kor və kar olan bütlərə həvalə etmişdir və bütlər müstəqil olaraq şəfaət edirlər! Halbuki, müvəhhidlər bu əqidədədirlər ki, şəfaət məqamı Allaha məxsusdur və şəfaət etmək izni olan kəslərin şəfaətinin qəbul olunması da Allahın razılığına bağlıdır.

2. Peyğəmbər (s) dövrünün müşrikləri öz əldəqayırma məbudlarını (bütləri) “rəbb” və “ilah” sayır, nadanlıqları ucbatından belə hesab edirdilər ki, bu cansız əşyalar Tanrı ilə bərabər varlıq aləminin rəbləri və ilahlarıdır. Lakin müvəhhidlər peyğəmbərləri və övliyaları Allahın saleh bəndələri bilir və daima onları “Allahın qulu və peyğəmbəri”, “Allahın saleh bəndələri” kimi ifadələrlə yad edirlər.

Görün bu ikisi arasında nə qədər fərq var?!

Buna görə də, müşriklərin bütlərdən şəfaət istəməsini məzəmmət edən ayələri İslamda məqbul olan şəfaətin inkar və təkzibi üçün dəlil gətirmək son dərəcə yanlış bir işdir.

---

[1] Zumər surəsi, 44-cü ayə.
[2] Bəqərə surəsi, 255-ci ayə.

## Yüz on altıncı bəhs

İslamın, eləcə də bütün səmavi dinlərin təlimlərindən biri də budur ki, tövbə qapısı günahkarların üzünə hər zaman açıqdır. Belə ki, əgər günah işlətmiş bir şəxs tutduğu çirkin işdən həqiqətən peşman olub bir daha bu işi görməyəcəyini qərara alarsa və səmimi qəlbdən Allah yoluna qayıdarsa, mehriban Allah da onun tövbəsini - təfsir və kəlam kitablarında bəyan edilən şərtlərlə - qəbul edər. Allah-Təala buyurur:

... وَ تُوبُواْ إِلَى اللَّهِ جَمِيعًا أَيُّهَا الْمُؤْمِنُونَ لَعَلَّكُمْ تُفْلِحُونَ.

**“Ey möminlər! Hamınız Allaha tövbə edin ki, bəlkə, nicat tapasınız”.**[1]

Tövbə və şəfaətə etiqadın tərbiyəvi təsirlərindən xəbərsiz olanlar belə təsəvvür edirlər ki, bu iki qapının günahkarların üzünə açıq olması bir növ onları günah işlərə təşviq etməkdir. Lakin onlar bu məsələdən qafildirlər ki, insanların böyük əksəriyyəti hansısa günahları işlətmişlər və çox az adam tapmaq mümkündür ki, ömrü boyu günah girdabına bulaşmamış olsun. Buna görə də, əgər tövbə (və şəfaət) qapısı insanların üzünə bağlı olarsa, ömürlərinin yerdə qalan hissəsində günahlardan uzaqlaşıb paklıq və saflıq yolunu tutmaq istəyənlər öz-özlərinə belə deyəcəklər: “Əvvəl-axır biz etdiyimiz günahlara görə cəzalanmalı və Cəhənnəmə atılmalıyıq. Onda nə üçün ömrümüzün qalan hissəsində də öz nəfsani istəklərimizi ödəməyək və qadağan olunan ləzzətlərdən biz də həzz almayaq?!” Beləcə, tövbə qapısının bağlı olması Allahın mərhəmətinə olan ümidləri kəsir, məyusluq girdabı ağzını açaraq insanları udur.

Tövbənin tərbiyəvi təsirləri və müsbət nəticələri tövbənin qəbul olunması şərtlərini nəzərə aldıqda tam aydın olur.

Rəbbimiz tövbə haqqında aydın bir şəkildə buyurur:

1 Nur surəsi, 31-ci ayə.

...كَتَبَ رَبُّكُمْ عَلَى نَفْسِهِ الرَّحْمَةَ أَنَّهُ مَنْ عَمِلَ مِنكُمْ سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِن بَعْدِهِ وَ أَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَّحِيمٌ.

**"Rəbbiniz Özünə rəhmli olmağı yazmışdır ki, sizlərdən hər kəs nadanlıq üzündən pis iş görsə, sonra da tövbə edib düzəlsə, (Allah onun günahından keçər.) Şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir!"[1]**

## Yüz on yeddinci bəhs

Əqli və nəqli dəlillərə istinadən hər bir insan bu dünyada yerinə yetirdiyi yaxşı əməllərin əvəzini axirətdə alacaqdır. Allah-Təala buyurur:

فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْرًا يَرَهُ.

**"Kim (bu dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini görəcəkdir (mükafatını alacaqdır)".[2]**

Həmçinin buyurur:

وَ أَنَّ سَعْيَهُ سَوْفَ يُرَى. ثُمَّ يُجْزَاهُ الْجَزَاءَ الْأَوْفَى.

**"Şübhəsiz ki, (Qiyamət günü) onun əməli, zəhməti görünəcəkdir! Sonra da ona əməlinin tam əvəzi veriləcəkdir!"[3]**

Yuxarıdakı ayələrdən məlum olur ki, insanın pis və çirkin əməlləri, onun yaxşı əməllərinin üstündən xətt çəkmir. Eyni zamanda bilmək lazımdır ki, bəzi günahlara batan (küfr və ya şirk kimi) və ya mürtəd olanların (müsəlman şəxsin dini rədd edib İslamdan xaric olması) bütün yaxşı əməlləri puç olub

1 Ənam surəsi, 54-cü ayə.
2 Zəlzələ surəsi, 7-ci ayə.
3 Nəcm surəsi, 40-41-ci ayələr.

O gələcək...

gedir və axirətdə əbədi əzaba düçar olacaqlar. Allah-Təala bu xüsusda belə buyurur:

... وَ مَن يَرْتَدِدْ مِنكُمْ عَن دِينِهِ فَيَمُتْ وَ هُوَ كَافِرٌ فَأُوْلَئِكَ حَبِطَتْ أَعْمَالُهُمْ فِى الدُّنْيَا وَ الْاخِرَةِ وَ أُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ.

**"Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə şəxslərin bütün əməlləri dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!"[1]**

Deməli, hər bir imanlı şəxs axirətdə öz yaxşı və pis əməllərinin əvəzini görəcəkdir. Lakin Quran və sünnəyə istinadən mürtəd olmaq və bu qəbildən olan günahlara bulaşmaq yaxşı əməllərin heçə getməsinə səbəb olur.

Bəhsimizin sonunda bir məsələni də qeyd edək. Doğrudur, Allah-Təala möminlərə vəd etmişdir ki, yaxşı işlərinə görə onları mükafatlandıracaq və pis işlərinə görə cəzalandıracaqdır, lakin əqli mühakiməyə görə bu iki vəd bir-birindən fərqlənir. Belə ki, yaxşı işi mükafatlandırmamaq bəyənilməyən bir işdir, lakin bunu cəzalandırma haqqında söyləmək olmaz. Çünki cəza vermək cəza verənin haqqıdır və o, öz haqqından keçə də bilər. Bu üzdən, bəzi yaxşı əməllərin pis əməllərin üstünü örtməsi ağlasığandır və bu termin olaraq "təkfir" adlanır.[2] Quranda da bu məsələyə toxunulmuş və açıqlanmışdır ki, bəzi yaxşı əməllər pis əməllərin üstünü örtür və belə əməllərdən biri, insanların böyük günahlardan çəkinməsidir. Rəbbimiz buyurur:

إِن تَجْتَنِبُواْ كَبَائِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنكُمْ سَيِّئَاتِكُمْ وَ نُدْخِلْكُم مُّدْخَلاً كَرِيمًا.

**"Əgər siz qadağan olunmuş böyük günahlardan çəkinərsinizsə, biz də sizin qəbahətlərinizin (kiçik günahlarınızın) üstünü örtər və sizi şərəfli bir mənzilə çatdırarıq".[3]**

[1] Bəqərə surəsi, 217-ci ayə.
[2] Kəşful-murad, səh.413, məqsəd: 6, məsələ: 7.
[3] Nisa surəsi, 31-ci ayə.

Tövbə[1], gizlində verilən sədəqə[2] və s. bu kimi əməllər belə təsirlərə malikdirlər.

## Yüz on səkkizinci bəhs

Əbədi cəhənnəm əzabı kafirlər üçündür. Qəlbi “tövhid” nuru ilə işıqlanan mömin günahkarların üzünə isə bağışlanma və oddan qurtuluş yolu bağlı deyildir. Rəbbimiz buyurur:

إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَ يَغْفِرُ مَا دُونَ ذَالِكَ لِمَن يَشَاءُ وَ مَن يُشْرِكْ بِاللَّهِ فَقَدِ افْتَرَى إِثْمًا عَظِيمًا.

**“Şübhə yoxdur ki, Allah Ona şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan şəxs, əlbəttə, böyük bir günah etmiş olur”.**[3]

Allaha şərik qoşmaq istisna olmaqla, bütün günahların bağışlanmasının mümkünlüyünü açıq-aşkar xəbər verən bu ayədə, şübhəsiz ki, tövbə etmədən vəfat etmiş günahkarlar nəzərdə tutulur. Çünki tövbə ilə bütün günahlar, o cümlədən, Allaha şərik qoşmaq da bağışlanır. Deməli, müşrik olmayan günahkarın bağışlanmasına ümid yeri vardır: “… **amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar”**. Yəni Allah kimi bağışlamaq istəsə, o bağışlanacaqdır. Bu isə günahkarları “qorxu” ilə “ümid” arasında saxlayır və onları təhlükənin qarşısını almağa, yəni ölümdən qabaq tövbə etməyə sövq etdirir. Çünki bu vəd, insanı bir tərəfdən məyusluq, digər tərəfdən isə özbaşınalıq uçurumundan qurtarıb doğru yola yönəldir.

İmam Kazim (ə) buyurmuşdur: “Allah-Təala kafirlərdən və müşriklərdən başqa heç kəsi əbədi olaraq cəhənnəm atəşində saxlamayacaqdır”.[4]

---

[1] Təhrim surəsi, 8-ci ayə.
[2] Bəqərə surəsi, 271-ci ayə.
[3] Nisa surəsi, 48-ci ayə.
[4] Biharul-ənvar, c.8, 27-ci fəsil, hədis: 1.

Кafir və müşrik olmayan günahkarlar əvvəl-axır etdiyi yaxşı əməllərin əvəzini alacaqlar. Uca Tanrının buyurduğu kimi: "Кim (bu dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onun xeyrini görəcəkdir".[1]

## Yüz on doqquzuncu bəhs

Bizim əqidəmizə görə Cənnət və Cəhənnəm indi də mövcuddur. Şeyx Mufid öz əsərində yazır: "Cənnət və Cəhənnəm indi də mövcuddur. Onların mövcud olmasını rəvayətlər təsdiqləyir və din alimləri bu məsələdə eyni görüşə sahibdirlər".[2]

Quran ayələri də hal-hazırda Cənnət və Cəhənnəmin mövcud olmasını təsdiq edir. Allah-Təala buyurur:

وَ لَقَدْ رَءَاهُ نَزْلَةً أُخْرَى. عِندَ سِدْرَةِ الْمُنْتَهَى. عِندَهَا جَنَّةُ الْمَأْوَى.

**"And olsun ki, başqa bir dəfə də (merac vaxtı Həzrət Peyğəmbər vəhy mələyi Cəbraili) görmüşdü. Sidrətül-müntəhanın yanında. Məva cənnəti onun yanındadır".**[3]

Başqa bir ayədə Allah-Təala möminlərə müjdə verərkən və kafirlərə xəbərdarlıq edərkən Cənnətin müttəqilər, Cəhənnəmin isə kafirlər üçün hazır olduğunu elan edir. Cənnətlə bağlı buyurur:

... أُعِدَّتْ لِلْمُتَّقِينَ.

**"... müttəqilər üçün hazırlanmışdır"**[4]

Cəhənnəmlə bağlı isə belə xəbərdarlıq edir:

وَ اتَّقُواْ النَّارَ الَّتِى أُعِدَّتْ لِلْكَافِرِينَ.

---

[1] Zəlzələ surəsi, 7-ci ayə.
[2] Əvailul-məqalat, səh.141.
[3] Nəcm surəsi, 13-15-ci ayələr.
[4] Ali-İmran surəsi, 133-cü ayə.

**“Kafirlər üçün hazırlanmış oddan (Cəhənnəmdən) həzər edin!”**[1]

Bununla belə, Cənnət və Cəhənnəmin yerləşdiyi yer bizlərə məlum deyil. Yalnız bəzi ayələrdən aydın olur ki, Cənnət yüksəkdə yerləşir:

وَ فِى السَّمَاءِ رِزْقُكُمْ وَ مَا تُوعَدُونَ.

**“Göydə də ruziniz və vəd olunduğunuz şey vardır!”**[2]

[1] Ali-İmran surəsi, 131-ci ayə.
[2] Zariyat surəsi, 22-ci ayə.

IX FƏSİL

# İMAN, KÜFR, BİDƏT, TƏQİYYƏ, TƏVƏSSÜL, BƏDA VƏ S.

## Yüz iyirminci bəhs

"İman" və "küfr"ün tərifi kəlam elminin əsas bəhslərindən biridir. "İman" sözünün leksik mənası "təsdiq", "küfr" sözünün leksik mənası isə "örtmək"dir. Məsələn, klassik ərəb dilində torpağa buğda basdıran əkinçiyə də "kafir" deyilir (çünki əkinçi buğdanın üstünü torpaqla örtür).

Lakin kəlam elminin termini kimi "iman" Allahın birliyinə, Qiyamət gününə və Həzrət Məhəmmədin (s) sonuncu peyğəmbər olduğuna inanmaq, etiqad bəsləməkdir. Əlbəttə, sonuncu Peyğəmbərin (s) peyğəmbərliyinə iman, bütün qabaqkı peyğəmbərlərin peyğəmbərliyinə və səmavi kitablara, eləcə də İslam peyğəmbərinin insanlara gətirdiyi ilahi hökm və təlimlərə inancı da özündə ehtiva edir.

İmanın qərarlaşdığı yer insanın qəlbidir. Allah-Təala bu haqda buyurur:

... أُوْلٰئِكَ كَتَبَ فِى قُلُوبِهِمُ الْايمَانَ...

**"... Onlar elə kimsələrdir ki, Allah onların qəlblərinə iman yazmışdır..."[1]**

Həmçinin İslamın qüdrəti qarşısında təslim olmuş, lakin qəlbləri hələ də iman nurundan xali qalmış bədəvi ərəblərə dair Rəbbimiz belə buyurmuşdur:

... وَ لَمَّا يَدْخُلِ الْايمَانُ فِى قُلُوبِكُمْ...

**"...İman hələ sizin qəlblərinizə daxil olmamışdır..."[2]**

Əlbəttə, bir şəxsi "imanlı insan" adlandırmaq üçün o öz imanını dildə iqrar etməli və ya başqa bir yolla izhar etməli-

[1] Mucadilə surəsi, 22-ci ayə.
[2] Hucurat surəsi, 14-cü ayə.

dir, yaxud ən azı imanını inkar etməməlidir. Əks təqdirdə, o, "imanlı" adlandırılmaz. Rəbbimiz buyurur:

وَ جَحَدُواْ بِها وَ اسْتَيْقَنَتْهَا أَنفُسُهُمْ ظُلْمًا وَ عُلُوًّا...

**"Möcüzələrimizin həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər".**[1]

Bu açıqlama ilə küfrün tərifi də aydınlaşır. Əgər insan Allahın yeganəliyini və ya Qiyamət gününü və ya İslam peyğəmbərinin (s) peyğəmbərliyini (bu üç təməl inancdan birini) inkar edərsə, şübhəsiz, kafir hesab olunacaq. Həmçinin, əgər İslam dininin zəruri inanc və təlimlərindən birinin inkarı nübüvvətin inkarına gətirib çıxararsa, insanın kafir hesab olunmasına səbəb olar.

Sevimli Peyğəmbərimiz (s) Həzrət Əlini (ə) Xeybər qalasını fəth etməyə göndərərkən ona bir bayraq verdi və buyurdu ki, bu bayraqdar Xeybər qalasının fatehi kimi geri dönəcək. Bu zaman Həzrət Əli (ə) üzünü Həzrət Peyğəmbərə (s) tutub soruşdu: "Onlarla nə zamanadək vuruşaq?" Həzrət Peyğəmbər (s) buyurdu: "Onlar Allahın yeganəliyinə və Məhəmmədin peyğəmbərliyinə şəhadət verənədək onlarla vuruş. Bunlara şəhadət verdikləri zaman onların canı və malı amanda olacaq, lakin bunu (öldürülmələrini, yaxud mallarının qənimət olaraq müsadirəsini) labüd etdikləri hal istisnadır. Onların haqq-hesabını Allah çəkəcəkdir".[2]

Həmçinin bir nəfər İmam Sadiqdən (ə) soruşdu: "İmanın ən aşağı həddi və mərtəbəsi nədir?" İmam (ə) cavabında buyurdu: "İmanın ən aşağı mərtəbəsi Allahın yeganəliyinə və Məhəmmədin Allahın qulu və peyğəmbəri olduğuna şəha-

[1] Nəml surəsi, 14-cü ayə.
[2] Səhih Buxari, İman fəsli, səh.10; Səhih Müslim, c.7, Əlinin fəzilətləri fəsli, səh.17.

dət vermək, habelə Allaha itaəti qəbul etmək və zəmanənin imamını tanımaqdır. Bunları edən mömindir”.[1]

## Yüz iyirmi birinci bəhs

Ötən bəhsdə qeyd edilən tərifə əsasən, iman, qəlbin inamı və etiqadıdır. Lakin elə zənn edilməməlidir ki, sadəcə qəlbin etiqadı insanın səadəti üçün yetərlidir. İnsan imanın tələb etdiyi əməlləri də yerinə yetirməlidir. Çox sayda ayə və rəvayətlərdə vurğulanır ki, həqiqi mömin imanın tələb etdiyi əməllərə və Allahın vacib buyurduqlarına əməl edən şəxsdir. Allah-Təala Əsr surəsində buyurur:

إِنَّ الْانسَانَ لَفِى خُسْرٍ. إِلَّا الَّذِينَ ءَامَنُواْ وَ عَمِلُواْ الصَّالِحَاتِ وَ تَوَاصَوْاْ بِالْحَقِّ وَ تَوَاصَوْاْ بِالصَّبْرِ.

**“İnsan ziyan içindədir. Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!”[2]**

İmam Baqir (ə) İmam Əlidən (ə) belə nəql edir ki, bir nəfər mənə dedi: “Allahın yeganəliyinə və Peyğəmbərin (s) peyğəmbərliyinə şəhadət verən şəxs mömindirmi?” İmam Əli (s) cavabında buyurur: “Bəs Allahın buyurduğu vacib əməllər?!”

Yenə də Həzrət Əli (ə) buyurur: “Əgər iman yalnız kəlamdan (Allaha və Onun peyğəmbərinə şəhadət verməkdən) ibarət olsaydı, onda oruc, namaz, halal və haram nazil edilməzdi”.[3]

Yuxarıda deyilənlərdən bu nəticəyə gəlirik ki, imanın müxtəlif mərtəbələri vardır və hər bir mərtəbə özünəxas təsirlərə malikdir. Dildə iqrar etmək və ya ən azı inkar etməməklə müşayiət olunan qəlbin inamı, imanın ən aşağı mərtəbəsidir və bu mərtəbənin bir

[1] Biharul-ənvar, c.66, səh.16, İman və küfr fəsli, Şeyx Səduqun “Məaniul-əxbar” əsərinə istinadən. Rəvayətin sənədi səhihdir.
[2] Əsr surəsi, 2-3-cü ayələr.
[3] Usuli-kafi, c.2, səh.33, hədis: 2.

sıra dünya və axirət təsirləri vardır. İnsanın dünya və axirət səadətinə səbəb olan iman isə əməl ilə yanaşı olan imandır.

Diqqətəlayiq məqamlardan biri də budur ki, bəzi hədislərdə dini fərizələrə[1] əməl etmək imanın sütunlarından biri sayılmışdır. İmam Rza (ə) öz atalarından və onlar da Həzrət Peyğəmbərdən (s) belə nəql etmişlər:

الْإِيمَانُ مَعْرِفَةٌ بِالْقَلبِ وَ اقْرَارٌ بِالْلِسَانِ وَ عَمَلٌ بِالْأَرْكَانِ.

“İman - qəlbdə tanımaq, dildə iqrar etmək və əzalarla əməl etməkdir”.[2]

Bəzi hədislərdə namaz qılmaq, zəkat vermək, həccə getmək və ramazan ayında oruc tutmaq “şəhadəteyn”in (Allahın yeganəliyinə və Peyğəmbərin (s) nübüvvətinə şəhadət vermək) kənarında qeyd edilmişdir.[3]

Beləliklə, bəzi kəlami və fiqhi məsələlərdə olan fikirayrılığına görə müsəlman firqələrindən heç biri digərinə kafir damğası vura bilməz. Çünki küfrün meyarı odur ki, bir fərd İslamın üç təməl əqidəsindən birini inkar etsin və ya həmin üç təməl əqidədən birinin inkarına gətirib çıxaran hansısa bir dini məsələni inkar etsin.

Odur ki, müsəlmanlar hər zaman öz dini qardaşlıqlarını qoruyub saxlamalı və dinin əsaslarından olmayan məsələlərdə mövcud olan fikirayrılığı onlar arasında ikitirəlik salmamalı, bir-birini fasiq və kafir adlandırmağa əsas verməməlidir. Etiqadla bağlı məsələlərdə yaranan anlaşılmazlıqları elmi dialoq və tədqiqat işləri aparmaqla aradan qaldırmalı və heç bir məntiqə sığmayan quru təəssübkeşlikdən, bir-birini təhqirdən çəkinməlidirlər.

[1] Dində vacib buyurulan əməllər.
[2] Uyun-i əxbarir-Riza, c.1, səh.226.
[3] Səhih Buxari, c.1, səh.16, İman fəsli.

## Yüz iyirmi ikinci bəhs

Bütün müsəlmanlar dinin üç təməl prinsipində[1] eyni görüşə sahib olduqlarından, heç bir müsəlmanın öz həmdinini kafirlikdə ittiham etməyə haqqı yoxdur. Çünki müsəlman firqələri arasında mövcud olan fikirayrılıqları əsasən kəlami mövzulardadır və bunlar sonradan yaranmışdır. Hər bir firqənin də bu mövzularla bağlı özünə görə dəlil-sübutları vardır. Buna görə də, belə mübahisəli məsələlər müsəlmanların bir-birini kafir və ya fasiq adlandırmasına, nəticədə İslami vəhdətin parçalanmasına gətirib çıxarmamalıdır. Mübahisəli məsələlərə son qoymağın ən gözəl yolu əsassız və qeyri-məntiqi təəssübkeşlikdən uzaq olub elmi dialoqlar aparmaqdır.

Allah-Təala buyurur:

يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِذَا ضَرَبْتُمْ فِى سَبِيلِ اللَّهِ فَتَبَيَّنُواْ وَ لاَ تَقُولُواْ لِمَنْ أَلْقَى إِلَيْكُمُ السَّلاَمَ لَسْتَ مُؤْمِنًا تَبْتَغُونَ عَرَضَ الْحَيَاةِ الدُّنْيَا...

**“Ey iman gətirənlər! Allah yolunda səfərə çıxdığınız zaman diqqətli olun! Sizə salam verən bir şəxsə dünya həyatının puç mənfəətinə tamahlanaraq: “Sən mömin deyilsən!” - deməyin”.[2]**

Hədislərin birində sevimli Peyğəmbərimiz (s) İslamın əsaslarını bəyan edərkən buyurmuşdur ki, heç bir müsəlmanın başqa bir müsəlmanı etdiyi günaha görə kafir və ya müşrik adlandırmağa haqqı yoxdur.[3]

---

[1] Allahın yeganəliyinə, Həzrət Məhəmmədin (s) peyğəmbərliyinə və Məada iman dinin təməl prinsipləridir ki, onları qəbul etmək imana, inkar etmək isə küfrə səbəb olur.
[2] Nisa surəsi, 94-cü ayə.
[3] Kənzul-ummal, c.1, hədis: 30.

## Yüz iyirmi üçüncü bəhs
## Bidət

"Bidət" (بدْعَت) sözünün leksik mənası "yeni, indiyədək görünməyən bir iş"dir və belə bir iş, sahibinin kamalından xəbər verir. Belə ki, "bədi" (بَديع – yəni "yeni iş görən, yenilik edən") Allahın vəsflərindən biridir:

بَدِيعُ السَّمَاوَاتِ وَ الْأَرْضِ...

**"Göyləri və yeri icad edən (yoxdan yaradan)..."[1]**

Fiqh və kəlam elmində isə "bidət" termini bu mənanı daşıyır: dində olmayan bir şeyi dinə nisbət vermək, başqa sözlə, dinin adına yazmaq.

Dində bidət etmək ən böyük günahlardan biridir və onun haram olmasında heç bir şübhə yoxdur. Sevimli Peyğəmbərimiz (s) buyurmuşdur:

كُلُّ مُحْدَثَةٍ بِدْعَةٌ وَ كُلُّ بِدْعَةٍ ضَلَالَةٌ وَ كُلُّ ضَلَالَةٍ فِى النَّارِ.

"(Şəriətə daxil edilən) hər bir yenilik bidətdir. Hər bir bidət azğınlıqdır. Hər bir azğınlıq isə Cəhənnəmdədir (cəhənnəm oduna məhkumdur)".[2]

Bu mövzuda ən mühüm məsələ bidəti bidət olmayan işlərdən ayırd edə bilmək üçün onun tərifini verməkdir. Bidətin mahiyyətini başa düşməkdən ötrü iki mətləbə diqqət yetirmək lazımdır:

1. Bidət, dinə nəyisə artırmaq və ya dindən nəyisə əskiltməklə dinə müdaxilə etməkdir. Buna görə də, din və şəriətlə əlaqəsi olmayan, yalnız adət-ənənə xarakteri daşıyan hansısa bir yenilik bidət sayılmayacaq (əlbəttə, bu yeniliyin şəri ba-

[1] Bəqərə surəsi, 117-ci ayə.
[2] Biharul-ənvar, c.2, səh.263; Musnəd-i Əhməd, c.4, səh.126-127.

xımdan caizliyi və halallığı onun şəriətdə haram və qadağan bir iş olmaması ilə şərtlənir). Məsələn, insanlar yaşayış binalarında, məişət əşyalarında, geyim tərzində və s. yeniliklər edirlər. Xüsusilə də, indiki dövrdə həyat tərzi və məişət vasitələri dəyişmiş, yeni idman və əyləncə növləri yaranmışdır. Aydındır ki, bunların hamısı "bidət"in lüğəvi mənasında olan yenilikdir, lakin bunların "şəri bidət"lə heç bir əlaqəsi yoxdur. Burada təkcə bir məqam nəzərə alınmalıdır ki, onların halal olması şəriət qanunlarına və ölçülərinə zidd olmamaları ilə şərtlənir. Məsələn, qadınların hicabsız şəkildə kişilərlə eyni məclisdə, yığıncaqda əyləşmələri haramdır, lakin bidət deyildir. Çünki bu yığıncaqlarda iştirak edənlər bu işi şəriətdə halal buyurulan bir iş ünvanında yerinə yetirmirlər. Əksinə, onun şəriətə zidd olduğunu bilir və bəzən səhlənkarlıq edib belə yığıncaqlarda iştirak edirlər. Bəzən də düz yola qayıdıb belə yığıncaqlarda iştirak etməməyi ciddi şəkildə qərara alırlar.

Məsələyə aydınlıq gətirmək üçün başqa bir misala diqqət yetirək. Müsəlman bir millət "şəriət bizə bunu göstəriş verib" iddiası etmədən müxtəlif münasibətlərlə müəyyən günləri özlərinə bayram elan edirlər. Bu iş bidət deyil, baxmayaraq ki, onun halal-haramlığı müxtəlif cəhətlərdən araşdırılmalıdır.

Buradan aydın olur ki, bəşərin incəsənət, idman, sənaye və s. sahələrdə yaratdığı bir çox yeniliklər "şəri bidət" deyil və yalnız onların şəri baxımdan halal-haramlığı müəyyən meyarlar və ölçülərlə araşdırılmalıdır.

2. Şəri bidət odur ki, bir iş dini göstəriş adı ilə icra edilir, halbuki, onun caizliyi və halallığına dair şəriətdə heç bir qanun və dəlil yoxdur. Deməli, dini göstəriş ünvanında icra edilən və şəri dəlili olan (xüsusi və ya ümumi şəkildə) bir əməl bidət sayılmır. Böyük şiə alimi Əllamə Məclisi belə yazır:

البِدْعَةُ فِى الشَّرْعِ مَا حَدَثَ بَعْدَ الرَّسُولِ [بِمَا أنَّهُ مِنَ الدِّينِ] وَ لَمْ يَكُنْ فِيهِ نَصٌّ عَلَى الْخُصُوصِ وَ لا يَكُونُ دَاخِلًا فِى بَعْضِ الْعُمُومَاتِ.

O gələcək...

"Şəriətdə bidət odur ki, bir iş sevimli Peyğəmbərimizdən sonra meydana gəlmişdir və onun caizliyinə dair şəri bir dəlil - xüsusi və ya ümumi şəkildə – yoxdur".[1]

Əhli-sünnənin böyük alimlərindən olan İbn Həcər Qəstəlani də bu xüsusda belə yazır:

الْبِدْعَةُ مَا اُحْدِثَ وَ لَيْسَ لَهُ أَصْلٌ فِى الشَّرْعِ، وَ مَا كَانَ لَهُ أَصْلٌ يَدُلُّ عَلَيْهِ الشَّرْعِ فَلَيْسَ بِبِدْعَةٍ.

"Bidət, yeni yaranan (Peyğəmbərdən (s) sonra ortaya çıxan) və şəriətdə caizliyinə dair heç bir dəlil olmayan işdir. Lakin şəri dəlili olan işlər bidət deyil".[2]

Bəli, əgər şəriətə nisbət verdiyimiz bir əməl şəri bir dəlilə – xüsusi və ya ümumi dəlilə - əsaslanarsa, heç şübhəsiz, bidət olmayacaqdır.

Bəzən bir əməl yenilik kimi görünə və İslam tarixində daha öncə rast gəlinməyə bilər, lakin buna baxmayaraq mahiyyət etibarilə İslam şəriətinin qəbul etdiyi bir çərçivədə olar. Məsələn, günümüzdə bir çox ölkələrdə icra olunan ümumi hərbi xidmətə çağırışı buna misal göstərmək olar. Dini vəzifə adı ilə gənclərin hərbi xidmətə çağırılması yenilik olsa da dini bir qanuna əsaslandığı üçün bidət deyildir. Çünki Rəbbimiz buyurur:

وَ أَعِدُّواْ لَهُم مَّا اسْتَطَعْتُم مِّن قُوَّةٍ...

**"(Ey möminlər!) bacardığınız qədər qüvvə toplayın…"[3]**

Məlum məsələdir ki, dünyada baş verən dəyişikliklər nəticəsində elə bir durum meydana gəlmişdir ki, gənclərin hərbi sahədə ümumi hazırlığı pusquda duran düşmən qarşısına hazırlıqlı çıxmaq üçün qaçılmazdır və çağdaş zəmanəmizdə ayənin məzmunu bizdən bunu tələb edir.

---

[1] Biharul-ənvar, c.74, səh.202
[2] Fəthul-Bari, c.5, səh.156 və c.17, səh.9.
[3] Ənfal surəsi, 60-cı ayə.

Yuxarıdakı açıqlama ilə bəzilərinin zehnində dolaşan bir çox şübhələr öz həllini tapmış olur. Gəlin bu şübhələrdən birini aydınlaşdıraq. Dünya müsəlmanlarının böyük əksəriyyəti sevimli Peyğəmbərimizin (s) mövlud gününü (doğum günü) bayram edirlər, lakin müsəlmanlardan bir qrupu bunu bidət hesab edir. Halbuki, deyilənlərə əsasən, bu iş əsla bidət hesab edilə bilməz. Çünki sevimli Peyğəmbərimiz (s) və onun ailəsinə (Əhli-beytinə) məhəbbət nümayiş etdirmək İslamın danılmaz göstərişlərindən biridir və bu cür dini bayramlar həmin göstərişə əməlin bir təzahürüdür. Sevimli Peyğəmbərimiz (s) buyurmuşdur:

لاٰ يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى أَكُونَ أَحَبَّ إِلَيْهِ مِنْ مَالِهِ وَ أَهْلِهِ وَ النَّاسِ أَجْمَعِينَ.

“Mən sizə malınızdan, ailənizdən və bütün insanlardan daha sevimli olmayınca, mömin sayılmazsınız”.[1]

Aydındır ki, Həzrət Peyğəmbərin (s) və onun Əhli-beytinin (ə) mövlud günlərində şadyanalıq edənlər və bayram məclisləri quranlar iddia etmirlər ki, bu günlərdə şadyanalıq etmək dini bir göstərişdir və ya məhz bu şəkildə şadyanalıq etmək dində gəlibdir. Onlar bu əqidədədirlər ki, Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) məhəbbət nümayiş etdirmək Quran və sünnədə öz əksini tapan dinin danılmaz göstərişlərindən biridir. Allah-Təala buyurur:

قُلْ لَا أَسْئَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِى الْقُرْبَى...

**“(Ya Məhəmməd!) De ki: “Mən sizdən bunun (peyğəmbərliyimin) müqabilində qohumlara (Əhli-beytimə) məhəbbətdən başqa bir şey istəmirəm…”[2]**

---

[1] Camiul-usul, c.1, səh.238. Yüz otuz birinci bəhsdə sevimli Peyğəmbərimizə (s) və onun Əhli-beytinə (ə) məhəbbət bəsləmək haqda ətraflı söhbət açacağıq.
[2] Şura surəsi, 23-cü ayə.

O gələcək...

Bu dini göstəriş müsəlmanların fərdi və ictimai həyatında öz təzahürünü müxtəlif şəkillərdə tapa bilər.

Mövlud günlərində şənlik keçirmək Allahın həmin günlərdə mərhəmət və bərəkət nazil etdiyini xatırlamaq və Ona şükranlıq etmək məqsədi daşıyır. Bu ənənə (mərhəmətin nazil olduğu gün şənlik keçirmək) keçmiş dinlərdə də mövcud olmuşdur. Maidə surəsinin 114-cü ayəsində oxuyuruq ki, Həzrət İsa peyğəmbər (ə) Allahdan onlara səmadan bir süfrə nazil etməsini istəmiş və bunu ardıcılları ilə birlikdə, gələcək nəsillərin də bayram edəcəklərini buyurmuşdur:

قَالَ عِيسَى ابْنُ مَرْيَمَ اللَّهُمَّ رَبَّنَا أَنزِلْ عَلَيْنَا مَائِدَةً مِنَ السَّمَاءِ تَكُونُ لَنَا عِيدًا لِأَوَّلِنَا وَ ءَاخِرِنَا وَ ءَايَةً مِّنكَ وَ ارْزُقْنَا وَ أَنتَ خَيْرُ الرَّازِقِينَ.

**“Məryəm oğlu İsa dedi: “Ya Allah, ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə nazil et ki, o həm bizim birincimiz, həm də axırıncımız (həm bizim, həm də bizdən sonra gələnlər) üçün bir bayram və Səndən bir möcüzə olsun”.**

Qeyd etdiyimiz kimi, bidət, dini əməl adı ilə icra olunan, lakin heç bir şəri dəlili olmayan dəyişiklik və yenilikdir. Bunu da bilmək lazımdır ki, Əhli-beyt İmamlarından (ə) nəql olunan hədislər “Səqəleyn” hədisinə əsasən, Allah rəsulunun sünnəsi ilə yanaşı dini hökmlərin qaynağı hesab edildiyindən Məsum İmamların (ə) buyurduqlarına tabe olmaq, dinin göstərişlərinə tabe olmaq deməkdir və bu, dində bidətçilik hesab olunmur.

Bəhsimizin sonunda qeyd edək ki, bidət, “icazəsiz müdaxilə etmək” mənasında işlədildiyi zaman pis və haram iş olacaqdır. Qurani-Kərim bu haqda buyurur:

... قُلْ ءَاللَّهُ أَذِنَ لَكُمْ أَمْ عَلَى اللَّهِ تَفْتَرُون.

**“Allah Özü sizə izn verdi, yoxsa Allaha iftira yaxırsınız?”**[1]

Bu mənada (icazəsiz müdaxilə etmək) olan “bidət”i yaxşı və pis, haram və caiz qisimlərinə bölmək doğru olmayacaqdır.

Lakin bidət, öz lüğəvi mənasında, yəni “yeni iş, yenilik” mənasında həyati məsələlərdə - şəriətə nisbət verilmədən – olarsa, bu, şəriətin 5 hökmündən birinin əhatəsinə (vacib, haram, məkruh, müstəhəb və mübah) daxil ola bilər.

## Yüz iyirmi dördüncü bəhs
## Təqiyyə (1)

Quran təlimlərindən biri də budur ki, əgər bir müsəlman öz əqidəsini izhar edəcəyi təqdirdə canı, malı və heysiyyəti təhlükə altına düşərsə, öz əqidəsini gizlədə bilər. Bu, “təqiyyə” adlanır. Təqiyyənin caiz olması təkcə dini dəlillərə əsaslanmır, həm də əql bəzi şəraitlərdə bunun düzgünlüyünə və hətta zəruriliyinə hökm edir. Təqiyyə, əslində, rəhmsiz güc sahibləri qarşısında zəiflərin silahıdır. Məlum məsələdir ki, əgər heç bir hədə-qorxu olmazsa, insan nə öz əqidəsini gizlədər, nə də əqidəsinə zidd bir iş görər.

Qurani-Kərim Həzrət Peyğəmbərin (s) səhabələrindən olan Əmmar Yasir (və eləcə də, qəlblərindəki möhkəm imana rəğmən, kafirlərin əlindən yaxa qurtarmaq üçün dildə küfr kəlməsini dilə gətirənlər) haqda buyurur:

مَنْ كَفَرَ بِاللَّهِ مِنْ بَعْدِ إِيمَانِهِ إِلَّا مَنْ أُكْرِهَ وَ قَلْبُهُ مُطْمَئِنٌّ بِالْإِيمَانِ وَ لَاكِنْ مَنْ شَرَحَ بِالْكُفْرِ صَدْرًا فَعَلَيْهِمْ غَضَبٌ مِنَ اللَّهِ وَ لَهُمْ عَذَابٌ عَظِيمٌ.

**“Qəlbi imanla sabit olduğu halda, (küfr sözünü deməyə) <u>məcbur edilən (dil ilə deyib ürəyində onu təsdiq etməyən)</u>**

[1] Yunus surəsi, 59-cu ayə.

**şəxs istisna olmaqla, hər kəs iman gətirdikdən sonra küfr etsə, (onu ağır əzab gözləyir). Lakin qəlbən küfrə razı olanlara (qəlbində könüllü surətdə küfrə yer verənlərə) Allahın qəzəbi tutar və onlar şiddətli bir əzaba düçar olarlar!”**[1]

Başqa bir ayədə oxuyuruq:

لاَ يَتَّخِذِ الْمُؤْمِنُونَ الْكَافِرِينَ أَوْلِيَاءَ مِنْ دُونِ الْمُؤْمِنِينَ وَ مَن يَفْعَلْ ذَالِكَ فَلَيْسَ مِنَ اللَّهِ فِى شَىْءٍ إِلَّا أَن تَتَّقُواْ مِنْهُمْ تُقَاةً وَ يُحَذِّرُكُمُ اللَّهُ نَفْسَهُ وَ إِلَى اللَّهِ الْمَصِيرُ.

**“Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Onlardan sizə bir qorxu olmayınca bunu edən kəs Allahdan heç bir şey gözləməsin. Allah sizi öz əzabından çəkindirir. Axır dönüş Allaha tərəfdir!”**[2]

Bütün təfsirçilər bu iki ayənin təfsirində təqiyyənin şəri baxımdan caiz olduğunu bildirmişlər.[3]

Təfsir və İslam fiqhi ilə bir qədər tanışlığı olanlar bilirlər ki, təqiyyə prinsipi İslamın danılmaz təlimlərindəndir. Yuxarıda qeyd edilən ayələri, eləcə də Qurani-Kərimdə Ali-Fironun (Firon ailəsinin) mömini adlandırılan Xanım Asiyə anamızın öz imanını gizlədərək onun əksini izhar etməsini (bax: Qafir surəsi, 28-ci ayə) nəzərə almamaq və təqiyyəni kökündən inkar etmək qeyri-mümkündür.

Burada bir məqama toxunmaq lazımdır və o da bundan ibarətdir:

Baxmayaraq ki, təqiyyə ilə bağlı ayələrdə kafirlərlə münasibətdə təqiyyə etməkdən söz açılır, lakin təqiyyənin meyarı həssas və xoşagəlməz şəraitdə müsəlmanın öz canını, ma-

[1] Nəhl surəsi, 106-cı ayə.
[2] Ali-İmran surəsi, 28-ci ayə.
[3] Təfsir Təbəri, c.3, səh.153; Təfsir Razi, c.8, səh.113; Təfsir Nəsəfi, “Xazin” təfsirinin haşiyəsində; Ruhul-məani, c.3, səh.121; Məcməul-bəyan, c.3 və c1, səh.430.

lını və heysiyyətini qoruması olduğundan bu yalnız kafirlərlə münasibətə aid deyil. Belə ki, əgər bir müsəlmanın başqa bir müsəlman qarşısında öz əqidəsini izhar etməsi və ya əqidəsinə müvafiq əməl etməsi onun canını, malını və heysiyyətini təhlükə altına salacaqsa, burada təqiyyə etməyin hökmü kafir qarşısında təqiyyə etməklə eynidir. Bu fikir əhli-sünnə qaynaqlarında da öz əksini tapıb. Təfsirçi Fəxrəddin Razi deyir: "Şafei məzhəbinə görə, əgər müsəlmanın müsəlmanlar arasındakı vəziyyəti kafirlər arasındıkı vəziyyəti kimi olarsa, canı qorumaq üçün təqiyyə caiz olar. Həmçinin təqiyyənin caizliyi təkcə cana ziyan dəyəcəyi təqdirdə deyil, mala ziyan dəyəcəyi təqdirdə də qüvvədədir; o mal ki, onu qorumaq müsəlmanın canını qorunmaq qədər önəmlidir və onun yolunda qətlə yetirilən şəxs şəhid sayılar".[1]

Əbu-Hüreyrə deyir: "Mən Peyğəmbərdən (s) iki qisim təlim və göstəriş almışam. Onlardan birini xalq içində yaydım, lakin digərini yaymaqdan çəkindim. Əgər onları yaysaydım, öldürülərdim".[2]

Əməvilərin və Abbasilərin xilafəti tarixi zülm və haqsızlıq faktları ilə zəngindir. O dövrlərdə nəinki təkcə şiələr öz əqidələrini izhar etdiklərinə görə əzilirdilər, hətta əhli-sünnənin hədis alimləri də Məmunun xilafəti dövründə "Quranın məxluq olması" məsələsində təqiyyə etmiş və bir nəfər istisna olmaqla, yekdilliklə Məmunun bu xüsusda verdiyi fərmanla inanclarına zidd olmasına rəğmən razılaşmışdılar. Bu hadisə tarixi mənbələrdə təfsilatilə öz əksini tapmışdır.[3]

---

[1] Təfsir Razi, c.8, səh.13.
[2] Məhasinut-təvil, c.4, səh.82.
[3] Tarix Təbəri, c.7, səh.195-206.

## Yüz iyirmi beşinci bəhs
## Təqiyyə (2)

Şiə məntiqinə görə bəzi hallarda təqiyyə etmək vacib, bəzi hallarda isə haramdır. Təqiyyənin haram olduğu hallarda insan canının və malının təhlükədə olmasını bəhanə edib təqiyyə edə bilməz. Bəziləri elə düşünürlər ki, şiə fiqhi bütün həssas və xoşagəlməz məqamlarda təqiyyə etməyi vacib bilir. Lakin bu düşüncə yanlışdır. Şiə imamlarının həyatına nəzər saldıqda görürük ki, onların hər biri öz dövrünün mövcud siyasi vəziyyətini nəzərə alıb xüsusi bir yol tutmuşlar. Bu üzdən də, bəzən təqiyyə etməmiş və əqidələrini izhar etmək yolunda canlarından və mallarından keçmişlər.

Ümumiyyətlə, Məsum İmamlar (ə) ya düşmən qılıncı ilə qətlə yetirilmiş, ya da düşmənin sui-qəsdi ilə zəhərlənib şəhid edilmişlər. Heç şübhəsiz, əgər onlar öz zəmanələrinin hökmdarlarına xoş üz və şirin dil göstərsəydilər, bəlkə də ən böyük vəzifələrə təyin edilərdilər. Lakin onlar çox yaxşı bilirdilər ki, Yezid kimilərin müqabilində təqiyyə etmək dinin məhvi ilə nəticələnər.

İndiki dövrdə də müsəlmanların dini rəhbərləri müəyyən bir şəraitdə təqiyyə yolunu tutmalı, müəyyən bir şəraitdə isə, xüsusilə, dinin təhlükəyə düşdüyü bir şəraitdə canlarından keçməli və ölümə razı olmalıdırlar.

Bəhsimizin sonunda xatırladırıq ki, təqiyyə, zəif və gücsüz şəxsin qolu zorlu düşməndən yaxa qurtarmasından ötrüdür, belə ki, əgər o, təqiyyə etməzsə, həm canı təhlükədə olar, həm də onun qətlə yetirilməsinin zülm və haqsızlıqla mübarizədə mühüm bir nəticəsi yoxdur. Lakin dini hökmlərin və İslam maarifinin təlimi və təbliğində təqiyyəyə yer yoxdur. Məsələn, bir şiə alimi təqiyyəni əsas tutaraq bir əsər qələmə alıb orada şiə inancları adı ilə yanlış inanclar yaya bilməz. Odur ki, tarix boyu şiə alimləri əqidə və ehkam sahəsində təqiyyə ilə kitab yazmamışlar, başqa sözlə, aşkarda bir söz deyib

gizlində başqa söz deməmişlər. Əksinə, ən çətin şəraitlərdə belə onlar öz haqq əqidələrini izhar etmişlər. Əlbəttə, onların arasında müəyyən məsələlərdə fikirayrılığı ola bilər.

Burada təqiyyə prinsipini anlamaqda çətinlik çəkənlərə və şiəliyin düşmənlərinin əks-təbliğatının təsiri altına düşənlərə tövsiyə edirik ki, Əməvilər və Abbasilər xilafəti, həmçinin Osmanlıların Türkiyə və Şamdakı (Suriya və ətraf bölgələrdə) hakimiyyəti dövrlərində şiəliyin tarixinə bir nəzər salsınlar. Onda bilərlər ki, əqidələrini və Əhli-beytə (ə) bağlılıqlarını qorumaq şiələrə necə baha başa gəlmiş, bu yolda nə qədər qurbanlar vermiş və necə acı müsibətlər görmüşlər. Hətta bəzən öz ev-eşiklərindən çıxıb dağlara sığınmalı olmuşlar. Şiələr hələ təqiyyəyə edə-edə belə bir vəziyyətə düşmüşlər, indi görün, əgər təqiyyə etməsəydilər, hansı vəziyyətlərə düşərdilər?! Onda, şiəlikdən bir əsər-əlamət qalmazdı!

Bundan əlavə, məzəmmət olunası insanlar təqiyyə edənlər deyil, təqiyyəyə səbəb olanlardır: Peyğəmbərin (s) Əhlibeytinin (ə) davamçılarına olmazın zülmünü edənlər! Bəzilərinin təqiyyəyə səbəb olan zalımları deyil, təqiyyə edən məzlumları məzəmmət etməsi və onları münafiq adlandırması olduqca təəccüblüdür! Halbuki, təqiyyə ilə münafiqlik arasında yerlə göy qədər fərq vardır: münafiq qəlbindəki küfrü gizlədib zahirdə iman nümayiş etdirir, lakin təqiyyə edən qəlbindəki möhkəm imana rəğmən, zalımın zülmündən qorxduğuna görə öz əqidəsinin əksini izhar edir.

## Yüz iyirmi altıncı bəhs
## Təvəssül (1)

Bəşər təbii vasitələrdən bəhrələnməklə həyat sürür: hamımız susayanda su içirik, acanda qida qəbul edirik və s. Təbii və maddi ehtiyaclarımızı təbii vasitələrlə aradan qaldırmağımız “tövhid”in özüdür, əlbəttə bu şərtlə ki, həmin vasitələri “təsiretmədə müstəqil” hesab etməyək.

Qurani-Kərimdə oxuyuruq ki, Zülqərneyn səddi tikmək üçün camaatdan kömək istədi:

قَالَ مَا مَكَّنِّى فِيهِ رَبِّى خَيْرٌ فَأَعِينُونِى بِقُوَّةٍ أَجْعَلْ بَيْنَكُمْ وَ بَيْنَهُمْ رَدْمًا.

**“(Zülqərneyn) dedi: “Rəbbimin mənə verdiyi daha yaxşıdır. Gəlin öz qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd düzəldim”.**[1]

“Allahdan qeyrisindən kömək almaq şirkdir!”- deyənlərin sözü o təqdirdə doğru olar ki, biz mövcud vasitələri “təsiretmədə müstəqil” hesab edək. Amma əgər biz onları “Allahın istək və iznilə bizi məqsədə çatdıran bir vasitə” kimi qəbul ediriksə, tövhiddən xaric olmuruq. Bəşər, elə həyatın ilk günündən mövcud təbii vasitələrdən bəhrələnərək yaşamış, elm və sənayenin inkişafı da məhz təbiətdən daha çox bəhrələnməyə xidmət göstərmiş və göstərməkdədir.

Təbii vasitələrdən bəhrələnmək mübahisə mövzusu deyil, mübahisəli mövzu qeyri-təbii (mənəvi) vasitələrdən bəhrələnməkdir: o vasitələr ki, insan onları vəhydən qeyri bir yolla tanıya bilməz.

Quran və sünnədə “vasitə” adı ilə qələmə verilənlərdən bəhrələnmək eynilə təbii vasitələrdən bəhrələnmək kimidir.

---

[1] Kəhf surəsi, 95-ci ayə.

Bu baxımdan, biz 2 məqamı nəzərə alaraq qeyri-təbii, yəni mənəvi vasitələrə üz tuta və onlardan bəhrələnə bilərik:

1. Quran və sünnədə onların dünya və axirət məqsədlərinə çatdıran bir vasitə olmaları öz təsdiqini tapmalıdır;

2. Vasitənin “təsiretmədə müstəqil” olmadığını və Allahın izni və istəyilə təsir edə bildiyini qəbul etməliyik.

Qurani-Кərim bizi mənəvi (qeyri-təbii) vasitələrdən bəhrələnməyə çağıraraq buyurur:

يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ اتَّقُواْ اللَّهَ وَ ابْتَغُواْ إِلَيْهِ الْوَسِيلَةَ وَ جَاهِدُواْ فِى سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ.

**“Ey iman gətirənlər! Allahdan qorxun! Ona (Onun lütfünə qovuşmaq üçün) vasitə axtarın. Allah yolunda cihad edin ki, bəlkə, nicat tapasınız!”[1]**

Diqqət yetirmək lazımdır ki, vasitə, “yaxınlaşma” anlamında deyil, Allaha yaxınlaşmağa səbəb olan bir amil anlamındadır. Onun nümunələrindən biri də, ayədə qeyd edildiyi kimi, Allah yolunda cihaddır. Bundan başqa vasitələr də insanın uca Tanrıya yaxınlaşmasına səbəb ola bilər.

## Yüz iyirmi yeddinci bəhs
## Təvəssül (2)

Ötən bəhsdə sübuta yetirildi ki, təbii və mənəvi vasitələrdən bəhrələnmək – əlbəttə, “təsiretmədə müstəqil” olmadıqlarını qəbul etmək şərtilə – “tövhid”in özüdür.

Şübhəsiz, Allahın əmrilə yerinə yetirdiyimiz namaz, oruc, zəkat, cihad və s. bu kimi vacib və müstəhəb əməllər bütövlükdə insanı mənzil başına çatdıran, başqa sözlə, Allaha yaxınlaşdıran “mənəvi vasitələr”dir. Lakin diqqət yetirmək la-

[1] Maidə surəsi, 35-ci ayə.

zımdır ki, mənəvi vasitələr təkcə ibadətlərlə məhdudlaşmır. Quran və sünnədə bundan başqa bir sıra vasitələrdən də söz açılmışdır ki, onlara sarılmaq və təvəssül etmək duaların Allah dərgahında qəbul olunmasına səbəb olar. Biz aşağıda nümunə olaraq onlardan bəzilərini qeyd edirik:

1. Quran və sünnədə "Allahın gözəl adlarına və vəsflə-ri"nə (Əsmaul-hüsna) təvəssül etməkdən söz açılıb. Rəbbimiz buyurur:

وَ لِلّهِ الْأَسْمَاءُ الْحُسْنَى فَادْعُوهُ بِهَا...

**"Ən gözəl adlar Allahındır. Onu bu adlar vasitəsilə çağırın (dua edin)!"[1]**

Dini mənbələrdə qeyd edilən dualarda Allahın sifət və adlarına təvəssülün saysız nümunələrinə rast gəlirik.

2. Allah dərgahında bizə dua etmələri üçün saleh bəndələrin duasına, xüsusilə də, peyğəmbərlərin və Allah övliyalarının duasına təvəssül etmək.

Rəbbimiz özlərinə zülm etmiş kəslər, yəni günahkarlar barədə buyurur:

... وَ لَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَ اسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا.

**"Onlar özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər".[2]**

Başqa bir ayədə münafiqlər məzəmmət edilir ki, onlara "Peyğəmbərin yanına gedin və o, Allahdan sizin bağışlanmanızı diləsin" deyildiyi zaman üz çevirib gedirdilər:

---
[1] Əraf surəsi, 180-ci ayə.
[2] Nisa surəsi, 64-cü ayə.

وَ إِذَا قِيلَ لَهُمْ تَعَالَوْاْ يَسْتَغْفِرْ لَكُمْ رَسُولُ اللَّهِ لَوَّوْاْ رُءُوسَهُمْ وَ رَأَيْتَهُمْ يَصُدُّونَ وَ هُم مُّسْتَكْبِرُونَ.

**“Onlara: “Gəlin Allahın peyğəmbəri (Rəbbimizdən) sizin bağışlanmanızı diləsin!” - deyildiyi zaman (istehza ilə) başlarını bulayar və sən (ya Məhəmməd!) onların təkəbbürlə üz çevirdiklərini görərsən”.**[1]

Bəzi ayələrdə oxuyuruq ki, bu ənənə keçmiş ümmətlər arasında da olmuşdur. Məsələn, Yəqub peyğəmbərin (ə) övladları atalarından istəmişlər ki, Allahdan onların bağışlanmalarını diləsin və Həzrət Yəqub (ə) da onların bu xahişini qəbul etmiş və Allahdan onların bağışlanmalarını diləyəcəyinə söz vermişdir:

قَالُواْ يَاأَبَانَا اسْتَغْفِرْ لَنَا ذُنُوبَنَا إِنَّا كُنَّا خَاطِئِينَ. قَالَ سَوْفَ أَسْتَغْفِرُ لَكُمْ رَبِّى إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ.

**“(Oğulları Yəqub peyğəmbərə): “Ata! Bizim üçün günahlarımızın bağışlanmasını dilə. Biz doğrudan da, günahkar olmuşuq!” - dedilər. (Yəqub) dedi: “Mən Rəbbimdən sizin bağışlanmanızı diləyəcəyəm. O, həqiqətən, bağışlayan və rəhm edəndir!”**[2]

Bəzilərinin fikrincə, həyatda olan saleh şəxslərin duasına təvəssül etmək düzgündür və yalnız belə təvəssül “tövhid”lə uzlaşır (və ya ən azı faydalıdır). Odur ki, bugünkü gündə Peyğəmbərə (s) və Məsum İmamlara (ə) təvəssül etmək tövhidə zidd və faydasız işdir.

Bu iradın cavabında iki məqama diqqət yetirmək lazımdır:

1) Fərz edək ki, peyğəmbərlərə və övliyalara təvəssül etmək üçün onların həyatda olması əsas şərtdir. Bu təqdir-

---

[1] Munafiqun surəsi, 5-ci ayə.
[2] Yusif surəsi, 97-98-ci ayələr.

də, vəfat etmiş peyğəmbərə və övliyaya təvəssül etmək şirk deyil, sadəcə faydasız bir iş hesab olunacaq.

2) Təvəssülün faydalı olmasının 2 şərti vardır:

1- Təvəssül edilən şəxs elm, şüur və qüdrətə malik olmalıdır;

2- Təvəssül edənlə təvəssül edilən şəxs arasında əlaqə yaranmalıdır.

Dünyadan köçmüş peyğəmbərlərə və övliyalara təvəssül edilərkən hər iki şərt aydın əqli və nəqli dəlillərə əsasən mövcuddur.

Bərzəx həyatının mövcud olması Quran və hədislərdə öz əksini tapan danılmaz həqiqətlərdəndir və bu barədə 105-107-ci bəhslərdə söz açmışdıq. Əgər Allah yolunda şəhid olanlar diridirlərsə[1], şübhəsiz ki, peyğəmbərlər və ilahi övliyalar – belə ki, onların əksəriyyəti şəhid olublar - daha şərafətli həyata sahibdirlər.

Bizimlə dünyasını dəyişmiş ilahi övliyalar arasında əlaqənin mövcud olmasına dair bir çox dəlillər vardır. Həmin dəlillərdən bir neçəsini qeyd edirik:

1. Bütün müsəlmanlar namazın sonunda sevimli Peyğəmbərimizə (s) xitabən deyirlər: “Ya Peyğəmbər, salam olsun sənə! Allahın rəhmət və bərəkəti sənə olsun!”

Məgər, onlar bunu mənasız bir iş hesab edirlər və Peyğəmbərin (s) bütün bu salamları eşitmədiyini və cavab vermədiyini sanırlar?!

2. Sevimli Peyğəmbərimiz (s) Bədr savaşında göstəriş verir ki, müşriklərin cəsədlərini bir quyuya atsınlar. Sonra özü onlarla danışır. Peyğəmbərin səhabələrindən biri ondan soruşur: “Ölülərlə danışırsanmı?” Peyğəmbər (s) buyurur: “Onlar sizdən daha yaxşı eşidirlər”.[2]

3. Sevimli Peyğəmbərimiz (s) dəfələrlə Bəqi qəbristanlığına gəlmiş və orada uyuyanların ruhlarına xitabən belə buyurmuşdur:

---

[1] Bəqərə surəsi, 154-cü ayə.
[2] Səhih Buxari, c.5, “Əbu Cəhlin qətli” fəsli; Sire-yi İbn-Hişam, c.2, səh.292 və s.

السَّلَامُ عَلَى أَهْلَ الدِّيارِ مِنَ الْمُؤْمِنِينَ وَ الْمُؤْمِنَاتِ.

"Salam olsun mömin və möminələr diyarının əhlinə!"

Başqa bir rəvayətdə belə buyurduğu qeyd edilir:

السَّلَامُ عَلَيْكُمْ دَارَ قَوْمٍ مُؤْمِنِينَ.

"Salam olsun mömin qövmün diyarına!"[1]

4. Buxari öz "Səhih" əsərində yazır: "Peyğəmbərimizin vəfat etdiyi gün Əbu Bəkr Aişənin evinə daxil oldu. Sonra Peyğəmbərin (s) cənazəsinə yaxınlaşıb örtüyü onun üzündən çəkdi, Peyğəmbəri (s) öpüb ağlaya-ağlaya belə dedi: "Atam sənə fəda olsun, ey Allahın peyğəmbəri! Allah sənə iki ölüm yazmamışdır (yəni bir daha bu dünyaya geri dönməyəcəksən.) Sənə yazılmış ölüm gəlib yetişdi".[2]

Əgər sevimli Peyğəmbərimiz (s) bərzəx həyatında olmasaydı və bizimlə onun arasında heç bir əlaqə olmasaydı, onda Əbu Bəkr ona "Ey Peyğəmbər!" - deyə müraciət edə bilərdimi?

5. Həzrət Əli (ə) Həzrət Peyğəmbərə (s) cənazə qüslü verərkən, bu sözləri demişdi: "Atam-anam sənə fəda olsun, ey Allahın peyğəmbəri! Sənin ölümünlə elə bir şey sona yetdi ki, başqalarının ölümü ilə sona yetməmişdi. Sənin ölümünlə peyğəmbərlik və vəhy sona çatdı… Atam-anam sənə fəda olsun, bizi Rəbbinin yanında xatırla, bizi (hər zaman) xatirində saxla".[3]

Bəhsimizin sonunda qeyd edək ki, peyğəmbərlərə və övliyalara təvəssülün müxtəlif formaları mövcuddur və onlar haqda əqidə mövzusunda qələmə alınan əsərlərdə ətraflı məlumat verilmişdir.

[1] Səhih Müslim, c.2, "Qəbristanlığa daxil olarkən deyilər" fəsli.
[2] Səhih Buxari, c.2, "Cənazələr" fəsli, səh.17.
[3] Nəhcul-bəlağə, Xütbələr hissəsi, 235-ci xütbə.

O gələcək...

## Yüz iyirmi səkkizinci bəhs
## Bəda[1]

Allahın insan barəsində “təqdir”i[2] iki növdür:

1. Qəti təqdir: bu təqdir heç bir vəchlə dəyişmir;

2. Şərti təqdir: bu təqdir bəzi şərtlərin mövcud olmaması ilə dəyişir və başqa bir təqdirlə əvəz edilir.

Yuxarıdakı təsnifatı nəzərə alaraq qeyd etməliyik ki, bəda, İslamın danılmaz inanclarından biridir və bütün İslam firqələri (məzhəbləri) onu ümumilikdə qəbul edirlər, baxmayaraq ki, bəzi firqələr “bəda” sözünü işlətməkdən çəkinirlər. Lakin “bəda” sözünü işlətməkdən çəkinmək məsələnin mahiyyətini dəyişmir, belə ki, məqsəd adın deyil, məzmunun aydınlaşmasıdır.

### *Bəda 2 prinsipə söykənir:*

**1)** Allah-Təala varlıq aləmi üzərində mütləq qüdrətə və hökmranlığa sahibdir və O, istədiyi zaman bir təqdiri başqa bir təqdirlə əvəz edə bilər. Eyni zamanda, hər iki təqdir Onun əzəli elmində vardır və Onun elmində heç bir dəyişiklik baş vermir.

Belə deyil ki, birinci qisim təqdir (qəti təqdir) Allahın qüdrətini məhdudlaşdırmış və onu dəyişdirmək qüdrətini Allahdan almışdır. “Allahın əli bağlıdır” (imkanları məhduddur) deyən yəhudilərin əqidəsindən fərqli olaraq, Allah-Təala hüdudsuz qüdrətə sahibdir və Quran təbirilə desək, “Onun əlləri açıqdır” (imkanları genişdir).[3]

---

[1] “Bəda” sözünün lüğəvi mənası “qərarı dəyişmək” deməkdir. Kəlam elminin termini olaraq isə “Allahın təqdirinin dəyişməsi” mənasını daşıyır

[2] 148-150-ci bəhslərdə “təqdir”, “qədər”, “qəzavü-qədər” anlayışları ilə tanış olmuşduq.

[3] Bax: Maidə surəsi, 64-cü ayə.

Başqa sözlə, **"O hər gün (hər an) bir işdədir"** ayəsinə əsasən[1], Allah xəlq etmə işindən əl çəkməmiş və xəlq etmə işi indi də davam etməkdədir.

İmam Sadiq (ə) **"Yəhudilər dedilər: "Allahın əli bağlıdır…"** ayəsinin təfsirində belə buyurmuşdur: "Yəhudilər deyirdilər ki, Allah xəlq etmə işindən əl çəkib və (ruzidə, ömürdə və s.) azaldılıb-çoxaldılma yoxdur. Allah-Təala onların bu sözlərini təkzib edərək buyurmuşdur:

وَ قَالَتِ الْيَهُودُ يَدُ اللَّهِ مَغْلُولَةٌ غُلَّتْ أَيْدِيهِمْ وَ لُعِنُواْ بِمَا قَالُوا بَلْ يَدَاهُ مَبْسُوطَتَانِ يُنفِقُ كَيْفَ يَشَاءُ...

**"Bu dedikləri sözə görə onların öz əlləri bağlandı və lənətə gəldilər. Xeyr, Allahın əlləri açıqdır, istədiyi kimi lütf və ehsan edər…"[2]**

İmam Sadiq (ə) daha sonra bunu əlavə etdi: "Allah-Təalanın belə buyurduğunu eşitməmisinizmi:

يَمْحُواْ اللَّهُ مَا يَشَاءُ وَ يُثْبِتُ وَ عِندَهُ أُمُّ الْكِتَابِ.

**"Allah istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar. Ummul-kitab (lövhi-məhfuz) Onun yanındadır!"[3]**

Nəticə: İslama görə Allah hüdudsuz qüdrətə və məxluqat üzərində mütləq hökmranlığa sahibdir. Allahın xəlq etmə işi hər zaman davam etməkdədir. Allah-Təala istədiyi vaxt insanın təqdirində, o cümlədən ömründə, ruzisində və s. dəyişiklik edə bilər və hər iki – əvvəlki və sonrakı təqdir əzəldən lövhi-məhfuzda qeyd edilmişdir.

**2)** Hüdudsuz qüdrətə və mütləq hökmranlığa sahib olan Allah tərəfindən məxluqatın təqdirinin dəyişilməsi hikmətsiz deyildir. Bu dəyişilmənin bir qismi insanın ixtiyari əməllərinin

[1] Bax: ər-Rəhman surəsi, 29-cu ayə.
[2] Maidə surəsi, 64-cü ayə.
[3] Rəd surəsi, 39-cu ayə.

nəticəsidir, belə ki, o, öz seçimi ilə ləyaqətli və ya rəzil həyatı seçməklə taleyinin dəyişilməsinə zəmin yaradır.

Fərz edək ki, bir övlad valideynlərinin və qohum-əqrabasının haqlarına məhəl qoymur. Təbii ki, bu nalayiq əməldir və onun taleyinə xoşagəlməz təsiri vardır. Lakin əgər o, ömrünün yarısında tutduğu işdən peşman olarsa və bundan sonra üzərinə düşən vəzifələri yerinə yetirərsə, bu halda o, taleyinin (müsbət tərəfə) dəyişdirilməsinə zəmin yaradar və "Allah istədiyi şeyi məhv edər" ayəsi ona şamil olar. Yaxud əksinə, haqq-hüquq bilən bir şəxs dönüb nankor olarsa, yenə də taleyinin (mənfi tərəfə) dəyişdirilməsinə zəmin yaradar.

Bu mövzu ilə bağlı çoxlu ayə və rəvayətlər vardır və biz onlardan bəzilərini qeyd edirik:

1. Rəd surəsinin 11-ci ayəsində buyurulur:

... إِنَّ اللّهَ لاَ يُغَيِّرُ مَا بِقَوْمٍ حَتَّى يُغَيِّرُواْ مَا بِأَنفُسِهِمْ...

**"Hər hansı bir tayfa öz tövrünü (vəziyyətini) dəyişməyincə (pozmadıqca), Allah da onun tövrünü dəyişməz..."**

2. Əraf surəsinin 96-cı ayəsində buyurulur:

وَ لَوْ أَنَّ أَهْلَ الْقُرَى ءَامَنُواْ وَ اتَّقَوْاْ لَفَتَحْنَا عَلَيْهِم بَرَكَاتٍ مِّنَ السَّمَاءِ وَ الْأَرْضِ وَ لَاكِن كَذَّبُواْ فَأَخَذْنَاهُم بِمَا كَانُواْ يَكْسِبُون.

**"Əgər o məmləkətlərin əhalisi iman gətirib (pis əməllərdən) çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar (öz peyğəmbərlərini) yalançı hesab etdilər, biz də onları qazandıqları günahlara görə məhv etdik".**

3. Siyuti öz təfsirində yazır: "Əli (r.ə) Peyğəmbərdən (s) "Allah istədiyini məhv edər..." ayəsinin təfsiri barədə soruşduqda Peyğəmbər buyurdu: "Mən sənə və ümmətimə bu ayəni təfsir etməklə gözaydınlığı verirəm. Allah yolunda sədəqə

verməк, ata-anaya yaxşılıq etmək və saleh əməllər görmək bədbəxtliyi xoşbəxtliyə çevirər, ömrün uzanmasına səbəb olar və pis ölümlərin qarşısını alar”.[1]

4. İmam Baqir (ə) buyurmuşdur: “Qohumlarla əlaqə saxlamaq (sileyi-rəhm) əməlləri pak və mal-dövləti bərəkətli edər. Eləcə də, bəlaları dəf edər, (Qiyamət günü) sorğu-sualı asanlaşdırar və əcəli təxirə salar (ömrü uzadar.)[2]

Bu iki prinsipi nəzərə almaqla aydın olur ki, bəda, İslamın danılmaz inanclarından biridir və bəzi firqələr “bəda” terminindən istifadə etməsələr də, bu əqidəni qəbul edirlər.

Bəhsimizin sonunda bu əqidənin “bəda” adlandırılmasının səbəbi ilə bağlı 2 mətləbə toxunuruq:

1) Bu sözü Həzrət Peyğəmbər (s) işlətmişdir. Buxari öz “Səhih” əsərində nəql edir ki, Həzrət Peyğəmbər (s) xora xəstəliyinə, keçəlliyə (qoturluq nəticəsində) və korluğa mübtəla olmuş üç nəfər haqqında buyurmuşdu:

بَدَا اللهُ عَزَّ وَ جَلَّ أنْ يَبْتَلِيهِمْ.

“Allah bəda etdi  ki, onları sınağa çəksin”.

Sonra onların əhvalatını təfsilatilə bəyan etmiş (belə ki, Allah-Təala onların sağlamlıqlarını geri qaytarmış, üstəlik istədikləri nemətləri də onlara əta etmişdir) və açıqlamışdı ki, onlardan ikisi verilən nemətlərə naşükürlük etdikləri üçün Allah onların sağlamlıqlarını aldı və əvvəlki xəstəliklərinə düçar etdi.[3]

2) Bu qəbildən olan ifadələrin işlənilməsi “camaatın danışdığı və başa düşdüyü dildə danışmaq” prinsipindən irəli gəlir.

Ərəb dilində bir nəfər qərarını dəyişdikdə belə deyir:

بَدَأ لِى.

---

[1] əd-Durrul-mənsur, c.3, səh.66.

[2] Usuli-kafi, c.2, səh.470.

[3] Səhih Buxari, c.4, səh.172.

Dini rəhbərlər də camaatın danışdığı və başa düşdüyü dildə danışıb mətləbi onlara başa salmaq məqsədilə bu ifadəni Allah-Təala barədə işlətmişlər. Hətta Quranda Allahın müqəddəs zatına məkr və hiylə işlətmək, aldatmaq və unutmaq kimi sifətlər nisbət verilmişdir. Lakin, heç şübhəsiz, Allah belə sifətlərdən - bu sözlərin insanlar arasında başa düşülən mənasında - münəzzəhdir. Aşağıdakı ayələrə nəzər salın:

Tariq surəsinin 15-16-cı ayələrində buyurulur:

إِنَّهُمْ يَكِيدُونَ كَيْدًا. وَ أَكِيدُ كَيْدًا.

**“Həqiqətən (Məkkə müşrikləri) hiylə qurdular. Mən də onların hiylələrinə qarşı hiylə qurdum”.**

1. Nəml surəsinin 50-ci ayəsində buyurulur:

وَ مَكَرُواْ مَكْرًا وَ مَكَرْنَا مَكْرًا وَ هُمْ لاَ يَشْعُرُونَ.

**“Onlar bir hiylə qurdular. Biz də özləri də bilmədən hiylə qurduq”.**

2. Nisa surəsinin 142-ci ayəsində buyurulur:

إِنَّ الْمُنَافِقِينَ يُخَادِعُونَ اللّهَ وَ هُوَ خَادِعُهُم...

**“Münafiqlər Allahı aldatmağa çalışırlar, halbuki, əslində Allah onları aldadır”.**

3. Tövbə surəsinin 67-ci ayəsində buyurulur:

... نَسُواْ اللّهَ فَنَسِيَهُمْ...

**“Onlar Allahı unutdular, Allah da onları unutdu…”**

Bir sözlə, şiə alimləri “bəda” sözünün işlədilməsinə dair geniş araşdırmalar aparmışlar və bu barədə ətraflı məlumat əldə etmək istəyənlər mətnaltı qeyddə göstərilən mənbələrə müraciət edə bilərlər.[1]

---

[1] Şeyx Səduqun “Tövhid” əsəri, səh.232-236; Şeyx Mufidin “Təshihul-etiqadat” əsəri, səh.24; “İddətul-usul”, c.2, səh.29; “Kitabul-ğeybət”, səh.262-264, Nəcəf çapı.

## Yüz iyirmi doqquzuncu bəhs
## Rəcət

“Rəcət” sözünün lüğəvi mənası “qayıdış” deməkdir. Şiə kəlam elmində “rəcət” dedikdə isə İmam Zamanın (ə.f) zühurundan sonra və Qiyamətdən qabaq İslam ümmətindən bir qrup insanın bu dünyaya qayıdışı nəzərdə tutulur. Qurani-Kərim rəcətin gerçəkləşəcəyini xəbər verir. Allah-Təala Nəml surəsinin 83-cü ayəsində buyurur:

وَ يَوْمَ نَحْشُرُ مِن كُلِّ أُمَّةٍ فَوْجًا مِّمَّن يُكَذِّبُ بِئَايَاتِنَا فَهُمْ يُوزَعُونَ.

**“O gün hər ümmətdən ayələrimizi təkzib edənlərin bir dəstəsini dirildərik və onlar sorğu-suala çəkilərlər”.**

Nəml surəsinin 87-ci ayəsində isə belə buyurur:

وَ يَوْمَ يُنفَخُ فِى الصُّورِ فَفَزِعَ مَن فِى السَّمَاوَاتِ وَ مَن فِى الْأَرْضِ إِلَّا مَن شَاءَ اللَّهُ وَ كُلٌّ أَتَوْهُ دَاخِرِينَ.

**“Sur çalınacağı gün Allahın istədiklərindən başqa, göylərdə və yerdə olanlar (bütün məxluqat) dəhşətli bir qorxuya düşər (qorxunun şiddətindən canlarını tapşırdıqdan sonra dirilər) və onların hamısı Onun (Rəbbin) hüzuruna müti, zəlil vəziyyətdə gələr”.**

Gördüyünüz kimi, 83-cü ayədə sözügedən “o gün”də yalnız müəyyən bir dəstə insanın diriləcəyindən söz açılır. 87-ci ayədə sözügedən “gün”də isə bütün insanların öləcəyi və sonra diriləcəyi xəbər verilir. Buradan belə bir nəticə hasil olur ki, 83-cü ayədə sözügedən “o gün” Qiyamət günü deyildir. Çünki Qiyamət günü sur çalındıqdan sonra bütün insanlar diriləcəkdir. Bu xüsusda Rəbbimiz buyurur:

إِنْ كُلُّ مَنْ فِى السَّمَاوَاتِ وَ الْأَرْضِ إِلَّا ءَاتِى الرَّحْمَانِ عَبْدًا. لَقَدْ أَحْصَاهُمْ وَ

عَدَّهُمْ عَدًّا. وَ كُلُّهُمْ ءَاتِيهِ يَوْمَ الْقِيَامَةِ فَرْدًا.

**“Göylərdə və yerdə olan bütün məxluqatdan elə birisi yoxdur ki, (Qiyamət günü) Rəhmanın hüzuruna bir qul kimi gəlməsin. And olsun ki, Allah onları (bütün yaratdıqlarını) hesablamış və təkrar-təkrar saymışdır. Onların hamısı Qiyamət günü Onun hüzuruna tək-tək gələcəklər”.**[1]

Başqa bir ayədə Allah-Təala buyurur:

وَ يَوْمَ نُسَيِّرُ الْجِبَالَ وَ تَرَى الْأَرْضَ بَارِزَةً وَ حَشَرْنَاهُمْ فَلَمْ نُغَادِرْ مِنْهُمْ أَحَدًا.

**“O gün (Qiyamət günü) dağları (yerindən qoparıb) hərəkətə gətirəcəyik. (O vaxt) yeri dümdüz görəcəksən, (möminləri və kafirləri) bir yerə toplayacaq, onların heç birini (kənarda) qoymayacağıq”.**[2]

**Nəticə:** Nəml surəsinin 83-cü və 87-ci ayələrinin məzmununu nəzərə alaraq deyə bilərik ki, dünya iki günün intizarındadır; onlardan birində yalnız bəzi insanlar dirilib sorğu-suala çəkiləcək, digərində isə hamı. Şiə mənbələrindəki rəvayətlərə istinadən “birinci gün” İmam Zamanın (ə.f) zühurundan sonra və Qiyamət günündən qabaq olacaqdır.

Baxmayaraq ki, rəcətin baş verəcəyinə sübut olaraq qeyd etdiyimiz ayədə günahkar dəstənin rəcətindən söz açılır, lakin təkcə bu dəstə deyil, saleh insanlardan da bir dəstəsi rəcət edəcəkdir. Saysız hədislər saleh insanların rəcətindən xəbər verir. Tədqiqatçılar hər iki dəstənin rəcəti barədə kitablar qələmə almışlar ki, daha ətraflı məlumat əldə etmək istəyənlər bu kitablara müraciət edə bilərlər.

Saleh və ya günahkar insanlardan bir dəstəsinin Qiyamətdən qabaq bu dünyaya qayıdışı heyrətamiz bir məsələ

[1] Məryəm surəsi, 93-95-ci ayələr.
[2] Kəhf surəsi, 47-ci ayə.

deyildir, çünki keçmiş ümmətlərdə də bəzi insanlar öldükdən sonra yenidən dirilmiş və ikinci dəfə dünyadan köçmüşlər.[1]

Öldükdən sonra bir dəstə insanın bu dünyaya qayıdışı nə əqli mühakiməyə qarşıdır, nə də Quran və sünnəyə ziddir. Çünki qeyd etdiyimiz kimi, Qurani-Kərim keçmiş ümmətlərdə belə hadisələrin baş verdiyini xəbər verir və bu, belə hadisələrin mümkünlüyünə ən tutarlı dəlildir.

Bəzilərinin fikrincə, rəcət tənasüxdür, lakin bu fikir tamamilə əsassızdır. Tənasüx odur ki, insan öldükdən sonra onun ruhu ana bətnindəki körpəyə və ya başqa bir bədənə keçərək yenidən həyata başlayır. Halbuki, rəcətdə bu iki yanlış təsəvvürün heç biri yoxdur. Rəcət, keçmiş ümmətlərdə baş vermiş ölülərin dirilməsi və ya Qiyamət günü baş verəcək "cismani məad" kimidir. Əslində, rəcət, istisnasız olaraq bütün insanların diriləcəyi Qiyamət gününün kiçik bir cilvəsidir.

Şiələrin təfsir, hədis və kəlam kitablarında rəcət barədə ətraflı şəkildə bəhs edilmişdir. Bu barədə nəql olunan hədislər mütəvatirdir və otuzdan artıq hədis alimi əllidən artıq kitabda bu hədisləri nəql etmişlər.[2]

---

[1] Bəni-İsrail qövmündən bir dəstə insanın dirilməsi: Bəqərə surəsi, 55-56-cı ayələr; Bəni-İsrail qövmündən qətlə yetirilmiş bir nəfərin Musa peyğəmbərin (ə) inəyi vasitəsilə dirilməsi: Bəqərə surəsi, 72-73-cü ayələr; Bir dəstə insanın öldükdən sonra dirilməsi: Bəqərə surəsi, 243-cü ayə; Üzeyir peyğəmbərin (ə) yüz ildən sonra dirilməsi: Bəqərə surəsi, 259-cu ayə; Ölülərin İsa peyğəmbərin (ə) möcüzəsilə dirilməsi: Ali-İmran surəsi, 49-cu ayə.

[2] Biharul-ənvar, c.53, səh.136.

## Yüz otuzuncu bəhs
## Səhabələrin ədaləti

Həzrət Peyğəmbərin (s) səhabələri və silahdaşları o həzrətə iman gətirdikləri, o həzrətə yardımçı olub onu tək qoymadıqları üçün biz şiələrin nəzərində xüsusi ehtirama layiqdirlər: istər Bədr, Ühüd, Əhzab və Hüneyn savaşlarında şəhidlik şərbətini içən səhabələr, istərsə Peyğəmbərdən (s) sonra da həyat sürən səhabələr. Bu baxımdan bütün müsəlmanlar onları ehtiramla yad edirlər.

Lakin eyni zamanda bir məsələ də təəssübdən uzaq və obyektiv şəkildə araşdırılmalıdır. Məsələ budur: Görəsən səhabələrin hamısı ədalətli, təqvalı və günahdan uzaq insanlar olublarmı? Yoxsa tabeinlər kimi səhabələrin də hamısını ədalətli və saleh insanlar qəbul etmək düzgün olmazdı?

Aydın məsələdir ki, Peyğəmbəri (s) görmək və onun səhabəsi olmaq – baxmayaraq ki, bunun özü bir iftixar hesab olunur – insanın pak və günahsız olmasına dəlalət etmir. Çünki Qurani-Kərimə istinadən səhabələr Allah və Peyğəmbər (s) qarşısında iman və nifaq (münafiqlik), itaət və üsyan nöqteyi-nəzərindən müxtəlif siniflərə bölünürlər. Bunu nəzərə alaraq, səhabələrin hamısını eyni qiymətləndirmək, onların hamısını ədalətli, saleh və günahdan uzaq hesab etmək olmaz.

Şübhə yoxdur ki, Qurani-Kərim Həzrət Peyğəmbərin (s) səhabələrini müxtəlif məqamlarda mədh etmişdir.[1] Məsələn, Rəbbimiz Hüdeybiyyə sülhü zamanı Həzrət Peyğəmbərə (s) beyət edənlərdən razı qaldığını buyurur:

لَقَدْ رَضِيَ اللَّهُ عَنِ الْمُؤْمِنِينَ إِذْ يُبَايِعُونَكَ تَحْتَ الشَّجَرَةِ...

[1] Bax: Tövbə surəsi, 100-cü ayə; Fəth surəsi, 18-ci və 29-cu ayələr; Həşr surəsi, 8-9-cu ayələr.

**“And olsun ki, (Hüdeybiyyədə) ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu…”**[1]

Bəli, Allah onlardan **“beyət etdikləri zaman”**, yəni o həssas durumda beyət etdiklərinə görə razı qaldı və lakin bu razılıq, ömürlərinin sonunadək onların doğru yolda olacaqlarına zəmanət vermir. Çünki əgər onlardan biri və ya bir neçəsi gələcəkdə yollarını azsalar, şübhəsiz ki, Allahın bu razılığını, onların hər zaman saleh insan olmalarına dəlil gətirmək olmayacaq. Nəzərə alsaq ki, həmin hadisədə Allahın razı qaldığı insanlar Peyğəmbərdən (s) üstün deyildilər, bir görün Peyğəmbər (ə) haqqında Allah-Təala nə buyurur:

... لَئِنْ أَشْرَكْتَ لَيَحْبَطَنَّ عَمَلُكَ وَ لَتَكُونَنَّ مِنَ الْخَاسِرِينَ.

**“… Əgər (Allaha) şərik qoşsan, bütün əməllərin puça çıxacaq və mütləq ziyan çəkənlərdən olacaqsan!”**[2]

Bu qəbildən olan ayələr (Fəth surəsi, 18-ci ayə kimi) bu şəxslərin həmin vəziyyətdə əldə etdikləri məziyyəti açıqlayır və əlbəttə, əgər ömürlərinin sonunadək həmin məziyyəti qoruyub saxlasalar, doğru yolda olacaqlar.

Deməli, əgər hansısa bir səhabənin sonradan yolunu azdığına dair Quranda, hədislərdə və tarixi qaynaqlarda danılmaz sübutlar olarsa, bu kimi mədhlərə əsaslanıb həmin subutları inkar etmək olmaz.

Məsələn, Qurani-Kərim bəzi səhabələri fasiq adlandırmışdır:

يَاأَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِنْ جَاءَكُمْ فَاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوا...

**“Ey iman gətirənlər! Əgər bir fasiq sizə (pis) bir xəbər gətirərsə, dərhal (onun doğruluğunu) yoxlayın…”**[3]

---

[1] Fəth surəsi, 18-ci ayə.
[2] Zumər surəsi, 65-ci ayə.
[3] Hucurat surəsi, 6-cı ayə.

Başqa bir ayədə buyurulur:

أَ فَمَنْ كَانَ مُؤْمِنًا كَمَنْ كَانَ فَاسِقًا لَا يَسْتَوُونَ.

**“Məgər mömin kimsə ilə fasiq eynidirmi?! Əlbəttə, onlar eyni ola bilməzlər!”**[1]

Tarixi faktlara istinadən, ayədə fasiq kimi qələmə verilən şəxs Vəlid ibn Üqbədir. Baxmayaraq ki, o, Peyğəmbərin (s) səhabəsi olmuş və o həzrətlə birlikdə hicrət etmişdir, lakin öz etibarını qoruyub saxlaya bilməmişdir. O, Bəni-Müstəliq qəbiləsi haqqında yalan xəbər verdiyinə görə Allah onu fasiq adlandırmışdır.[2]

Bu və digər ayələri[3], eləcə də bəzi səhabələrin tənqid edildiyi hədisləri[4] nəzərə aldıqda, həmçinin tarixi mənbələrə müraciət edib bəzi səhabələrin tərcümeyi-halı ilə tanış olduqda[5], sayı yüz min nəfəri keçən Peyğəmbər (s) səhabələrinin hamısının ədalətli və saleh şəxs olduqlarını qətiyyətlə söyləmək ağlasığmaz görünür.

Bəhsimizin sonunda bir daha təkidlə xatırladırıq ki, İmamiyyə şiələri Peyğəmbər (s) səhabəsi olmaq iftixarını bəzi səhabələrin etdikləri bir sıra işlərin mühakimə edilməsinə maneə hesab etmir. Şiələrin əqidəsinə görə, Peyğəmbərin (s) səhabəsi olmaq öz-özlüyündə ömrün sonunadək günaha bulaşmamaq zəmanəti deyildir. Şiələr bu məsələdə Quran ayələrinə, səhih hədislərə, tarixi faktlara və əqlin mühakiməsinə əsaslanırlar.

[1] Səcdə surəsi, 18-ci ayə.
[2] Yuxarıdakı iki ayənin təfsirinə müraciət edin.
[3] Bax: Ali-İmran surəsi, 153-154-cü ayələr; Əhzab surəsi, 12-ci ayə; Tövbə surəsi, 45-47-ci ayələr.
[4] Bax: Camiul-usul, c.11, “Houz” fəsli, 7972-ci hədis.
[5] Bax: Səhih Buxari, c.5, Nur surəsinin təfsiri, səh.118-119.

## Yüz otuz birinci bəhs

Allah rəsulunu (s) və onun Əhli-beytini (ə) sevmək Quran və sünnənin üzərində təkid etdiyi məsələlərdən biridir. Allah-Təala bu xüsusda buyurur:

قُلْ إِنْ كَانَ ءَابَاؤُكُمْ وَ أَبْنَاؤُكُمْ وَ إِخْوَانُكُمْ وَ أَزْوَاجُكُمْ وَ عَشِيرَتُكُمْ وَ أَمْوَالٌ اقْتَرَفْتُمُوهَا وَ تِجَارَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَ مَسَاكِنُ تَرْضَوْنَهَا أَحَبَّ إِلَيْكُمْ مِنَ اللَّهِ وَ رَسُولِهِ وَ جِهَادٍ فِى سَبِيلِهِ فَتَرَبَّصُواْ حَتَّى يَأْتِىَ اللَّهُ بِأَمْرِهِ وَ اللَّهُ لَا يَهْدِى الْقَوْمَ الْفَاسِقِينَ.

**“(Ya Məhəmməd!) De ki: “Əgər atalarınız, oğullarınız, qardaşlarınız, övrətləriniz, qəbiləniz (qohumlarınız), qazandığınız mallar, kasad olmasından qorxduğunuz ticarət, xoşunuza gələn məskənlər sizə Allahdan, Onun peyğəmbərindən və Allah yolunda cihaddan daha əzizdirsə, Allahın əmri (əzabı) gəlincəyə qədər gözləyin. Allah fasiqləri doğru yola yönəltməz!”[1]**

Başqa bir ayədə buyurur:

… فَالَّذِينَ ءَامَنُواْ بِهِ وَ عَزَّرُوهُ وَ نَصَرُوهُ وَ اتَّبَعُواْ النُّورَ الَّذِى أُنزِلَ مَعَهُ أُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ.

**“… Ona (Peyğəmbərə) iman gətirən, əziz tutan, yardım göstərən və onunla endirilmiş nurun (Quranın) ardınca gedənlər - məhz onlar nicat tapanlardır!”[2]**

Bu ayədə Allah-Təala nicat tapmışların (saleh insanların) dörd xüsusiyyətini qeyd edir:

1. Peyğəmbərə (s) iman gətirmək;

---

[1] Tövbə surəsi, 24-cü ayə.
[2] Əraf surəsi, 157-ci ayə.

2. Peyğəmbəri (s) əziz tutmaq;

3. Peyğəmbərə (s) yardım göstərmək;

4. Peyğəmbərə (s) nazil olmuş nurun (Quranın) ardınca getmək.

Nəzərə alsaq ki, Peyğəmbərə (s) yardım göstərmək üçüncü yerdə qeyd edilib, deməli, ikinci yerdə qeyd edilən “əziz tutmaq”, heç şübhəsiz, Peyğəmbərə (s) ehtiram göstərmək və onu uca tutmaq mənasını daşıyır. Aydındır ki, Peyğəmbərə (s) ehtiram göstərmək onun həyatda olduğu dövrə məxsus deyil, necə ki, ona iman gətirmək onun həyatda olduğu dövrə məxsus deyil.

Həzrət Peyğəmbərin (s) Əhli-beytini (ə) sevməyə gəlincə, Qurani-Kərim onları sevməyi Həzrət Peyğəmbərin (s) çəkdiyi zəhmətlərə bir əvəz kimi səciyyələndirir:

...قُلْ لَا أَسْئَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى...

**“(Ya Məhəmməd!) De ki: “Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlara məhəbbətdən (Əhli-beytə sevgidən) başqa bir şey istəmirəm”.**[1]

Həzrət Peyğəmbərə (s) məhəbbət bəsləmək və ehtiram göstərmək təkcə Quranda deyil, hədislərdə də təkidlə buyurulmuşdur. Bu hədislərdən bəzilərinə nəzər salaq:

1. Sevimli Peyğəmbərimiz (s) buyurmuşdur:

لَا يُؤْمِنُ أَحَدُكُمْ حَتَّى أَكُونَ أَحَبَّ إِلَيْهِ مِنْ وُلْدِهِ وَ النَّاسِ أَجْمَعِينَ.

**“Mən sizə övladlarınızdan və bütün insanlardan daha sevimli olmayınca, mömin sayılmazsınız”.**[2]

2. Həzrət Peyğəmbər başqa bir hədisdə buyurur:

ثَلَاثٌ مَنْ كُنَّ فِيهِ ذَاقَ طَعْمَ الْإِيمَانِ: مَنْ كَانَ لَا شَيْءَ أَحَبَّ إِلَيْهِ مِنَ اللهِ وَ

[1] Şura surəsi, 23-cü ayə.
[2] Kənzul-ummal, c.1, hədis: 70 və 72; Camiul-usul, c.1, səh.238.

رَسُولِهِ، وَ مَنْ كَانَ لَئِنْ يُحرق بِالنَّارِ أَحَبَّ إِلَيْهِ مِنْ أَنْ يَرْتَدَّ عَنْ دِينِهِ، وَ مَنْ كَانَ يُحِبُّ لِلَّهِ وَ يَبْغِضُ لِلَّهِ.

"Üç xislətə sahib olan kəs imanı dadmış olar: 1- Heç nə ona Allah və Peyğəmbərindən (s) daha sevimli olmasın; 2- Cəhənnəm atəşində yanmaq onun üçün dindən dönməkdən (İslamdan çıxmaqdan) üstün olmasın; 3- Allaha görə sevsin və Allaha görə düşmənçilik etsin".[1]

Həzrət Peyğəmbərin (s) Əhli-beytini sevmək də hədislərdə təkidlə buyurulmuşdur. Bu hədislərdən bəzilərinə nəzər salaq:

1. Sevimli Peyğəmbərimiz (s) buyurmuşdur:

"Bir bəndə məni özündən, övladlarımı övladlarından və ailəmi (Əhli-beytimi) ailəsindən daha çox sevməyincə, mömin olmaz".[2]

2. Başqa bir hədisdə Həzrət Peyğəmbər (s) öz Əhli-beyti ilə bağlı buyurur: "Onları sevən, Allahı sevər. Onlarla düşmən olan, Allahla düşmən olar".[3]

Biz Həzrət Peyğəmbəri (s) və onun Əhli-beytini sevməyin nəqli dəlilləri (Quran ayələri və hədislər) ilə tanış olduq. İndi isə aşağıdakı suallara cavab verək:

***1-ci sual:*** Həzrət Peyğəmbəri (s) və onun Əhli-beytini (ə) sevməyin bizə nə kimi faydası vardır?

***2-ci sual:*** Həzrət Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) olan sevgi və hörmətimizi necə göstərə bilərik?

**1-ci sualın cavabı:** Kamal və fəzilət sahibi olan insanı sevmək kamilliyə aparan bir nərdibandır. İnsan birini səmimi qəlbdən sevdikdə, onun kimi olmağa çalışır, onun xoşuna gələn işləri görür və xoşuna gəlməyən işlərdən uzaqlaşır.

---

[1] Əvvəlki mənbə.

[2] "Mənaqib əl-İmam əmirəl-möminin", Hafiz Məhəmməd ibn Süleyman Kufi, c.2, hədis: 619 və 700; Biharul-ənvar, c.17, səh.13; İləluş-şəraye, səh.117, hədis: 3.

[3] Əvvəlki mənbə.

O gələcək...

Məlum məsələdir ki, insanın belə bir xislətə malik olması onun müsbət mənada dəyişməsinə, itaət yolunu tutub günahlardan çəkinməsinə səbəb olar. Dildə sevgi izhar edib əməldə bunun ziddinə davranmaq isə həqiqi sevginin olmaması əlamətidir. Bu həqiqət İmam Sadiqin (ə) söylədiyi iki beytdə öz əksini tapmışdır:

تَعْصِى الإلهَ وَ أنْتَ تُظْهِرُ حُبَّه          هَذَا لَعُمْرِى فِى الْفعال بَدِيعٌ

لَوْ كَانَ حُبُّكَ صَادَقًا لَأَطَعْتَهُ          إنَّ الْمُحِبَّ لِمَنْ يُحِبُّ مُطِيعٌ

“Allahın əmrindən çıxırsan və Onu sevdiyini izhar edirsən,
Canıma and olsun ki, bu çox qəribə bir işdir.
Əgər iddian doğru olsaydı, Ona itaət edərdin,
Həqiqətən, sevən şəxs öz məhbubuna müti olar (ona itaət edər.)”[1]

**2-ci sualın cavabı:** Həzrət Peyğəmbəri (s) və onun Əhlibeytini (ə) sevməyin faydalarından biri bizə aydın oldu. İndi də bu sevgini necə təzahür etməli olduğumuzu aydınlaşdıraq. Çünki burada əməldə öz əksini tapmayan (yalnız qəlbdə olan) daxili duyğudan deyil, əksinə, söz və davranışlarda özünü yetərincə göstərən bir sevgidən söhbət gedir.

Heç şübhəsiz, Həzrət Peyğəmbərə (s) və onun Əhlibeytinə (ə) olan sevginin təzahürlərindən biri, qeyd etdiyimiz kimi, onların yolunu getməkdir. Lakin bizim bəhsmiz bu daxili duyğunun başqa təzahürləri haqqındadır. Belə ki, camaatın məhəbbət və ehtiram əlaməti kimi qəbul etdiyi sözlər və əməllər ilə bu sevgini izhar etmək olar, əlbəttə, bu şərtlə ki, haram və şəriətə zidd olmasın.

Buna görə də, hər zaman, xüsusilə mövlud və ya vəfatlarının ildönümü günlərində Həzrət Peyğəmbəri (s) və onun Əhlibeytini (ə) yad etmək onlara olan məhəbbət və ehtiramın bir təzahürüdür. Bu baxımdan mövlud günlərini təntənəli şəkildə

[1] Səfinətul-bihar, c.1, səh.199.

qeyd etmək, onların fəzilət və üstünlüklərini xatırlamaq üçün məclislər təşkil etmək Peyğəmbərə (s) və onun Əhli-beytinə (ə) məhəbbət və sevginin əlaməti hesab edilir. Bu səbəbdəndir ki, Peyğəmbərin (s) mövlud gününü təntənəli şəkildə qeyd etmək müsəlmanlar arasında bir ənənəyə çevrilmişdir.

Diyarbəkri öz "Tarixul-xəmis" əsərində yazır: "Müsəlmanlar daima Peyğəmbərin (s) doğum gününü əziz tutmuş, bayram şənlikləri keçirmiş, yemək ehsan etmiş, fəqir-füqəraya sədəqə paylamış, sevinclərini izhar etmiş və məclislərində onun dünyaya gəlməsi macərasını bəyan etmişlər ki, bəlkə onlar üçün bir kəramət aşkarlansın".

Eynilə buna bənzər bir fikri İbn Həcər Qəstəlani adlı başqa bir tarixçi də öz kitabında qeyd etmişdir.[1]

## Yüz otuz ikinci bəhs

Ötən bəhsdə bəyan edilən mətləbdən dini rəhbərlərə matəm mərasimi keçirməyin fəlsəfəsi də aydınlaşır. Belə ki, onların çəkdiyi müsibət və çətinlikləri anmaq məqsədilə məclislər təşkil etmək onlara olan sevginin izharıdır. Oğlu Yusifi (ə) itirdiyinə görə Yəqub peyğəmbərin (ə) uzun illər göz yaşı töküb ağlaması[2] onun oğluna olan mənəvi bağlılığından, sevgisindən irəli gəlmişdir. Həzrət Peyğəmbərin (s) və onun Əhli-beytinin vəfat günlərində onları sevənlərin göz yaşı töküb ağlamaları, əslində, Yəqub peyğəmbər (ə) kimi davranmaqdır.

Ümumiyyətlə, doğmaları itirdikdə yas məclisi qurmaq Ühüd savaşında sevimli Peyğəmbərimizin (s) də gördüyü bir işdir. O, ənsar (mədinəli səhabələrin) qadınlarının Ühüd şəhidlərinə yas tutub ağladığını eşitdikdə, əmisi Həmzəni xatırlayaraq buyurmuşdu:

---

[1] Bax: əl-Məvahibul-lədunniyyə, c.21, səh.27; Tarixul-xəmis, c.1, səh.223.
[2] Bax: Yusif surəsi, 184-cü ayə.

"Amma Həmzəyə ağlayan yoxdur".[1]

Səhabələr başa düşdükdə ki, Həzrət Peyğəmbər (s) onun əmisinə də yas tutulmasını istəyir, öz qadınlarına Həmzə üçün yas məclisi təşkil etmələrini tapşırdılar. Seyyidüşşühəda Həmzə üçün yas məclisi quruldu və Həzrət Peyğəmbər (s) bu diqqəti təqdir edərək ənsar üçün dua etdi: "Allah Ənsara rəhmət etsin!"[2]

Bundan əlavə, Allah yolunda şəhid olanlar üçün yas mərasimi keçirməyin başqa bir fəlsəfəsi də vardır. Onları anmaq onların məktəbini qorumaq və əbədiləşdirməkdir: o məktəb ki, əsasını din yolunda fədakarlıq və zülmə baş əyməmək təşkil edir. Onların məntiqi bu idi: "Ləyaqətli ölüm alçaq həyatdan üstündür!" Hər Aşura günü bu məntiq bəşəriyyətə elan edilir və dünya xalqları ondan dərs alır.

[1] Sire-yi İbn Hişam, c.1, səh.99.
[2] Əvvəlki mənbə; Muqrizi, "İmtaul-əsma", c.11, səh.164.

## Yüz otuz üçüncü bəhs
## Peyğəmbərlərin (ə) və İmamların (ə) məqbərələri

Müdrik insanlar öz əcdadlarından çatan irsi qorumağa çalışır, onu "milli-mədəni irs" adlandıraraq hər bir təhlükədən mühafizə edirlər. Milli abidələr və keçmiş nəsillərin iftixarı hesab edilən bu milli-mədəni irsi qorumaqdan ötrü böyük məbləğdə vəsait sərf edirlər. Çünki bu irs, ata-babaları ilə yeni nəsil arasında bağlılıq zənciridir və millətlərin tərəqqi və inkişafında təkanverici rol oynayır.

Bu irs ilahi peyğəmbərlər və övliyalarla bağlı olarsa, qeyd edilən cəhətlərdən əlavə, insanların dini əqidəsinin qorunmasında çox böyük təsiri olar. Məsələn, qərblilər xristianlığı qəbul etmişlər. Lakin bir tərəfdən baş verən ictimai-siyasi dəyişikliklər, digər tərəfdən də İsa Məsihdən (ə) maddi bir izin qalmaması (belə ki, Həzrət İsanın (ə) hətta qəbri belə yoxdur) qərbli gənclərdə şübhələr doğurmuş və onu əfsanə hesab etmişlər.

Müsəlmanlar isə bu xüsusda başıucadırlar. Onlar tarix boyu Peyğəmbər (ə) və Əhli-beytdən (ə) qalan irsi dövranın fəlakətlərindən qorumuşlar. Müsəlmanlar iddia edirlər ki, ilahi bir şəxsiyyət on dörd əsr bundan öncə peyğəmbərlik məqamına seçilmiş, çox mütərəqqi bir həyat proqramı ilə cəmiyyətin islahı ilə məşğul olmuş və əsaslı dəyişikliklər etmişdir ki, elə bu günümüzdə də insanlar onun nəticələrindən bəhrələnirlər. Bu islahatçının varlığı və onun etdiyi inqilab haqqında heç bir şübhəyə yer yoxdur. Çünki onun doğulduğu, ibadət etdiyi, peyğəmbərliyə yetişdiyi və xütbələr oxuduğu yerlər, şücaətlə düşmənlərin hücumlarından müdafiə olunduğu məntəqələr və nəhayət, öz zəmanəsinin böyük şəxsiyyətlərinə yazdığı məktublar, irs qoyduğu yüzlərlə başqa əlamətlər toxunulmamış və dəyişdirilməmiş bir halda gələcək nəsillərə çatdırıl-

mışdır. Buna görə də dünya müsəlmanlarının vəzifəsi bu irsi qoruyub saxlamaq və yaşatmaqdır.

Bu açıqlama ilə sözügedən qiymətli irsin qorunmasının ictimai əhəmiyyəti aydınlaşa bilər və elə Quran və İslam tarixi də bu əhəmiyyəti təsdiqləməkdədir. Quranın bəzi ayələrində buyurulur ki, Allah-Təala səhər-axşam Onu təqdis edib şəninə təriflər deyildiyi evlərin tikilib ucaldılmasına izn vermişdir. Rəbbimiz buyurur:

فِى بُيُوتٍ أَذِنَ اللَّهُ أَن تُرْفَعَ وَ يُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَ الْئَاصَالِ. رِجَالٌ لَّا تُلْهِيهِمْ تِجَارَةٌ وَ لَا بَيْعٌ عَن ذِكْرِ اللَّهِ وَ إِقَامِ الصَّلَاةِ وَ إِيتَاءِ الزَّكَاةِ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَ الْأَبْصَارُ.

**“Allahın tikilib ucaldılmasına və Öz adının zikr edilməsinə izn verdiyi o evlərdədir ki, orada səhər-axşam Onu təqdis edib şəninə təriflər deyərlər. O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən (Qiyamət günündən) qorxarlar”.**[1]

Şübhəsiz, ayədəki “evlər” sözündə “məscidlər” nəzərdə tutulmur. Çünki Quranda “ev” deyildikdə “məscid”dən fərqli tikili nəzərdə tutulur. Məsələn, “Məscidul-həram” və “Beytullahul-həram” bir-birindən fərqli tikililərdir.[2] Hədislərə əsasən, “evlər”dən məqsəd, peyğəmbərlərin, xüsusilə də Həzrət Məhəmməd peyğəmbərin (s) evi və pak zərihidir. Siyuti Əbu-Bəkrdən nəql edir ki, bu ayə Peyğəmbərə (s) nazil olduqda biz hamımız məsciddə idik. Bir kişi ayağa qalxıb soruşdu: “Bu evlər kimin evləridir?”

[1] Nur surəsi, 36-37-ci ayələr.

[2] Məscidul-həram, yəni toxunulmaz məscid; Beytullahul-həram , yəni Allahın toxunulmaz evi.

Peyğəmbər (s) buyurdu: “Peyğəmbərlərin evləridir”.

Mən ayağa qalxıb soruşdum: “Əli ilə Fatimənin evi də bura daxildirmi?”

Peyğəmbər (s) cavabında buyurdu: “Bəli. Onların evi bu evlərin ən yaxşısıdır”.[1]

Ayədə işlənən “بُيُوتٍ” - “evlər” sözündə hansı mənanın nəzərdə tutulduğu aydın oldu. İndi də, “أَن تُرْفَعَ” ifadəsinə aydınlıq gətirək. Bununla bağlı iki ehtimal mövcuddur:

Ayədə işlənən “أَن تُرْفَعَ” ifadəsi “**tikilib ucaldılması**” mənasını daşıyır. Belə ki, “رَفَعَ” sözü (“تُرْفَعَ” sözü bu kökdən alınıb) digər ayələrdə elə bu mənada işlədilmişdir. Bəqərə surəsinin 127-ci ayəsində buyurulur:

وَ إِذْ يَرْفَعُ إِبْرَاهِيمُ الْقَوَاعِدَ مِنَ الْبَيْتِ وَ إِسْمَاعِيلُ...

**“İbrahim və İsmail Kəbənin bünövrəsini ucaltdıqları zaman...”**

2. Ayədə işlənən “أَن تُرْفَعَ” ifadəsi **“hörmətini saxlamaq və qorumaq”** mənasını daşıyır.

Birinci mənaya əsasən, peyğəmbərlərin evləri artıq tikilmiş olduğuna görə, burada məqsəd evlərin tikilməsi deyil, onları uçulub-dağılmaqdan qorumaqdır. İkinci mənaya əsasən, məqsəd, bu evləri uçulub-dağılmaqdan qorumaqla yanaşı, həm də onların hörmətini saxlamaq və onlara qarşı hörmətsizlik sayılan hər bir işin qarşısını almaqdır.

Buna görə də, müsəlmanlar Peyğəmbərin (s) evinin hörmətini saxlamalı və onu qorumağa çalışmalı, bu işi özləri üçün şərəf hesab etməlidirlər.

Əshabi-kəhf haqqında bəhs edən ayədə oxuyuruq ki, gizləndikləri yer bəlli olduqda onların xatirəsini hansı şəkildə

[1] əd-Durrul-mənsur, c.5, səh.203.

əbədiləşdirmək mübahisə mövzusu olur. Bir dəstə təklif edir ki, əshabi-kəhfin xatirəsini əbədiləşdirmək üçün onların qəbirləri üstündə bir bina tikilsin. Başqa bir dəstə isə deyir ki, gərək onların qəbirləri üstündə bir məscid tikilsin. Quran bu təkliflərin hər ikisini məqbul tərzdə nəql edir. Əgər bu təkliflər İslam prinsiplərinə zidd olsaydı, Quran onu başqa bir tərzdə nəql edər və ya onları tənqid edərdi. Allah-Təala buyurur:

... إِذْ يَتَنَازَعُونَ بَيْنَهُمْ أَمْرَهُمْ فَقَالُواْ ابْنُواْ عَلَيْهِم بُنْيَانًا رَّبُّهُمْ أَعْلَمُ بِهِمْ قَالَ الَّذِينَ غَلَبُواْ عَلَى أَمْرِهِمْ لَنَتَّخِذَنَّ عَلَيْهِم مَّسْجِدًا.

**“O zaman öz aralarında onların (əshabi-kəhfin) işi barəsində mübahisə edirdilər. (Onlardan bir dəstəsi) dedi: “Onların üstündə bir bina tikin. Rəbbi daha yaxşı bilir!” Əshabi-kəhf haqqındakı mübahisədə qalib gələnlər isə: “Onların (məzarı) üstündə bir məscid tikəcəyik!”- dedilər”.**[1]

Qətiyyətlə deyə bilərik ki, bu iki ayə (Nur və Kəhf surələrindəki ayələr) mənəvi irsin qorunması ənənəsinin İslamla uzlaşdığını təsdiq edir. Buna görə də peyğəmbərlərin qəbirlərinin, xüsusilə də Həzrət Məhəmməd (s) və onun pak övladlarının məzarlarının təmiri, həmçinin onların qəbirləri üzərində və ya qəbirləri ətrafında məscidlərin tikilməsi İslama müvafiq bir işdir.

[1] Kəhf surəsi, 21-ci ayə.

## Yüz otuz dördüncü bəhs
## Qəbirlərin ziyarəti

Möminlərin, xüsusilə qohum və tanışların qəbirlərini ziyarət etmək tərbiyəvi əhəmiyyətə malik olan dini ənənələrdən biridir. Belə ki, dünyanı tərk etmiş insanların qəbirlərini ziyarət etmək insanı qəflətdən ayıldır və agahlara bir ibrət dərsi olur. Onlar öz-özlərinə belə deyirlər: "Bu müvəqqəti dünya həyatı yersiz təlaşlara dəyməz". Nəticə etibarilə bu insanlar həyata başqa bir gözlə baxacaq və bu da onların mənəviyyatında, psixologiyasında müsbət dəyişikliklərə səbəb olacaqdır. Həzrət Peyğəmbər (s) bu xüsusda buyurmuşdur:

زُورُوا الْقُبُورَ فَإِنَّهَا تُذَكِّرُكُم الْاخِرَةَ.

"Qəbirləri ziyarət edin, çünki bu, sizə axirəti xatırladır".[1]

Bundan əlavə, böyük dini şəxsiyyətlərin ziyarəti bir növ dinin və mənəvi dəyərlərin yayılmasına rəvac verir. Belə ki, dini şəxsiyyətlərin abidələrinə böyük hörmət və diqqət insanlarda bu fikri aşılayır: bu böyük hörmət və diqqət məhz onların yüksək mənəviyyata sahib olmalarından irəli gəlir. Yoxsa, mənəviyyatdan yoxsul olan qüdrət və var-dövlət sahibləri torpaq altında uyuyurlar və onları heç kəs yad etmir.

Sevimli Peyğəmbərimiz (s) ömrünün son günlərində Bəqi qəbristanlığına getmiş və qəbir əhli üçün dua edib Allahdan onların bağışlanmasını diləyərək buyurmuşdu: "Rəbbim əmr etdi ki, Bəqi qəbristanlığına gəlim və onların bağışlanmasını diləyim". Sonra buyurmuşdu: "Onların qəbirlərini ziyarət etdikdə, bunları deyin:

السَّلَامُ عَلَى أَهْلِ الدِّيَارِ مِنَ الْمُؤْمِنِينَ وَ الْمُسْلِمِينَ يَرْحَمُ اللهُ الْمُسْتَقْدِمِينَ مِنَّا

[1] Sünən-i İbn Macə, c.1, "Qəbir ziyarəti haqda buyurulanlar" fəsli, səh.113.

O gələcək...

وَ الْمُسْتَأْخِرِينَ وَ إِنَّا إِنْ شَاءَ اللهُ بِكُمْ لاَحِقُونَ.

“Ey mömin və müsəlmanlar diyarının əhli, salam olsun sizə! Allah bizim ölənlərimizə və qalanlarımıza rəhmət etsin. Biz də inşallah sizə qovuşacağıq!”[1]

Hədis kitablarında ilahi övliyaların məqbərələrinin ziyarəti təkid olunmuş müstəhəb bir əməl kimi göstərilir. Əhli-beyt İmamları (ə) həmişə Həzrət Peyğəmbərin (s) və özlərindən qabaqkı imamların qəbirlərini ziyarət etmiş, öz ardıcıllarını da bu işi görməyə dəvət etmişlər.

## Yüz otuz beşinci bəhs

“غُلُوّ” (ğuluvv) sözünün lüğəvi mənası “həddi aşmaq”dır. Allah-Təala kitab əhlinə xitabən buyurur:

يَا أَهْلَ الْكِتَابِ لاَ تَغْلُواْ فِى دِينِكُمْ وَ لاَ تَقُولُواْ عَلَى اللَّهِ إِلَّا الْحَقَّ...

**“Ey Kitab-əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin!”[2]**

Kitab-əhli İsa peyğəmbəri (ə) Allah və ya Allahın oğlu hesab etdikləri üçün Rəbbimiz onlara “həddi aşmayın!”- deyə xəbərdarlıq edir.

Sevimli Peyğəmbərimiz (s) vəfat etdikdən sonra bir dəstə onun və eləcə də Məsum İmamlar (ə) barəsində ifrata vararaq onlara Allaha aid olan məqamları nisbət vermişlər. Məhz bu səbəbdən də onlar “غَالى” - “həddi aşan” adlandırılıb.

Şeyx Mufid (r.ə) yazır: “Ğaĺilər, İslamı qəbul etmiş, lakin Həzrət Əlinin (ə) və onun övladlarından olan imamların “üluhiyyət” (ilahilik) və “peyğəmbərlik” məqamına sahib olmaları-

[1] Səhih Müslim, c.3, “Qəbristanlığa daxil olarkən nə deməli” fəsli, səh.64.
[2] Nisa surəsi, 171-ci ayə.

nı qəbul edirlər. Onları (imamları) elə sifətlərlə vəsf etmişlər ki, həqiqət hüdudlarını aşır”.[1]

Əllamə Məclisi isə bunları yazır: “Peyğəmbər (s) və İmamlar (ə) barədə “ğuluvv etmək” odur ki, onları Allah adlandırasan, ibadət və itaətdə onları Allaha şərik qoşasan, onları yaradan və ruzi verən hesab edəsən, Allahın onların vücuduna hülul etdiyini qəbul edəsən, Allah tərəfindən ilham olmadan onların qeybdən agah olduqlarını söyləyəsən, İmamları (ə) peyğəmbər hesab edəsən, onlara sevginin insanı dini vəzifələrdən azad etdiyini düşünəsən”.[2]

Həzrət Əli (ə) və onun pak övladları (ə) hər zaman “ğalilər”dən uzaq durmuş və onları lənətləmişlər. Biz burada bu xüsusda yalnız bir hədislə kifayətlənirik. İmam Sadiq (ə) öz ardıcıllarına belə buyurmuşdur: “Yeniyetmələrinizi ğalilərdən qoruyun ki, imanları korlanmasın. Həqiqətən də, ğalilər insanların ən pisidir! Onlar Allahın əzəmətini kiçiltməyə və bəndələrə rübubiyyət məqamı verməyə çalışırlar”.[3]

Bu üzdən də onların özlərini müsəlman kimi göstərmələrinin heç bir faydası yoxdur və böyük dini şəxsiyyətlər onları kafir hesab edirlər. Qeyd edək ki, həddi aşmaqdan çəkinməklə yanaşı, Peyğəmbər və İmamlar (ə) haqda bütün inanc və fikirləri də “ğuluvv” adlandırmaq olmaz. Digər məsələlərdə olduğu kimi, burada da sayıq davranıb düzgün meyarlara əsaslanaraq əqidələri dəyərlənləndirmək lazımdır.

[1] Təshihul-etiqad, səh.109.
[2] Biharul-ənvar, c.25, səh.364.
[3] Əvvəlki mənbə, səh.265.

X FƏSİL

# HƏDİS, İCTİHAD VƏ FİQH

O gələcək...

## Yüz otuz altıncı bəhs

İmamiyyə şiələri əqidə və şəriət məsələlərində etibarlı ravilərin və mühəddislərin sevimli Peyğəmbərimizdən (s) nəql etdiyi hədislərə əməl edirlər: istər bu hədislər şiə mənbələrində olsun, istərsə də sünni mənbələrində. Bu üzdən şiələrin fiqh kitablarında bəzən əhli-sünnə mənbələrində nəql edilən hədislərə də istinad edilir (hədis haqda bəhs edən "Dirayə" elmində hədislər dörd qismə bölünürlər və bu növ hədislərə "müvəssəq hədis"[1] deyilir) və bəzi qərəzlilərin şiələr barəsində irəli sürdükləri ittihamlar əsassızdır.

Şiə fiqhi Quran, sünnə, əql və icmaya əsaslanır.

Sünnə, başda Həzrət Peyğəmbər (s) olmaqla Məsum İmamların (ə) kəlamlarından (قَوْل), rəftarlarından (فِعْل) və hansısa bir hadisəyə münasibətindən (تَقْرير) ibarətdir.

Buna görə də müvəssəq bir ravinin Həzrət Peyğəmbərdən (s) nəql etdiyi hədis şiələrin nəzərində mötəbər hədis hesab edilir.

## Yüz otuz yeddinci bəhs

Səhih sənədlə Məsum İmamlardan (ə) nəql olunan hədis və rəvayətlər də "şəri dəlil" hesab edilir: onların məzmununa əməl edilməli və onlara müvafiq olaraq fətva verilməlidir.

Əhli-beyt imamları (ə) "müctəhid" (ictihad edən alim) və ya "müfti" (fətva verən alim) deyildirlər. Onların nəql etdikləri həqiqətin özüdür və onlar bu həqiqətləri aşağıdakı yollarla əldə ediblər:

**1. Həzrət Peyğəmbərdən (s) nəql:**

Məsum İmamlar (ə) hədisləri Həzrət Peyğəmbərdən (s) əxz etmiş - bilavasitə və ya ata-babalarının vasitəsilə - və

[1] Etibar edilən, doğru.

O gələcək...

başqalarına nəql etmişlər. Bu növ hədislər - yəni hər İmamın (ə) özündən qabaqkı İmamdan (ə), onun da özündən qabaqkı İmamdan (ə) nəql etdiyi və beləcə bu silsilənin sevimli Peyğəmbərimizə (s) yetişdiyi hədislər - şiə hədis mənbələrində kifayət qədər çoxdur. Əgər istinad silsiləsi Həzrət Peyğəmbərə (s) yetişən Əhli-beyt hədisləri bir yerə toplanarsa, böyük bir etibarlı hədis mənbəyini təşkil edər və bu mənbə müsəlman hədis və fiqh alimləri üçün böyük bir xəzinəyə çevrilər. Bu hədislərdən bir nümunəyə – deyilənlərə görə, bu hədisin bir nüsxəsi “qızıl silsiləli hədis” ünvanında maarifpərvər Samani hökmdarlarının sarayındakı kitabxanada bir təbərrük olaraq qorunub saxlanılırdı - nəzər salaq:

Şeyx Səduq öz “Tövhid” əsərində iki ravi vasitəsilə Əbus-Sələt Hərəvidən nəql edir ki, o dedi:

Mən Əli ibn Musa Rza (ə) (səkkizinci imam) ilə yol yoldaşı idim və biz Nişaburdan keçirdik. Bu zaman Nişabur mühəddislərindən bir dəstəsi, o cümlədən Məhəmməd ibn Rafe, Əhməd ibn Hərb, Yəhya ibn Yəhya, İshaq ibn Rahveyh və bir dəstə elmsevərlər İmamın (ə) miniyinin yüyənini tutub dedilər: “Səni pak ata-babalarına and veririk, onlardan eşitdiyin hədislərdən birini bizə nəql et!” Bu zaman İmam (s) başını kəcavədən bayıra çıxararaq buyurdu:

حَدَّثَنِی أَبِی الْعَبْدُ الصَّالِحُ مُوسَی بِنْ جَعْفَر قَالَ حَدَّثَنِی أَبِی الصَّادِق جَعْفَر بِنْ مُحَمَّد قَالَ حَدَّثَنِی أَبِی أَبُو جَعْفَر مُحَمَّد بِنْ عَلِی بَاقِرُ عِلْم الأَنْبِیَا قَالَ حَدَّثَنِی أَبِی عَلِی بِنْ الحُسَیْن سَیِّدُ الْعَابِدِین قَالَ حَدَّثَنِی أَبِی سَیِّدُ شَبَاب أَهْلِ الْجَنَّة الحُسَیْن قَالَ حَدَّثَنِی أَبِی عَلِی بِنْ أَبِی طَالِب سَمِعْتُ النَّبِیّ یَقُول سَمِعْتُ جِبْرِیل یَقُول سَمِعْتُ الله عَزَّ وَ جَلَّ یَقُول: لَا إِلهَ إِلَّا اللهُ حِصْنِی فَمَنْ دَخَلَ حِصْنِی أَمِنَ مِنْ عَذَابِی.

O gələcək...

“Saleh bəndə olan atam Musa ibn Cəfər öz atası Cəfər Sadiq ibn Məhəmməddən, o da atası Məhəmməd Baqirul-ulum ibn Əlidən, o da atası Əli Seyyidul-abidin ibn əl-Hüseyndən, o da atası cənnət cavanlarının ağası olan Hüseyndən, o da atası Əli ibn Əbu Talibdən nəql edir və o da Peyğəmbərdən nəql edir ki, dedi: Mən Cəbraildən eşitdim ki, belə dedi: “Allah-Təala buyurur: “La ilahə illəllah” mənim qalamdır. Mənim qalama daxil olan şəxs əzabımdan amanda qalar”. Sonra yola düşərkən İmam (ə) uca səslə buyurdu:

بِشُرُوطِهَا وَ أنَا مِنْ شُرُوطِهَا.

“Bunun şərtləri var və mən o şərtlərdən biriyəm!”[1]

***2. Həzrət Əlinin (ə) kitabından nəql:***

Həzrət Əli (ə) daim Həzrət Peyğəmbərin (s) kənarında olmuş və bu səbəbdən də Həzrət Peyğəmbərdən (s) eşitdiyi çoxsayda hədisi bir kitab şəklində toplamışdır. Həzrət Əlinin (ə) vəfatından sonra onun ailəsinə yadigar qalan bu kitabın özəllikləri Əhli-beyt İmamlarından (ə) nəql olunan hədislərdə açıqlanmışdır. İmam Sadiq (ə) buyurur: “Bu kitabın uzunluğu yetmiş dirsəkdir. Əli ibn Əbu Talib (ə) bu kitabı Allah rəsulunun (s) diktəsi ilə yazmışdır. Camaatın ehtiyac duyduğu hər bir məsələ orada bəyan olunmuşdur”.[2]

Qeyd etmək lazımdır ki, bu kitab Həzrət Əlinin (ə) soyunun davamçıları arasında atadan-oğula keçmiş, İmam Baqir (ə) və İmam Sadiq (ə) dəfələrlə ondan hədislər nəql etmiş və onu ardıcıllarına da göstərmişlər. İndi də həmin kitabın hədislərindən bir qismi şiə hədis mənbələrində, o cümlədən “Vəsailuş-şiə” hədis məcmusunun müxtəlif fəsillərində mövcuddur.

[1] Tövhid, Şeyx Səduq, 1-ci fəsil, 21, 22 və 23-cü hədislər.
[2] Biharul-ənvar, c.26, səh.18-66.

O gələcək...

### *3. İlahi ilham:*

Əhli-beyt İmamlarının (ə) elminin başqa bir qaynağı “ilahi ilham”dır. Daha öncə də qeyd etmişdik ki, ilham yalnız peyğəmbərlərə xas deyildir. Tarix boyu bir çox övliyalar da ondan bəhrələnmişlər. Tarix xəbər verir ki, peyğəmbər olmayan bir çox şəxslərə qeyb aləminin sirləri ilham edilmişdir. Qurani-Kərim də onlardan bəziləri haqqında məlumat verir. Bir neçə gün Musa peyğəmbərlə (ə) yol yoldaşı olan və ona qeybi həqiqətləri öyrədən şəxs (Xızır) haqqında Rəbbimiz buyurur:

فَوَجَدَا عَبْدًا مِنْ عِبَادِنَا ءَاتَيْنَاهُ رَحْمَةً مِنْ عِنْدِنَا وَ عَلَّمْنَاهُ مِنْ لَدُنَّا عِلْمًا.

**“Öz dərgahımızdan mərhəmət əta etdiyimiz və Öz tərəfimizdən elm öyrətdiyimiz bəndələrimizdən birini tapdılar”.**[1]

Eləcə də Süleyman peyğəmbərin (ə) vəziri olan Asəf ibn Bərxiyanı xatırladaraq buyurur:

قَالَ الَّذِى عِندَهُ عِلْمٌ مِّنَ الْكِتَابِ...

**“Kitabdan bir qədər xəbəri olan birisi dedi...”**[2]

Bu şəxslər öz elmlərini adi qayda ilə öyrənməmişdilər. Onlar Quran təbirincə desək, “lədunni elmə” - Allah tərəfindən öyrədilən elmə sahib idilər: **“Öz tərəfimizdən elm öyrətdiyimiz”.**

Beləliklə, peyğəmbər olmayan bəzi ucaməqamlı insanlara Allah tərəfindən həqiqətlər ilham olunmuşdur. Həm şiə, həm də əhli-sünnə hədis mənbələrində belə insanlar “mühəddəs” adlandırılıb. Yəni peyğəmbər olmasalar da, mələklər onlarla danışıb.

Buxari öz “Səhih” əsərində Həzrət Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: “Sizdən öncə Bəni-İsrail arasında

[1] Kəhf surəsi, 65-ci ayə.
[2] Nəml surəsi, 40-cı ayə.

eləlari olmuşdur ki, peyğəmbər olmadıqları bir halda mələklər onlarla danışmışdır”.[1]

Beləliklə, dini məsələlərdə müsəlman ümmətin müraciət yeri olan Əhli-beyt İmamları (ə) bəzi sualların cavabını – o suallar ki, onların cavabı Peyğəmbər (s) hədislərində və Həzrət Əlinin (ə) kitabında olmayıb - ilham yolu təlim almışlar.[2]

## Yüz otuz səkkizinci bəhs

Sevimli Peyğəmbərimizin (s) hədisləri Quran kimi xüsusi önəmə malikdir. Belə ki, Peyğəmbər sünnəsi Allahın kitabının kənarında müsəlman əqidəsi və fiqhinin əsaslandığı mənbə və sənəd hesab edilir. Sevimli Peyğəmbərimizin (s) vəfatından sonra müsəlmanlardan bir qismi zəmanənin hökmdarlarının təzyiqləri altında Peyğəmbər hədislərini yazmadılar. Lakin xoşbəxtlikdən Əhli-beyt İmamlarının (ə) ardıcılları bir an belə hədislərin yazılması işində səhlənkarlıq göstərməmiş və Peyğəmbərimizin (s) vəfatından sonra o həzrətin hədislərini toplayıb yazmışlar. Ötən bəhsdə qeyd etdik ki, Əhli-beytdən nəql olunan hədislərin bir qismi Peyğəmbərdən (s) əxz edilmişdir.

Tarix boyunca Əhli-beyt məktəbinin yetirmələri böyük hədis topluları yazmışlar və “rical” kitablarında (hədisləri nəql edən şəxslər haqqında olan kitablarda) onlar barəsində məlumatlar qeyd olunub. Xüsusilə, hicri tarixilə dördüncü və beşinci əsrlərdə İmamların (ə) dövründə və onların şagirdləri tərəfindən qələmə alınan əsərlərdən istifadə edilərək böyük hədis topluları yazılmışdır ki, bu gün də həmin toplular şiələrin əqidə və ehkamının istinad yeri hesab edilir. Aşağıda bu kitabların və onların müəlliflərinin adlarını qeyd edirik:

[1] Səhih Buxari, c.2, səh.149.
[2] “Mühəddəs” məsələsi ilə bağlı “İrşadus-sari fi şərhi Səhih əl-Buxari” kitabına və s. mənbələrə müraciət etmək olar.

1. "Usuli-kafi", 8 clddə, müəllifi: Məhəmməd ibn Yəqub Kuleyni (h.q. 329-cu ildə vəfat etmişdir);

2. "Mən la yəhzəruhul-fəqih", 4 cilddə, müəllifi: Şeyx Səduq adı ilə tanınmış Məhəmməd ibn Əli ibn Babveyh (h.q. 306-381-ci illər);

3. "Təhzib", 10 cilddə, müəllifi: Şeyx Tusi adı ilə tanınmış Məhəmməd ibn Həsən Tusi (h.q. 385-460-ci illər);

4. "İstibsar", 4 cilddə, müəllifi: Şeyx Tusi.

Bunlar şiələrin öz təlatümlü tarixlərində dördüncü və beşinci əsrədək (miladi tarixilə X-XI əsrlər) yazdıqları ikinci nəsil hədis külliyatıdır. Artıq qeyd etdiyimiz kimi, İmamların (ə) öz dövrlərində, yəni ikinci və üçüncü əsrlərdə (miladi tarixilə VIII-IX əsrlər) birinci nəsil küliyyat və həmin toplulara əlavə olaraq "dörd yüz təməl" toplusu yazılmışdır ki, orada olan hədislər sonralar ikinci nəsil küliyyatda cəm olunmuşdur.

Hədis elmi daima şiələrin diqqət mərkəzində olduğu üçün on bir-on ikinci əsrlərdə (miladi tarixlə XVII - XVIII əsrlər) də hədis küliyyatları toplanmışdır. Onların arasında Məhəmmədbaqir Məclisinin "Biharul-ənvar", Məhəmmədhəsən Hürr Amulinin "Vəsailuş-şiə" və Məhəmməd Möhsin Feyz-Kaşaninin "Vafi" əsərləri daha çox tanınmışdır.

Aydın məsələdir ki, şiələr hər hədisə əməl etmirlər: Quran və danılmaz sünnəyə zidd olan hədisləri dəlil hesab etmirlər. Həmçinin hədis kitablarında hansısa bir hədisin yer alması hələ o demək deyildir ki, həmin kitabın müəllifi bu hədisi qəbul edir. Hədislər şiə alimləri tərəfindən bir neçə qrupa bölünür: səhih, həsən, müvəssəq və zəif. Bu barədə "Dirayə" elmində geniş bəhs edilmişdir.

## Yüz otuz doqquzuncu bəhs

Ötən bəhsdə qeyd etdik ki, şiə fiqhi Quran, sünnə, əql və icmaya əsaslanır. Usuli-fiqh elmində bəhs olunan xüsusi

qaydalarla bu dəlillər əsasında şəriət hökmünün çıxarılması "ictihad" adlanır.

İslam şəriəti sonuncu səmavi şəriət olduğundan fərdi və ictimai həyatda insanların qarşılaşacağı hər bir durumu dəyərləndirə və onları istiqamətləndirə bilməlidir. Həzrət Peyğəmbər (s) həyatda ikən müsəlmanlar üçün əməli örnək idi. Lakin məlum olduğu kimi, dünyada baş verən dəyişikliklər yeni vəziyyətlər yaradır və təbii ki, onların hər birinin özünəxas şəri hökmü vardır. Odur ki, ictihad qapısının fəqihlərin üzünə hər zaman açıq olması zəruri bir məsələyə çevrilir. Məgər mükəmməl və hərtərəfli bir din olan İslam, ortaya çıxan yeni-yeni suallar qarşısında bəşəri cavabsız qoyarmı?!

Məlum olduğu kimi, Usuli-fiqh elminin alimləri ictihadı 2 qismə bölürlər: 1- Mütləq ictihad; 2- Məzhəbdə ictihad.

Məsələn, əgər bir fəqih Əbu Hənifənin fiqhi məzhəbi çərçivəsində ictihad edirsə, yəni onun hər hansı bir məsələ ilə bağlı nəzərini aydınlaşdırmağa çalışırsa, onun bu əməli "məzhəbdə ictihad" adlanır. Lakin əgər bir fəqih müəyyən bir fərdin fiqhi məzhəbi çərçivəsində deyil, özü şəri dəlillər vasitəsilə ilahi hökmü əldə etməyə çalışırsa, (istər hansısa bir məzhəbin nəzərinə müvafiq olsun, istərsə də zidd) buna "mütləq ictihad" deyilir.

Təəssüflər olsun ki, hicri tarixilə 665-ci ildə "mütləq ictihad" qapısı əhli-sünnə alimlərinin üzünə bağlandı[1] və ictihad yalnız müəyyən məzhəblərin çərçivələri ilə məhdudlaşdı. Bu isə, heç şübhəsiz, azad şəkildə həqiqət axtarışı ilə ilahi hökmlərin dərk edilməsi yolunda bir növ maneə və səddir.

Şiə fəqihləri Quran, sünnə, əql və icma əsasında ictihad edirlər. İlahi hökmləri dərk etməkdə onlar üçün sözügedən "şəri dəlillər"ə (Quran, sünnə, əql və icma) əsaslanmaqdan başqa bir çərçivə yoxdur. Məhz davamlı ictihadın sayəsin-

[1] Muqrizi, "əl-Xitət", c.2, səh.344.

də şiə məzhəbinin fəqihləri bəşərin müxtəlif və dəyişkən ehtiyaclarına cavab verə bilən bir fiqh yarada bilmişlər. Şiə fiqhində dünyadan köçmüş müctəhidə "ibtidai təqlid"[1] yasaqdır və yalnız cəmiyyətin, zamanın nəbzini tutmuş diri müctəhidə "ibtidai təqlid" etmək olar ki, bu da şiə fiqhinin inkişaf amilidir.

Şiə fəqihlərinin rəyi bir çox məsələlərdə başqa məzhəblərin fəqihlərinin rəyilə üst-üstə düşür. Şeyx Tusinin "əl-Xilaf" əsərini mütaliə etmək bu həqiqəti görməkdə bizlərə kömək edər. Belə ki, şiə fiqhi ilə digər dörd məzhəb və ya onlardan daha öncə mövcud olmuş məzhəblər arasında çox az məsələlərdə fikirayrılığı vardır. Eyni zamanda bu məzhəb bir sıra məsələlərdə fərqli görüşə sahibdir. Onlardan bəzilərini qarşıdakı bəhslərdə qeyd edəcəyik. Çünki bəziləri elə güman edirlər ki, bu məsələlərin şəri dəlili yoxdur, yaxud Quran və sünnəyə ziddir. Lakin məsələ, onların güman etdikləri kimi deyil.

## Yüz qırxıncı bəhs

Sevimli Peyğəmbərimizin (s) sünnəsi onun səhabələrindən bir dəstəsi tərəfindən qeydə alınmış və gələcək nəsillərə ötürülmüşdür. O həzrətin kəlamları ilahi höccətdir və hər bir müsəlman ona müvafiq əməl etməlidir. Odur ki, əgər səhabələrdən biri Həzrət Peyğəmbərdən (s) bir hədis nəql edərsə və bu hədis lazımi şərtlərə malik olarsa, hamı onu qəbul edib ona müvafiq əməl etməlidir.

Həmçinin, əgər səhabələrdən biri Quran sözlərinin mənasını şərh edərsə və ya Peyğəmbər dövrünün hadisələrini nəql edərsə, yenə də lazımi şərtlərə malik olduğu təqdirdə onun rəvayəti qəbul edilir. Lakin əgər bir səhabə ayə və ya sünnədən əldə etdiyi şəxsi rəyini bildirərsə, yaxud həmin səhabə-

[1] Təqlidə başlamaq: belə ki, mükəlləf (yəni şəri vəzifəsi olan şəxs) mərhum bir müctəhidə təqlid etmək istəyir, halbuki, həmin müctəhid həyatda ikən ona təqlid etməmişdir.

dən nəql edilən rəvayətin onun öz rəyi, yoxsa Peyğəmbər (s) hədisi olduğu aydın olmazsa, bu təqdirdə onun rəvayəti sənəd və dəlil hesab edilməyəcəkdir. Çünki bir müctəhidin rəyi digər müctəhidlər üçün dəlil deyildir. Buna görə də səhabənin nəql etdiyi rəvayətin onun öz ictihad və rəyi, yoxsa Peyğəmbər (s) hədisi olması ayırd edilməlidir. Səhabələrin rəvayətləri Peyğəmbər (s) hədisi olduğu təqdirdə İmamiyyə şiələri onlara əməl edirlər.

## Yüz qırx birinci bəhs

Bir müsəlmanın öz dini inanclarına yəqinliyi olmalıdır. Bunun üçünsə öz dini inanclarını tutarlı dəlil-sübutlarla əsaslandıra bilməlidir. Əqidə prinsiplərində yəqinliyə çatmadan başqasına təqlid etmək caiz deyildir.

Əqidə prinsipləri məhdud və hər birinin aydın əqli dəlili olduğundan hər kəs bu məsələlərdə asanlıqla yəqinliyə çata bilər. Fiqhi hökmlər isə kifayət qədər çoxdur, habelə onların öyrənilməsi bir sıra elmlərə yiyələnməklə şərtlənir. Bu isə müsəlmanların əksəriyyəti üçün müyəssər deyildir. Odur ki, əksər müsəlmanlar fiqhi məsələlərdə şəriət alimlərinə, yəni müctəhidlərə müraciət etməli və bu yolla öz dini vəzifələrini öyrənib yerinə yetirməlidirlər.

İnsan, bir qayda olaraq, öz işlərini elm əsasında həyata keçirir. Əgər insanın özü elmə yiyələnə bilərsə, bu, təqdirəlayiq bir işdir. Yox əgər buna müvəffəq olmazsa, başqalarının elmindən faydalanmalıdır.

Burada bir incəliyə də diqqət yetirmək lazımdır ki, şəriət məsələlərində müctəhidə təqlid etmək mütəxəssisə müraciət etmək deməkdir. Belə bir təqlid isə irqi və milli təəssübkeşlikdən doğan təqlidlərdən tam fərqlidir.

O gələcək...

## Fərqli fiqh hökmləri

İslam dini əqidə və şəriətdən (dini vəzifələrdən) təşəkkül tapmışdır. Ötən bəhslərdə şiəlik əqidəsilə tanış olduq. Həmçinin, şiələrin Həzrət Peyğəmbər (s) və Əhli-beyt (ə) hədislərinə dair görüşləri haqda söhbət açdıq. Burada isə qısa olaraq şiə məzhəbinin fərqli görüşə sahib olduğu bəzi məsələlərlə tanış olacağıq.

## Yüz qırx ikinci bəhs

Hamımıza məlumdur ki, dəstəmaz namazın müqəddimələrindən (yəni namazdan öncə yerinə yetirilməsi vacib olan əməllərdən) biridir. Qurani-Kərimdə oxuyuruq:

يَا أَيُّهَا الَّذِينَ ءَامَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلَاةِ فَاغْسِلُواْ وُجُوهَكُمْ وَ أَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ وَ امْسَحُواْ بِرُءُوسِكُمْ وَ أَرْجُلَكُمْ إِلَى الْكَعْبَيْنِ...

**“Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və əllərinizi dirsəklərinizə qədər yuyun, (yaş əlinizi) başınıza və topuqlarınıza qədər ayaqlarınıza məsh edin (çəkin)”.[1]**

Birinci cümlədə (“üzünüzü və əllərinizi dirsəklərinizə qədər yuyun” cümləsində) “əl” sözü cəm şəkildə (“əllərinizi”) göstərilmişdir. Əvvəla, “əl” sözü ərəb dilində müxtəlif mənaları ifadə edir. “Əl” dedikdə, bəzən yalnız əlin barmaqları, bəzən biləyədək əl, bəzən barmaqların ucundan dirsəyədək və bəzən də bütövlükdə qol nəzərdə tutulur. İkincisi, dəstəmazda yuyulması vacib olan hissə dirsəkdən barmaqların ucunadəkdir. Belə ki, Qurani-Kərim “dirsəklərinizə qədər” ifadəsini işlətmiş və bununla da burada qolun hansı hissəsinin yuyulmasının vacib olduğunu göstərmişdir. Buna görə də ay-

[1] Maidə surəsi, 6-cı ayə.

ədə dirsəklər sözünün yönlük halda (ərəbcə "ila" ön qoşması ilə) ifadə olunması qolu yumağın qaydasını (yəni dirsəkdən üzü aşağı, yoxsa barmaqların ucundan üzü yuxarı dirsəyədək yumağı) deyil, yuyulması lazım olan hissəni göstərmək üçündür. Yumağın qaydası isə camaat arasında adət şəklini almış qaydaya bağlıdır və adətən, qolu yumaq istədikdə (təmizlik məqsədilə) yuxarıdan aşağıya yuyurlar. Məsələn, əgər həkim xəstənin ayağının dizədək yuyulmasını tapşırarsa, onun ayağını aşağıdan yuxarıya deyil, dizdən aşağıya yuyurlar. Bu üzdən imamiyyə şiələrinə görə dəstəmaz aldıqda üz və qol yuxarıdan üzü aşağıya yuyulur və bunun əksinə etmək doğru sayılmır.

Başqa bir məsələ dəstəmazda ayaqlara məsh çəkməkdir. Şiə fiqhinə görə ayaqları yumaq deyil, məsh etmək lazımdır. Bunun dəlili isə bundan ibarətdir ki, Maidə surəsinin 6-cı ayəsində dəstəmaz alarkən namaz qılan şəxsin üzərinə iki vəzifənin düşdüyü buyurulur: onlardan biri əl və qolları yumaq, digəri isə baş və ayaqlara məsh çəkməkdir. Bu məsələ aşağıdakı iki cümlənin qarşılıqlı müqayisəsilə aydınlaşır:

**1.** "Üzünüzü və əllərinizi dirsəklərinizə qədər yuyun";

**2.** "Başınıza və topuqlarınıza qədər ayaqlarınıza məsh çəkin".

Heç bir fiqhi məsələni bilməyən bir ərəbə əgər bu iki cümləni oxumuş olsaq, şübhəsiz ki, bizə bunları söyləyəcəkdir: bu ayəyə əsasən, dəstəmaz alarkən üz və qolları yumaq, baş və ayaqlara məsh çəkmək lazımdır.

Qrammatik qaydalar baxımından ayədəki "ayaqlarınız" sözü "başınız" sözü ilə həmcins tamamlıqdır. Nəticədə məsh etmək başa aid olduğu kimi ayaqlara da aid olacaqdır.

Burada "ayaqlarınız" sözünü "əlləriniz" sözü ilə həmcins tamamlıq hesab edib "yumaq" hökmünün ona da aid olduğunu iddia etmək olmaz. Belə ki, bu təqdirdə "əlləriniz"lə "ayaqlarınız" həmcins tamamlıqları arasında "başınıza məsh çə-

kin" cümləsinin yer alması ərəb dili qrammatikası baxımından doğru olmazdı.

Burada "ayaqlarınız" sözünün hansı hal kateqorial formasında işlədilməsinin heç bir fərqi yoxdur. Yəni istər yiyəlik halda işlənsin, istərsə təsirlik halda; hər iki halda "ayaqlarınız" sözü "başınız" sözü ilə həmcins üzvdür və məsh hökmü ona da aiddir.

Əhli-beyt İmamlarından (ə) mütəvatir yolla nəql edilən hədislərdən məlum olur ki, dəstəmaz iki hissədən ibarətdir: bədənin iki üzvünü yumaq və iki üzvünə məsh çəkmək. İmam Baqir (ə) bir hədisdə Həzrət Peyğəmbərin (s) dəstəmazı haqda söz açaraq onun ayaqlarına məsh çəkdiyini nəql etmişdir.

Qeyd etmək yerinə düşər ki, yalnız Əhli-beyt İmamları (ə) deyil, səhabə və tabeinlərin də bir hissəsi bu rəyə sahib olmuş və dəstəmaz alarkən ayaqlarına məsh çəkmişlər. Lakin sonralar, müəyyən səbəblər üzündən müsəlmanların bir qismi məsh çəkmə ənənəsini yumaqla əvəz etmişdir. Bu məsələnin təfsilatı fiqhi kitablarda açıqlanmışdır.

## Yüz qırx üçüncü bəhs

Şiə fiqhinə görə namazda torpağa və ya torpaqdan çıxan şeylərin üzərinə səcdə etmək lazımdır (bu şərtlə ki, yeyilən və ya geyinilən olmasın). Əgər imkan varsa, bunlardan başqa şeylərə səcdə etmək düzgün deyildir. Sevimli Peyğəmbərimizdən (s) nəql edilən və əhli-sünnənin də qəbul etdiyi bir hədisdə deyilir:

جُعِلَتْ لِىَ الْأَرْضُ مَسْجِدًا وَ طَهُورًا.

"Yer mənim üçün səcdəgah və pakedici edildi".[1]

Hədisdəki "pakedici" ifadəsi təyəmmümə işarədir və bu onu göstərir ki, "yer" sözündə daş, torpaq və bu kimi şeylərdən ibarət olan təbii yer qabığı nəzərdə tutulur.

---

[1] Səhih Buxari, c.1, səh.91, Təyəmmüm fəsli, 2-ci hədis.

İmam Sadiq (ə) bu xüsusda buyurmuşdur: “Yer (torpaq) və ya yerdən bitən - yeyilməyən və geyilməyən - şeylərdən başqa bir şeyə səcdə etmək caiz deyildir”.[1]

Müsəlmanlar Həzrət Peyğəmbər (s) dönəmində səcdə edərkən alınlarını çınqıllardan ibarət olan məscid döşəməsinə qoyarmışlar. Çox isti günlərdə möhkəm qızmış daşın üstünə səcdə etmək çətin olduğundan onlar çınqılları ovuclarına götürüb soyudur və namaz qılarkən onun üzərinə səcdə edərmişlər. Cabir ibn Abdullah Ənsari aşağıdakıları nəql edir:

“Günorta namazını Peyğəmbərlə (s) birlikdə qılırdım. Bir ovuc çınqıl götürüb onu bir əlimdən o birisinə töküb soyudurdum ki, namaz qılarkən onun üzərinə səcdə edə bilim”.[2]

Həzrət Peyğəmbər (s) torpağa bulaşmasından ehtiyat edən bir səhabəyə buyurmuşdu: “Üzünü torpağa sürt!”[3]

Eləcə də bəzi səhabələr öz əmmamələrinin bir qırağı üzərinə səcdə etdikdə, Həzrət Peyğəmbər (s) əmmaməni onların alınları altından çəkərmiş.[4]

Bu hədislərin hamısı Həzrət Peyğəmbər (s) zamanında müsəlmanların torpaq və daş üzərinə səcdə etdiklərini və səcdə edərkən alınlarını xalı, libas və əmmamə üzərinə qoymadıqlarını təsdiq edir. Lakin sonralar Peyğəmbərə (s) həsirin üzərinə səcdə etməyin caiz olması vəhy edilmişdi. Həzrət Peyğəmbərin (s) onun üzərinə də səcdə etdiyindən xəbər verən çoxlu hədislər mövcuddur.[5]

Əlbəttə üzrlü səbəblər olduqda səhabələrdən bəzisi öz libası üzərinə də səcdə etmişdir. Bu xüsusda səhabə Ənəs ibn Malik bunları nəql etmişdir: “Biz Peyğəmbərlə (s) birlikdə namaz

---

[1] Vəsailuş-şiə, c.3, “Nəyə səcdə etməli” bəhslərindən 1-ci fəsil, 1-ci hədis, səh.591.
[2] Musnəd Əhməd, c.3, səh.327, Cabirin hədisi; Sunən-i Beyhəqi, c.1, səh.439.
[3] Kənzul-ummal, c.7, səh.465, hədis: 19810.
[4] Sunən-i Beyhəqi, c.2, səh.105.
[5] Musnəd-i Əhməd, c.6, səh.179, 309, 331, 377 və c.2, səh.192-198.

qılırdıq. Əgər birimizin alnını torpağa qoymaqda üzrü olsaydı, öz əmmaməsinin və ya paltarının bir qırağına səcdə edərdi”.[1]

Bu baxımdan imamiyyə şiələri daima torpağa, yaxud torpaqdan bitən və yeyilib geyinilməyən (həsir kimi) şeylər üzərinə səcdə edirlər. Heç bir üzrlü səbəb olmadan torpaq, daş, həsir və bu kimi şeylər üzərinə səcdə etməkdə şiələrin israrlı olmaları da məhz bu dəlillərə görədir. Bu baxımdan yaxşı olardı ki, müsəlman ölkələrində məscidlər elə bir şəraitə malik olsun ki, bütün məzhəblərin ardıcılları öz vəzifələrini maneə olmadan yerinə yetirə bilsinlər.

Bəhsimizin sonunda bir məsələyə də toxunmağı zəruri hesab edirik. Bu da ondan ibarətdir ki, torpaq da, daş da, üzərinə səcdə edilən əşyalardır. Yəni namaz qılan şəxs ona səcdə etmir, sadəcə onun üzərinə alnını qoyur. Bəzən yanlış olaraq belə təsəvvür edilir ki, şiələr daşa səcdə edirlər! Halbuki, onlar bütün müsəlmanlar kimi yalnız Allaha səcdə edirlər və Allah qarşısında öz mütiliklərini nümayiş etdirərək alınlarını torpağa qoyurlar.

## Yüz qırx dördüncü bəhs

Hər bir müsəlmana Quran və sünnədə göstərilən vaxtlarda hər gün beş dəfə namaz qılmaq vacibdir: günortadan gün batanadək zöhr və əsr namazlarının, gün batandan gecə yarısınadək məğrib (şam) və işa (xiftən) namazlarının, dan yeri söküləndən gün çıxanadək isə sübh namazının vaxtıdır.

Şiə əqidəsinə görə günortadan gün batanadək iki namazın müştərək vaxtı hesab olunur. Yalnız günortanın ilk vaxtından dörd rəkət namaz miqdarında olan vaxt zöhr namazına, gün batmadan öncə dörd rəkət namaz miqdarında vaxt isə əsr namazına “məxsus”dur. Buna görə də qeyd edilən bu iki “məxsus vaxtlar”dan başqa günortadan gün batanadək istə-

[1] Səhih Buxari, c.1, səh. 101; Səhih Muslim, c.1, səh.109.

diyi vaxtda insan zöhr və əsr namazlarını qılıb onların fəzilətli vaxtlarını gözləməyə bilər. Əlbəttə, bu namazları bir-birindən ayırıb hər birini öz fəzilətli vaxtında qılmaq daha yaxşı olar.[1]

İmam Baqir (ə) buyurmuşdur: "Gün səmanın düz ortasına yetişəndə zöhr və əsr namazlarının vaxtı yetişir. Gün batdıqda isə məğrib və işa namazlarının vaxtı yetişir".[2]

İmam Sadiq (ə) buyurmuşdur: "Gün səmanın düz ortasına yetişəndə zöhr və əsr namazlarının vaxtı yetişir. Lakin zöhr namazı əsrdən qabaq qılınır. Bu qayda ilə gün batana kimi istədiyin vaxt bu namazları qıla bilərsən".[3]

İmam Baqir (ə) sevimli Peyğəmbərimizin (s) zöhr ilə əsr namazlarını heç bir üzrlü səbəb olmadan birlikdə qıldığını nəql etmişdir.[4]

Ümumiyyətlə, bəzi hallarda iki namazı birləşdirmək, bütün İslam fəqihlərinin qəbul etdikləri məsələlərdəndir. Bütün fəqihlər Ərəfə və Muzdəlifədə zöhr ilə əsr və şam ilə xiftən namazlarını birləşdirməyi caiz bilirlər. Eləcə də əhli-sünnə fəqihlərindən bir çoxu səfərdə olarkən də bu namazları birləşdirməyi caiz saymışlar. Şiələrlə digərləri arasında olan fərq bundan ibarətdir ki, onlar yuxarıdakı dəlillərə əsaslanaraq (hər namazı öz vaxtında qılmağın daha da fəzilətli olmasını qəbul etdikləri halda) iki namazı birləşdirməyi istənilən halda caiz saymışlar. Bunun hikməti hədislərdə buyurulduğu kimi, müsəlmanların işinin asanlaşdırılmasıdır. Sevimli Peyğəmbərimizin (s) özü də bir çox hallarda heç bir üzr (səfər, xəstəlik və bu kimi üzrlü səbəblər) olmadan iki namazı birləşdirib qılmışdır ki, müsəlmanların işi yüngülləşsin. (Namazları birləşdirmək deyəndə zöhr namazını qıldıqdan sonra

[1] Zöhr namazının fəzilətli vaxtı günortanın əvvəl vaxtından şaxisin kölgəsinin özü ölçüsündə olduğu vaxtadəkdir. Əsr namazının fəzilətli vaxtı isə, şaxisin kölgəsinin özünün iki bərabərində olduğu vaxtdır.
[2] Vəsailuş-şiə, c.3, "Əbvab-i məvaqit", 4-cü fəsil, 1-ci hədis.
[3] Vəsailuş-şiə, c.3, "Əbvab-i məvaqit", 4-cü fəsil, 4-cü hədis.
[4] Əvvəlki qaynaq, 6-cı hədis.

fasilə etmədən əsri, məğrib namazından sonra da işanı qılmaq nəzərdə tutulur. Şiələrə görə istənilən zaman bu namazlar fasilə etmədən qılına bilər.)

Müslim öz "Səhih" əsərində Həzrət Peyğəmbərdən (s) bu hədisi nəql etmişdir: "Allahın rəsulu heç bir düşmən təhlükəsi qarşısında və ya səfərdə olmadığı bir halda zöhr ilə əsri və məğrib ilə işa namazlarını birləşdirərək qıldı".[1]

Bəzi hədislərdə namazların birlikdə qılınmasının fəlsəfəsi açıqlanmışdır. Bu hədislərin birində deyilir: "Peyğəmbər (s) zöhr ilə əsr və məğrib ilə işa namazlarını birləşdirib qıldı. Bunun səbəbini soruşduqda o buyurdu: "Belə etdim ki, ümmətim çətinliyə düşməsin".[2]

Sevimli Peyğəmbərimizin (s) iki namazı birləşdirib qılması haqqında "Səhih" və "Müsnəd"lərdə qeyd olunan rəvayətlərin sayı iyirmi birdən artıqdır. Onlardan bəziləri səfər vaxtı, bəziləri səfərdə olmayarkən, bəziləri xəstə olarkən və bəziləri də yağış yağdıqda qılınan namazlara aiddir. Bu hədislərin bəzilərində iki namazın birləşdirilməsinin fəlsəfəsi də qeyd edilmişdir ki, bu da müsəlmanların işini asanlaşdırmaqdan ibarətdir. Şiə fəqihləri də məhz bu fəlsəfəyə əsaslanaraq iki namazın birləşdirilməsini bütün hallarda caiz bilmişlər. Namazları birləşdirməyin qaydası isə bütün müsəlmanların Ərəfə və Muzdəlifədə, yaxud səfər zamanında etdikləri kimidir.

Bəziləri belə təsəvvür etmişlər ki, namazları birləşdirmək dedikdə, bir namazı fəzilətli vaxtının sonunda (məsələn, zöhr namazını şaxisin kölgəsi öz ölçüsünə çatdığı zaman), ikinci namazı isə fəzilətli vaxtının başlanğıcında qılmaq nəzərdə tutulur. Bununla da namaz qılan şəxs əslində hər iki namazı öz

[1] Səhih Müslim, c.2, səh. 151, "Səfərdə olmadan iki namaçın birlikdə qılınması" fəsli.
[2] Malikin "Muvətta" əsərinə Çərqaninin yaçdıüı şərh, c.1, "Səfərdə və səfərdə olmadan iki namaçın birlikdə qılınması" fəsli, səh.294.

fəzilətli vaxtında qılmış olur, lakin birini fəzilətli vaxtın sonunda, digərini isə fəzilətli vaxtın əvvəlində.

Bu təsəvvür rəvayətlərin məzmunu ilə uzlaşmır. Belə ki, qeyd etdiyimiz kimi, namazları birləşdirmə qaydası Ərəfə və Muzdəlifədə olduğu kimidir. Ərəfədə zöhr və əsr namazları zöhr namazının fəzilətli vaxtının əvvəlində, Muzdəlifədə isə məğriblə işa namazları işa namazının fəzilətli vaxtında qılınır. Buna görə də, "Peyğəmbər (s) namazları birləşdirib qıldı" dedikdə, bir namazı fəzilətli vaxtının sonunda, digərini isə fəzilətli vaxtının əvvəlində qılması deyil, Ərəfə və Muzdəlifədə olduğu kimi qılması nəzərdə tutulur.

Şiə fəqihləri iki namazı birləşdirmək və onun dəlilləri barədə ayrıca əsərlər yazmışlar. Maraqlananlar həmin əsərlərə müraciət edə bilərlər.

## Yüz qırx beşinci bəhs

Şiə fiqhi Quran və sünnəyə istinad edərək 2 cür nikahın olduğunu söyləyir:

Daimi nikah;

Müvəqqəti nikah.

Müvəqqəti nikah odur ki, izdivac üçün heç bir şəri maneə olmadığı təqdirdə qadın və kişi müəyyən bir məbləği mehriyyə təyin etdikdən sonra müəyyən bir müddət üçün ər-arvad olurlar. Təyin olunan müddət başa çatdıqda talaq oxumadan ayrılırlar. Əgər bu izdivac nəticəsində övlad dünyaya gələrsə, onların şəri övladlarıdır və hər ikisinin varisi hesab olunur. Qadın isə müddət başa çatdıqdan sonra şəri iddə saxlamalıdır, hamilə olduğu təqdirdə isə uşaq dünyaya gələnədək gözləməli və başqa bir kişi ilə izdivac etməməlidir.

Müvəqqəti nikahın daimi nikahla 2 mühüm fərqi vardır:

Müvəqqəti nikahda müddət təyin olunur;

Müvəqqəti nikahda kişi qadına nəfəqə vermir.

O gələcək...

İslam dini sonuncu və mükəmməl din olduğundan cinsi böhranları həll etmək etmək üçün müvəqqəti nikah adlı bir çıxış yolu qoymuşdur.

Bunu da qeyd edək ki, digər məzhəblərin fəqihləri daimi nikahın mahiyyətcə müvəqqəti nikahla eyni olan bir növünü qəbul edirlər və o da bundan ibarətdir ki, qadın və kişi daimi nikah kəsdirir, lakin onlardan biri və ya hər ikisi bir müddətdən sonra talaqla ayrılacaqlarını bilir.

Qurani-Kərim və Həzrət Peyğəmbərin (s) sünnəsi müvəqqəti nikahın caiz olduğunu təsdiqləməkdədir. Rəbbimiz buyurur:

... فَمَا اسْتَمْتَعْتُم بِهِ مِنْهُنَّ فَئَاتُوهُنَّ أُجُورَهُنَّ فَرِيضَةً...

**"... İstifadə (yaxınlıq) etdiyiniz qadınların mehriyyələrini lazımi qaydada verin!"**[1]

Təfsirçilərin əksəriyyəti bu ayənin müvəqqəti nikah barəsində olduğunu qeyd edirlər. Ümumiyyətlə, İslamda belə bir izdivacın caiz olması danılmazdır. Bu məsələdə olan fikirayrılığı müvəqqəti nikah hökmünün mənsux olub-olmamasıdır. Həm şiə, həm də əhli-sünnə hədisləri bu hökmün mənsux olmadığını təsdiqləməkdədir. Sadəcə ikinci xəlifənin dövründə müəyyən səbəblərə görə bu hökmün icrasının qarşısı alınmışdır. Hətta ikinci xəlifənin sözlərindən də məlum olur ki, Həzrət Peyğəmbərin (s) dövründə müvəqqəti nikah caiz imiş və onu yerinə yetirənlər də varmış. Bu qadağa isə onun şəxsi rəyidir. Çünki o, belə demişdir:

أَيُّهَا النَّاسُ ثَلَاثٌ كُنَّ عَلَى عَهْدِ رَسُولِ اللهِ أَنَا أَنْهَى عَنْهُنَّ وَ اُحَرِّمُهُنَّ وَ اُعَاقِبُ عَلَيْهِنَّ وَ هِيَ مُتْعَةُ النِّسَاءِ وَ مُتْعَةُ الْحَجِّ وَ حَيَّ عَلَى خَيْرِ الْعَمَلِ.

"Ey camaat! Rəsulullahın dövründə olan üç şeyi mən qadağan edirəm və onları yerinə yetirənləri cəzalandıracağam.

[1] Nisa surəsi, 24-cü ayə.

Həmin üç şey bunlardır: qadın mütəsi, həcc mütəsi və “həyyə əla xəyril əməl””.[1]

Maraqlısı budur ki, birinci və üçüncü iş barədəki xəlifənin qadağası indiyədək qüvvədədir, lakin həcc mütəsini[2] bütün müsəlmanlar yerinə yetirirlər!

Həzrət Peyğəmbərin (s) mütəni, yəni müvəqqəti nikahı qadağan etmədiyinə dair aydın dəlillərdən biri budur ki, Buxari öz “Səhih”ində İmran ibn Həsindən belə nəql edir: “Mütə ayəsi Allahın kitabında nazil oldu və biz Rəsulullahla birgə ona əməl etdik. Onun haramlığına dair heç bir ayə nazil olmadı və Rəsulullah öləndək onu qadağan etmədi. Sonralar birisi onun barəsində fikir söylədi”.[3]

## Yüz qırx altıncı bəhs

Əli bağlı (əli əlin üstə qoyub) namaz qılmaq şiə fiqhində bidət və haram sayılır. Həzrət Əli (ə) bu xüsusda buyurmuşdur: “Namaz qılarkən Allah qarşısında duran müsəlman əlini əlinin üstünə qoymasın ki, bu əməl kafir məcusilərə (atəşpərəstlərə) bənzəməkdir”.[4]

Böyük səhabələrdən olan Əbu-Həmid Saidi bir dəstə səhabəyə – belə ki, onların arasında Əbu Hureyrə Dusi, Səhl Saidi, Əbu Useyd Saidi, Əbu Qitadə, Haris ibn Rəbi və Məhəmməd ibn Muslimə də var idi - Həzrət Peyğəmbərin (s) necə namaz qıldığını rəvayət edirdi. O, namazın irili xırdalı müstəhəb əməllərini də izah edirdi, lakin, namazda əlləri bağlamaq barədə bircə kəlmə belə söyləmədi.[5]

---

[1] Quşci, “Şərhi-təcrid”, İmamət fəsli, səh.464.

[2] Həcc mütəsi odur ki, Allah evinin zəvvarı ümrə ilə həcc əməlləri arasında ehramdan çıxır və ehram halında haram olan işlər ona halal olur.

[3] Səhih Buxari, c.6, səh.27, Təfsir bölümü, Bəqərə surəsinin 196-cı ayəsinin təfsirində.

[4] Vəsailuş-şiə, c.4, “Əbvabu qəvate əs-səlah”, 15-ci fəsil, hədis: 7.

[5] Sünən-i Beyhəqi, c.2, səh. 72, 73, 101, 102; Sünən-i Əbu Davud, c.1, səh. 194, “İftitahus-səlah” fəsli, hədis: 730, 736; Sünən-i Tirmizi, c.2, səh. 98, “Sifətus-səlah” fəsli.

Aydındır ki, əgər Həzrət Peyğəmbər (s) belə qaydada namaz qılsaydı, mütləq Əbu-Həmid Saidi bunu qeyd edərdi və ya oradakı səhabələr bunu Əbu-Həmid Saidiyə xatırladardılar. Saidinin hədisinə bənzər hədisi Həmmad ibn İsa İmam Sadiqdən (ə) nəql etmişdir.[1]

Səhl ibn Sədin nəql etdiyi hədisdən məlum olur ki, əli bağlı namaz qılmaq ənənəsi Həzrət Peyğəmbərdən (s) sonra meydana gəlmişdir. O deyir: “Camaata belə əmr edildi”. Əgər bu, Peyğəmbərin (s) göstərişi olsaydı, onda Səhl ibn Səd onu Peyğəmbərə (s) nisbət verərdi.[2]

## Yüz qırx yeddinci bəhs

Təravih namazı sevimli Peyğəmbərimizin (s) sünnəsi olaraq müstəhəb namazlardandır. Şiə fiqhinin bu namazla bağlı nəzəri budur ki, Ramazan ayının gecələrində üst-üstə min rəkət namaz qılmaq müstəhəbdir. Lakin bu namazları camaatla qılmaq bidətdir və yalnız tək halda ya məsciddə, ya da evdə qılınmalıdır. Zeyd ibn Sabit Həzrət Peyğəmbərdən (s) nəql edir ki, vacib namazlar istisna olmaqla, digər (müstəhəb) namazları evdə qılmaq məsciddə qılmaqdan daha yaxşıdır.[3]

İmam Baqir (ə) buyurmuşdur: “Müstəhəb namazları camaatla qılmaq olmaz. Dində bidətin hər növü azğınlıqdır və aqibəti cəhənnəm atəşidir”.[4]

İmam Rza (ə) da müsəlmanın əqidə və əməl məsələlərinə dair qələmə aldığı məcmuədə qeyd etmişdir ki, müstəhəb namazları camaatla qılmaq olmaz və bu, bidət sayılır.[5]

Təravih namazının əhli sünnənin qıldığı kimi, yəni camaatla qılınması tarixini araşdırdıqda məlum olur ki, bu, şəxsi

[1] Vəsailuş işə, c.4, “Əfalus-səlah” fəsillərindən 1-ci fəsil, hədis: 81.
[2] Fəthul-bari, c.2, səh.224; Sünən-i Beyhəqi, c.2, səh. 28.
[3] Tusi, “Xilaf”, “Namaz” fəsli, 268-ci məsələ.
[4] Səduq, “Xisal”, c.2, səh. 152.
[5] Səduq, “Uyuni-əxbarir-Riza”, c.2, səh.124.

O gələcək...

rəydir və hətta təravih namazının camaatla qılınması "gözəl bidət" (bidətun həsənətun) adlandırılmışdır.

Bu haqda ətraflı məlumat əldə etmək istəyənlər aşağıdakı mənbələrə müraciət edə bilərlər.[1]

## Yüz qırx səkkizinci bəhs

Bütün müsəlman fəqihlərin rəyinə görə müharibədə ələ keçmiş qənimətlərin hamısı cihad edənlər arasında bölüşdürülür və bu qənimətlərin yalnız beşdə bir hissəsi Quranın buyurduğu xüsusi yerlərə sərf olunur. Rəbbimiz buyurur:

وَ اعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلَّهِ خُمُسَهُ وَ لِلرَّسُولِ وَ لِذِى الْقُرْبَى وَ الْيَتَامَى وَ الْمَسَاكِينِ وَ ابْنِ السَّبِيلِ...

**"Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrabasının, yetimlərin, yoxsulların və yolçularındır (pulu qurtarıb yolda qalan müsafirlərindir)..."[2]**

Bu məsələdə şiə fəqihləri ilə digər məzhəblərin fəqihləri arasındakı fikirayrılığı bundan ibarətdir ki, digər məzhəblərin fəqihləri xümsün yalnız "müharibədə ələ keçən qənimət"ə aid olduğunu və başqa gəlirlər üçün xüms vergisi olmadığını söyləyirlər. Onların dəlili budur ki, yuxarıdakı ayə müharibədə ələ keçən qənimətlər haqqında nazil olmuşdur.

Lakin bu rəy iki baxımdan məqbul deyil:

**1.** Ərəb dilində insanın əldə etdiyi hər bir şey "qənimət" adlanır və bu söz yalnız müharibədə ələ keçən qənimətlərə aid deyildir. İbn Mənzur bununla bağlı deyir: "Qənimət, bir şeyi məşəqqətsiz əldə etməkdir".[3]

---

[1] Qəstəlani, "İrşadus-sari", c.3, səh. 226; Əyni, "Umdətul-qari", c.110/1, səh.126; Şatibi, "əl-İtisam", c.2, səh.291.

[2] Ənfal surəsi, 41-ci ayə.

[3] Lisanul-ərəb, "ğənəm" sözü. İbn Əsir "ən-Nəhayə" əsərində və Firuzabadi

O gələcək...

Həmçinin, Quran bu sözü cənnət nemətləri barədə də işlətmişdir:

... فَعِنْدَ اللَّهِ مَغَانِمُ كَثِيرَةٌ...

**"... Çox qənimətlər Allah yanındadır..."[1]**

Buna görə də, sözügedən ayəni yalnız "müharibədə ələ keçən qənimətlər"ə aid etmək əsassızdır. Yəni bu ayənin Bədr savaşında ələ keçən qənimətlər haqqında nazil olması xüms hökmünün yalnız müharibə qənimətlərinə aid olmasına dəlil deyildir. Qənimətlərin xümsünü vermək hökmü bütün gəlirləri əhatə edən ümumi bir qanundur.

**2.** Bəzi hədislərdə oxuyuruq ki, Həzrət Peyğəmbər (s) hər növ gəlirin xümsünü verməyi vacib buyurub.

Əbdül-Qeys qəbiləsindən olan bir neçə nəfər Həzrət Peyğəmbərin (s) yanına gəlib dedilər: "Müşriklər bizimlə sizin aranızda bir sədd və maneədirlər. Biz yalnız haram aylarda (savaş etməyin qadağan olduğu dörd ay) sizin yanınıza gələ bilirik. Bizim Cənnətə getməyimizə səbəb olacaq əməlləri bizə bəyan edin ki, həm özümüz onları yerinə yetirək, həm də başqalarını bu əməllərə dəvət edək".

Bu zaman Həzrət Peyğəmbər (s) onlara imanlı olmağı tapşırdı və daha sonra "iman"ı açıqlayaraq buyurdu:

شَهَادَةُ أَنْ لَا إِلَهَ إِلَّا اللهُ، وَ إِقَامُ الصَّلَاةِ، وَ إِيتَاءُ الزَّكَاةِ، وَ تَعْطُوا الخُمْسَ مِنَ الْمَغْنَمِ.

"Allahdan başqa məbudun olmadığına şəhadət vermək, namaz qılmaq, zəkat vermək və bir də ki, qənimətlərinizin (gəlirlərinizin) xümsünü verin".[2]

---

"Qamusul-luğəh" əsərində "qənimət" sözünü təxminən belə mənalandırmışlar.

[1] Nisa surəsi, 94-cü ayə.

[2] Səhih Buxari, c.4, səh.250

Şübhəsiz, bu hədisdə sözügedən qənimət, müharibə qənimətləri deyil, başqa gəlirlərdir. Çünki Əbdül-Qeys qəbiləsinin nümayəndələri Peyğəmbərdən (s) uzaq bir yerdə olduqlarını və müşriklərdən qorxduqları üçün Mədinəyə gələ bilmədiklərini söyləyirlər. Müşriklərin mühasirəsində olan bu qəbilə onlarla savaşmağa qadir deyildilər ki, ələ keçirdikləri qənimətdən də xüms versinlər.

Bundan əlavə Əhli-beyt İmamları (ə) hər növ gəlirdən xüms verməyin vacib olduğunu açıqlamış və bu məsələ ilə bağlı qaranlıq bir yer qoymamışlar.[1]

Bunlar şiələrin fərqli baxışa sahib olduqları bir sıra fiqhi hökmlər idi və əlbəttə, şiələrin digər məzhəblərlə şəriət hökmlərində olan fikirayrılıqları yalnız bunlardan ibarət deyil. Məsələn, xüms, vəsiyyət, irs və s. məsələlərlə bağlı hökmlərdə də fikirayrılığı mövcuddur. Nəzərə alsaq ki, şiələrlə digər məzhəblər ümumi hökmlərdə eyni görüşə sahibdirlər, ən azı müqayisəli şəkildə şiə fiqhinin də tədris edilməsi, xüsusilə Əhli-beyt İmamlarının (ə) əsaslandıqları dəlillərə diqqət yetirilməsi əhli-sünnə ilə şiələr arasında olan məsafəni azalda bilər.

[1] Vəsailuş-şiə, c.6, "Xüms" bölümü, 1-ci fəsil.

## Yüz qırx doqquzuncu bəhs
## Şiə alimlərinin əvəzsiz xidmətləri

İslam sivilizasiyası bütün müsəlmanların tarix boyu çəkdikləri zəhmətin sayəsində mövcud duruma gəlib çıxmışdır. Onlar milli mənsubiyyətlərinin fərqli olmasına baxmayaraq iman və əqidələri sayəsinində din bayrağı altında və İslama xidmət yolunda bir-birinə qaynayıb-qarışmış, bütün səy və bacarıqlarını İslam dininin ülvi hədəflərinə yetişməsi yolunda səfərbər etmişlər. Nəticədə elə bir sivilizasiya qurmağa nail olmuşlar ki, bu gün bəşəriyyət həmin parlaq sivilizasiyaya borcludur.

Bu arada şiələr də İslam sivilizasiyasının yüksəlişində mühüm rol oynamışlar. Müxtəlif elmlərə və İslam sivilizasiyasına dair kitabları vərəqlədikcə, bütün sahələrdə şiə alim və mütəfəkkirlərinin adına rast gəlməyimiz fikrimizi əsaslandırmağa yetər.

Ərəb dilçiliyinin əsasını qoyan Həzrət Əli (ə) olmuş və onun yolunun davamçıları, şagirdi Əbul-Əsvəd Duəli və ondan sonra İraqda yaşayan şiələr olmuşlar. Bunlardan Mazəni (248-ci hicri ilində vəfat etmişdir), İbn Sikkit (244-cü hicri ilində vəfat etmişdir), Əbu İshaq Nəhvi (İmam Kazimin (ə) səmimi dostlarından olub), Xəlil ibn Əhməd Fərahani ("əl-Eyn" kitabının müəllifi, 170-ci hicri ilində vəfat etmişdir), İbn Dureyd ("əl-Cumhurə" kitabının müəllifi, 321-ci hicri ilində vəfat etmişdir), Sahib ibn Əbbad ("əl-Muhit" kitabının müəllifi, 386-cı hicri ilində vəfat etmişdir) və hər biri öz zəmanəsində leksika, nəhv (sintaksis) və sərf (morfologiya) kimi dilçiliyin müxtəlif sahələrinin, eləcə də ədəbiyyatşünaslıq və əruz elminin görkəmli nümayəndələri olan bu kimi şiə ədiblərini göstərmək olar.

Təfsir elmində Həzrət Peyğəmbərdən (s) sonra ilk təfsirçi Həzrət Əli (ə) və Əhli-beyt İmamları (ə), onlardan sonra Abdullah ibn Abbas (hicri-qəməri 68-ci ildə vəfat etmişdir) və onların digər şagird və yetirmələri olmuşlar. İslam dininin zühur etməsindən keçən on dörd əsr boyunca şiə alimləri Qurana müxtəlif həcmdə və tərtibatda yüzlərlə təfsirlər yazmışlar. Biz şiə təfsir tarixini Şeyx Tusinin "Tibyan" əsərinin müqəddiməsində təfsilatilə qələmə almışıq.

Hədis elmində də şiələr digər müsəlman məzhəblərini qabaqlamış və Peyğəmbər (s) hədislərinin yazılmasının qadağan olunduğu bir dövrdə (xəlifələr dönəmində) belə, bu hədisləri toplayıb araşdırmaqla qorumuşlar. Bununla bağlı Həzrət Əlinin (ə) səmimi dostlarından Abdullah ibn Əbi Rafe, Rəbiə ibn Səmi, Əli ibn Əbi Rafe, sonrakı dövrlərdə isə İmam Səccad (ə) və İmam Sadiqin (ə) şagirdlərindən olan görkəmli şəxsiyyətlərin adlarını çəkmək olar.

İmam Sadiqin (ə) zamanında hədisşünaslıq çox geniş yayılmışdı. Həsən ibn əl-Vəşşa İmam Sadiqdən (ə) çoxlu hədislər rəvayət edildiyini qeyd edərək bunları söyləmişdir: "Mən məsciddə doqquz yüz mühəddis (hədis nəql edən) gördüm. Onların hamısı nəql etdikləri hədisləri İmam Sadiqdən (ə) eşitdiklərini söyləyirdilər".[1]

Əhli-beyt məktəbinin yetirmələri içərisindən fiqh sahəsində görkəmli müctəhid və alimlər olmuşdur. Bu fəqihlərdən Əban ibn Təğlib (141-ci hicri ilində vəfat etmişdir), Zürarə ibn Əyən (150-ci hicri ilində vəfat etmişdir), Məhəmməd ibn Müslim (eyni ildə vəfat etmişdir), Sifvan ibn Yəhya Bəcli (otuz kitabın müəllifidir, 210-cu hicri ilində vəfat etmişdir), eləcə də Şeyx Mufid (r.ə), Seyid Mürtəza (r.ə), Şeyx Tusi (r.ə), İbn İdris (r.ə), Mühəqqiq Hilli (r.ə), Əllamə Hilli (r.ə) və yüzlərlə bu kimi qiymətli əsərlər yaratmış alimlərin adlarını çəkmək olar.

[1] Nəccaşi, 79-cu sayı.

Şiələr yalnız bu elmlərdə deyil, tarix, rical, dirayə, ədəbiyyat və s. sahələrdə də böyük nailiyyətlər əldə etmiş və bu yolla İslam dünyasına xidmət göstərmişlər. Onların hamısı haqda burada söhbət açmaq bizim imkanlarımız xaricindədir.

Bura kimi deyilənlər nəqli elmlərə aid idi. Lakin bununla yanaşı, kəlam və fəlsəfə kimi əqli elmlərdə də şiələr bütün məzhəbləri qabaqlamışlar. Belə ki, şiəlik digər məzhəblərdən daha çox əqlə qiymət vermişdir. Həzrət Əli (ə) və onun məsum övladlarının buyurduqları müdrik kəlamlardan ilham alaraq İslam əqidəsinin incələnib açıqlanmasında öz səylərini əsirgəməmiş və İslam dünyasına dahi mütəkəllim və filosoflar bəxş etmişlər. Şiə kəlam elmi İslam kəlamının Quran və sünnə ilə yanaşı əql və düşüncənin də imkanlarından lazımınca bəhrələndiyi ən zəngin məktəblərindən biridir.

Elmi tərəqqinin təməllərindən biri də təbiət aləmi və onun qanunlarının öyrənilməsidir. İmam Sadiqin (ə) dövründə onun tanınmış şagirdlərindən biri olan Cabir ibn Həyyan təbiət elmlərində elə nailiyyətlər əldə etmişdir ki, bu gün onu kimya elminin atası adlandırırlar.

Yəqubi adı ilə tanınmış Əhməd ibn Əbu Yəqub (290-cı hicri ilində vəfat etmişdir) bütün müsəlman ölkələrini gəzib-dolaşmış ilk coğrafiyaşünas səyyah olmuşdur. O, "əl-Buldan" (ölkələr, şəhərlər) adlı kitabın müəllifidir.

Şiə alimlərinin bütün sahələrdə göstərdikləri bu səylər hicrətin birinci əsrindən bu günümüzədək davam etmişdir. Onlar bu yolda çoxlu sayda elmi mərkəzlər, mədrəsə və universitetlər təsis etmiş, daima elm və bilik sahəsində bəşəriyyətə xidmət göstərmişlər.

Bütün bunlar şiələrin elm və İslam sivilizasiyasının inkişafında oynadıqları rolun xülasəsidir. Bu haqda daha ətraflı

məlumat əldə etmək istəyənlər bu mövzu ilə bağlı yazılmış kitablara müraciət edə bilərlər.[1]

## Yüz əllinci bəhs

İmamiyyə şiələri şəriət hökmlərində mövcud olan fikir-ayrılıqlarını müstəmləkəçi qüvvələr qarşısında müsəlmanların qardaşlığı və vəhdəti yolunda maneə hesab etmirlər. Şiələrə görə elmi diskussiyalar yolu ilə (müsəlmanlar arasında siyasi birlik və vəhdətin yaranmasına mane olan) bir çox ideoloji və fiqhi ixtilaflara son qoymaq olar. Ümumiyyətlə, insanlar arasında fikirayrılığının mövcud olması bəşərin təbii xüsusiyyətidir və elmi müzakirə və mübahisələr qapısının bağlanılması isə elm və biliyin ölümünə, təfəkkür və düşüncənin məhvinə səbəb ola bilər. Bu üzdən bizim alimlərimiz tarixin hər dövründə elmi müzakirələr yolu ilə həqiqətləri üzə çıxarmağa çalışmış və düşmənlərə qarşı müsəlmanların hər cür birlik və həmrəyliyinə tərəfdar olmuşlar. Bütün şiə mütəfəkkirlərinin şüarı bu olmuşdur:

İslam iki təməl üzərində qurulub: Onlardan biri Təkallahlıq, ikincisi isə birlik və vəhdətdir.

İlahi! İslam bayrağını bütün Yer üzündə dalğalandır! İstismarçıların mənafeyinə xidmət edən təfriqə salanları məhv et! Müşriklər, münafiqlər və satqınlar qarşısında müsəlmanlara güc və qüvvə ver! Bizləri doğru yola hidayət et!

---

[1] İbn Nədim, “əl-Fihrist”; Nəccaşi, “Rical”; “Əzzəriə ila təsanifiş-şiə”; “Əyanuş-şiə”; “əl-Miləl vən-nihəl”in 6-cı cildi və s.

O gələcək...

# İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT

**Qurani-Kərimdən sonra:**

1. “İrşadus-sari li-şərhi Səhih əl-Buxari”, İbn Həcər Qəstəlani, Əhməd ibn Məhəmməd. (vəfat tarixi: h.q. 923-cü il), 8 cilddə, Beyrut.

2. “əl-İtisam”, Şatibi, Əbu-İshaq İbrahim ibn Musa Qərnati (vəfat tarixi: h.q. 790-cı il), Darul-fikr.

3. “əl-Etiqadat”, Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babuveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), “Aftab” mətbəəsi, Tehran, 1371 h.q.

4. “əl-İlahiyyat”, Cəfər Sübhani, 2 cilddə, əd-Darul-islamiyyə, Beyrut (1410 h.q. - 1989 miladi.)

5. “Əmali”, Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babuveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), Beyrut elmi müəssisəsi, 1400 h.q.

6. “əl-İmamə vəs-siyasə”, İbn Quteybə, Abdullah ibn Müslim (vəfat tarixi: h.q. 276-cı il), 2 cilddə, əl-Məktəbətu ət-ticariyyətul-kubra, Qahirə.

7. “Əvailul-məqalat fil-məzahib vəl-muxtarat”, Mufid, Məhəmməd ibn Məhəmməd ibn Noman (vəfat tarixi: h.q. 413-cü il), Məktəbeyi-həqiqət, Təbriz, 1371 h.q.

8. “Ənisul-ilam”, Fəxrul-İslam, Məhəmməd Sadiq Urməvi (vəfat tarixi: h.q. 1327-ci il), 2 cilddə, Tehran.

9. “Biharul-ənvar”, Məclisi, Məhəmməd Baqir, (vəfat tarixi: h.q. 1111-ci il), 110 cilddə, əl-Vəfa, Beyrut, 1403 h.q.

10. “Tarix-i Bağdad”, Xətib Bağdadi, Əhməd ibn Əli (vəfat tarixi: h.q. 463-cü il), 14 cilddə, əl-Məktəbətus-sələfiyyə, Mədinə.

11. “Tarixul-xuləfa”, Siyuti, Əbdürrəhman ibn Əbu Bəkr (vəfat tarixi: h.q. 911-ci il), Darul-cəyl, Beyrut, 1408 h.q. - 1988 miladi.

12.“Tarixur-rusul vəl-muluk”; Təbəri, Məhəmməd ibn Cureyr Əbu Cəfər (vəfat tarixi: h.q. 310-cu il), 13 cilddə, “Darul-fikr” mətbəəsi, Beyrut, 1407 h.q., 1987 m.

13. “Təfsirul-Quranil-əzim”, İbn Kəsir, İsmail Əbul-Fəda (vəfat tarixi: h.q. 774-cü il), 7 cilddə, “Darul-fikr” mətbəəsi, Beyrut, 1403 h.q, 1983 m.

14. “İslam və ərəb sivilizasiyası” (Təməddon-e Eslam və ərəb), Qustav Lebon, farscaya tərcümə edəni Seyid Məhəmmədtəqi Fəxr Dai Gilani, “Çapxaneyi-elmi” mətbəəsi, Tehran, 1334 h.ş. (hicri şəmsi).

15. “Tənzihul-ənbiya”, Seyid Mürtəza Ələmul-huda (355-436 h.q.), Təbriz, 1290 h.q.

16. “ət-Tövhid”, Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), “Məktəbətus-Səduq” mətbəəsi, Tehran, 1387 h.q.

17. “Təhzibul-usul”, Cəfər Sübhani, 2 cilddə, “Muəssisətun-nəşrul-İslami” mətbəəsi, Qum, 1405 h.q. 1363 h.ş.

18. “Camiul-usul fi əhadisir-rəsul”, İbn Əsir Cizri (vəfat tarixi: h.q. 606-cı il), 11 cilddə, “Darul-fikr”, Beyrut, 1403 h.q. 1983 m.

19. “Camiul-bəyan fi təfsiril-Quran”, Təbəri, Məhəmməd ibn Cureyr (Əbu Cəfər), (vəfat tarixi: h.q. 310-cu il), 30 cilddə, “Darul-mərifə”, Beyrut, 1400 h.q. 1980 m.

20. “əl-Hikmətul-mutəaliyyə fil-əsfaril-ərbəə”, Sədrəddin əş-Şirazi (vəfat tarixi: h.q. 1950-ci il), 9 cilddə, “Daru ihyait-turasil-ərəbi”, Beyrut, 1981 m.

21. “Hilyətul-övliya”, Əbu Nəim İsfahani, Əhməd ibn Abdulla (vəfat tarixi: h.q. 430-cu il), 10 cilddə, “Darul-kitabil-ərəbi” mətbəəsi, Beyrut, 1387 h.q, 1967 m.

22. “Xəsaisul-imam əmirəl-muminin Əli (ə)”, Nisai, Əhməd ibn Şueyb (vəfat tarixi: h.q. 303-cü il), çapa hazırlayan: Məhəmmədbaqir Mahmudi, 1403 h.q. 1983 m.

23. “əl-Xəsaisul-kubra”, Siyuti, Əbdürrəhman ibn Əbu Bəkr (vəfat tarixi: h.q. 911-ci il).

24. “əl-Xisal”, Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), “Mənşurat-e cameey-e modərresin”, Qum, 1403 h.q, 1362 h.ş.

25. “əl-Xilaf”, Tusi, Məhəmməd ibn əl-Həsən Şeyxut-taifə (vəfat tarixi: h.q. 460-cı il), 6 cilddə, “Muəssisətun-nəşril-İslami” mətbəəsi, Qum, 1416 h.q.

26. “əd-Durrul-mənsur fit-təfsiri bil-məsur”, Siyuti, Əbdürrəhman ibn Əbu-Bəkr (vəfat tarixi: h.q. 911-ci il), 8 cilddə, “Darul-fikr” mətbəəsi, Beyrut, 1403 h.q, 1983 m.

27. “Ricalun-Nəccaşi”, Nəccaşi, Əhməd ibn Əli (vəfat tarixi: h.q. 450-ci il), 2 cilddə, “Darul-əzva” mətbəəsi, Beyrut, 1408 h.q., 1988 m.

28. “Ruhul-məani fi təfsiril-Quran”, Alusi, Məhəmməd Bağdadi (vəfat tarixi: h.q. 1270-ci il), 22 cilddə, “Daru əhyait-turasil-ərəbi”, Beyrut.

29. “Sünən-i İbn Macə”, İbn Macə Məhəmməd ibn Yəzid Qəzvini (vəfat tarixi: h.q. 275-ci il), “Daru əhyait-turasil-ərəbi” mətbəəsi, Beyrut, 1395 h.q. 1975 m.

30. “Sünən-i Beyhəqi”, Beyhəqi, Əhməd ibn Hüseyn ibn Əli (vəfat tarixi: h.q. 458-ci il), 10 cilddə, “Daru Sadir” mətbəəsi, Beyrut, 1344 h.q.

31. “Sünən-i Tirmizi”, Tirmizi, Məhəmməd ibn İsa (vəfat tarixi: h.q. 297-ci il), 5 cilddə, “Daru ihyait-turasil-ərəbi” mətbəəsi, Beyrut.

32. “Sünən-i Darəmi”, Darəmi, Abdullah ibn Bəhram (vəfat tarixi: h.q. 255-ci il), 2 cilddə, “Darul-fikr” mətbəəsi, Beyrut.

33. “əs-Sunnə”, Əhməd ibn Hənbəl (vəfat tarixi: h.q. 241-ci il), “Darul-kutubil-elmiyyə” mətbəəsi, Beyrut, 1405 h.q., 1985 m.

34. “əs-Sirətun-nəbəviyyə”, İbn Hişam, Əbdülməlik ibn Əyyub Himyəri (vəfat tarixi: h.q. 213-cü il, bəzi mənbələrə görə 218-ci il), 4 cilddə, “Daru ihyait-turasil-ərəbi” mətbəəsi, Beyrut.

35. “Şərhul-usulil-xəmsə”, Əbdül-Cabbar ibn Əhməd (vəfat tarixi: h.q. 415-ci il), “Məktəbətu Vəhbiyyə” mətbəəsi, Qahirə, 1408 h.q., 1988 m.

36. “Şərh-i təcrid”, Quşci, Əli ibn Məhəmməd Əlaəddin (vəfat tarixi: h.q. 879-cu il), Təbriz, 1307 h.q.

37. “Şərhu əz-Zərqani əla Müvətta Malik”, Zərqani, Məhəmməd ibn Əbdül-baqi (vəfat tarixi: h.q. 1122-ci il), 4 cilddə, Əbdül-Həmid Əhməd Hənəfinin nəşri ilə, Qahirə.

38. “Şərh-e əqaid-e Səduq” (Təshihul-etiqad), Mufid, Məhəmməd ibn Noman (vəfat tarixi: h.q. 413-cü il), “Həqiqət” mətbəəsi, Təbriz, 1371 h.q.

39. “Şərhul-məqasid”, Təftazani, Ömər Əsədud-din (vəfat tarixi: h.q. 792-ci il), “Busnəvi” mətbəəsi, İstanbul, 1305 h.q.

40. “əş-Şifa”, İbn Sina, Hüseyn ibn Abdullah Əbu Əli (vəfat tarixi: h.q. 427-ci il), Şeyxur-rəis, “Bidar” mətbəəsi, Qum.

41. “Səhih Buxari”, Buxari, Məhəmməd ibn İsmail (vəfat tarixi: h.q. 256-cı il), 9 cilddə, “Daru ihyait-turasil-ərəbi” mətbəəsi, Beyrut. 1400 h.q.

42. “Səhih Müslim”, Müslim ibn Həccac Quşeyri Nişaburi (vəfat tarixi: h.q. 261-ci il), 8 cilddə, “Darul-cəyl” mətbəəsi, Beyrut.

43. “əs-Səvaiqul-muhrəqə”, İbn Həcər Heysəmi Məkki, Şəhabəddin Əhməd (vəfat tarixi: h.q. 974-cü il), “Məktəbətul-Qahirə” mətbəəsi, Qahirə, 1385 h.q.

44. "Umdətul-qari şərhi Səhih Buxari", Əyni, Mahmud ibn Əhməd Bədrəddin (vəfat tarixi: h.q. 855-ci il), 22 cilddə, "Darul-fikr", Beyrut.

45. "Uyuni əxbarir-Riza", Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), "Muəssisətul-elmi" mətbəəsi, Beyrut, 1404 h.q.

46. "əl-Qədir", Əmini, Əbdül-Hüseyn Əhməd (vəfat tarixi: h.q. 1390-cı il), 11 cilddə, "Darul-kitabil-ərəbi", Beyrut, 1387 h.q.

47. "Fəthul-Bari bişərhi Səhih əl-Buxari", Əsqəlani, Əhməd ibn Həcər (vəfat tarixi: h.q. 852-ci il), 13 cilddə, "Daru ihyait-turasil-ərəbi" mətbəəsi, Beyrut, 1402 h.q.

48. "Fəthul-Qədir", Şokani, Məhəmməd ibn Əli Sənani (vəfat tarixi: h.q. 1250-ci il), "Darul-mərifə" mətbəəsi, Beyrut.

49. "Fəcrul-İslam", Əhməd Əmin Misri (vəfat tarixi: h.q. 1373-cü il).

50. "Firəquş-şiə", Nobəxti, Həsən ibn Musa (vəfat tarixi: h.q. 310-cu il), "Darul-əzva" mətbəəsi, Beyrut, 1404 h.q., 1984 m.

51. "əl-Кafi", Кuleyni, Məhəmməd ibn Yəqub (vəfat tarixi: h.q. 329-cu il), (Usuli-kafi), 2 cilddə, "Daru Səb - darut-təaruf" mətbəəsi, Beyrut, 1401 h.q.

52. "Кəşful-ğummə fi mərifətil-əimmə", İrbili, Əli ibn İsa (vəfat tarixi: h.q. 692-ci il), "Darul-əzva" mətbəəsi, Beyrut, 1405 h.q.

53. "Кəşful-murad fi şərhi təcridil-etiqad", Əllamə Hilli, Həsən ibn Mutəhhər (648-726 h.q.), "Muəssisətun-nəşril-İslami", Qum, 1413 h.q.

54. "Кifayətul-əsər", Xəzzaz Qumi, Əli ibn Məhəmməd (h.q. tarixilə 4-cü əsrdə vəfat etmişdir) "Mənşurat-e bidar" mətbəəsi, Qum, 1401 h.q.

55. “Kəmalud-din və təmamun-nimə”, Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), “Muəssisətun-nəşril-İslami”, Qum, 1405 h.q.

56. “Kənzul-ummal fi sunənil-əqvali vəl-əmal”, Müttəqi Hindi, Əli ibn Hüsaməddin (vəfat tarixi: h.q. 975-ci il), 16 cilddə, “Məktəbətut-turasil-İslami” mətbəəsi, Hələb.

57. “Məcməul-bəyan”, Təbərsi, Fəzl ibn Həsən (vəfat tarixi: h.q. 548-ci il), 5 cilddə, “əl-Məktəbətul-elmiyyətul-İslamiyyə” mətbəəsi, Tehran.

58. “Məhasinut-təvil”, Qasimi, Cəmaləddin Məhəmməd (vəfat tarixi: h.q. 1322-ci il), 17 cilddə, “Darul-fikr” mətbəəsi, Beyrut, 1398 h.q., 1978 m.

59. “əl-Mustədrəku ələs-səhiheyn”, Hakim Nişaburi, Hafiz Əbu Abdullah (vəfat tarixi: h.q. 405-ci il), 4 cilddə, “Darul-mərifə” mətbəəsi, Beyrut.

60. “Müsnəd-i Əhməd”, Əhməd ibn Hənbəl (vəfat tarixi: h.q. 241-ci il), 4 cilddə, “Daru ihyait-turasil-ərəbi”, Beyrut.

61. “Məanil-əxbar”, Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), “Darul-mərifə” mətbəəsi, Beyrut, 1399 h.q.

62. “Məfatihul-ğəyb” (Təfsir kəbir Razi), Razi, Fəxrəddin (vəfat tarixi: h.q. 606-cı il), “Darul-kutubil-elmiyyə”, Tehran.

63. “əl-Mufrədatu fi ğəribil-Quran”, Rağib İsfahani, Hüseyn ibn Məhəmməd (vəfat tarixi: h.q. 502-ci il), “əl-Məktəbətul-Murtəzəviyyə” mətbəəsi, Tehran, 1332 h.ş.

64. “Məqalatul-islamiyyin və ixtilaful-musəllin”, Əşəri, Əbülhəsən Əli ibn İsmail (vəfat tarixi: h.q. 324-cü il), “Franzştayz” mətbəəsi, Visbaven.

65. “Məqayisul-luğəh”, İbn Faris, Əhməd ibn Zəkəriyya (vəfat tarixi: h.q. 395-ci il), 6 cilddə, “Daru ihyail-kutubil-ərəbiyyə” mətbəəsi, Qahirə.

66. “əl-Miləl vən-nihəl”, Şəhristani, Əbdül-Kərim (vəfat tarixi: h.q. 948-ci il), “Darul-kutubil-elmiyyə” mətbəəsi, Beyrut, 1410 h.q., 1990 m.

O gələcək...

67. "əl-Mənar fi təfsiril-Quran", Rəşid Rza (vəfat tarixi: h.q. 1354-cü il), 12 cilddə, "Darul-mənar" mətbəəsi, Qahirə, 1373 h.q.

68. "Mənaqib", Xarəzmi, Müvəffəq ibn Əhməd ibn Məhəmməd Məkki (vəfat tarixi: h.q. 548-ci il), "Muəssisətun-nəşril-İslami", Qum, 1411 h.q.

69. "Mən la yəhzəruhul-fəqih", Səduq, Məhəmməd ibn Əli ibn əl-Hüseyn (İbn Babveyh) Qumi (vəfat tarixi: h.q. 381-ci il), 4 cilddə, "Darut-təaruf", Beyrut, 1411 h.q., 1990 m.

70. "əl-Məvaizu vəl-itibaru bi-zikriil-xitəti vəl-asar" (Xitətu Muqriziyyə), Muqrizi, Təqiyəddin (vəfat tarixi: h.q. 845-ci il), 2 cilddə, "Daru Sadir" mətbəəsi, Beyrut.

71. "Mizanul-etidal", Zəhəbi, Məhəmməd ibn Əhməd Şəmsəddin (vəfat tarixi: h.q. 748-ci il), 4 cilddə, "Darul-mərifə" mətbəəsi, Beyrut.

72. "əl-Mizan fi təfsiril-Quran", Təbatəbai, Seyid Məhəmmədhüseyn, 20 cilddə, "Muəssisətul-elmi" mətbəəsi, Beyrut 1393 h.q., 1973 m.

73. "Nəhcul-bəlağə", Rəzi, Əbülhəsən Məhəmməd (vəfat tarixi: h.q. 406-cı il), Doktor Sübhi Salehin müqəddiməsilə, Beyrut, 1387 h.q.

74. "Vəhy-i Məhəmmədi", Rəşid Rza (vəfat tarixi: h.q. 1354-cü il).

75. "Vəsailuş-şiə", Hürr Amuli, Məhəmməd ibn Həsən (vəfat tarixi: h.q. 1104-cü il), 20 cilddə, "Daru ihyait-turasil-ərəbi", Beyrut, 1403 h.q. 1983 m.

76. "Yənabiul-məvəddə", Qunduzi, Baba Xacə Hüseyni (vəfat tarixi: h.q. 1303-cü il), "Əxtər" mətbəəsi, İstanbul, 1301. h.q.

# QEYDLƏR:

O gələcək...

# QEYDLƏR:

Ustad Cəfər Sübhani

# İSLAMDA ƏQİDƏ ƏSASLARI

***Yüz əlli bəhs***


Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 23.01.2012
Çapa imzalanmışdır: 13.02.2012
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 19,0
Sifariş: 15/12. Sayı: 500 ədəd.

**NURLAR**
**NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ**

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com